MUSEYİBOV RƏHİM

# "İSLAM MUĞAM FÜZULİ"

*(ariflərə-aqillərə xitabən)*

- 8805 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2011

86.38+87+83.3(5 Aze)
M 96

R.Museyibov
"İslam-Muğam-Füzuli"
"E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, Bakı, 2011, səh.248

*Müəllifdən*

*Əslində mən, nə İslam, nə Muğam, nə də Füzuli fəlsəfələrini məxsusi şərh etməyə cəhd etməmişəm. Mən bu mürəkkəb-müqəddəs anlamların, marağında daha çox olduğum Quran fəlsəfəsi - Təsəvvüf işığında yozumunu axtarmışam, bu aspektdən (kontekstdən) onların kəsb etdiyi ideya-məna-məzmun çalarlarını qismən açmaq arzusunda olmuşam.*
*Məqsədim, dövrün-zamanın çətin anlaşılan bu anında Milli Məfkurəmizin bilavasitə qaynaqlandığı İslam, Muğam, Füzulidən (**ümumidən**) keçərək özümüzü (**məni**) tanımaq-anlamaqdır.*
*Şərq Peripateizminin (İbn-Sina, İbn-Rüşd) icadı və Füzulinin qəbul etdiyi " İkili həqiqət" təliminə istinadən apardığım "Muğam həqiqətinə dini-fəlsəfi baxış" araşdırmasını, Elmdə cəsarətli addım və orijinal yanaşma üsulu kimi dəyərləndirərdim.*
*Mötəbər oxucu rəyi və təklifi mənə çox maraqlı və əhəmiyyətli olardı.*
*Əlaqə telefonu (050) 786-61-08*

*Kitabın işıq üzü görməsində xidmətləri olan "AZƏRSUN HOLDİNQ" Şirkətinə və "E.L." Nəşriyyat və Poliqrafiya Şirkətinə minnətdarlığımı bildirirəm.*

İSBN 978 - 9952 - 438 - 84 – 0

© R.Museyibov, 2011

# ÖN SÖZ ƏVƏZİ

Hər dinin özünə məxsus ecazları olduğu kimi, İslam dinin də ecazı Həzrəti Mühəmməd Peyğəmbərə (s.) nazil olan Qurani Kərimdir. Aşkarlanıb-açıqlanmasında bəşər sivilizasiyalarının aciz qaldığını Quran (İslam) 15 əsrdir ki, öz böyük həqiqətləri ilə insanlara xidmət edir. Onların mənəvi tələbatını yüksək mədəniyyətlə ödəyir, nemətləndirir. Bu hikmətli kitabda, Tanrının özünün buyurduğuna görə quru və yaşdan tutmuş bütün sahələrə aid elmi məlumatlar öz əksini tapmışdır. O cümlədən səs, söz, avaz və onların harmoniyasından yaranan gözəl musiqi, həmin elmi hikmətlərdən biridir.

Məhz haqqında söhbət açdığımız, aqillərə-ariflərə xitabən yazılmış **«İslam, Muğam Füzuli»** kitabında, şəxsiyyətinə, o cümlədən elminə, qələminə hörmət etdiyim Mövlana Füzuli Aşiqi, Müseyibov Rəhim məhz sözü gedən Ali gözəlliklərdən bəhs etmişdir.

Müəllifin ərsəyə gətirdiyi çox zəngin olan bu kitabı **«Şərqdən doğan üçlük»**də adlandırmaq da olar. Belə ki, **İslam, Muğam, Füzuli** ifadələri – bu gözəl isimlər, sözün əsl mənasında üçü də Şərqin məhsuludur.

Kitabda, müəllifin vaxtı ilə elmi-fəlsəfi tədqtqatçısı olduğu **«Füzuli yaradıcılığında sufi (təsəvvüf) motivləri və muğam sənəti. Fəlsəfi-estetik təhlil»** mövzusu ətrafında yazdığı və görkəmli elm xadimləri tərəfindən rəsmən dəstəklənən elmi və bədii-publisistik məqalələri toplanmışdır.

Kitabın əl yazması ilə tanış olarkən mövzuların elmi-fəlsəfi açımındakı səliqə-sahman, ardıcıllıq, orijinal

yanaşma, məndə xoş təəsüratlarla yanaşı, heyrətləndirici hisslər də yaratdı.

Xoşluq budur ki, Füzulişünas-alim-şair Ayaz Vəfalının hələ 1996-cı ildə "Ədəbiyyat" qəzetində qeyd etdiyi **«Muğam və Füzuli, Rəhim müəllimin bütün varlığına hakim kəsilmişdir»** obrazlı ifadəsinə, etiqadın ən mükəmməl **İslami** ideyasını də əlavə edərdim.

Heyrət yaradan odur ki, dində, musiqidə , poeziyada zirvə məqamları olan **İslam, Muğam, Füzuli** kimi çətin açıqlanan-anlaşılan fəlsəfələr barədə nüfuzlu alimlərin diqqətini çəkən müddəalarla çıxış etmək, inanın bu çətindən çətin bir işdir! Bu xoşbəxtlik, hər yaradıcı elmi insana nəsib olmur və mən bu kitabın ərsəyə gəlməsini elmi yaradıcılıqda hadisə kimi dəyərləndirirəm.

Belə ki, Füzulişünas – alim Nəsib Göyüşovun da rəyində qeyd edildiyi kimi. **«Belə bir maraqlı və çətin məsələnin Ümumi qoyuluşu elmi baxımdan olduqca ciddi yanaşma tələb edir. Çətin anlaşılan bu mürəkkəb mövzunun açıqlanması məhz qəlb yolu ilə mümkündür. Rəhim Müseyibov isə prinsip etibarı ilə mövzunun mahiyyətini qəlbən mənimsəmişdir».**

Alimlərin rəsmi rəyləri kitabda uyğun bölmələrdə təqdim edildiyinə görə bu barədə ayrıca danışmaq istəməzdim. Rəylərlə bağlı yalnız bir məqamı deməliyəm.

Müəllifin özünün dediyi və sənədlərdən göründüyü kimi elmi yaradıcılığında ilk **«xeyir-duasını»** (rəyi) özünə **«Mürşüdi-Kamil»** hesab etdiyi nüfuzlu, böyük alim Yaşar Qarayevdən almasını hesab edirsə, fəzl əhli kimi maili olduğu, Azərbaycan məkanında İlahiyyat elminin **«Hüccət-Ül-İslamı»** («İslamın dəlili») kimi qəbul etdiyi



akademik Vasim Məmmədəliyevin rəsmi rəyini və **«çox şirin yazılmışdır»** səmimi etirafını, elmi yaradıcılığına verilən ən yüksək qiymət kimi dəyərləndirir.

İndi isə kitabın əlyazmasını oxuyarkən diqqət-nəzərimi çəkən, dərin maraq hissi oyadan məqamlar barədə.

***İslam mövzusu ətrafında***

İslamın kamil din kimi açımı mövzusu həqiqətən maraqlı və çətindir. Müəllif bu məsələnin Quran, Peyğəmbər, elm baxımından izahına naildir.

İslamdakı dünya və axirət işlərinin əlaqələndirilməsi ilahi modelinin, dinin möhkəmlənməsi şərti kimi təqdim etməsindəki faktlar və arqumentlər heyranedicidir.

İslam Fəlsəfəsindəki incəliklərin açıqlanmasında (xüsusən nəfs anlamına verilən şərh) Quran məntiqinə, Peyğəmbər hədisinə, İslam dahilərinin elmi qənaətlərinə, ensiklopedik məlumatlara istinadı həqiqətən elmidir!

Xristianlıqdakı kilsə hüququ ilə şəriətin müqayisəsi, namazda milli dillərdən istifadənin mümkünsüzlüyü, müəllifin qeyd etdiyi kimi elmi ədəbiyyatda izahına rast gəlinməyən **«Sufi haqqı dərk etmə»** konsepsiyası, o cümlədən bu konsepsiyanın tərkib hissəsi olan **«Məqamlar»** nəzəriyyəsinin şərhi, eləsə də Kəlam və Təsəvvüf fəlsəfələri tələbi baxımından **«Panteizm»**ə verdiyi şərhlər çox oxunaqlı, elmi və maraqlıdır. Xüsusilə **«Böyük Şeyx»** - İbn-Əl-Ərəbinin **«Məxlüqatın varlığı Xaliqdir»** müddəasının açımında Füzuli şərhinə istinad etməsi.

Yaxud Quran məntiqi və Peyğəmbər hədisinə istinadən Peyğəmbərimizin kamil İman, elm, əxlaq sahibi olduğunu, eləcə də əxlaq hökmünün birbaşa nəfsə qarşı mübarizə kimi qəbulunun izahını necə qəbul etməyəsən axı?!

İslamın ağıl və elm dini olması həqiqətinin, faydalı elm baxımından şərhi, eləcə də İslamın dünya fəlsəfələrinin inkişafındakı rolu inandırıcı və geniş şərh olunmuşdur. Ekstaza qatmağın müəmmalı yoqa təlimi ilə, Eşqə söykənən təsəvvüfi-qəlb təliminin Mövlana Rumi beytindəki təşnə-yanğı ilə müqayisəsi çox dəqiq və mənalıdır.

Dünyəvi dövlətçilik təcrübəsində, İslami baxımdan Milli Məfkurəyə aid məsələlərin, dövlətin ciddi nəzarətində olması təklifi çox düşündürücüdür.

Nəhayətdə, İslamın kamil din olmasının, məhz Tanrıya aid olduğunu, Quran ayələri və Füzuli beyti ilə təsdiqlənməsi, sadəcə heyranlıq məqamıdır:

***Ol pərivəş kim məlahət mülkünün sultanıdır***
***Hökm onun hökmüdürür, fərman onun fərmanıdır!***

*Muğam mövzusu ətrafında*

**"Muğam və Füzuli"** məqaləsindəki **"İnsanda elə bir ülvi duyğu yoxdur ki, ondan rəngarəng muğam palitrasında və yaxud Füzulinin sirrli söz xəzinəsində olmasın"** yaxud **"Muğamlar insana, insandan tez uyuşandır"** obrazlı qənaəti ilə necə razılaşmamaq olar?!



**«Muğam həqiqətinə dini-fəlsəfi baxış»** araşdırmasında Füzulişünas alim Nəsib Görüşovun dəstəklədiyi və akademik Vasim Məmmədəliyevin qeyd etdiyi kimi, həqiqətən dəstgah fəlsəfi konsepsiyasının **«Vəhdəti-vücud»** təlimi ilə bağlılığı məsələsində müəllif çox maraqlı elmi müddəalarla çıxış edir.

Sənədlərdən göründüyü kimi **«Muğam həqiqətinə din-fəlsəfi baxış»** araşdırması barədə böyük alimlər maraqlı fikirlər söyləmişlər. Bu ideyanın nə dərəcədə dini-elmi tələblərə cavab verdiyini zaman söyləyəcək. Amma, həqiqət budur ki, dini – fəlsəfi baxış cəhdi, elmdə çox az təsadüf edilən yönlərdəndir.

Muğam sənəti fəlsəfəsinin açımı istiqamətində, kiminsə obrazını yaradan teatr aktyorundan fərqli olaraq, xanəndə ifaçılıqda məhz öz obrazını yaradır deməklə, təsəvvüfdə olduğu kimi, ifaçılıq sənətində də real eşqin vacibliyini, başqa sözlə təsəvvüf ilə muğam sənətinin əlaqəli olduğu elmi qənaətini, bir daha təsdiq etmiş olur.

Müəllif, bitkin İlahi Əxlaqın Formalaşmasında mütəmadi olaraq mükəmməl muğam ifalarının dinlənilməsini, vacib və əhəmiyyətli hesab edir.

Rəhim müəllim, bir az da irəli gedərək, təsəvvüfün elmi və əməli məqsədini (hədəfini) izah edərək, qənaətə gəlir ki, **"Həqiqətən muğam sənəti, birbaşa təsəvvüfün elmi məqsədinə (mərifətə) xidmət edir".**

*Füzuli mövzusu ətrafında*

Açıqlanmsaında **Ali elm** və zəngin elmi səriştə tələb olunan Füzuli fəlsəfəsinə- Füzuli eşqinə dini-fəlsəfi

münasibətdə müəllif doğrudan da yeni orijinal yanaşma ilə Füzuli həqiqətini açmağa naildir.

Professor Ağayar Şükürovun qeyd etdiyi kimi **"müəllif Füzuli fəlsəfəsi ətrafında apardığı araşdırma ilə həqiqəti ortaya qoydu".**

Və təsadüfi deyildir AMEA-nın müxbir üzvü Teymur Kərimli haqlı olaraq **"İslam, Muğam, Füzuli"** kitabını **müstəqillik dövrü Füzulişünaslığının təməl daşlarından biri kimi qutlayır.**

**«Füzuli təəssübkeşliyi»** məqaləsinin gələcək elmi simpoziumlarda səslənməsini, indidən tövsiyyə edərdim.

Yaxud nüfuzlu filosof, professor Zümrüd Quluzadənin dəstəklədiyi **«Füzuli yaradıcılığı və Hind mədəniyyəti»** elmi fərziyyəsi çox maraqlı və elmi təhlilə söykənən araşdırmadır. Müəllifin publisistik fəaliyyəti də oxunaqlı, rəvan, aydındır.

Maraqlıdır ki,

***İzharə gəldi rumuzi-vəhdət***
***Vəhdətə tamam oldu hekayət.***

deyən Füzulinin **«Leyli və Məcnun»**unu vəhdətdə tamalandığı kimi **"İslam, Muğam Füzuli"** kitabı da Vəhdətdə- 7-lərin harmoniyasında tamalanır:

**«Yaranışığın qanunları bir qayda üzrədir, əlaqəlidir, vəhdətdədir».**

**«İslam Muğam Füzuli»** kitabında bəzi xırda nöqsanları nəzərə almasaq bu elmi əsərin, ilahiyyatçılar, muğamsevərlər və Füzulişünaslar, bir sözlə elm və



mədəniyyət xadimləri üçün maraqlı stolüstü bir kitab olmasına ümid edirəm.

**Qafqaz Müsəlmanları İdarəsi**
**Qazılar Şurası və Elmi-dini Şurasının üzvü,**
**yazıçı-publisist, şair, filosof: Mirəziz Seyidzadə.**

# I. İSLAM



***"Allah qatında din, şübhəsiz ki, İSLAMDIR".***
*("Ali-İmran" surəsi)*

# 1. İSLAM – KAMİL DİNDİR

## a) Ümumi baxış

İnsanları öz arzuları ilə dünya və axirətdə yaxşılığa və xoşbəxtliyə çağıran-çatdıran İlahi qanun – Haqq dini olan İslam, Allah tərəfindən Məhəmməd Peyğəmbər vasitəsi ilə insanlara bildirilən, heç bir dəyişikliyə məruz qalmadan və pozulmadan gələn dindir. Həzrəti Adəmdən, Həzrəti İsaya qədər gələn bütün Peyğəmbərlər Allahın birliyi inancını təbliğ etmiş və Allaha necə ibadət ediləcəyini öyrətmişdirlər. Ancaq, bu Peyğəmbərlərin təbliğ etdiyi iman əsasları və dini hökmlər, zaman keçdikcə pozulmuş və əsilləri itib yox olmuşdur. Bundan sonra Böyük Allah son Peyğəmbər Həzrət Məhəmməd vasitəsi ilə bütün insanlara son və ən mükəmməl-kamil din olan İslamı göndərmişdir. Bu gün Yer üzündə həqiqi din İslamdır.

Bu həqiqət, böyük Allah tərəfindən Qurani-Kərimdə belə bildirilmişdir:

**"Allah qatında din, şübhəsiz ki, İslamdır".** ("Ali-İmran surəsi").

**"Kim İslamdan başqa bir din axtararsa, həmin din əsla qəbul edilməyəcəkdir. O, axirətdə də zərərə uğrayanlardan olacaqdır."** ("Ali-İmran" surəsi)

**"Doğru - ən kamil olan din, İslamdır".** ("Beyyinnə" surəsi).

Hökmü **İman, əməl, əxlaq** olan İslam dininin **özəllikləri** (üstünlükləri) bunlardır:

● İslam axırıncı dindir, onun hökmləri qiyamətə qədər davam edəcəkdir. Həzrəti Mühəmməd axırıncı Peyğəmbərdir. Ondan sonra dünyaya başqa Peyğəmbər gəlməyəcəkdir.

Bu bir növ insanları düzgün yola dəvət etmək, möminləşdirmək üçün son cəhd, son xəbərdarlıqdır.

**"Seçilmiş xalq"**, yaxud məhdud region xalqlarının ideya tərənnümçüsü olan iudizm və xristianlıqdan fərqli olaraq **"Aləmlərə rəhmət olaraq göndərilən Məhəmməd Peyğəmbər"**in ("Ənbiyyə" surəsi) dini İslam bəşəri xarakterdədir.

Yaxud **"Müjdə verən, xəbərdarlıq eyləyən bir Peyğəmbər göndərdik səni (Məhəmməd Peyğəmbəri) bütün insanlara"**. ("Səbə" surəsi)

● İslamda bağlılıq etnik, mənşə, regionçuluq yox, ideya-əqidə zəminində olan müsəlmançılıq və möminlərin qardaşlığı öndədir. ("Hücurət" və "Tövbə" surələri).

● İslamda məcburiyyət yoxdur (**"Dində məcburiyyət yoxdur"** "Bəqərə" surəsi). İslam insanları, sidqi ürəkdən inanaraq iman gətirmək, ən gözəl nəsihətlərlə məhəbbət duyğularını qəlbə yerləşdirərərək, haqq dininə çağırır.

● İslam dininin hökmləri (İman, əməl, əxlaq) bütün insanların ehtiyaclarını yerinə yetirəcək şəkildə mükəmməldir. Buna görə də bundan sonra başqa bir dinin göndərilməsinə ehtiyac qalmamışdır.

● İslam dini özündən əvvəl Allah tərəfindən göndərilən Peyğəmbərləri və İlahi kitabları təsdiq edir (**"Bu Kitab-da Sənə vəhy verdiklərimiz öncə ki, Kitabları təsdiq eyləyən haqq kəlamıdır"**–"Fatir" surəsi).



Eyni zamanda o biri dinlərdəki buraxılan təhriflərə düzəliş gətirdi.

Məlumdur ki, xristianlıqda "Allahın birliyini bəyan edərkən "Üçləşdirmə" əqidəsi" əsasdır. Yəni, İsaya, Ruhül Qüdsə və Məryəmə etiqad etmə.

Miladi 324-cü ildə İznik konfransında ikinci Konstantin (ilk xristian imperatoru) missionerlərə rəhbərlik etmiş, Allah haqqındakı qənaətləri ilə əyri yola düşən missionerlər ilk dəfə İsanın uluhiyyətini ("Üçləşdirməni") ortaya ataraq təslis ideyasını (yəni, İsaya, Ruhü qüdsə və Məryəmə etiqad etmə) qəbul etdirmişdir.

Bu yolla xristianlıq arası kəsilməyən mübarizələr dövrü keçmişdir. Başqa bir tarixi məqam.

Məlumdur ki, nəsranilik (xristianlıq) dininin ilk davamçıları bir neçə yəhudi olmuşdur. Yəhudilər üçün nəsraniliyin qəbulu asan idi, çünki onun əksər təlimləri yəhudilərin təlimlərinə uyğun gəlirdi. Buna baxmayaraq yəhudilərin əksəriyyəti nəsraniliyə qarşı mübarizəyə qalxdı. Bu arada Pules adlı birisi peyda oldu. O, qeyri yəhudiləri nəsranilik dininə dəvət etdi. Bu dini yayanlar və təbliğ edənlər, nəsranilərlə "Üç başlanğıc" ("Ata, oğul və Müqəddəs Ruh") məsələsində birləşdilər. Beləliklə, Pules İsanın əsl dininin və onun qoyduğu qayda-qanunların əksi olan Məsihilik və ya nəsranilik kimi qondarma din yaratmış oldu və xristian dini Vahid Allaha tapınmaq məsələsində "Üç başlanğıc"a əsaslandı. Başqa sözlə, xristianların tək allahlığa inamı, çox allahlığa – kafirliyə qarışdı və Məsih (İsa) Allah kimi, bəzən də Tanrının oğlu kimi tanındı və s.

Quran (İslam) İsanı ən böyük küfr və yolazma sayılan "İlahilik" idiasından təmizə çıxartdı və həmçinin İsanın anasını nigahsız cinsi əlaqə töhmətindən (bu yəhudilərin böhtanı idi.) təmizə çıxartdı. Bu şahidlik Quranın bir neçə ayəsində vardır.

İslam dini əvvəlki Peyğəmbərlərin təbliğ etdiyi dinlərin fəaliyyətini dayandırmışdır. Ona görə ki, həmin dinlər müəyyən millətlərə, müəyyən vaxtlarda göndərilmişdir. Halbuki İslam dini bütün millətlərə göndərilən və Qiyamətə qədər davam edəcək olan bir dindir.

Allah bilirdi ki, zaman dəyişir və müxtəlif vaxtda yeni baxışların (qanunların) yaranması tələb olunacaq. Dialektik baxımdan, yeni keyfiyyətin, yeni kəmiyyət dəyişmələri doğurması qanuna uyğun haldır.

İlahi mədəniyyətlərin tədrici **təkamülündə** axırıncı – tamamlayıcı (qapanma) həlqəsi olan İslam, cahillikdən – sivilizasiyaya sürətli **sıçrayış** – İnqilab oldu. Belə ki, cəmiyyətin ictimai inkişaf qanunu da məhz bu iki formanın (tədrici **təkamül** və sürətli **sıçrayış**) vəhdətini tələb edir.

İslam əvvəlki dinlər kimi donuq, ehkam yox, çevik və həyatla uzlaşan İlahi bir təlim oldu.

Belə ki, İslamda ehtiyacsız, zəngin (qəni) olan Tanrı ilə, möhtac (fəqr) olan İnsan ("Fatir" surəsi) arasında vasitəçisiz – birbaşa rabitə möhkəmləndi, ciddi forma aldı. Rahiblik ləğv olundu. Hind mistikası və xaçpərəstlikdəki miskin, zəif məxluqat kimi təqdim olunan İnsan, İslamda ruhi planda **"Xəlifətullah"** yəni Tanrının yer üzündəki canişini elan edildi. ("Bəqərə" surəsi). Mövlana Rumi



təbirincə desək, **"İnsana böyük bir dünya, dünyaya kiçik bir insan"** baxışı formalaşdı.

İnsanda pis xasiyyətləri formalaşdıran nəfsə qarşı mübarizə, ən böyük cihad kimi qəbul olundu. İslam (Quran) axirət dünyası haqqında bir dənə də olsun sözü olmayan iudizm (Tövrat) ilə rahibliyə meylli xaçpərəstlik (İncil) arasında qızıl bir aralıq (ədalətli) yer tutur. Belə ki, İslamın dinlər arasındakı mövqeyi kimi, baxışı da mötədildir (ədalətlidir). Həqiqətən də İslam hər bir kəs üçün ədalətli-dialektik ortanı seçib.

Quran müsəlmanlara müraciət edərək buyurur: "**Ey müsəlmanlar! Beləliklə də sizi orta (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanlara şahid və örnək olasız".** ("Bəqərə" surəsi)

İslama bəşərlik qazandıran vacib özəlliklərdən biri də onun həm dünya, həm də axirət dini olmasıdır.

Əl-Qəzzalinin təbirincə desək, **"İslam təkcə şəxsiyyətin dini şüurla deyil, eyni zamanda insanı** (insan həyatını – R.Müseybov) **bütövlükdə əhatə edir".**

İslamın vacib əməl hökmünün icrası, bütövlükdə bu prinsip üzrə yəni, dünyəvi işlərin, birbaşa axirət prinsipləri (dünyadakı işin nəticəsinə görə axirətdə mükafatlandırma yaxud cəza) nəzərə alınaraq tənzimlənir.

**"Bu dünyada yaxşı işlər görənləri, yaxşılıqlar gözləyir Axirətdə".**("Zümər" surəsi)

Füzuli demiş:

*Bunda yetə rütbeyi-kəmalə,*
*Onda yetə dövləti-vüsalə.*



8802
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZIDENT KİTABXANASI

İslamın kamilliyi istiqamətində arqument olaraq, onun daha çevik ,həm dünya, həm də axirət dini olmasını, xristianlıqla müqayisədə, dünyəvi və ruhani hakimiyyət məsələsindəki mövcud vəziyyətlə müqayisədə də aşkarlamaq olar.

İslam nəzəriyyəsində, qismən də İslam praktikasında dünyəvi və ruhanilik hakimiyyəti ayrılmazdır.

Kilsənin dövlətə münasibətinə gəldikdə isə kilsə hüququ, kilsə hakimiyyətinin və dövlət hakimiyyətinin müstəqilliyini təsdiq edir.

Kilsə hüququ təkcə kilsənin özünün çıxartdığı qanunlardan deyil, həm də dövlət hakimiyyətinin çıxarmış olduğu, kilsə tərəfindən bəyənilən və qəbul edilən, kilsə ilə dövlət arasında düzgün münasibətlər yaratmaq məqsədi daşıyan qanundan ibarətdir. Kilsə hüququnun **ilk** mənbəyi kilsənin banisinin iradəsidir. Qalan mənbələr yəni məhz kilsə qanunvericiliyi və kilsə adəti həmin mənbəyə əsaslanır. Xristianların kilsə hüququnun əsas mənbələri "Əhdi-Ətiq" Müqəddəs Rəhayət, icbari qanunlardır.

Şəriət və müsəlman hüququnun **ilk** və **əsas** mənbələri Quran və sünnədir. Bütün digər mənbələr (qiyas, icma, Fitva, adətlər və s.) bunlara zidd olmamalıdır. Əl-Kindinin (IX əsr) təbirincə desək:

**"Fəlsəfələrin zirvəsi olan Allah kəlamının (Quranın)** İslamdakı hakim mövqeyini, müqayisədən aşkarlamaq mümkündür".

Klassik müsəlman dövlətində isə dini hakimiyyət (İslam hakimiyyəti) ilə dövlət hakimiyyəti bir-birindən ayrı deyildir. Buna görə də şəriətdə onların müstəqil varlığı məsələsinə toxunulmur. Bu mənada müsəlmanın



həyatının demək olar ki, bütün cəhətləri, dini baxımdan müəyyən məna daşıyır.

Rəsmi dini İslam olan, dünyəvi dövlətlərdə, o cümlədən Azərbaycanda, İslamın vacib əməl və əxlaq hökmünə, dini-hüquqi nəzarətin əsasən olmamasını nəzərə alıb, heç olmasa bilavasitə İslamdan qidalanan Milli Məfkurə təbliğinin nəzarətdə olmasını vacib bilirəm. Bu məqsədlə də **"Milli Məfkurə və Milli Tele-Radio Yayım Şurası"** məqaləsini yazdım.

Ümumiləşdirilmiş Ensiklopedik məlumatlardan aydın olur ki, şəriətdəki dini və dünyəvi hüququn vəhdəti (əlaqəsi), Şərq İntibahı dövründə İslam dinini (müsəlmançılığı) möhkəmləndirdisə, Qərb (Avropa) İntibahı dövründə xristianlıqdakı belə rabitənin olmaması dinin zəifləməsinə gətirib çıxartdı. Mövlana Rumi təbirincə desək: "Doğrudan da **"Dünya arzusu, dinin zay olmasına səbəb olur"**muş.

Dini və dövləti hüququn əlaqəli formasının üstünlüyü Şərq İntibahına qədərki dövrdə də özünü göstərmişdir.

Belə ki, alimlərin birmənalı rəyincə **"İntabaha qədərki "İslam mədəniyyətinin çiçəklənməsi"'ni (IX-X əsrlər), məhz bundan iki əsr əvvəl (VII-VIII əsrlər), mÜsəlmançılığın (dinin) inkşafı prosesi hazırlayır.**

Belə zəifləmələrin nəticəsində, xristianlıqda baş vermiş radikal kənarlaşmalara, cərəyanların fonunda nəzər edək:

**Pravoslavlar.** Müqəddəs Ruhun yalnız Ata Allahdan zühur etməsini, kilsənin, keşişlərin, qüsursuzluğunu, ehkamların dəyişməzliyini qəbul, məhşəri inkar edir. Ikonalara sitayiş, ağ ruhanilər üçün nigahın zəruriliyi

vacibdir. Keşişlər Tanrı ilə insan arasında vasitəçidir. Kilsə nəğməsi xüsusi Bizans formasıdır. Vahid mərkəzi yoxdur. 15 müstəqil (avtokefal) pravoslav kilsəsindən ibarətdir.

**Katoliklər** - yunanca dünyəvi, ümumilik deməkdir. Mərkəzi Vatikandır. Müqəddəs Ruhun nəinki Ata-Allahdan, eyni zamanda oğul Allahdan nazil olub gəldiyini, eləcə də məhşəri qəbul, İsanı, canişin kimi, Roma Papasının Ali hakimiyyətinin günahsızlığını və Tanrı ilə vasitəçiliyini qəbul edir, Məryəmə sitayiş edirlər. Katolik ehkam və ayinlər modernizə edilir. İbadətlər yerli dillərdə aparılır.

**Protestantlar** – latınca-protest, etiraz edən müxtəlf dinlər və kilsələrin məcmuudur. Katolik məhşəri, qəbul etmirlər, eləcə də Məryəmi rədd edirlər. Protestantların provaslav və katoliklərdən başlıca fərqi, İslama bənzər, Allahın və İnsanın bilavasitə əlaqəsi təlimidir. Dini ayinlərə, kilsə və ruhanilərə ikinci yer ayrılır. İkonaya sitayiş yoxdur. Dini ayinlərin sayı 2-yə (xaç suyuna salma və günahlardan təmizlənmə ayinləri) endirilmişdir. İbadət - "Zəbur" surəsinin nəğmə kimi oxunması ilə edilir. Rəsmi surətdə Protestantizm, müstəsna olaraq Bibliyaya əsaslanır. XX əsrdə Ümumdünya Kilsə Şurası yaradılmışdır.

Heç şübhəsiz ki, bu kənarlaşmalar çoxvariantlı İncillərdəki mövcud ziddiyyətlərdən qaynaqlanır. Belə ki, rəsmi kilsənin mötəbər saydığı Matta, Markos, Luka, Yuhanna İncillərindən birində olan məlumat, o birində ya yoxdur, və ya fərqlidir, İsa həm Allahın, həm Yusifin oğlu sayılır; İncil həm Allaha, həm İsaya aid edilir; İsanın anadan



olduğu yer İncillərdə fərqli şəkillərdə göstərilir; İsa Özünün Tanrı olduğunu iddia edir.

Bu kimi ziddiyyətlərin Allahın kitabında ola biləcəyi nəzərə alınarsa, Xristian müqəddəs kitabının sonradan yazıldığı məlum olur.

İslamda Quranın, Kəbənin kəsb etdiyi vahid aparıcı (mərkəz) mövqeyi sarsılmazdır. İbadətin Rəbblər aləminə həmd-səna ilə başlayan müsəlman "Fatihə"sindəki İlahi sifətləri (**Xaliqimiz, Razikimiz, Bəstləyib böyüdənimiz, Qiyamət gününün sahibi** və s.) sadalamaqla duaların ən müqəddəsini, Küllə Rəbb arasında təlqini bəyan edir. Bəli, hər şeyin Tanrıda olması, hər şeyin Tanrı göstərişi ilə həyata keçməsi haqqında monoteist müsəlman təlimi, budur!

Məlumatlardan göründüyü kimi xristianlıqda Xaliq ilə Xilqət seçilmir. İsa Peyğəmbər buddizmdəki Budda obrazı kimi müqəddəsləşdirilir, bəşər məqamından xaric edilirsə, İslamda Məhəmməd məhdud bəşər, Peyğımbər olaraq qalır. Bütün bunların fonunda İslamın doğrudan da kamil, ədalətli, bəşəri din olduğu çox aşkar sezilir.

Əlbəttə başqa dinlər kimi İslam da tam dəyişməz qala bilməzdi. Bu dəyişiklik (dəyişkənlik) yalnız Ali hakimiyyətin mahiyyəti barədə və Allah haqqında təsəvvüflərlə əlaqədar olan müsəlman təriqətçiliyinin doğurduğu ixtilaflardır.

Tarixi məlum olan ixtilaflara baxmayaraq **"əyər-əskiksiz", "ən gözəl kəlamlardan ibarət, Allah tərəfindən göndərilmiş Quran", "Allah tərəfindən də qorunub saxlanırlır".** Eləcə də Quranın ruhuna uyğun olan mükəmməl İslami ibadət sistemi!

İslamın kamilliyini, imkan və anlamım müqabilində, onun ilk və əsas mənbəyi olan Quran və Peyğəmbər həqiqətlərində İslamın şərti olan mükəmməl ibadət sistemində və İslama bəşəri xarakter verən ağıl və elm dini olmasında arayacam.

## b) Quran həqiqəti

Bir neçə kəlmə İslamın kamil din olmasına birbaşa təsiri olan Quran möcüzəsi barədə:

Həqiqət xəzinəsi olan Qurani-Kərim İlahi kəlamın fiziki təcəssümüdür. Qurandakı İlahilik biri-birinə bağlı olan həm mənaya, həm də formaya aiddir. Mənadakı İlahiliyin təsdiqinə sübut üçün qeyd edim ki, "Hud" surəsində buyurulur: **"Bilin ki, Allahın Elmi ilə göndərilmiş bu kitab".**

Yerinə düşər qeyd edim ki, İslam üçün vacib olan bir cəhət budur ki, Quranda insanın çata bilmədiyi, görünən və görünməyən dünyalar haqqında bilik var, o da hər şeyi görən, hər şeyə Qadir Allahın ixtiyarındadır.

Forma baxımından Qurandakı möcüzələrə aşağıdakıları aid edərdim:

- Qurandakı İlahi kəlamın gözlə görünən təcəssümü olan hərflər, ayələr, bunlar sadəcə olaraq yazı, qrammatika elementləri yox, varlıqlardır. Belə ki, Quranın İlahidən nazil olduğu kimi, formaca dəyişməz qala bilməsi, məhz bu varlığın **"əyər-əskiksizliyi"** – İlahi möcüzə olmasıdır; Məlumat üçün qeyd edim ki, Allahın təzahürünü (İlahiliyi) Allahın nitqində



(Quranda) onun hərflərində, ayələrində, oxunuşunda (səslənməsində) görən hürufilik təriqəti, özünün inkişafında məhz bu üstünlüklərdən faydalanmışdır;
- Təbliğat materiallarına inansaq Quranın zikr etdiyi **"əyər-əskiksizliyi"**, əks sözlərin miqdarındakı tarazlıqda da müşahidə etmək olar: Məsələn, Cənnət-Cəhənnəm sözü 77 dəfə, Dünya-axirət sözü 115 dəfə, Fayda-ziyan sözü 50 dəfə, Mələk- Şeytan sözü 88 dəfə, qövm (yönüm) sözü 365 dəfə və s. Quranda qeyd edilmişdir;
- Mütəxəssislərin rəyinə görə, ifa tərzincə ərəb dilindən seçilən Quran, ərəb dilinə zənginlik gətirmişdir. Bu baxımdan Quranın ifa dilinə bəzən ərəb dili yox, Rəbbin dili deyilir;
- Məlumdur ki, Quran həm nəsr, həm də heca formasında yazılmışdır. Lakin, bəzən qafiyəli nəsr formasından da istifadə edilmişdir. Yəni, bir neçə ayənin bir heca ilə tamamlanması;
- Yazılışında dəqiq simmetrik uyğunluq var. Belə ki, Allahın gözəl Adları ya alt-alta, ya da yan-yana gəlir. Məhz, belə yazılış qaydası istər Quranın avazla oxunmasına **(tilavətinə)** istərsə də ləzzətli dinlənilməsinə **(səma)** fərdi qaydada vizual rövnəq verməyə imkan verir.

Qurana görə Allah gözəgörünməzdir. Allahın adlarının İlahi kəlamlarda qeyd olunan xüsusi qaydada verilməsi və xüsusi avazla oxunuşu-yaxud Allahın Adlarının və epitetlərinin ritual xatırlanması **(zikr edilməsi)** bütün bunlar möminləri İlahiyə doğru ruhən (xəyalən) yaxınlaşmağa cəm edir. Onlar Quranın melodeklamasiyasından ilahi harmoniyaya – sonsuzluq və

ədəbiyyata can atırlar – və bu canatma ilə də onlar ruhi rahatlığa, daxili təmizlənməyə nail olurlar. Prinsipcə bu məqamla, yaxın olan Aristotelin **"katarsis"** (təmizlənmə) nəzəriyyəsini qeyd etmək yerinə düşər. Məlumat üçün qeyd edim ki, sufilərin **"Haqqı dərk etmə konsepsiyası"** və onun tərkib hissəsi olan **"Məqamlar"** nəzəriyyəsi məhz belə ruhi yüksəlməyə əsaslanır.

- 9000 ilahi cümlədən ibarət olan İncildən fərqli olaraq Quran 6236 ayədir. Az kəlamda daha çox məna! Yaxud **"Hər zamanın bir yazısı var"** (**"Rad"surəsi**) deyə Quran 23 il müddətinə ayə-ayə, surə-surə vəhy olunmuşdur. Əlbəttə, Uca Allahın hər işində hikmət var!
- 6236 ayədən ibarət olan Quranın yazılışı nə qədər möcüzəli olsa da onu əzbər bilən **"Hafizlərin"** sayı günü-gündən artmaqdadır;
- Quran birinci "Fatihə" surəsi istisna olmaqla, uzundan qısalmaya doğru tərtib olunmuşdur.

İnsanlıq nə qədər yüksəlirsə – yüksəlsin, heç bir vaxt Quranın yüksək təlimatı xaricində qala bilməz.

İslamın kamilliyi, Qurana münasibətdə, o cümlədən onun təbliği, yayımındakı ciddi məhdudluqlarda da aşkarlanır.

Sıravi müsəlman Quranın forma və məzmunca əlaqəli mürəkkəb mətnini, ancaq Quranın təfsiri (Quranın şərhi) ilə başa düşə bilər. Ona görə də **"Təfsir"** bir fənn kimi VIII-IX əsrlərdən geniş inkişaf etmişdir.

Sənətinin bədii ecazkarlığı ilə Qurana borclu olan dahi Füzuli, hələ 500 il öncə özünün "Mətləül-Etiqad" fəlsəfi traktatında yazırdı: **"Quran təfsir edilə bilər (təfsir**



**ilə aydınlaşar) və onu təfsir etməkdən heç bir ziyan gəlməz".**

Eyni zamanda Füzuli xəbərdarlıq edirdi ki, **"Quranı qələt təfsir etmək, din binasını zirü-zibər etməkdir".**

Ənənəvi tərcümə qaydası, qeyd olunan möcüzələri, olduğu kimi saxlaya bilmədiyindən Quranın forma və məzmunca mürəkkəb mətninin təhrifsiz, xətasız tərcüməsindən söhbət gedə bilməz. Lakin bəşəri xarakterli Quranın tərcümə təcrübəsi göstərir ki, dünya millətləri arasında onun təbliği və dərkində tərcümə çox faydalıdır.

## c) Peyğəmbər həqiqəti

Məlumdur ki, İslamın hökmlərindən biri də əxlaqdır. Belə ki, əxlaq da o biri hökmlər – iman və əməl kimi dinimizin əmridir. İslam həm də gözəl əxlaq deməkdir. İslamın qayəsi, insanları gözəl əxlaq sahibi kimi kamilləşdirməkdir. Allahın verdiyi tərbiyə ilə yetişən Məhəmməd Peyğəmbərin yüksək, zəngin əxlaqı İslami baxımdan ən gözəl nümunədir. Bu fikri bir qədər açıqlamağa ehtiyac duyuram. Peyğəmbərimizin başqa Peyğəmbərlərdən fərqli və üstün cəhətləri, İslam elmində kifayət qədər şərh olunmuşdur.

Təbliğat (yayılmaq) xatirinə onu qeyd edim ki, məlum hədislər və dini-fəlsəfi qənaətlərə görə, "Müsəlmançılıq ideyası ilə başlanan ilahi mədəniyyətlər silsiləsi müsəlmaçılıq ilə də tamamlanmışdır" və eləcə də "Məhəmmədin nuru ilə başlayan Peyğəmbərlik silsiləsi" də Məhəmməd Peyğəmbər ilə də tamamlandı (Bax

**"Muğam həqiqətinə dini – fəlsəfi baxış" – "Nəticə"** bölümünə).

Bu deyimlərdən çıxan nəticə budur ki, Ruhi-Əzəm (Məhəmmədin nuru) Peyğəmbərlər silsiləsinin hər birində bir isim və sifət ilə təcəlla etdiyi kimi nübuvvətin sonuncusu olduğundan, özündən əvvəlkilərin hamısının vəsflərini və keyfiyyətini (o cümlədən əxlaqını) özündə əks etdirməklə, Peyğəmbərlik çevrəsinin (silsiləsinin) formalaşdırmış – tamamlamışdır. Deməli Məhəmməd Peyğəmbər əxlaqının tamamlanmış - ən nümunəvi əxlaq kimi qəbul edilməsi İslama tam uyğundur.

Təsdiq üçün qeyd edim ki, Quran bu barədə xəbər verir və Uca Allah Rəsulunu ən gözəl nümunə olaraq səciyyələndirməklə onun əxlaqından bəhrələnməyi tövsiyyə edir:

**"Şübhəsiz ki, sən (Məhəmməd Peyğəmbər) böyük bir əxlaq üzərindəsən".** ("Əl-Qələm" surəsi).

**"Allahın Rəsulu ən gözəl nümunədir, sizin üçün, Allaha və Axirət gününə qovuşmağı diləyənlər üçün"** ("Əl-Əhzəb" surəsi).

Peyğəmbərimiz, özü də bu həqiqətləri belə ifadə etmişdir:

**"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim".**
**"Qiyamət günü əməl tərəzisinə qoyulub çəkiləcək əməllər arasında əxlaq gözəlliyindən daha ağır gələn bir şey yoxdur".**

**"Möminlərin ən kamil imanlısı, gözəl əxlaq sahibi olandır".**

**"Məni Rəbbim tərbiyə etdi, tərbiyəmi də nə gözəl etdi".**



Peyğəmbərimizin əxlaq barədəki sərrast deyimləri, xatirimə "Əl-Kindinin (IX əsr) Peyğəmbərimiz barədə söylədiyi şox məşhur fikrini saldı:

**"Heç bir filosof, Məhəmmədin sözlərində olduğu kimi yığcam, aydın, sadə və tam cavablar verə bilməz!"**

Sevgili Peyğəmbərimiz, **"Əxlaqınızı gözəlləşdirin"** deyə buyurmuş və pis əxlaqın düzəldilə biləcəyini göstərmişdir. Elm sübut edir ki, pis vərdişlərin formalaşmasında, əsas meyar nəfsdir. İslam, əxlaqi hökm səviyyəsinə qaldırmaqla dolayısı nəfsə qarşı mübariazəni önə çəkmiş olur. Bu mənada İslam bir mənalı olaraq iddia edir ki, öz nəfsini tərbiyə etmiş, ədəbli-əxlaqlı şəxslər insanlığa örnək olarlar. Bu məqamda insanlar rizayi ilahiliyi tapar, xitabiyyətdə Allahın dostları üçün Qurana görə hazırlanan məqami-qürbiyyətə (yaxşılıq məqamına) yönələrlər.

Mövzunu, **"İman nədir"** sualına, Mövlana Rumının arifanə cavabı ilə yekunlardım: **"İman ədəbdir!"**

## ç) İslami ibadət

İslamın kamilliyinin dəlili-təsdiqi olan İslami ibadətlər də Quran kimi dəyişilməz, sarsılmaz olaraq qalmadadır. Başqa sözlə İslamın kamilliyi, sarsılmazlığı, dəyişməzliyi İslami ibadətlərin bütün formalarında aşkarlanır.

Yalnız namaz barədə qısaca fikrimi bildirəcəm. Namaz müsəlmanın hökmən icra etməli olduğu ibadətdir, duadır. Namaz o dərəcədə vacibdir ki, Quranda namaza etinasızlıq kafirlik hesab olunur. Qurana görə Tanrı

nəzərində Namaz, orucdan üstündür. Namaz Peyğəmbər sünnəsidir, ibadət üsuludur. Peyğəmbərimiz buyurur ki, **"namaz – möminin meracıdır", "Namaz – dinin dirəyidir"** yaxud **"Namaza əhəmiyyət verməyən və onu yüngül sayan kəs, Axirət əzabına layiqdir".**

Quranda təfsirlə, namazın qədəri (sayı) müəyyən olunursa da ("Ənam" surəsi) qaydaları barədə göstəriş yoxdur. Bu işdə Peyğəmbər hədisi: **"Mənim kimi namaz qıla bilməzsiniz, amma çalışın ki, mənim kimi qılasız"** və ilkin müsəlman olan Peyğəmbərimizin ilkin müsəlmanların yaddaşında qalan hal və hərəkətləri əsas götürülür. Təxminən 150 il Peyğəmbərdən sonra, bütün namaz elementlərini vahid yazı mətninə alan Məhəmməd - Əş-Şaybani (800 il) olmuşdur. Və bu qaydalar bu günə qədər dəyişilməz olaraq qalır!

Namazın milli dillərdə qılınmasının mümkünsüzlüyünü qısaca belə izah edərdim.

Qeyd edim ki, gərəkli, faydalı əməl-rəftar məsələsində iradəcə azad olan insan faili-muxtardır, ixtiyar sahibidir, seçim hüququndadır.

Lakin, fərz (icbari) məsələlərində, o cümlədən hökm olan namaz ibadətində insan belə ixtiyardan məhrumdur. Burada əsas, Peyğəmbər nümunəsidir ki, o Quran ərəb dilində nazil olduğuna görə, Qurana və Allaha hörmət-sayqı olaraq namazı ərəb dilində qılmışdır. Məlumdur ki, ərəb dilində nazil olduğuna görə Peyğəmbərimiz Quranı məhz ərəblərin melodiyasında tilavətini onların səsi ilə icra etməyə çağırmışdır.

Maraqlıdır ki, təcvid elmi, Quranın tilavətinin ərəb musiqisi (ahəngi) üstündə oxunmasını tövsiyyə etməklə



yanaşı, fəqihlər yerli musiqi avazlarından istifadəni də caiz bilmişlər. Amma, namazda belə istisnalar yoxdur. Çünki tilavat, İslamın 5 əsas şərtlərindən (kəlmei-şəhadət, namaz, oruc, zəkat, Həcc) biri olan Namaz hökmündə olan vacib-məcburi ibadət deyildir.

Quranın tilavətindəki hüququ istisna, İlahi mətnin toxunulmazlığı təmin olduğundan onun oxu və dərkində çaşqınlıq yaratmır. İslamda İlahi mətnin öndə olması amilini,Füzulinin bu fikri ilə təsdiqlədim:

**"Davud Peyğəmbər oxuması (səsi) ilə yox, oxuduğu Zəbur ilə yaddaşlarda qalmışdır".**

Maraqlıdır ki, Quranın tilavətində də musiqi (avaz) və mətnin vəhdəti, mətnin aparıcı rolu nəzərə alınaraq əldə edilir və musiqi (avaz) ritminin müəyyənləşdirilməsinə təkan verir. Ümumən namazın ərəb dilində qılınması müsəlmanların ibadətdəki birliyinin təminatıdır.

Yuxarıda qeyd olunduğu kimi, milli tərcümə materialları nöqsanlı variant hesab olunur. Peyğəmbərimiz buyurub ki, **"İbadət vaxtı gözəl olun". "Allah Özü gözəldir, gözəlliyi də sevər".**

Bu hədisləri şərh edən İbn-əl-Ərəbi yazır: **"Bu sözlərin mənası budur: Allah, onun qarşısında gözəl olana yaxındır".** Nöqsanlı deyim (tərcümə) tələb olunan gözəlliyə xələl gətirir.

Namazda Haqq-Təaladan qüvvət almış İlahi kəlamlar əvəzinə, tərcümə (açıqlama) mətnindən istifadə, Aliliyin aşağıya, İlahiliyin dünyəviliyə doğru istiqamət almasıdır ki, bu da prinsipcə təbii İlahi düzümə müdaxiləni qəbul etməyən **İslam realizminə** ziddir.

## d) İslam ağıl və Elm dinidir

Nəhayət, İslamın kamilliyini, ona bəşərilik qazandıran özəlliklərdən biri, ağıl və Elm dini olmasında axtarmağa cəhd edəcəyəm.

İbn – Rüşdün (XII əsr) təbirincə desək, **"İslam həqiqi din olduğundan, təbii olaraq, biliyə - elmə həvəsi artırır".**

İslam dini ağıla, böyük əhəmiyyət vermiş, mükəlləfiyyət daşımaq üçün ağıllı olmağı şərt saymışdır. Biliyə (Elmə) də böyük qiymət verən dinimiz daima oxumağı və öyrətməyi əmr etmiş, bilik (Elm) əldə etməyin hər bir müsəlman üçün fərz olduğunu bildirmişdir.

Füzuli demiş:

***Olma qane elmdə hər rütbəyə çatsan da bil,***
***Səyin artdıqca bu yolda, artacaqdır qiymətin.***

"Quran" sözünün bir mənası "oxu" kimi açıqlanır. Bir hədisi-Şərifdə buyurulur: **"Düşüncə kimi ibadət yoxdur".** Uca Allahın varlığını və böyüklüyünü anlamaq üçün ilk öncə gözəlcə düşünmək kifayətdir.

Sözsüz ki, Ağıl və Elm tələbi, bu və ya digər formada bütün dinlərdə qoyulmuşdur. Lakin, İslamda bunların vacibliyi öndədir, daha çox vurğulanır.

**"Məgər bilənlərlə bilməyənlər birdirmi? Bunu ancaq ağıl sahibləri düşünüb anlar"** ("Zümər" surəsi)



Əvvəldə qeyd olunduğu kimi **"Xəlifətüllah"** statusundan sonra aktiv insan faktoru önə çəkildi. Bütün İnsanlara aid olan, bəşəri xarakterli İslamda artan iradə azadlığı, artan məsuliyyətlə müşayiət olundu. Qəlb fonunda Tanrıya (Həqiqətə) bağlılığın İslama qədərki azalmış (itirilmiş) dinamikasını artırmaq üçün **"həqiqətlə insan arasında pərdə olan nəfsə"** (Qəzzali) qarşı mübarizə gücləndi-kəskinləşdi. İslam həm dünya, həm də axirət dini elan edildi. İslam axirət faktorunu daha çox qabartmaqla, dünya həyatını birbaşa axirətlə əlaqələndirdi. Yəni, axirət həyatının necə olması, məhz bu dünyadan keçir.

İslam eyni zamanda maddi fayda və zövqlərinə dalıb, mənəvi həzzlərdən və axirət nemətlərindən məhrum qalmağın böyük fəlakət olacağını bildirərək, çıxış yolunu ibadətə bağlılıqda bildi. Başqa sözlə, Dünyaya aldanıb Haqqdan üz döndərməmək məqsədilə **"Axirəti dünyadan üstün tutan"** ("İsra" surəsi) İslam, ruhun dünyəvi ehtiraslardan xilas olması üçün, **İbadəti (möminliyi)** ("Zarriyat" surəsi) önə çəkdi. İslam (Quran) İnsanlıq qarşısında çox çətin, məsuliyyətli, lakin həlli mümkün bir vəzifə qoymuşdur.

İslamda təbliğ olunan düşüncə, tələb olunan bilik, məhz bu hikmət və sirri açmağa qulluq etməldir (yönəlməlidir).

Ariflərin bildirdiyi kimi, **kitabi biliklər** fikir istehsal etməyə və düşüncədən qəlbə enərək duyğuları dərinləşdirməyə imkan vermir. Bu çatışmamazlığın aradan qaldırılması üçün İslam, Elmlərin doğru və xeyirli yerlərdə istifadə edilməsini təmin etmək, bəşərə alət olmasının

qarşısını almaq məqsədi ilə **"Faydalı Elm"** ilə qəlbi, həyatı bəzəmişdir.

Quranda Elm və İman sözləri əksər surələrdə yanaşı çəkilir. "Mucadalə" surəsində oxuyuruq: **"Allah içinizdən iman edənləri ucaldar. Bunlardan özlərinə Elm verilmiş olanları daha uca dərəcələrə ucaldar".**

Yüksək İdrak, parlaq Etiqad sahibi olan Alim və Mömin adlarının qoşa çəkilməsinə "Rum" surəsində də rast gəlinir: **"Elmli, İmanlı kimsələr. . . . "**

Mömin kimdir, sualını Quran belə açıqlayır:

**"Möminlər ancaq Allah anılan zaman qəlbləri titrəyən kəslərdir".** ("Ənfal" surəsi)

Yaxud: **"Allahdan öz bəndələri içərisində yalnız alimlər qorxar"** ("Fatir" surəsi).

İslam nəzərində mömin və Alim yaxınlığındakı hikməti, məqsəd-hədəf eyniliyini **(İdrakın, müəmmalı sirr pərdələrindən qurtularaq, Haqqa – həqiqətə yön almaq)** şərh etməyə ehtiyac duymuram.

Lakin, bu Quran ayələrindən **"Hikmətin başı Allah qorxusudur"** və **İçinizdə Allahdan ən çox qorxanınız və onu ən çox biləniniz "mənəm"** hədislərindən çıxış edərək, Peyğəmbərimizin cəmi insanlıq (bəşər) üçün ən yüksək **iman, elm, əxlaq** nümunəsi olmasını bir daha təsdiqlərdim.

İslamın faydalılıq prinsipinin təzahürü, şairlik sənətinə və ümumən sənətə münasibətində də aşkarlanır. ("Şüarə" surəsi).

Hədislərə müraciət edək:



- **Mən gizli bir xəzinə idim və istədim məni tanısınlar, bilsinlər, buna görə də məxluqatı yaratdım.** (Qüdsi-hədis)
- **İslamın cani-həyatı Elmdir.**
- **Alim bu dünyanın çırağıdır.**
- **Elmin əsirgənməsi halal olmaz.**
- **Öyrənilən və yayılan Elmdən böyük sədəqə yoxdur.**

Deməli, Elm İslamın məzmun-mahiyyətindədir. Mövlana Rumi təbirincə desək, **"iman əhli olduqlarından, İslam dahilərinin Elmi daha faydalı bilinmişdir".** Faydalı Elmi baxımından Əl-Qəzzali, İbn-Əl-Ərəbi, Fərabi, İbn-Sina və s. filosofların timsalında, Yunan (Qərb) filosoflarının dialektikası sadəlövf görünür.

Pifaqor, Platon və s. filosoflar ruhun əbədiliyinə inanmış, onun (ruhun) kamilliyini isə Elm (riyaziyyat) və sənətdə (musiqi) bilmişlər. Onlar Tanrı məhəbbətini, sabit ideya-əqidə-qəlib səviyyəsinə qədər görürdülər. (Platonik Eşqi yada sal!)

Onlara görə gözəlliyi bu dünyada yox, ideyalar aləmində - o biri dünyada axtarmaq gərəkdir. Onlar gözəlliyin hisslərlə deyil, əqllə dərk olunduğunu iddia edirdilər. Onlar fəlsəfəni (idrakı) Mütləq Aləmin (İdeyanın), həqiqi mahiyyətinin dərkində yeganə vasitə bilirdlər və s.

Quran məntiqindən çıxış edərək Şərq dahiləri bu fəlsəfələrə yeni yönlər verdi, bir növ onları tamamladı.

***Güman etmə ki, hikmətdən xəbərdar idi Əflatun,***
***Həqiqət Elmindən agah sanma Loğmanı.***

Təsəvvüf Eşqin (gözəlliyin) mənin (mənasının) açıqlanmasında əqli gücsüz bilir:

***Ey Füzuli, Eşq mənin nasehdən qılma qəbul,***
***Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.***

Mütləqin dərkində elm yox, Eşq (intiusiya) önə çəkildi:

***Eşq imiş hər nə var aləmdə***
***Elm bir qiylü-qal imiş ancaq.***

Ruhun kamilliyini, onun ilkin başlanğıca bağlılıqda, nəfsin paklığında bildi. Pifaqorun sənət hesab etdiyi musiqi, İslamda **ən şərəfli Elm** (Əl-Kindi) oldu.

Təbiət ilə insanı dərk etmək yolları haqqında Elm olan Aristotelin **"dəmir Məntiqindən"** çıxış edərək Şərq peripateikləri, dərk olunmayanın idrak vasitəsi ilə necə dərk edilə bilər məntiqinə cavab tapdılar.

Belə ki, böyük loğman, İbn-Sina qeyd edirdi ki, **"Elə yol var ki, onunla mütləq dərk olunmayandan, dərk olunana doğru getmək lazımdır ki, onu dərk edə biləsən. Məntiq məhz elə Elmdir ki, burada məlum olur: idrak vasitəsi ilə dərk olunmayan necə dərk edilir, həqiqət nədir, həqiqətə yaxın olan nədir, nə yalandır və bunların hər birinin neçə növü var".**

İbn-Rüşdün (Averroes) **"İkili həqiqət"** təlimi və Füzulinin **"Vacibə aid biliyin aşkarlanması"** haqqında tövsiyyəsi buna əyani nümunədir.

Məlumat üçün qeyd edim ki, Qərb (Avropa) İbn-Rüşdün bu təlimindən uzun müddət bəhrələnmişdir.



**"Muğam həqiqətinə dini-fəlsəfi baxış"** araşdırmam büsbütün bu prinsipə əsaslanır! Çox təssüflər olsun ki, aparıcı filosoflarımız, bu **orijinal yanaşmanı** layiqincə qiymətləndirmədilər?!

İslam fəlsəfəsi, Qərb panteizmini (Allahın təbiətdə yerləşdirilib, dünya ilə eyniləşdirmək) qəbul etmir! Belə ki, Qərbdə Tək Allahlıq (Vəhdəti-Vücud) görüşü təşkil edən, təsəvvüfə bənzər bəzi cərəyanlara **"Panteizm"** adı verilmişdir. Bu cərəyanlar qeyri mükəmməliyindən, əvvəllər mahiyyət eyibarı ilə təbiətə materialist baxımdan çıxış edirdisə, (Məsələn: Spinozada-XVII əsr) hazırda Panteizm dünyanın Allahda mövcud olması haqqında dini-idealist nəzəriyyəyə çevrilmişdir.

Panteizm – prinsip etibarı ilə nə Kəlam, nə də Təsəvvüf fəlsəfələrinin tələbinə cavab vermir.

Töhvidi **«Allahdan başqa Allah yoxdur»** kimi formula edən Kəlama görə Tanrı tək bir varlıqdır. Lakin, onun yoxdan yaratdığı ümumi, Tanrıdan ayrı bir varlıq hesab edilir. Panteizm isə, Allahı təbiətdə yerləşdirib dünya ilə eyniləşdirir. İslam təliminə görə isə dünyanın mahiyyəti qətiyyən Allahın mahiyyətinə daxil edilə bilməz, əksinə onun mövcudluğu, Allah sayəsində mümkündür. Bundan başqa, İslam dinində Allahın, yaratdıqlarından hər hansı birinə bənzədilməsi ən böyük günahdır!

Allahın birliyi prinsipinə **«Allahdan başqa varlıq yoxdur»** kimi yanaşan Təsəvvüfdə isə, Allah, ümumini yoxdan var etməyib, yoxluq içində bir kölgə, bir sərab - xəyal kimi **"təcəlla etmiş"**dir. Buna görə də ümumi,

**"Vacib"** (özü-özündən var olan) bir aləm deyil, **"Mümkün"** (Tanrının varlığına görə görünən) bir aləmdir.

Təsəvvüf fəlsəfəsinə görə Allah təbiətə yerləşə bilməz, o məkana və zamana sığışa bilməz. Füzuli təbirincə desək: **"Zaman, varlığa aid olduğundan yoxluqla bir araya sığmaz".** Bütün maddi dünya, Allah atributlarının (ayrılmaz, özəlliklərinin) təzahürüdür və Allahın hər bir əlaməti özünü, ayrı-ayrı əşyalarda göstərir.

Maraqlıdır ki, "Vəhdəyi-vücud"u sistemə salan İbn-Əl-Ərəbi" metafizikasında ümumiyyətlə panteizmin olmadığını, onu tədqiq edən alim A.D.Knış belə izah edir ki, **"İbn-Əl-Ərəbinin metafizikasında transsendent mütləq gerçəkliklə (əl-haqq) və yaradılmış dünya (əl-Xəlq) arasında əsla panteizmin tələb etdiyi substansional ümumilik mövcud deyildir".**

Maraqlıdır ki, Xaliq ilə Məxluqat arasındakı **eynilikdəki müxtəlifliyi**. İbn-Əl-Ərəbi onların gözəlliyi fonunda belə izah edir: **Allahın gözəlliyi ilə (zinət Əl-lah), dünyanın gözəlliyi (zinət əl-həyat, əd-dünya) arasında bir fərq var – məqsəd (qəsd) və niyyət (niyyə) fərqi. Gözəlliyin özü isə elə həmindir (əyn-əz-zina), ayrısı deyil.**

Mən isə, İbn-Əl-Ərəbinin **"Məxluqatın varlığı Allahdır, məxluqatın varlığı, Xaliqin varlığının eynidir"** deyimini, Quranın bəyan etdiyi (**"Hər yeri tutmuş Allah, hər şeyi bilir Allah"** – "Ali İmran" surəsi, **Hər şey, hər an bir təcəllidədir** "Rəhman" surəsi, **"Göylərdə, yerdə nə varsa, O-nundur. O-nun kürsüsü göyləri, yeri tutmuşdur".** "Bəqərə" surəsi) və Füzulinin "Leyli və Məcnun"undakı şərhi kimi anlayıram:



***Cövrünlə həmişə xarü-zarəm***
***Bu üzdən imiş sənin mədarın***
***Var, indiki, yoxdur etibarın.***
***Gərdun eşidib mənim itabım***
***Verdi bu əda ilə cavabım:***
***- Key surəti haldan əbərsiz***
***Hər hikmətə eyb edən hünərsiz***
***Mən əmrə müvafiq eylərəm dövr***
***Hikmətdə vəfadır etdiyim cövr.***

İslamın kamilliyini, onun Elmə münasibətini, öz nəzəri əsasını Quran məntiqinə istinadən, qeyri-İslami fikir cərəyanlarının təsiri altında formalaşdırıb inkişaf etdirən təsəvvüfün timsalında da aşkarlamaq olar.

Məlumdur ki, İslam dini zəminində yaranmış mistik-astetik xarakterli təsəvvüfdə xristianlıq və neonlatonizmin, eləcə də Hindistan və Çin mədəniyyətlərinin təsiri duyulmaqdadır. Hind mədəniyyətinin təsəvvüflə oxşarlığı məsələsi **"Füzuli yaradıcılığı və Hind mədəniyyəti"** məqaləsində verilmişdir. İslamın gətirdiyi yenilik ondadır ki, "Brahmanizmin" söykəndiyi mifoloji – fəlsəfi görünüş, təsəvvüfdə dini-mistik ponoramda təsvir olunur.

Daxili mistikası zəngin olmayan o səbəbdən də nəzərə çarpmayan və ekstaza çatmağını, əsasən arxaik texnika Üzərində quran yoqa təlimindən fərqli olaraq, təsəvvüf məhz emossional və hərarətli təşnə-yanğı EŞQ (!) üzərində qurulur, inkişaf etdirilir.

Buddizmdə "nirvana" mərhələsindən sonra "yoxluğa" qovuşulursa, təsəvvüfdə "fənadan" sonra "bəqaya" (əbəbiyyata) qovuşurlar və s.

Yaxud, Platinin nəzəri sistemi neonlatonizm, İslamda Ş.Sührəverdi tərəfindən təkmilləşdirərək, mükəmməl, işlək faydalı **Elm-İşraqilik fəlsəfəsi** oldu.

Yaxud, Quranda rəbbanəliyin (dünyadan əl çəkmək) ləğvi, Tanrı ilə birbaşa rabitənin mövcudluğu, İslam mistikasında seçilən iz buraxdı. Hind dini və xaçpərəstlikdə "miskin, zəif məxluqat" boyunduruğu geyindirilmiş insan təbiidir ki, təkcə öz daxili halına qapılaraq, vəcd ilə vaxt keçirib, xudpəsəndliyə və eqoizmə yuvarlanırlar. Lakin, Hind mistiki və rahibi Yan Van Ruysburkun (XIII əsr) yazdığı kimi **"İrfanın xoş əhval ruhiyyəsi EŞQ şəklində təzahür etməli və başqalarına da xeyir gətirməlidir. Ali məqsədə və İlahi dərgahına yaxınlıq tapanlar Tanrının bitib-tükənməyən mənəviyyat xəzinəsinə yol açırlar. Onlar möhtaclara xidmət göstərməlidirlər. Bununla da xatircəmlik və həqiqi həyat məqamına yetişməlidirlər. Belə olduqda onlar istər əməli, istərsə də nəzəri baxımdan kamillik dərəcəsinə yetişmiş olurlar".**

Deyilən fikrin təsdiqinə, Şərqdə birbaşa İslamın təbliği ilə məşğul olan Dərviş-Şeyxlik hərəkatının genişlənməsi əyani misal ola bilər.

Xaçpərəstlikdə Ariflər "kafir" hesab olunur. .Xaçpərəstlik mistikasındakı gerçək sayılan dünya, zahiri aləm, irfanda Vəhm, xəyal kimi təsvir olunur.

***Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir***
***Mən kiməm, saqi olan kimdir meyi-səhba nədir***

(Füzuli)

***



***Hikməti-dünyəvi mafiha bilən arif deyil,***
***Arif odur ki, bilməyə dünyəvi-mafiha nədir!***

(Füzuli)

İslamın ağıl və Elm dini olmağından danışarkən Ərəb mədəniyyətinin **"qızıl dövrü"** hesab olunan Abbasi xəlifələrinin hökmranlıq etdiyi birinci yüz illiyi qeyd etmək çox vacibdir. Belə ki, Abbasi xəlifəsi, Məmunun Bağdadda "Beytül-Hikmətə" (Hikmət evi) tərcümə mərkəzində yunan, Suriya, Hind latın dillərində olan fəlsəfə, riyaziyyat, tibb, ədəbiyyat sahəsinə aid kitablar ərəb dilinə tərcümə olunur.

Alimlərin bir mənalı qeyd etdiyi kimi, doğrudan da yunan (elm) amili öz intibah rolunu xristianlıqdan əvvəl, məhz İslamda oynayır.

***

İslam tarixində öz xidmətləri ilə seçilən-fərqlənən dahilərdən danışarkən ilk öncə bu tarixin bir səhifəsi – İslamın mükəmməl, çevik fəlsəfi sistemə çevrilməsində, qeyri-adi istedad, hüdudsuz zəka, kamil iman sahibi olmuş ecazkar duha, fəlsəfə, fiqh, məntiq, etika, əxlaqa dair 400 adda (!) elmi əsərin, Qurana yazılmış (lakin bizim dövrə gəlib çatmamış) 40 cild (!) təfsirin (şərhin) müəllifi olmuş, nəhayətdə Peyğəmbərimizin söylədiyi **"3 qarış"** olan Elmin (**"qürurlanıb-kibirlənmə, heyrətə düşmə və heç nə bilmədiyini idrak etmə"**) zirvəsinə yetişib, özünün acizliyini etiraf etmiş (**"Bildiklərimə nisbətlə, bilmədiklərimi ayağımın altına qoya bilsəydim, başım göylərə dəyərdi"**) **"Hiccət-ül-İslam"** (İslamın dəlili)

rütbəsinə layiq bilinmiş nəhəng Əl-Qəzzali öz ideyaları ilə nəinki İslam, hətta dünya fəlsəfələrinin inkişafına təsir göstərmişdir.

Sufilik tarixini, Şərqin nəhəng sufi mütəfəkkiri, haqlı olaraq **"sufi ənənəsinin bütün səpgilərində ensiklopediyası"** adlandırılan 200 çox (!) əsərində hüququn, müqayisəli fəlsəfənin İslam ilahiyyatının ekzoterik elmlərinin mürəkkəb məsələləri nəzərdən keçirilmiş, Qurana təfsir yazmış (!) "Böyük Şeyx" ("Əş-Şeyx", "Əl-Əkbər") titulunun sahibi İbn-Əl-Ərəbisiz (XII əsr) təsəvvüf-etmək qeyri-mümkündür.

**"Vəhdəti-Vücud"** konsepsiyası, öz kamil şərhini məhz İbn-Əl-Ərəbi fəlsəfəsində tapdı. İbn-Əl-Ərəbi fəlsəfə tarixinə **"Vəhdət-Əl-Vücud"** (Varlığın vəhdəti) təliminin banisi kimi də daxil olmuşdur:

Şərq fəlsəfəsi və Dünya tibb tarixini İbn-Sinasız (X-XI əsrlər) təsəvvür etmək mümkün deyildir. İbn-Sinanın 5 cild (!) **"Qanunu"** artıq dünyanın bütün ölkələrində tibbin ensiklopediyasına çevrilmişdir.

İbn-Sina nəbz haqqında elə bir təlim yaratmışdır ki, bu təlimə indinin özündə belə bir şey əlavə etmək çətindir.

İbn-Sina dünyada birinci olaraq göz əzələlərinin quruluşunu təsvir etmişdir.

O, Şərq Peripateizminin (Aristotelziliyin) layiqli-nüfuzlu filosofu kimi, dünyada ilk olaraq musiqidən zövq almanın səbəblərini, yəni musiqinin insana estetik təsirinin təbiətinin elmi izahını vermişdir. Onun bu elmi mühakiməsində musiqi psixologiyasının yalnız XX əsrdə yaxınlaşmış olduğu problemlər qoyulmuşdur.



Şərqin nüfuzlu ensiklopediyaçı alimi, zamanında, **"müsəlmanların ən böyük filosofu"** olmuş, **"ikinci müəllim"** (birinci müəllim Aristoteldən sonra) ləqəbinə layiq bilinmiş Əl-Fərabi də (IX-X əsrlər) İslama şərəf gətirənlərdir.

Aristotelin təliminin Şərqdə dürüst anlanılmasında Fərabinin rolu böyükdür. Böyük Loğman İbn-Sina yazırdı ki, **"Aristotelin "Metafizikasını 40 dəfə oxuyub-başaçıxmasına baxmayaraq ondakı incə mətləbləri qavramaqda çətinlik çəkdim. Ancaq Fərabinin bu kitaba yazdığı şərhi bir təsadüf nəticəsində əldə edib oxumaqla onu tamamilə qavradım".**

Şərqin ensiklopediyaçı alimi olmuş Əl-Burini, dini görüşləri ilə yanaşı, apardığı elmi-təbii araşdırmaları ilə Kopernikin astronomik nəzəriyyəsini 500 il qabaqlamışdır!

Şərq Peripateizminə ilk yol açan ərəb filosofu Əl-Kindi (IX əsr) musiqi estetikası tarixinə yenilik gətirən müəllif kimi də daxil olmuşdur. O, musiqinin, rənglərin və ətrin duyulmasında ümumilik tapmağa cəhd etmişdir ki, bu axtarış da XIX-XX əsrlərdə sinesteziya haqqında müvafiq təlimi qabaqlamışdır.

Qərbdə Homerlə başlayan şer sənəti Şərqdə Füzulidə zirvə məqamına çatdı və s.

Şərq Elm tarixində belə nüfuzlu nəhəng alimlər çoxdur. Əl-Xarəzmi, Rumi, İbn-Ruşt, İbn-Xəldun kimi dahilərin də adlarının burada çəkmək ədalətdən olar.

İslam dini-fəlsəfi fikir tarixində Bəhmənyar, Bakuvi, Ş.Sührəverdi, Eynəl Güzat Miyanəçi, Nizami, Tusi, Nəimi, Nəsimi, Şəbüstəri, Füzuli və s. adları hörmətlə qeyd olunan Azərbaycan filosofları da olmuşdur.

Ümumən Şərqin nüfuzunu, o cümlədən İslamın kamilliyini, Qərb dünyası istər cəmiyyət səviyyəsində, istərsə də ayrı-ayrı şəxslərin timsalında təvazökarcasına qəbul etmiş və təsdiq etmişlər.

**"Bəşəriyyət, cəmi insanlıq hər bir iş üçün Məhəmməd Peyğəmbərə borcludur".** (Höte)

**"İslam, Antik və Avropa fikrini birləşdirən bir halqa olmuş və sivilizasiya tarixində öz mühüm rolunu oynamış oldu".** (A.Masse)

Böyük alman şairi Höte, Mövlana Rumiyə heyranlığı üzündən farsca öyrənmiş və "Divan" yazmışdır.

Remberant Ruminin tablosunu işləmişdir.

Bu günlərdə Amerikada Mövlana Ruminin şerləri 250 min nüsxə satıldı və Amerikanın ən çox satılan 20 kitabı sırasında yer tutdu.

İslamın kamıllıyı onun coğrafiyasında da aşkarlanır. Belə ki, 60-a yaxın ölkə İslam Konfransı Təşkılatının üzvüdür. 30-a yaxın dövlətdə İslam rəsmı dövlət dinıdır. BMT-nin 55-ə yaxın üzvü İslam dövlətidir və s.

Əlbəttə, İslamın kamilliyi, bəşərin icadı yox, Uca Allahın əzəldəki diləyidir. Füzuli demiş:

***Ol pərivəş kim, məlahət mülkünün sultanıdır,***
***Hökm onun hökmüdürür, fərman onun fərmanıdır!***



# II. MUĞAM



***Sağər kimi gəzmə ki, həram et***
***Nəğmə kimi pərdədə MƏQAM et.***
*(Füzuli)*

## 1. *MUĞAMDA İNQİLABMI... YOXSA İSLAHATMI?!...*

### a) Muğam sənətinə fəlsəfi-estetik baxış

Dahilər nəzərində sözdən başqa yer verilən, mənəvi-əxlaqi mahiyyət kəsb edən musiqi, insan mənəviyyatının kamilliyə yetməsində uca səviyyədə dayanan, öncül vasitələrdəndir.

Təsadüfü deyil ki, nəhəng Platon musiqiyə **əxlaq qanunu** kimi baxırdı.

Yerinə düşər qeyd edim ki, antik dövrdə yunanlar insanın harmonik inkşafı üçün 4 elmi zəruri hesab etmişlər:

Riyaziyyat
Qrammarika
Bədən tərbiyəsi
Musiqi

Göründüyü kimi mənəviyyatın tənzinlənməsi, büsbütün musiqiyə həvalə olunmuşdur.

Musiqiyə insan ruhunun kamilləşdirmə elmi kimi tərif verən Şərqin nüfuzli filosofu Əl –Fərabi, musiqini həm də **İnsan yaradıcılığının zirvəsi** hesab edirdi. Böyük loğman İbn-Sina musiqini, insanlar arasında **mənəvi ünsiyyət vasitəsi** kimi qiymətləndirmişdir.

Dahi Füzuli musiqinin duruldücu və dəyişdirici təsiri olduğunu qeyd edərək **"musiqi məclisini-zövq məclisi"** adlandırırdı. Onun fikrincə musiqidə **"gizli mətləblər söyləyib - açıqlamaq"** imkanı vardır.

Göründüyü kimi musiqi sənəti konkret formadan, ölçü və vəzndən çox, subyektiv hisslər üzərində qurulmuşdur. Belə ki, incəsənət növləri içərisində daha abstrakt ifadə vasitələrinə malik olan musiqi, dəqiq fikir və ideyalardan daha artıq insanın daxili aləmini, onun duyğu və emosiyalarını əks etdirir.

Musiqinin ən önəmli cəhəti, onun **emossional təsiridir.** Əgər bu olmazsa,musiqinin insan ruhunun təkmilləşməsinə xidmət edən estetik dəyərindən danışmaq olmaz.

Qədim Çin musiqi mədəniyyəti tarixində çox məşhur bir fikir formalaşmışdır: **"Əgər ölkənin və oradakı əxlaqın vəziyyətini bilmək istəsən, onda oradakı musiqiyə qulaq as"!**

Cəmiyyətin, mədəniyyətin (əxlaqın) musiqi ilə bilavasitə bağlılığını İbn-Xəldun belə izah edir ki, **"Cəmiyyət qüruba meyl etməyə başlayanda, tənəzzül edən birinci musiqidir".**

Musiqinin saydığımız bu cəhətləri muğam sənətində xüsusilə qabarıq müşahidə olunur.

Səs (musiqi) – muğamın timsalında özünün ən yüksək bədii ifadə formasını tapmışdır.

Musiqiyə xas olan ən səciyyəvi keyfiyyətlər – intuitivlik, mücərrədlik, irrasionallıq, subyektiv hisslərin ifadəsi və s. muğamda daha aydın nəzərə çarpır. Dahi Füzulinin təbirincə desək: **"Xislətincə meyli olan hər muğamın, hüsnü miqdarınca eşqi var"**.

Muğamların məhz bir-birinə meylli (mehrli-məhəbbətli R.Müseybov) səslər, pərdələr məcmusuunun sabit bir kök ətrafında (məqam) toplaşmasından



(birləşməsindən) əmələ gəlməsi, bunun həqiqətə uyğunluğudur.

Nəzərə alsaq ki, muğam, səslərinin musiqi tələbindən düzümünün ən yüksək kolorit formasıdır, onda qəti əminliklə demək olar ki, muğam avazı, musiqi aləmində eşqin ən tutumlu, ən səlis, ən təkmil tərənnümçüsüdür. **Yəqin elə buna görədir ki, Müqəddəs Quranın tilavəti və Azan, Muğam avazında səslənir!**

Spesifik oxu mədəniyyəti tələb edən ifaçılıq sənətinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Belə ki, muğam ifaçılıq sənəti, şifahi ənənəyə əsaslanan **professional-mürəkkəb-məntiqli** musiqi janrıdır.

Muğam sənətinin mürəkkəb-professional musiqi janri olması, ilk öncə onun kəsb etdiyi **epik-lirik-drammatik** xüsusiyyətləri ilə daha çox izah olunur.

Nəzərə alsaq ki, sənət, həyatın inikasıdır, bu mənada muğam sənətinin **epik** xüsusiyyət kəsb etməsinin izahına ehtiyac duymuram.

**Lirizm** xüsusiyyəti – muğam sənətinin bilavasitə insani hisslərlə bağlı olması, sufi anlamında isə, muğamın bilavasitə **hal** sənəti olması ilə izahı, daha münasibdir.

Divan ədəbiyyatında daha çox anılan lirik eşq şeri – qəzəlin, muğam ifaçılığındakı vacibliyi, məhz muğamın **lirizm** xüsusiyyəti ilə şərtlənir.

Muğam sənətini başqa musiqi janrlarından, xüsusilə mahnı janrından fərqləndirən odur ki, mahnının musiqisi, sözlərin yatımlı düzümünü və hər sətrdə eyni sayda heca olmasını tələb edir. Muğamda isə Ü.Hacıbəyovun iddia etdiyi kimi **"Əruzla yazılmış qəzəlin vəzni, dəstgahın musiqisi Üçün, dəxi vəzn məqamını tutur"**.

Üzeyir bəyin bu dəqiq deyimindən sonra Y.Qarayevin **"Bizim bütün klassik poeziya, o cümlədən Füzuli – bütövlükdə muğama hopub"** qənaətinin nə dərəcədə dəqiq elmi əsası olduğu aşkarlanır. Doğrudan da muğam sənətinin bütün gözəlliyini musiqi dili ilə vermək əruzsuz – qəzəlsiz mümkün deyilmiş! Amma təəssüflər olsun ki, xanəndəlik təhsilində əruz nədənsə tədris olunmur?

Muğamlardakı **dramatizm** iki formada təzahür edir: **üzdə olan** – "görünən" və **hiss olunan**-musiqidəki dəyişmələr.

Teatr anlamına aid olan **dramatizm** prinsipi, yəni, bir şeyin müxtəlif cürə təqdim olunması, öz əksini muğam sənətində məhz bu iki formalarda tapır.

Xanəndənin ifa edəcəyi dəstgahın **rədifini tutması** (şöbə və guşələrin xanəndə istədiyi ardıcıllıqla qurulması), **ifa üslubu** (ifa tərzində mövcud olan fərdilik) və ifa prisesində xanəndənin ahəngə uyğun **artistlik** bacarığı – bunlar birinci – **"görünən"** formaya aid elementlərdir.

Dramatizmə aid olan ikinci – **hiss olunan** xüsusiyyət, ifa zamanı musiqinin, dəstgahın kulminasiyasına doğru yüksələrək, tədricən zil pərdələrə köçürülməsidir.

Bir sözlə, **muğam, xanəndənin artist kimi söylədiyi (ifa etdiyi) nitqi, monoloqu (avazı) ilə, eləcə də ifaya uyğun olaraq yüksəlməyə meylli olan emosional – psixoloji halı ilə teatrlardır.**

Muğam sənətində mütləq canlı ifa, mütləq real təqdim etmə vacibliyi, məhz muğamın dramatizm xüsusiyyətinin doğurduğu tələblərdəndir!



Prinsip etibarı ilə teatr və muğam ifaçılığı, uyuşmayan sənət növləridir. Çünki teatr aktyorundan fərqli olaraq xanəndə, öz ifasının **"hüsnü-camalında"** yəni, **"ləhceyi-xanəndədə"** özünün real obrazını yaradır. Məsələn: Cabbarın "Mahur"u, Məşədi Məmmədin "Şüştər"i, Ələsgərin "Rəhab"ı, İslamın "Segah"ı, Seyidin "Cahargah"ı, Xanın "Kürdü-Şahnaz"ı və s.

Qəti əminliklə deyərdim ki, bu siyahılar məhz Leyli-Məcnun, Fərhad-Şirin kimi aşiqi-sadiqliyi təsdiq olunmuş **"aşiq-məşuqluq"** nümunələrdir!

Muğam yeganə musiqi janrıdır ki, ümumən musiqinin kəsb etdiyi bütün funksiyaları tam əhatə edir:

1. Kommunikasiya (özünü ifadə və dinləyiciyə birbaşa təsir)
2. Emosional – psixoloji (dəyişdirici)
3. Etik (əxlaqi)
4. Estetik (zövq)
5. Tibbi (diaqnostika və müalicə)

Muğam, musiqidən çox fəlsəfədir! Muğam dəstgahın quruluş prinsipi, ən yüksək-fəlsəfi dərk etmənin bütöv bir "xəttini" – hər üç mərhələsini əhatə edir.

- Sadədən-mürəkkəbə
- Aşağıdan-yüksəyə
- Emprikdən-nəzəriyyəyə

Maraqlıdır ki, muğam, müxtəlif fəlsəfi baxışlarda öz universallığını – orijinallığını saxlayır, məna və məzmun kəsb edir. Məsələn, Kəlam fəlsəfəsinə görə muğam, əzəli olduğu üçün əbədidir! Təsəvvüf fəlsəfəsinə görə muğamlar insanın kamilliyə yetməsindəki, (haqqı tanımaq, gözəlliyi duymaq, ədalətli olmaq) "dayanacaqlar",

məqamlardır. Dünyəvi xarakterli dialektik fəlsəfə prizmasında muğam, həyatı real təcəssüm edən sənətdir və s.

Nəhayət, muğam, makon, makam, məqam, mukam... bu adların inkişaf formaları, milli intonasiya çeşidləri müxtəlif olsa da, etnik kökü, məna-baxışı eyni olan müsəlman incəsənətdir.

Çox maraqlıdır ki, müsəlman metofizikası postulatlarının tələbləri (əbədilik və dəyişiklik) harmoniya və akkord bilməyən müsəlman incəsənətində, o cümlədən muğam janrında vacib şərt (sabit ahəng və dəyişkən improvizisiya) kimi çıxış edir. İslami baxımdan doğrudan da **"muğam musiqimizin Quranıdır"** (Vasim Məmmədəliyev).

Tədqiqatlar göstərir ki, muğamın janr kimi formalaşması, bilavasitə "Müsəlman İntibahına" səbəb və təkan olan sufizmlə (təsəvvüflə) bağlıdır. Çox təssüflər olsun ki, muğam ifaçılığı sənətinin özünəməxsus fəlsəfi-estetik xüsusiyyətləri, müasir muğam ifaçılığı təcrübəsində tam məsuliyyəti ilə nəzərə alınmır.

### b) Dövlət Muğam Teatrı (?!)

Təxminən 20 il bundan əvvəl yaradılmış Dövlət Muğam Teatrının fəaliyyətindəki (?) təzadlı məqamlara münasibətimi bildirmək istərdim.

Mövzu aydınlığı, mətn konkretliyi və dəqiq ritmik melodiyası olan mahnı janrından fərqli olaraq muğamlarda melodiya, xəyalpərvərlik xüsusiyyətini əks etdirməklə, ifaçı (xanəndə) zövqünə uyğun seçilən sözlə (qəzəllə) səciyyələnir.



Müqayisədən göründüyü kimi mövzu və mətn konkretliyi, dəqiq melodik ritmi (bəhri) olmayan muğamın xislətinə, dramarurqi müəyyənlik tələb edən teatr yox, ənənəvi tarixi şer-musiqi məclis forması daha uyğundur.

Məsələn: "MəcməÜ-ŞÜarə" (Bakı), "BeytÜl Səfa" (Şamaxı), "Məclisi-Xamuşan" (Qarabağ) və s.

Ifa olunan hər bir muğam (dəstgah) prinsipcə ədəbi yox, həm **emossional**, həm də **musiqi** dramıdır. Belə ki, **dramatizm** muğam dəstgahlarının daxili quruluşunda öz ifadəsini taparaq, ifa zamanı **emossiyalar** şəklində aşkara çıxır. Musiqi baxımından isə dramatizm, ifa zamanı musiqinin tədriclə zilə qalxaraq yüksək pərdələrə köçürülməsindədir. Bu dəstgahın məntiqi məzmunudur, yəni həm musiqi, həm də emossiyanın birbaşa yüksələn dinamik gərginliyinin tədricən artırılması, kulminasiya nöqtəsinə çatması və dəstgahın ideya-məzmununun açılmasıdır.

Musiqinin visual-görüntü obrazları ilə cilvələnməsi ilə son dərəcədə fərdi psixoloji xəyali bir hadisədir və hər bir dinləyicinin duyğularının həssaslığından, fantaziyasının zənginliyindən asılıdır. Əlavə detallar, teatrlaşdırılmış fonoqramalı təqdimat (?) dinləyici diqqətini xanəndədən, melodiyadan və qəzəlin məzmunundan yayındıraraq, muğamın **fəlsəfəsini, eşqini, ifa gözəlliyini** qavramağı çətinləşdirir.

Hər bir muğam dəstgahında şöbələrlə rənglər arasında forma və emossiya təzadı var. Məqsəd, ifa zamanı yaranan emossional gərginliyi azaltmaq və xanəndəni növbəti şöbəyə hazırlamaqdır. Muğamın teatral ifası zamanı rəng rəqsə çevrilərsə (?) dinləyicinin

(tamaşaçının -?) diqqəti ifaçıdan yayınaraq muğamın ruhundan uzaqlaşır. Unutmaq olmaz ki, bütün ciddi musiqi janrları kimi intuitivlik, irrosionallıq, subyektiv hisslərlə müşayət olunan muğamın da mayası dinləməyə – eşitməyə tabedir. Muğamın məğzi-mənası yalnız bu yol ilə qavranıla bilər. Təsdiq üçün qeyd edim ki, Aristotelin musiqi estetikasındakı mÜddəalardan biri, məhz belə səslənir:

**"Hissi qavrayışlardan yalnız eşidə bilən etik xassəyə malikdir".**

Mövcud olduğu 20 il ərzində hər hansı bir dəstgah əsasında az-çox uğurla tamaşa hazırlaya bilməməsi dediklərimizə sübutdur və bu iki sənət növünün (ifaçılıq və teatr) prinsipcə uyarsızlığını göstərir. Lakin "Leyli və Məcnun" muğam operasının misilsiz müvəffəqiyyəti, lirika ilə muğamın (qəzəl ilə ifaçılıq sənətinin) uyarlılığına əyani sübutdur!

Ölkədə mədəniyyət siyasətini həyata keçirən Mədəniyyət və Turizm Nazirliyinin, eləcə də Milli Elmlər Akademiyasının aidiyyatı Elmi-Tədqiqat İnstitutlarının keçən 20 il ərzində qeyd olunan **"fəaliyyətsizlik"** və **"uyarsızlıq"**faktına dözümü, haqlı olaraq narahat edici suallar doğurur.

### c) Qəribə ifa üsulu

Eyni ziddiyətli fikirləri, bu günlər dəbdə olan qəribə ifa forması – bir muğam dəstgahının, bir neçə xanəndənin birgə ifa etməsi haqqında söyləmək olar. İfanın bu müştərək (?) üsulu, elmi əsası olmayan **"haylı-küylü"** həvəskarlıqdan başqa bir şey deyildir.



Belə ki, muğam həm ruha, həm də musiqiyə xas olan harmoniya sayəsində dinləyiciyə estetik təsir edir. Təsdiq üçün qeyd edim ki, mədəniyyət tarixində çox məşhur olan belə bir fikir formalaşmışdır ki, **"Estetik zövqün əsası, harmoniyadır".**

Dahilər həm də musiqiyə insan hisslərinin riyaziyyatı kimi də qiymət vermişlər. Məhz riyazi silsilə qaydası üzrə həm musiqinin, həm də ruhun getdikcə artan dinamik inkşafı prinsipini özündə ehtiva edən dəstgahın, bir neçə xanəndə tərəfindən birgə ifası zamanı, səs məziyyətlərinin, ifa üsullarının və ifa zövqlərinin müxtəlifliklərindən yaranan ahəngsizlik meyli, ruhun (qavramanın) riyazi silsilə qaydası üzrə artan dinamik inkişafını ləngidir. Başqa sözlə, ifa zamanı səs hissi idrakla, söz əqli idrakla qavranılır. İfa zamanı bu idrak formaları zövqün nəşəsindən hərəkətə gələrək bir-birini tamamlayanda "Katarsis" (zövqə görə ruhən təmizlənmə) əmələ gəlir. Xanəndələrin səs fərqlərinin, ifa üsullarının tez-tez dəyişməsi, dinləyicinin onlara tez və asanlıqla uyuşmasını, deməli idrak formalarının bir-birini tamamlamasını ləngidir. Qavrayışın effekti azalır, estetik təsir aşağı düşür. Estetik təsiri aşağı olan ifa nümunəsi, yüksək sənət nümunəsi sayıla bilməz. Belə aşağı səviyyəli ifa nümunələri isə, muğamın özünün gələcək **"taleyi"** üçün **təhlükəlidir!**

Ustad sənətkarların aşdığı **"cığırı"** – ifa üsullarını, mütərəqqi ənənələri yeni nəfəslərlə yeniləşdirmək, təkmilləşdirmək hesabına muğam ifaçılıq sənəti daima yaşardır. Muğamı yaşadan bu prinsip, ifaçılıq sənətindəki **teatrallıqdır!** Kollektiv dəstgah ifasında, məhz bu vacib

teatrallıq prinsipinin tələbləri pozulur! Yəni, müxtəlif cür təqdim olunma prinsipi (teatrallıq), fərdi rədif tutma, fərdi ifa üslubu, fərdi artistizm hesabına yox, xanəndə müxtəlifliyi (çoxluğu) hesabına nümayiş etdirilir. Bu ifaçılıq sənətini **xaotikliyə** aparan **anlaşılmazlıqdır!**

Bu qəribə ifa üsulunu, təqdir olunmağa layiq novatorluq kimi yox, ifaçılıq sənətində azalmaya doğru gedən ifa gözəlliyinin, zahiri görüntü çalarları ilə kompensasiya cəhdi kimi qəbul etmək doğru-düzgün olardı. Bu, əyləncə xarakterli **toy-məclis** formasının, yaxud məşq xarakterli **tədris** formasının ciddi sənət meydanına ayaq açmasıdır! Başqa sözlə **ciddi** muğam ifaçılıq janrının **cılızlaşdırılmasıdır!**

Muğamın teatrlaşdırılmasını və müştərək dəstgah ifasını – bunları idraki mahiyyət kəsb edən muğamdan bir vasitə kimi sui-istifadə edərək, sənətdə yenilikçi – novator kimi olmaq arzusundan doğan səhv addım hesab edirəm.

### ç) Muğam – SMS – ŞOU ?

"Mədəniyyətin dostları" və "H.Əliyev" fondlarının maddi dəstəyi və professional-sanballı münsiflər (ayırd edən) heyəti ola-ola milli musiqimizin banisi, dahi Üzeyir bəyin adının anımı ilə bağlı ciddi muğam müsabiqəsinin SMS-ŞOU-ya çevirən SPACE teleyayım şirkətinin məqsədini anlamaq olmur.

Yeri gəlmişkən, dövlətçiliyimizin rəmzi olan manat nişanələrinin məhz birincisində mükəməl birlik- muğam üçlüyünün rəmzi təsviri, dövlətin milli-mənəvi dəyərlərə, o cümlədən muğama olan ciddi münasibətin təzahürü və təsdiqidir.





Unutmaq olmaz ki, danışıq dilimiz bizi **"türkdilli xalqlar"** adlı məkanla bağlayırsa, muğam, bizi daha geniş dünya mədəniyyətinin, muğam-musiqi dili ilə ünsüyyətdə olan **ŞƏRQ** adlı məkanı ilə bağlayır.

Şərq aləmində, şərq düşüncə tərzində muğam, maddi vəsait əldə etməkdə vasitə yox, mənəviyyatın təkmilləşdirilməsində idrakı xarakterli vasitədir, dərk etmədir, dünyaya baxışdır. Şərqin Qərbdən bir üstünlüyü ondadır ki, bu məkanda fəlsəfə poeziya və musiqi ilə öyrədilir.

Vaxtı ilə Aristotel söylərdi ki, **"əgər bir fəlsəfə, insan kamilliyinə xidmət edirsə, o elmdir".** Bu bir həqiqətdir ki, muğam, əsasında kamillik duran bir fəlsəfədir - elmdir. Muğam zövqdür, muğam əxlaqdır!

Nəhayət, muğam, müqəddəs, pak ilahi bir hikmətdir! Müqəddəs "Quranın" ƏL-Qəzzalinin təbirincə desək "haqqın səsinin" – Peyğəmbərimizin çağırışı olan Azanın, məhz muğam avazları üstə səslənməsi (tilavatı) bu həqiqətin təsdiqidir.

Dövlətçiliyimizə, muğama, Üzeyir bəyə hörmət əlaməti olaraq, muğamın, "taleyinə" cavabdeh olan hörmətli münsiflər heyəti,(professorlar: Ramiz Zöhrabov, Ramiz Quliyev, Arif Babayev, Səkinə İsmayılova və başqaları) insafən yekdilliklə öz kəskin iradlarını-etirazlarını vaxtında bildirməli idilər! Təəssüf ki, ....?!

Muğam ifaçılıq sənəti tarixinə qara ləkə kimi düşən bu Muğam SMS ŞOU oyunu hələ çox illər muğam təəssübkeşlərini incidəcək və düşündürəcəkdir!

## d) Nəticə

Keçmiş əsrlərdə öz təsiri-sədasını saxlamış muğamın tarixinə nəzər etdikdə məlum olur ki, dövrün məşhur musiqiçi alimi Əbdülqadir Maraği (XVI əsr) özünün "Nəğmələrin vəzni" və "Nəğmələr toplusu traktatında" aşkar qeyd edir ki, **"Muğamın mahiyyəti, İlahi-Təalanın birbaşa ilikasıdır".** Elmi mənbələrdən o da məlumdur ki, hələ ona qədər XII-XV əsrlərdə musiqi estetikası tarixində bu fikir sabitləşmişdir.

Bu, orta əsrlərin muğama olan ciddi münasibətidir! XX əsrin əvvəli... Şərqdə ilk muğam operası yarandı. Simfonik muğam janrı icad edildi. Muğam nota köçürüldü. Muğam – caz sintez musiqisi, dünyaya nümayiş etdirildi və s.

XX əsrin axırı – XXI əsrin əvvəli... Dinləyici təsəvvüründə muğam ifaçılıq sənətinin həyatiliyinə onun fəlsəfi məzmununa kölgə salan – SMS ŞOU, fonoqrammalı ifa və nümayiş üsulları (muğam-teatr-tamaşa və muğam-film-kompozisiya) qabardılaraq önə çəkilir?! Hansı ki, Üzeyir bəyin tövsiyyəsinə görə **"Canlı muğama xüsusi diqqət verilməlidir ki, muğamlar öz sərbəst əhəmiyyətini itirməsinlər".**

Arzu edək ki, qeyd olunan nöqsanlı, eybəcər ifa üsullarının **elmsizliyi**, dövlət və elmi təşkilatlar tərəfindən araşdırılacaq və Beynəlxalq Muğam Mərkəzinin fəaliyyətində nəzərə alınacaq ki, muğam-ifaçılıq sənəti kəsb etdiyi bədii, ideya və fəlsəfi mahiyyətindən uzaqlaşmasın.



Muğam ifaçılığı EŞQ zəminində möcvud olan bir sənətdır. **Bu sənətdə nə inqilaba, nə də ki, islahata ehtiyac yoxdur!** Dahi Füzulinin təbirincə desək **"Eşq diyarına tədbirlə girmək olmaz, əgər girsən də o fayda verməz"!**

* * *

## *Qeyd*

Ümumən muğamın mahiyyətinə aid silsilə məqalələrlə dövrü mətbuatda çıxış etmişəm və hər dəfə uğurlarıma ilk sevinən, elmi rəhbərim fəlsəfə elmləri doktoru, professor, təvazökar, qayğıkeş Gülnaz Abdullazadə olmuşdur.

Lakin axırıncı dəfə yazıya marağını gizlədə bilməyən Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi birbaşa mənə zəng edərək, doğrudan da, məzmunlu, tutumlu məqalə olduğunu etiraf etdi və mənimlə görüşmək arzusunda olduğunu bildirsə də, mən bu arzunu reallaşdıra bilmədim.

**Azərbaycan E.A. Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının 12 may 1997-ci il tarixli qərarı ilə təsdiq olunmuş namizədlik dissertasiyası mövzusu «Füzuli yaradıcılığında sufi motivləri və Muğam sənəti. Fəlsəfi Estetik təhlil» - barədə.**

*Bu mövzu muğam sənətinin fəlsəfi mahiyyətinin yeni bir fondan, təsəvvüf fəlsəfəsi əsasında təhlilini nəzərdə tutur. Mövzunun maraqlı cəhəti odur ki, burada təsəvvüf fəlsəfəsi bütünlüklə Füzuli yaradıcılığı ilə əvəz olunmuşdur.*

*Çünki Füzuli öz fəlsəfi – poetik yaradıcılığı ilə təsəvvürü ən yüksək irfan səviyyəsinə yüksəltmişdir.*

*Bütün bu incəlikləri lazımınca duyan mÜəllif Rəhim MÜseyibovun mövzu istiqamətindəki elmi məqalələrinin keyfiyyəti onu söyləməyə imkan verir ki, dissertant bu elmi işi ilə muğam sənətinin fəlsəfi fikir tarixinə düşə biləcək nəticələri əldə etməyə qadirdir.*

**Elmi rəhbər**

**Fəlsəfə elmləri doktoru, professor: G.A.Abdullazadə.**



***Hər xilqətcə, gərçi bir səbəb var,***
***Aya, səbəbi kim etdi izhar.***
***Gər, kaf ilə nundan oldu aləm***
***Aya, nədən oldu kafü-nun həm.***

*(Füzuli)*

## *2. MUĞAM HƏQİQƏTİNƏ DİNİ-FƏLSƏFİ BAXIŞ*

### a) Musiqi (muğam) həqiqətinin axtarışı tarixindən

Bu həqiqətdir ki, musiqinin o cümlədən, muğamın yaranışığı haqqında yekdilliklə qəbul oluna biləcək bir qənaət hələ ki, yoxdur. Musiqinin kökünün (mənşəyinin) bilavasitə təbiətlə yaxud dinlə bağlı olmaması haqqında konkret, birmənalı fikir söyləmək, qeyri-obyektıv olardı. Bu məsələyə qismən aydınlıq gətirmək xatirinə, ardıcıl olaraq musiqinin və muğamın yaranışığının aşkarlanması cəhdləri tarixinə qısa nəzər edək:

#### Musiqi

Musiqi mədəniyyəti tarixində bəzən təbiətin, musiqi sənətinin yaradıcı olması fikri irəli sürülmüşdür: məsələn yunan materialist filosofu Demokrit (b.e.ə. 460-370-ci illər) və onun davamçısı Roma mütəfəkkiri, materialist Tit Lu Kretsikar (b.e.ə. 99-55-ci illər) iddia edirdilər ki, musiqi sənəti, quşların mahnısının (civildəməsinin) təqlidindən yaranmışdır.

Qədim Şərq və Antik fəlsəfəsinə görə musiqi səsinin ilkin mənası onun ilahiliyidir. Yəni, həqiqi ideyanın

obrazını daşımasıdır. Belə ki, Qədim misirlilər güman edirdilər ki, musiqini **İSİDA, OSİRİS** və **TOT** adlanan ilahilər icad etmişlər.

Yunanlar musiqi sənətinin ibtidasını ilahilərin ən gözəli olan **EVTERPA** ilə əlaqələndirmişlər.

Maraqlıdır ki, Hindistanda belə rəvayət olunur ki, guya **BRAXMA** Tanrısı musiqini **BXARATA** adlı aqil-həkimə faş etmiş, o da öz növbəsində onu insanlara yetirmişdir.

Düzdür, Qədim dövrün bir çox mütəfəkkirləri, o cümlədən musiqinin ixtiraçısı hesab olunan Fisaqor (Pifaqor), eləcə də Əflatun (Platon), Ərəstu (Aristotel) musiqinin ilahiliyini təsdiq etmiş və onun zəruriliyini bilavasitə dini düşüncələr ilə bağlamışlar.

Dini zəmində musiqinin qaynağı haqqında başlıca nəzəriyyələr bunlardır:

*Bəzmi-Ələt nəzəriyyəsi*

İlk dəfə Cüneyd Bağdadi və Rüveym tərəfindən irəli sürülmüş və təsəvvüf və digər təriqətlər arasında yayılmışdır.

Quranın bildirdiyinə görə ("Əraf"surəsi) Allah insanların öncə ruhlarını yaratmış, sonra onlardan **"Mən sizin Rəbbiniz deyiləmmi?"** sormuş. Ruhlar da **"Bəli, Sən bizim Rəbbimizsən. Biz buna şahidik"** dedilər. **"Baxın, Qiyamət günü deməyəsiniz ki, biz bundan xəbərsizdik".** Ali harmoniyaya malik "Mütləq Gözəl" (Tanrı) səsinin ləzzəti, o zövq ruhlarda qalmışdır. Dünyada gözəl səsə qarşı olan meyl, ruhlarda əzəli müraciətə (səsə) qarşı var olan istəyin aşkarlanmasıdır. Musiqi o səsin ləzzətini verə



bilməsə də, ona bənzərini verir. ***"Musiqi ruhun qidasıdır"***deyimi buradan yaranır.

Bu nəzəriyyəyə əsaslanan Mövlana Rumi bildirir ki, ***ruhlar bu dünyada*** **vətənlərindən ayrı, qürbətdədirlər. Onların əsl vətənə qarşı duyduğu istək və həsrəti dilə gətirmə ehtiyacından musiqi qaynaqlanmışdır.**

*İlahi gözəllik nəzəriyyəsi*

Bu düşüncəyə görə İlahi və əzəli gözəllik, duşüncənin və zəkanın qavraya bilməyəcəyi bir tərzdə ruhlar tərəfindən seyr edilməkdədir. İlahi gözəlliklərin təcəllalarını seyr edərkən aşiqlər hal və məqamlarına görə şövq, zövq, vəcd və səma sahibi olurlar. Ruh zövq verən nəğmələri, ahəngli səsləri dinlədiyi zaman bunun təsiri altında qalır.

*Ruhun erkəkliyi, nəfsin dişiliyi nəzəriyyəsi*

Ruhun nəğmələrdən zövq almağının digər bir səbəbi də budur. Nəfs ilə Ruh arasında əzəldən bir qarşılıqlı münasibət mövcuddur. Bunun səbəbi nəfsin dişiliyi (ünüset) və ruhun erkəkliyidir (zükürət). Dişi ilə erkək arasında qarşılıqlı bir meyl və sevginin olması təbiidir. Ruh nəğmələrdən zövq alır, çünki bu nəğmələr iki aşiq (sevən) arasında keçən və onları məst edəcək dərəcədə əyləndirən bir ahəngdir.

*Fisaqorun (Pifaqor) nəzəriyyəsi*

Bu nəzəriyyəyə görə musiqini Süleyman Peyğəmbərin tələbələrindən olmuş, həkim Fisaqor kəşf

etmişdir. Bu elmi icad etməsi, onun yuxuda gördüyü bir vaqiə ilə əlaqədardır. Bu vaqiənin təsiri altında dəmirçilərin çəkic səslərini dinləyərək, səslər arasında ahəngi düşünmüş və nəhayətdə bir alət yaradaraq ilahilər oxumuşdur.

## Muğam

Musiqidə olduğu kimi muğamın da ibtidasının təbiətə, yaxud dinə bağlanması cəhdləri olmuşdur. Muğam həqiqətinin təbiət hadisələri ilə bağlılığı mülahizəsini XIX əsrdə M.M.Nəvvab özünün **"Vüzuhil – Ərqam"** əsərində belə şərh edir:

**"Rast" – bahar küləyindən, "Rəhab" – yağışın damcı – damcı tökülməsindən, "Cahargah" – göy gurultusundan, "Dügah" – fəvvarədən, axan su səsindən, "Mahur"- üzgüçülük zamanı su şappıltısından, "Nəva" – aşiqlərin naləsindən, "Şahnaz" – bülbüllərin cəh-cəh sədasından yaranıb.**

Muğam sənətinin etnik soy-kök araşdırıcıları Muğam həqiqətini "Avesta"nın müəllifi Zərdüştün mənsub olduğu Muğ (Midiyada 6 qəbilədən biri) tayfası ilə əlaqələndirir.

Maraqlıdır ki, Füzulinin "Həft-Cam"ında Muğ ilə əlaqədar beyt var:

***Muğların şəfa evinə üz tut***
***O xəstəliyin əlacını badədə axtar***

Burada Muğ evi yəni, musiqi (muğam) və irfan ilə hikmət təbliğ edən idrak mənbəyi, kamal xəzinəsi kimi tərənnÜm olunan ilahi meyə işarədir.



Bəzi orta əsr yazılı mənbələrdə 7 əsas muğamın kəşfini fars musiqisi Barbədlə (b.e.3-7 əsrlər Sasanilər dövrü) yaxud dini peyğəmbərlər, o cümlədən Bibliya Peyğəmbərləri ilə **("Rast" – Adəmdən, "Hicaz" – İbrahimdən, "Rəhavi" – İsmayıldan, "Üşşaq" – Yaqubdan, "İraq" – Yusifdən, "Kuçək" – Yunusdan, "Hüseyni" – Davuddan)** bağlılığı iddia olunur.

XVI əsrin məchul mÜəllifinin "Musiqi haqqında" traktatında Musa Peyğəmbərin 12 məqam ixtiraçısı olması haqqında əfsanələr önə çəkilir. Onların adları: ***Rast, İsfahan, Hicaz, İraq, Kuçək, Hüseyni, Üşşaq, Nəva, Busəlik, Rəhabi, Zəngulə, Büzurg.*** Hətta Üşşaq muğamının ən qədim olması ilə əlaqədar, əsas nəğmələrin məhz "Üşşaq" ahənginə əsaslandığı qeyd olunur. Musiqidə olduğu kimi yaranışıqda da "Üşşaq"lığın (aşiq-məşuq) öndə olmasının Mövlana Rumi belə şərh edir:

***"Bu cahanın bütün zərrələri, əzəli hökmün tələbi ilə qoşa yaranıb. Hər cüt, hər ikili, aşiq-məşuqluğa məhkumdur".***

Adəm-Həvva dini həqiqəti ilə necə də uzlaşır, bu dəqiq deyim.

Bəzi yazılı mənbələrdən məlum olur ki, elmə söykənmədən səhv olaraq muğamın yaranışığını Antik dövrün Yunan mütəfəkkirləri ilə əlaqələndirmək cəhdləri də olmuşdur. Tədqiqatlar göstərir ki, Şərq musiqi alimləri Qədim Yunan filosoflarının musiqi nəzəriyyələrini yüksək qiymətləndirmiş və öz əsərlərində həmin nəzəriyyələrin təsirin əks etdirmişlər. Musiqişünas alim X.S.Kuşnyarov aşkar qeyd edir ki: ***"Yunan musiqi dili ilə muğamat və avazata əsaslanan Şərq xalqlarının musiqi dilini***

***müqayisə etmiş olsaq, bunların arasında tam mənası ilə ümumi və müştərək olan cəhətlər tapa bilmərik".***

Musiqi mədəniyyəti tarixindən o da məlumdur ki, əgər bütün Qərbin Orta əsr traktatlarında musiqi haqqında elmi-nəzəri bilgilər yalnız kilsə sənəti əsasında aparılmışsa, müsəlman Şərqində Əl-Kindi, Əl-Fərabi, İbn-Sina, Əl-Qəzzali, Nizami, Rumi, Cami, Füzuli, S.Ürməvi, Ə.Maraği və s. dahilər tərəfindən ümumiləşdirilmiş musiqi haqqında elmi - fəlsəfi – nəzəri bilgilər, bütövlükdə muğam sənətinə aid professional musiqinin nəzəri-təcrübi problemləri əsasında aparılmışdır.

IX-XI əsrlərdə Əl-Fərabi, Əl-Kindi, İbn-Sina, Əl-Xarəzmi kimi dahilər tərəfindən işlənib hazırlanmış Orta əsr Şərq musiqi nəzəriyyəsinə, sonralar həm Şərq, həm də Qərb musiqi nəzəriyyəçiləri istinad etmişlər, əsaslanmışlar.

Əsasını, musiqinin kosmoqonik kateqoriyası kimi "Pifaqor anlayışı" təşkil edən, əsas istiqaməti universal dünyagörüşü məğzi daşıyan Orta Əsr Şərq Musiqi Elmi nəzəriyyəsi, məhz İslamın təsiri altında formalaşmış, sərbəst elmlər sisteminə düşmüş və "İntibah" dövrünü yaşamışdır. Muğamın janr kimi formalaşması və inkşafı, bilavasitə "Müsəlman" Şərq Renessansına səbəb və təkan olan, təsəvvüflə bağlıdır.

Məlumat üçün qeyd edim ki, Qərb İntibahı (XIV-XVII əsrlər) xristianlıqla Antik ənənənin, Şərq İntibahı isə (XII əsr) İslamla təsəvvüfün birləşməsi – sintezi kimi meydana gəlmişdir.

12 sütunlu 6 bürclü möhtəşəm Şərq muğam "qəsri", məhz təsəvvüf zəminində ucaldı.



Mürəkkəb anlam olan məqamın (muğamın) qaynaqlarını, elmi bilik sistemi olan faktlara və məntiqi təhlilə söykənməyən yozumlarda, rəvayətlərdə, əfsanələrdə axtarmaq uğursuz cəhddir.

Professor G.Abdullazadə haqlı olaraq qeyd edir ki, musiqiyə aid ortodoksal müsəlman traktatları, məqamın qaynaqlarını eləcə də muğam sənətinin prinsiplərini üzə çıxarmağa və onun mənəvi məna qatlarını açmağa qadir deyildir. Alimin fikrincə bu məqsədə çatmaq üçün Sufizmə (təsəvvüfə) müraciət daha səmərəli nəticə verə bilər.

## b) İslam (təsəvvüf) və Muğam sənəti

Musiqiçilər haqlı olaraq etiraf edirlər ki, məqamdakı musiqi proseslərini təsvir etmək üçün onun adekvat bölgüsünə imkan verən müvafiq musiqi anlayışları (bilgiləri) olmadığından, məqamat sənətinin prinsiplərini üzə çıxarmaq çox çətindir. Lakin bu istiqamətdə, məqamın bilavasitə qaynaqlandığı təsəvvüf prinsipləri ilə müqayisəli təhlili faydalı görünür. Çünki, təsəvvüfün söykəndiyi Quran məntiqi və Peyğəmbər hədisi mövcuddur. Unutmaq olmaz ki, təsəvvüfün musiqi (muğam) sənətində təzahürü kimi anılan aşiqanə qəzəllər, vəhdəti-vücud təliminin – təsəvvüf fəlsəfəsinin ideya daşıyıcısıdır.

Bu bir həqiqətdir ki, sufilər muğam ahənginin sabitliyi faktına istinadən, onların məhz Allahın əta etdiyi vəhy olduğunu iddia edirlər. Onlar muğam sənətini, bitmiş üsul – rəmz, kamil sənət hesab edirlər. Doğrudan da Şərqdə kamil və həqiqi musiqi, reallığın ahəngdarlığını və ruhunu (çoxluğun təklə qovuşmasını) qoruyub saxlayan

İlahi musiqi sayılır. Sufilər musiqi (muğam) vasitəsilə nəinki ibadətin kommunikativ (ünsiyyət) rolunu həyata keçirir, həmçinin müəyyən emosional-psixoloji hal yaradırlar. Musiqi (muğam) vasitəsilə gözəgörünməz, ifadə olunmazın (Tanrının) aşkarlanması və ifadəsi prinsipi, məhz sufizmlə (təsəvvüflə) şərtlənmişdir. Muğamda sufi estetika prinsipləri və rəmzlərinin üstünlük təşkil etməsi, onların müqayisəli təhlili üçün maraqlı zəmin yaradır.

İdeya – bədii – estetik məzmun, forma baxımından muğam sənətinin, İslami (təsəvvüf) prinsiplərlə uzlaşan xüsusiyyətlərini, başqa sözlə Dəstgah fəlsəfi konsepsiyanın, vəhdət – vücud fəlsəfəsinə bağlılığını önə çəkmək istərdim.

*Məzmun baxımından*

Müsəlman metafizikası postulatının tələblərinin (əbədilik və dəyişkənlik) müsəlman incəsənətində, o cümlədən muğam janrında vacib şərt (sabit ahəng, lad-məqam və dəyişən improvizasiya) kimi çıxış etməsi. Belə ki, muğam sənətinin daimi yaşarlığını təmin edən, məhz ziddiyətli anılan bu iki estetik prinsipidir.

*Quruluş – struktur baxımından*

Maraqlıdır ki, istər muğam, istərsə muğam dəstgahının quruluş gözəlliyində məhz İslami ideyalar öz əksini tapır. Belə ki, İslamda (təsəvvüfdə) çoxcəhətli dünyanın vahid başlanğıca (Tanrıya), muğamda isə bir-birinə meylli (mehrli-məhəbbətli) səslər, pərdələr məcmuusunun sabit ahəngə (məqama), dəstgahda isə çoxsaylı şöbə, guşə, təsnif və rənglərin vahid ahəngə (lad-



məqama) müncər edilməsidir. Doğrudan da, muğam, təsəvvüfdəki ***"Çoxludla birlik, birlikdə çoxluq"*** sirrinin təzahürüdür.

*Vahid mərkəz prinsipi*

İslamda Quranın, Kəbənin, Peyğəmbərlər silsiləsində Məhəmməd Peyğəmbərin kəsb etdiyi vahid aparıcı mərkəz (mövqe) olması, muğam dəstgahında isə ideya baxımından birinci, ən böyük şöbə kimi çıxış edən "Mayə"nın aparıcı mərkəz olması ideyasıdır. Belə ki, bütün şöbə-guşələr məhz "Mayə" şöbəsinə birləşərək, dəstgah silsiləsini əmələ gətirir. Obrazlı desək Peyğəmbərlər silsiləsi Məhəmməd Peyğəmbərə bağlı olduğu kimi dəstgah silsiləsi də "Mayə"yə bağlıdır. Yəni, "Mayə"siz muğam dəstgahı olmaz.

Musiqi alimlərinin tədqiqat iddiasına görə muğamlarda aşağı (bəm) istiqamətli ardıcıl pilləli hərəkətlər, yuxarı (zil) istiqamətli ardıcıl pilləli hərəkətlərdən daha çoxdur. Bu, muğamın timsalında sabit ahəngə (məqama), dəstgahın timsalında isə "Mayə"yə bağlılığa əyani sübutdur.

Çox mənalı "Mayə"nin muğam fəlsəfəsi ilə əlaqəsinə aydınlıq gətirmək üçün qeyd edim ki, muğamlar özündə, ətrafa emosional münasibəti və rassional ideyanı birləşdirən sintetik məzmunu və dünya haqqında rassional bilik xüsusiyyətlərini birləşdirir. Deməli, muğamların daşıdığı spesifik ideya xüsusiyyətlərindən asılı olaraq, "Mayə"nin kəsb etdiyi məna da dəyişir. Sözsüz ki, dünyəvilik baxımından "Mayə" özül – təməl-bünövrə kimi təfsir olunar. Lakin "vəhdəti - vücud" təlimi baxımından

Məhəmməd Peyğəmbərin nuru, Peyğəmbərlər silsiləsinin təkamülündə səbəb – niyyət – məqsəd olduğu kimi, dəstgah silsiləsində dəstgahın ideya daşıyıcısı kimi çıxış edən "Mayə"nin "Vücudu-Küll"dən alınan İlahi başlanğıc –səbəb–niyyət kimi təfsiri, daha münasib görünür. Maraqlıdır ki, İslamda ibadət, niyyətin nəticəsi olduqda mötəbər sayılır və qiymətləndirilir. Bu, Tanrının özünün qoyduğu kamil üsul – rəmzdir, müsəlman etiqadının əsas qaydalarından biridir.

Məlumdur ki, dəstgahın ümumi əhval-ruhiyyəsi, obrazlı, emosional aləmi, bir sözlə "niyyəti", bütün bunları özündə ehtiva edən (yığıb cəm edən) və musiqi baxımından "Mayə"nin kiçildilmiş modeli (bir oktava zildə təkrarı) olan "Bərdaşt"da tapır. "Bərdaşt" sözünün farscadan "yığın-toplama" kimi tərcümə olunması da bunu təsdiqləyir.

Muğan dəstgahında "Mayə"nin ("Bərdaşt"ın) məqsəd – niyyət daşıyıcısı olması ideyasını, İslamda Məhəmməd Peyğəmbər nurunun əzəldən, yaranışıq üçün məqsəd – niyyət olması dini həqiqəti ilə, mənaca eyniləşdirirəm. Füzuli bu halı belə nəzmə çəkib:

***Ey – padşəhi-səriri-lövlak***
***Məqsudi-vücudi-xakü əflak***

Yəni, ey yerin-göyün vücudunun məqsədi!

*Dairəvilik və təkrarlanma prinsipi*

İslamda Allahın əbədiliyi kimi çıxış edən və bir-biri ilə əlaqəli olan dairə (yekunun başlanğıca müncəri-qapanma) və təkrarlanma prinsiplərinin şərhinə, dahi



Füzulinin, Məhəmməd Peyğəmbərin vəsfinə dediyi beyt ilə başlayıram:

***Sər dəftəri - ənbiyayi mürsəl***
***Onlara həm axirü-həm əvvəl***

yəni, Peyğəmbərlər silsiləsinin əvvəli və axırı Məhəmməd Peyğəmbərdir.

Deməli, dairəvilik də Tanrının özünün qoyduğu kamil üsul-rəmzdir.

Quran məntiqindən çıxış edən, təsəvvüfün təqdim etdiyi modelə görə ruhun inkşafı, dairəvi trayektoriya boyunca vahiddən (Tanrıdan – Ülvi aləmdən) parçalanaraq, aşağı aləmə (süflə) enməsi (nüzul) və yenidən **parçalanmadan** Vahidə (Tanrıya) doğru yüksəlmə (uruc) istiqaməti üzrə gedib qapanır.

Cüneyddən **"son nədir?"** deyə soruşduqda **"əvvələ dönməkdir"** cavabını verir.

İbn-Əl Ərəbi təbirincə desək: **"Hər bir iş O-ndan başladığı kimi, O-na qayıdır".**

Dəstgahların tərtibi və ifası da dairəvilik (qapanma) prinsipi üzrə aparılır. Belə ki, "Mayə"dən başlanan dəstgah "Mayə"də tamamlanır.

Musiqi tədqiqatından o da məlumdur ki, dini-fəlsəfi məna daşıyan dairə anlayışı muğamların qurtuluşunda da aşkarlanır. Belə ki, oktava həcmində (zülkül) düzülmüş səslərin məcmusu, dairə adlanır. Birinci səs sonuncu ilə üst-üstə düşəndə dairə əmələ gəlir. Məncə dairə (çevrə) cızan "sirkul" sözü "zilkul" sözündəndir.

Dəstgahın mühüm komponenti kimi çıxış edən əruzda da dairəvilik var. N.Tusi təbirincə desək ***"Özündə***

***məntiq elminə aid olan təxəyyülü və musiqi elminə aid olan ritmi birləşdirən əruz"***un dairələri, musiqi (muğam) dairələrinin tamamlanmasında aparıcıdır.

Üzeyir bəyin təbirincə desək ***"Əruzla yazılmış qəzəlin vəzni, dəstgahın musiqisi üçün dəxi vəzn məqamıdır".***

Maraqlıdır ki, dini oxumalarda, o cümlədən Quranın tilavatında da musiqi (avaz) və mətnin vəhdəti, mətnin aparıcı rolu nəzərə alınaraq əldə edilir və musiqi (avaz) ritminin müəyyənləşməsinə təkan verir.

Əbədiliyi özündə ehtiva edən, eləcə də mömin şüurunda ənənəni formalaşdıran **təkrarlanma** prinsipinin təzahÜrlərini, Azanın musiqili səslənməsində və Quranın ritmik strukturunda və sujet kompozisiyasında aşkar müşahidə etmək olar. Müsəlman namazına çağırış forması olan Azanda "Allahu Əkbər" və "La İlahə İllallahü" frazalarının 4 və 2 dəfə təkrarlanması, yaxud "Bismillahir rəhmanir-rəhim"in, eləcə də Quranın **"Rəhman"** surəsində **"Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız"** ayəsi 30 dəfəyə yaxın təkrar səslənir. Fikrin təkrarlı hərəkəti, ifaya, bütövlükdə dövrülük xüsusiyyəti verir, bu da öz növbəsində onun məğzinin dərk olunmasına şərait yaradır.

Ümumən təkrarlanmanı, muğam, eləcə də dəstgah kompozisiyasının struktur quruluşunda və inkişaf dramaturgiyasında müşahidə etmək olar. Yerinə düşər qeyd edim ki, əgər İslamda (təsəvvüfdə) təkrarlanma bilavasitə ənənə sabitliyinə xidmət edirsə, muğamda bu, daha geniş, yeni sərbəst improvizasiyanın hesabına yeniliyə aparır.



Deməli, dairəviliklə yanaşı, təkrarlanma da Tanrıya aid olan üsul-rəmzdir.

Konkret olaraq təkrarlanma prosesini, "Mayə"də ("Bərdaşt"da) və "Zabul-Segah" dəstgah kompozisiyasının tərtib quruluşunda izləyək.

Belə ki, "Mayə" ("Bərdaşt") şöbəsi, musiqi-intonasiya baxımından bu və ya digər dərəcədə dəstgah silsiləsi şöbələrinin xüsusiyyətlərini özündə cəm edir və ifa prosesinin gedişində "Bərdaşt"ın musiqi intonasiyaları geniş miqyasda improvizasiya edilir – **təkrarlanır.** Obrazlı desək, Ruhi-Əzəm (Məhəmmədin Nuru) Peyğəmbərlər silsiləsinin hər birində bir isim və sifət ilə təcəlla etdiyi kimi, yaxud məhəbbətin bütün növlərində İlahi Eşqin zərrələri olduğu kimi, dəstgahın da bütün şöbələrində "Mayə"nin ("Bərdaşt"ın) musiqi "zərrələri" vardır.

Məhəmməd Peyğəmbər Həzrətləri Nübuvətin sonuncusu olduğundan özündən əvvəlkilərin hamısının vəsflərini və keyfiyyətlərini özündə əks etdirməklə Peyğəmbərlik çevrəsini (silsiləsini) formalaşdırdı.

Eşqin (Ruhun) də inkişaf çevrəsi beləcə. İbn-Əl-Ərəbinin təbirincə desək ***"təsəvvüfdə İlahi Eşqin zərrələrinin təkamülü (inkşafı) ilə məhəbbətin müxtəlif növləri, son nəticədə Yaradan (Xaliq) ilə yaradılan (məxluq) arasında qarşılıqlı məhəbbətə (İlahi Eşqə) müncər edilir".***

Dəstgahın da inkişafı boyu "Mayə"nin ("Bərdaşt"ın) musiqi zərrələrinin müxtəlif muğam şöbələrində, nisbətən geniş formada inkişaf etdirilib, yenidən "Mayə"yə enməsi – bu, dəstgahın ideya-niyyətinin reallaşması, başqa sözlə

dəstgahın kəsb etdiyi forma – məzmun bitkinliyinin təsdiqidir.

Dəstgahların tərtibində təkrarlanma prosesini "Zabul-Segah" dəstgahının nümunəsində aşkar etmək olar:

"Bərdaşt" – "Mayə", "Zabul", "Manəndi - müxalif", "Segah", "Zil-Zabul", "Zil manəndi - müxalif", "Zabul Segaha ayaq".

*İslamda (təsəvvüfdə) və Muğamda gözəl avaz prinsipi*

Dini anlamda Yaranışıq (təcəlla) "kun" (Ol!) əmri ilə olmuşdur. Bu halda təcəllanın səbəbi və əvvəli sözdür. Sıravi müsəlmanın həyatı daima görünən sözün xəyalı altında keçir. Elə buna görə də ədəbiyyatın, (xüsusilə poeziyanın) musiqi aləmində tutduğu yer, müqayisəyə gəlməz dərəcədə yüksəkdir. Əlbəttə, burada Quranın da poeziya nümunəsi olması faktını unutmaq olmaz. **"Dünyanın gözünü açan söz"**(N.Gəncəvi), sirrlər xəzinəsindən gəldiyinə görə (**"Sirrlər xəzinəsinin xəzinədarı"** – Füzuli). İslamda o, cümlədən təsəvvüfdə hər şey sözdən ibarətdir. Füzuli demiş:

***Can sözdür əgər bilirsə insan***
***Sözdür ki, derlər özgədir can***

Maraqlıdır ki, Qədim dövrün ("Əhdi-ətiq") kitablarında ("Təsniyyə" səfərinin 18 fəsli) Tanrı adından, lakin Musa Peyğəmbərin dilindən deyilir: **"Onlar üçün sənin kimi öz qardaşlarının içindən Peyğəmbər seçəcəm və onun ağzını öz kəlamlarımla açdıracam ki, buyurduğumu onlara çatdırsın".**



Yəni həmin Peyğəmbərin möcüzələri, onun sözlərindəndir. Məlumdur ki, möcüzəsi sözündə olan yeganə Peyğəmbər, İslam Peyğəmbəridir ki, bu sözlər Quran vasitəsilə deyilmişdir. Bu həqiqəti Quran da təsdiq edir. Belə ki, Quranda dəfələrlə xatırlanır ki: **"O (Peyğəmbər) özündən söz demir, sözləri vəhydən başqa bir şey deyildir".** ("Nəcm" surəsi).

Yenə Quranda Peyğəmbərin adından aşkar qeyd edilir ki: ***"Əməl etdiklərim yalnız mənə vəhy olunanlardır".*** ("Ənam" surəsi).

Yaxud başqa bir ayədə Peyğəmbər buyurur ki, ***"Mən, vəhy ediləndən başqa heç nəyin ardınca getmirəm".***

İslamda xoş avaz faktorunun vacibliyi, ilk öncə Məhəmməd Peyğəmbərin möcuzəsində – vəhy olunan sözlərində, başqa sözlə Tanrı kəlamlarından ibarət olan və "Oxu" mənasını verən Quranın tilavəti və Azanın səslənməsi ilə sıx bağlıdır. Deyilən sözün dinləyiciyə xoş təsir etməsi üçün, Məhəmməd Peyğəmbər, gözəllik arxetipinə görə "***Allah gözəldir, gözəlliyi sevir***" kəlamına uyğun olaraq, onu gözəl səslə bəzəməyi tələb etmişdir. Təsadüfi deyildir ki, müsəlmanların müqəddəs kitabı – Quranın avazla və gözəl səslə oxunması, müsəlmançılığın rövnəqi hesab edilmişdir. Bu səbəbdən də qiraət – "Təcvid" təlimi, Quran elmi kimi təşəkkül tapmağa başlamışdır.

Məhəmməd Peyğəmbərin hədisində deyilir: "***Quranı, ürək açan məlahətli səsinizlə bəzəyin. Məlahətli səs, Quranın nüfuzunu artırar və təsirini gücləndirər".***

Peyğəmbər buyurmuşdur ki: ***"Quranı avazla oxumayanlar bizdən deyil".***

O yenə buyurmuşdur ki, *"Hər şeyin özünə məxsus ziynəti var. Quranın da ziynəti ahəngdar səsdir".*

Əbu Qüşeyri (XI əsr) özünün Sufiliyə dair məşhur traktatında Məhəmməd Peyğəmbərin bir hədisini misal gətirərək deyir: ***"Allah Cəbrayıla əmr edir ki, onun sədaqətli qulu olan insanın dualarını, zövq xatirinə qəbul etməsin. Çünki, Allahın həmin qulunun səsi, Allaha ləzzət verirdi".***

Gözəl avaza malik olmuş "Zəbur"un ifaçısı Davud Peyğəmbərin də burada xatırlanması yerinə düşər.

Təsəvvüfdə xoş avaz, İlahi nemət, zatı kamillik kimi dəyərləndirilir. Müdrik Füzuli "Həft -Cam" əsərinin "Mütriblə söhbət" bölməsində belə buyurur:

***Hikmətlər açan nitqdən xəbərsiz olma***
***Çünki insan bədənində ondan başqa yox can.***
***Huşun rübabı ilə belə aydın oldu ki,***
***Danışan diri, sakit oturan ölüdür.***

Yaxud Füzulinin "Leyli və Məcnun"un da:

***Avaziyü, zehniyü, cəmali***
***Qılmışdı müqəyyət əhli-halı***
***Kim olsa bu üç kəlama qabil***
***Deməк olur ona zati-kamil.***

Füzuli xoş avazın (musiqinin) təbiiliyini – onun hətta canlı təbiətə (quşlara) sirayətini, qeyri-adi səs, xoş avaz sahibi olan Məcnunun timsalında belə təsvir edir:

***Avazı idi bəsi mülayim***
***Üslubu dürist, üsuli qaim***



***Təhrir ilə hər çəkəndə avaz***
***Quşlara tutardı rahi-pərvaz***

İfaçılıq sənətində xoş avaz, mühüm komponent kimi, söz (qəzəl) və muğam ahənginin harmoniyasının təminatçısıdır.

*Təsəvvüf və muğam sənətində hal və məqam prinsipi.*

Sufizmə aid olan hal və məqam anlamalarının, muğam ifaçılıq sənətində əsas prinsip kimi çıxış etməsi mövzusu ətrafında, kifayət qədər elmi araşdırmalar mövcuddur. Mən, hal və məqamın, təsəvvüf və muğam sənətindəki təzahürləri və paralellikləri barədə qısa müqayisə ilə kifayətlənəcəm.

Başqa sözlə, elmi ədəbiyyatda izahına rast gəlmədiyim – muğam sənətinin birbaşa bağlı olduğu **"Məqamlar"** sufi təliminin qısa şərhinə çalışacağam.

Təhlildə istinad etdiyim mənbə - "Mütləq Gözəl" (Tanrı) sufi anlamını daha işıqlı, daha tutumlu açıqlayan, əsasında iman dayanan, dini-mistik xarakterli təsəvvüf ("Vəhdəti Vücud") fəlsəfəsidir. Yönümünün aşkarlanmasında zaman-zaman təhriflərə-kənarlaşmalara yol verilmiş Füzuli fəlsəfəsi məhz budur.

Təsəvvüf, ilkin mənəvi başlanğıca Eşq ilə qovuşmağı və bu qovuşma üçün daxili kamilləşmə (təkamül) yolunu tutmağı vacib bilir. Daxili kamilləşmə üç mərhələdən keçir:

1. **Şəriət** (təriqül-əxyar (yəni xeyirxahlıq)) – yəni Quran və sünnəyə tabe olmaq.

2. **Təriqət** (təriqül-əbrar (yəni qeyrət, inam)) – yəni riyazat, zühd və s. yolu.
3. **Həqiqət** (təriqüş – şüttar (yəni ayıqlıq, müdriklik)) – yəni Allaha Eşqlə, məhəbbətlə vasil olmaq.

Mistik təcrübəni mənimsəyənlər bu üç mərhələyə uyğun olaraq **talib**, **salik** və **vasil** adlanırlar.

Daxili kamilləşmənin bu 3 mərhələsi, dərk etmənin də 3 səviyyəsini formalaşdırır: 1. **Elm əl-yəqin**; 2. **Eyn əl-yəqin**; 3. **Həqq əl-yəqin**.

Təsəvvüfün qnesoloji baxışlarının əsasında dayanan bu üç səviyyə, vəhdətin də üç mərhələsini formalaşdırır: **1. Vəhdəti-şühud; 2. Vəhdəti – Küsud; 3. Vəhdəti-vücud.**

Məlumat üçün qeyd edim ki, sufi **"Həqiqəti dərk etmə yolları"** – yaxud **"Məqamlar"** nəzəriyyəsi məntiqi olaraq **"Vəhdəti-vücud"** konsepsiyasına daxildir. Mistik dialektikasının əsası, məzh Əbu Qüşeyri və digər ilkin sufilərin qəbul etdiyi **"Məqamlar"** haqqında dialektik təlim olan "Böyük Şeyx" ("Əş-Şeyx Əl-Əkbər") titulunun sahibi İbn-Əl-Ərəbi tərəfindən **"Vəhdəti-vücüd"** fəlsəfəsindəki iradə və təsəvvür yolu ilə birləşməyə, varlıq baxımından da birləşmə əlavə olunur (**"Vəhdəti-əl-vücud"-yəni,** varlığın vəhdəti). Onun bu təliminin əsasını belə bir fikir təşkil etmişdir ki,

**"Dünyanın mövcudluğu, öz zatındakı əzəli imkanları, maddi varlığın əşya və hadisələrdə gerçəkləşdirən ülvi və özlüyündə mövcud mütləq olanın öz-özünü əyan etməsi nəticəsindən başqa bir şey deyildir".**



Sonralar bu nəzəriyyə Fəridəddin Əttar və Mövlana Rumi tərəfindən işlənmişdir.

İbn-Əl-Ərəbi fəlsəfəsinin ən səciyyəvi cəhəti, varlığa xüsusi dialektik baxış olmuşdur. O, fövqəladi intuisiyanın, yaxud bəyənilmiş-seçilmiş "ariflərə"-yəni kamilliyə çatmış sufilərə gələn kəşflərdə gerçəkləşən "dadbilməni" (təcallanı), varlığın həqiqi mənasını və mahiyyətini dərk etməyin ən ali üsulu hesab edirdi.

**"Məxluqatın varlığı Xaliqdir (Allahdır)"** ideyasına sadiq qalaraq, Quranın Allah haqqında danışılan yerinə (tədqiqatda adı aşkarlanmayan bu surə, məncə, "Rəhman" surəsinin 29-cu ayəsidir: **"Hər şey, hər an bir təcəllidədir"**) istinad edən İbn-Əl-Ərəbi belə qərara gəlir ki, **"Əbədi və görünə bilməyənin obrazı, zamanda yaranarkən, əbədi dəyişən vəziyyətinə düşür. Hər bir məqamda obraz dəyişir. Hər bir obraz şəxsiyyətində linqvistik, konseptual, fəlsəfi və psixoloji kateqoriyalarla formalaşır. Onlardan hər biri Allahın mühüm dəyər təzahürüdür."**

İbn-Əl-Ərəbinin bu qənaəti, Avropa şərhçi filosoflarının təbirində belə səslənir: **"Varlıq-mütləqin yeni-yeni adlarının və atributlarının təzahürünün sonsuz zənciri ilə şərtlənmiş olan fasiləsiz transformasiya prosesindədir".**

Məlumat üçün qeyd edim ki, hələ buna qədər Əl-Qəzzali də eyni məzmunlu fikri müdafiə etmişdir: **"O, (Tanrı) özü obraza malik deyildir. Onun obrazı, qəbul edilmiş obrazların və onların rəngləridir."**

Bu təzahürlərdə (məcazda) həqiqəti görmək, Füzuli təbirincə desək, **"Zərrədə küllü aşkarlamaq"**, yaxud

**"Nəqşdə Nəqqaşı aramaq"**- bu həqiqət əhli – ariflərə xas keyfiyyətdir. Bu, Allaha qayıdış yolu olan seyru sülükdür:

***Təhsil qılıb səfayi-siyrət***
***Görmüşdü məcazdan həqiqət***

Yaxud:

***Hər zərreyi – zahirin zühuri***
***Bir özgəyə bağlıdır zəruri***
***Gər ğayətdə eyləsən təəmmül***
***Zahir olur onda məzhəri –küll***

Təsəvvüfdə gözəllik (hüsn) və Eşq anlamlarının qırmızı xətt kimi keçməsi təsadüfi deyildir.

***Hüns olmasa EŞQdən nə hasil***
***Məşuq edər, əhli EŞQİ kamil***

Mövlana Rumiyə görə, **"Gözəllik, Allah Təalanın bir cüzidir. Hər gözəllikdə bu camalın əksi var".**

Zahiri gözəlliyi, həqiqətlə bağlayan ariflər, hər bir gözəl surətdə (təcəllada) İlahi camalın cilvəsindən bir əlamət (şahid) tapmışlar. Əl-Qəzzali, İbn-Əl-Ərəbi, Mövlana Rumi, Mövlana Füzuli kimi dahilərin arifanə qənaətlərinə görə, gerçəklikdə olan gözəlliklər, Tanrının Hikmət və Qüdrətinin ayət və nişanələridir. Necə ki, Füzuli nəzərində ulduzlar da, Ay da, Günəş də İlahi Eşqin, İlahi gözəlliyin timsalıdır:

***Günəş lövhi deyil, göydə şüa üstündə zərrin xətt***
***Fələk almış əlinə bir varaq hüsnü kitabından***



Arif, onun qəlbində zahir olan (aşkarlanan) gözəlliyi nə qədər çox anlayırsa, bir o qədər Tanrıya bağlılıq (Eşq) çox olur. Füzuli demiş:

***Hüsnün olduqca füzun,***
***Eşq əhli artıq zar olur***
***Hüsn nə miqdar olursa,***
***Eşq ol miqdar olur.***

Dünya görüşü, əsasən imana söykənən, dini-mistik ruhlu təsəvvüf olan Mövlana Füzuli, Uca Allahın təzahürünü (Eşqi), axan su köpüyündə, meydə, neydə belə təsvir edir:

***Su ki sərgərdən gəzər, başında vardır bir həva***
***Qaliba, bir gülruxun sərvi-xuramanın gəzər***

Yaxud:

***Eşqidir ol nəşeyi-kamil, kim ondandır müdam***
***Meydə təşviri hərarət, neydə təsiri səda***

Mövlana Rumi də ***"Bağda dostun (Tanrının) üzünün əksindən başqa heç nə görmürəm"*** deməklə həmin məqama işarə vurur.

Məcazi Eşqin bu dərəcədə ideallaşdırılması, təsəvvüf ənənəsinə görə, İlahi Eşqə vüsaldan xəbər verir.

Füzuliyə görə əbədiyyət kəsb etmək üçün əbədi olana doğru can atıb, ona qovuşmaq, onunla baqi olmağın yolu Eşqdir.,

***Saliki –rəhi-həqiqət***
***Eşqə eylər iqtida***

Məqsədi, Həqiqətə çatmaq, kamilliyə qovuşmaq olan bu yol isə təkamüldən (məqamlar, pillələr, dayanacaqlar-bir sözlə mərifətdən) keçir. Yəni, insani Eşq, təkamüllə İlahi Eşqə çevrilər. Başqa sözlə, İlahi Eşq tədriclə məcazi Eşqə hakim kəsilər.

Musiqidə "*Məqam*" (muğam, makom, makım, mukam) anlayışının sıx bağlı olduğu-Haqqı tanımanın, dərk etmənin yolları haqqında olan **"Məqamlar"** sufi təliminin qısa məzmunu budur!

Əsasən Allahın zat və sifətlərindən, onun birliyindən bəhs edən Kəlam fəlsəfəsindən fərqli olaraq, təsəvvüfün hədəfi, məhz gözəgörünməz, Uca Allahın təzahürlərini qəlbən tanıya bilmək, dərk etmək, yəni mərifətullahdır. Hədəfləri eyni olan təsəvvüf və muğam sənətinin bağlılığı, məhz bu ideya –Tanrı dərki ilə bağlıdır.

Təsəvvüf, Quran məntiqindən çıxış etməklə, batini ruhu İlahi Eşqin cövhəri hesab edərək, ruhun paklığını, nəfsin saflığını, bir sözlə qəlbin kamilliyini ruhən Allaha bağlılıqla bilir. Qəlb fonunda insan hansı nisbətdə ruhən Tanrıya bağlısa, o nisbətdə nəfsdən uzaqdır.

Ruhun vəhy, vəcd və ilhamla həqiqətə (Tanrıya) doğru inkşafında dəyişən (müəyyən duyum və batini görüm yaradan) psixoloji vəziyyət **HAL**, tədricən sabitləşən vəziyyət isə **MƏQAMDIR.** Təsəvvüfdə muğam İlahi harmoniyaya meylli ruhun, İlahi aləmlə rabitəsində bir vasitədir. Bu aspektdən təsəvvüf və muğam sənətində ruhun (Eşqin) inkişaf dinamikasındakı uyğunluğa (oxşarlığa) nəzər salaq.

Təsəvvüfdə ruhun kamilləşərək əslinə (zatına) – Tanrıya dönmək istəyindən (cəhdindən) keçdiyi



mərhələlər bunlardır: **Tələb, Eşq, Mərifət, İstiğna, Töhvid, Heyrət, Fəna, Bəqa.**

İntuitiv olaraq vəcdə (Allahın yəqinlik dərəcəsinə çatmaq) gəlib, Heyrət məqamına yetişən Aşiq, İlahi gözəlliyi qəlb müşahidəsi ilə görməyə başlayır ("Ənam" surəsi) və ruhən Fəna və Bəqa halını yaşayır. Məhz belə psixoloji-emosional stimullar, təfəkkür mexanizmini hərəkətə gətirən qüvvədir.

Tanrı Aşiqi kimi Füzulidə bu hallar belə təsvir olunur:

***Heyrət ey büt, surətin gördükdə lal eylər məni***
***Surəti-halım görən, surət-xəyal eylər məni***

***

***Rəhi-Eşq içrə mənə ancaq Fəna məqsud idi***
***Şükr kim, məqsudə yetdim intizarım qalmadı***

***

***Şəhidi-Eşq olub, feyzi-Bəqa kəsb etmək xoşdur,***
***Nə hasil bivəfa dəhrin həyatı-müstəarından***

Bu halları, şüurun təhtəlşüura diktəsi – magiya kimi yox, əksinə təhtəlşüurun şüur üzərində, ruhun bəzən üzərində hakımliyi kimi qəbul etmək gərəkdir.

Muğam sənətində də belədir. Əvvəldə deyd olunduğu kimi muğam janrının təşəkkülü, Haqqın (Allahın) dərki yolları-**"Məqamlar"** sufi təlim ilə birbaşa bağlıdır. Professor Gülnaz Abdullazadə haqlı olaraq iddia edir ki, **"Muğam kompozisiyalarında emossional-psixoloji halların ekstatik kulminasiyaya qədər pillə-**

pillə yüksəlməsi şübhəsiz sufinin Eşq hesab edilən **"Ruh pillələri" (Rumi) ilə yüksəlməsi haqqında sufi konsepsiyasına əsaslanır".**

Professor daha sonra iddia edir ki, **"bütün muğamlar hamısı bir yerdə və hər biri ayrıca, bu mistik yoldan və bu yoldakı "dayanacaqdan" daha zəngindir".** Mən bu zənginliyi, muğam sənətinin universallığı (ilahi və dünyəvi ideyaları daşıya bilməsi) ilə əlaqələndirirəm.

Musiqi intonasiya baxımından ümumən dəstgah silsiləsinin, xüsusən zil-kuliminasiya şöbəsinin bu və ya digər dərəcədə əvvəlcədən "Bərdaştda" icra olunması, təsəvvüfdəki məcazda həqiqəti görmək nişanəsi deyilmi? Bütün bunlar muğam sənətinin, bilavasitə İlahi Eşq zəminində təşəkkül tapmış musiqi janrı olmasını təsdiqləmirmi?!

Doğrudan da muğam sənətində yüksəliş zəngin fəlsəfi (əqli idrak) və ruhi (hissi idrak) zəminində baş verir. Belə ki, hər bir muğam (dəstgah) müəyyən emosional-psixoloji vəziyyətlərlə bağlıdır. Xanəndə gərgin zəhmət, istedad-bacarıq hesabına sabit ahəng (lad-məqam) axarında haldan-hala düşərək dialektik tərzdə pərdə-pərdə bəmdən zilə - kuliminasiyaya ("Rast"da Pəncgah, Bayatı-Şirazda – Üzzal və s.) qalxaraq yenidən "Mayə"yə enməklə, dəstgahın daşıdığı ideya-məzmun bitkinliyini tamamlayır.

Məlumat üçün qeyd edim ki, təsəvvüfün **əməli hədəfi** nəfsi paklıq və kamilik ilə fənaya nail olmaqdırsa, onun **elmi məqsədi**, qəlb yolu ilə mərifət əldə etməkdir.



**Bu mənada muğam sənətinin birbaşa təsəvvüfün elmi məqsədinə xidmət etdiyinə hökm etmək olar.**

Bitkin İlahi əxlaqın formalaşmasında mütəmadi olaraq mükəmməl muğam ifalarının dinlənilməsi çox əhəmiyyətlidir.

Beləliklə hal və məqam baxımından təsəvvüf və muğam sənətindəki oxşarlıqları ümumiləşdirsək, görərik ki,

- Əl-Qəzzali təbirincə desək **"təriflərdən çox hissələrdən ibarət olan sufizm"** və muğam sənətində emossiya daha qabarıqdır. Təsəvvüf və muğam sənəti, qəlb təlimi olduğundan onların teoloji bazasının mahiyyəti psixoloji nəzəriyyəsində üzə çıxır. Sufi psixologiyasına xas olan dinamizm, dəstgahın ifasında səsin (ruhun) bəmdən – zilə (kuliminasiyaya) doğru inkişafında da müşahidə olunur.
- Sufilərin keçici mistik **"hal"** vəziyyəti ilə davamlı – dayanıqlı mərhələ **məqam,** (cəm halda məqamət) arasında məlum emosional kontrastı, muğamda sabit məqamla, dəyişkən (sərbəst) improvizasiya arasında, dəstgahda isə şöbə və rənglər arasında müşahidə etmək olar.
- Sufilərin "haqqı dərk etmə" və muğam sənətinin dəstgah konsepsiyalarının hər ikisi psixoloji, fəlsəfi və poetik kontekstə malikdir.

Nəhayət, böyük Aləm (həqiqət) haqqında təsəvvürlərin formalaşmasına xidmət edən kiçik Aləmin (şəxsi mənin) dərkində konseptual, bitkin nəzəri sistem kimi çıxış edən təsəvvüf, həqiqət ideyasının daşıyıcısı olan muğam sənətində kiçik Aləmin (şəxsi "Mən"in) sənətdəki

təsvirinə xidmət edən mənəvi əxlaqi dəyər kimi çıxış edir. Deməli, Muğam, İslami prinsiplərin təqlidi yox, məhz o prinsipləri realistcəsinə əks etdirən sənətdir.

Ən nəhayətdə insana Allahın bir nüxəsi kimi baxan, insan camalını, Füzuli təbirincə desək, ***"Allah nurunun məzhəri, əbədi feyzin mənşəyi"*** hesab edən, eləcə də musiqinin (muğamın) ekstatik təranələrinin **"təsiri-sədasından"** (Füzuli) ülviyyətə yüksəlib, haqqa çatan sufizmdə (təsəvvüfdə), insan və musiqidə (Muğamda) İlahilik kimi estetik baxışların mövcudluğu, yuxarıdakı izahların fonunda çox təbii və elmi görünür.

*"Səma" və muğam*

İnsan ruhunun İlahi harmoniyaya qovuşması cəhdindəki mərhələlər-"pillələr"–"dayanacaqlar" muğam sənətində olduğu kimi təsəvvüf nəzəriyyələrinin irəli sürdüyü əsas müddəaları özündə ehtiva edən səma mərasimlərində də mövcuddur. Əsası Mövlana Rumi tərəfindən qoyulmuş Mövləviyyə təriqətində, dayanmadan dönərək yerinə yetirilən səma, ən əhəməyyitlə ibadət növüdür.

Qəlbin haqq ilə münasibəti olan Səma mərasimlərində zahir və batin, zaman və məkan, ixvan (iştirakçı və dinləyici) şərtləri, səs-söz musiqi-hərəkət harmoniyası (vəhdəti) xüsusi əhəmiyyət kəsb edir.

Sufilərin vəcdə gəlmək üçün təşkil olunan səma məclisində formaca ritmik, məzmunca aşiqanə şerlərin ifadə olunduğu musiqi, ekstazın başlıca texniki stimuldur. Səma mərasimində hərəkət iddiasının mövcudluğu, kosmoloji hərəkətlə əlaqədardır. Yəni, bütün zərrələrin öz



nüvəsi ətrafında (çevrəsində) dövr (rəqs) etməsi, kimi anılır.

Füzuli təbirincə desək ***"hikmətdə vəfadır"*** bu dönmələr-dövrlər. Allahın adları və epitetlərinin ritual xatırlanması - yəni Zikr ilə başlayan "Səma" mərasimlərində, harmoniya və melodiya ilə yanaşı ritm faktoru öndə olur. Belə ki, eşitmə duyğusuna tabe olan vəzn və hava, məhz hərəkətlə uyğunlaşdırılaraq harmoniya (vəhdət) yaradır.

Əsas məqsədi vəcd adlanan ekstaz vəziyyətinə tam nail olmaq olan "Səma", iştirakçısı və dinləyicəsinin, dinə və Allaha münasibətini müəyyənləşdirir, qəlbində Tanrı sevgisinin möhkəmlənməsinə təkan verir. Sufilər vəcdə gəlməni İslamla əlaqələndirmək üçün bir çox Quran ayələri ilə yanaşı, bu hədisə istinad edirlər. ***Quran oxuyarkən ağla, ağlaya (vəcdə gələ) bilmirsənsə ağlamağa çalış (məcburi vəcd).***

Səma mərrasimlərində Allahın adları və kəlamlarının muğam avazları ilə səslənməsi, möminlərin ruhən (xəyalən) gözə-görünməz Tanrıya yaxınlaşmaya cəm edib. İlahi gözəllik nəzəriyyəsinə istinadən səmazənlər hal və məqamlarına görə şövq, zövq, vəcd və səma sahibi olurlar. Ilahi kəlam və muğamın yaratdığı harmoniya ilə onlar ruhi rahatlığa daxili təmizlənməyə- **"katarsisə"** nail olurlar.

Bu mərasimdə insan şüuruna psixoloji-emossional təsir edən rəng amili dərin dini mistik məzmun kəsb edir. Yəni məcazdan həqiqətə doğru istiqamət alan ruhi yüksəklik prosesində dəyişən hər məqam, mərtəbə dəyişən paltar rəngləri ilə müşayət olunur. Mərasimin

kuliminasiyasında səmazənlərin şəffaf (sanki rəngsiz) paltarda olması sanki, Quranın "Bəqərə" surəsindəki ***"Allahın rənginə boyan, kimin rəngi onunkundan gözəldir"***çağırışına əməli cavabdır.

Məlumdur ki, gözəl İlahi əxlaqi xarakterlər, məhz İlahi vərdişlərlə əldə olunur. Nəfs hökmündən asılılığın azalmasını, ruhən Tanrıya bağlılığı, qəlb genişliyini özündə ehtiva edən, İlahi əxlaqın formalaşmasına xidmət edən təsəvvüf o cümlədən səma mərasimləri və muğam sənəti məhz bu ideyaların daşıyıcıları və tərənnümçələridir.

*İslami kosmoloji baxışlar və muğam sənəti*

Qədim Şərq dünyagörüşündə kosmik şüur, musiqi təfəkkürünün əsasını təşkil edir. Musiqidəki elementlər istər daxildə özü – özləri ilə, istərsə də yaranışığın quruluş təsəvvürləri ilə sıx bağlı və müəyyən rəqəm münasibətindədir. Bu, Orta əsr Şərq Musiqi Elmi Nəzəriyyəsinin əsasısını təşkil edən "Pifaqor anlayışı"nın qısa məzmunudur.

**Nəzərə alsaq ki, İslamın təsiri ilə formalaşmış Orta əsr Şərq Musiqi Elmi Nəzəriyyəsi bütünlüklə muğam sənətinə söykənir, deməli İslami kosmoloji baxışların təzahürünü, muğam sənətində aramaq – aşkarlamaq Elmi məntiqə uyğundur.**

Mən əminəm ki, Yegah, Dügah, Segah, Cahargah, Pəncgah... Həzargaha qədər uzanan bu musiqi kompozisiya silsiləsinin hər həlqəsində İslam fəlsəfəsinin məntiqini aşkarlamaq mümkündür.

1. Vahid başlanğıc (Tanrı) – Vahid sabit ahəng –lad



2. İkili düzən (Dixotomiya) Lahut – Nasut, Məlakut – Mülk, Afaq (böyük) – Ənfas (kiçik) aləmlər. Dücahan – dünya və axirət.
3. Canlı varlıq yaranışığının 3-cü təbəqədə kamilliyi: Nəbatat, Heyvanat, İnsan.
4. Dörd pilləli düzən - ən mükəmməl sistem. Dörd ünsür (od, su, hava, torpaq) İnsanda dörd qüvvə (nəzəri, əqli, şəhvət, qəzəb). Kəbə dördkünc, dörd fəsil. Qəzzalinin "Əhya"sı, Füzulinin "Mətləül-etiqad"ı 4 babdan ibarətdir.
5. Gündə beş rükət namaz.
6. Yaranışığın 6 mərhələdə (Lahut, Əql, Nəfs, Səma, Yer, Nasut) 6 gÜndə başa çatması. Şərq muğam Musiqi "Qəsrinin 6 bÜrc" – 6 avaz olması və s.
7. İslamda ən çox işlənən rəqəm, intəhasız tükənməzlik rəmzi. Yer və Göy 7 qat. Quranın 7 ləhcədə oxunuşu, Fatihə surəsində 7 ayə. Kəbədə 7 minarə. 7 dəfə dövr etmə, Şeytana 7 dəfə daş atma, 7 əsas lad-məqam, 7 əsas dəstgah və s.

***Kipriyin, qaşında, zülfündü yedi***
***Yer yedivü, göy yedivü, sən də yedi***
***Nə səbəbdən həftənin adı yedi***
***Bunda hikmət vardır, müshəf yedi***

*(Nəsimi)*

12 – bürc; İslam kosmoloji baxışlarında bütöv dünya düzəmi, mükəmməl bir dövr (sikl). Regional Şərq Muğam "Qəsrində" 12 sütun-12 muğam dəstgahı.

Qənaətim budur ki, muğam sənəti, əsasında tənasüblük və ahəngdarlıq duran İlahi yaranışığın inikası olduğu üçün, **Həqiqətin, Ədalətin, Gözəlliyin** ən tutumlu,

ən səlis tərənnümçüsüdür!

Muğam haqqında məlum Elmi-Nəzəri məlumatlara, aparılan müqayisəli arşdırmalara istinadən deyə bilərəm ki, - muğam sənəti yeganə musiqi janrıdır ki, ümumən musiqinin kəsb etdiyi bütün funksiyaları tam əhatə edir:

- Kommunikativ (özünü ifadə və dinləyiciyə birbaşa təsir)
- Etik (əxlaqi)
- Estetik (zövq)
- Psixoloji (hal)
- Tibbi (diaqnostik və müalicə)

Muğam musiqidən çox fəlsəfədir. Belə ki, muğam dəstgahının quruluş prinsipi, ən yüksək fəlsəfi dərketmənin bütöv bir xəttinin hər üç mərhələsini əhatə edir:

Sadədən-mürəkkəbə
Aşağıdan-yüksəyə
Empriliklikdən-nəzəriyyəyə (elmiliyə)

Muğamda materiaılizm və idealizm, dialektika və metafizika, mistizm və metafizikanın özünəməxsus bir şəkildə uyğunlaşdırmaları vardır.

Maraqlıdır ki, muğam müxtəlif fəlsəfi baxışlarda öz orijinallığını – universallığını saxlayır, məna və məzmun kəsb edir.

Belə ki, dialektik fəlsəfə prizmasında muğam həyatı real təcəssüm edən dünyəvi xarakterli sənətdir. Təsəvvüf fəlsəfəsinə görə isə muğam, insanın kamilliyə yetişməsindəki (ədalətli olmaq, gözəlliyi duymaq, haqqı tanımaq) "dayanacaqlar" – "məqamlar"dır. Kəlam fəlsəfəsi



baxımından isə muğamın əbədiliyi, onun əzəli olduğundan xəbər verirmi?

Professor G.Abdullazadənin təbirincə desək, doğrudan da **Muğam-Şərq təfəkküründə kamil sözdür.**

Musiqi kamilliyinin bütün atributları muğamda var. Ona görə də o, Ali gözəlliyə malikdir. Muğam – Həqiqət ideyasının daşıyıcısı sənəti olmaqla, birbaşa mərifətə xidmət edir.

Muğam əzəmətini kamilliyini zənginliyini təsvir (təyin) edə biləcək bəşəri bir musiqi olmadığından, muğam özü meyara çevrildi.

Nəhayətdə, poetik mənbə baxımından Quranda əruzun mövcudluğu və muğamda əruzun vacibliyi, İslami-dini ayinlərində (Azan-Tilavat-Səma) və mərasimlərdə muğamın aparıcı rolu, muğam ahənginin tarixən dəyişməz-sabit qalması, İslamın yaranışığı və inkişafı ilə əlaqədar, muğam sənətinin regional

Şərq mədəniyyətinə çevirməsi, eləcə də təzkib olunmaz müşahidə - ümumiləşdirmələr, muğam həqiqətinə gedən yola sanki işıq-nur saçır, aydınlıq yaradır. Quran ilə muğam arasında genetik köklərin, daxili fəlsəfi bağlantıların mövcud olmasından, bir sözlə Quran və Muğamın İlahi Söz və İlahi Səs kimi Tanrıya aid bilgilər olmasından xəbər verir.

### c) Vacibə (Tanrıya) aid biliyin aşkarlanmasının İbnRüşd (Averrois) və Füzuli yönümləri

Şərq peripateizminin son təmsilçisi, orijinal İslam hüquqi konsepsiyasının yaradıcısı hesab olunan İbn-Rüşd (XII əsr) həm də **"Həqiqətin ikililiyi"** təlminin banisidir.

Bu qneseoloji konsepsiyasının məqsədi, fəlsəfənin və dinin biri-birindən asılı olmayan müstəqilliyini əsaslandırmaqdır. Yəni, fəlsəfədə elə həqiqətlər var ki, bunlar İlahiyyat üçün münasib deyildir və əksinə. İbn-Rüşdə görə fəlsəfə və dini həqiqətlər biri-birinə zidd deyildir. Çünki onlar, müxtəlif məzmunda olsalar da bir həqiqəti əks etdirirlər. Başqa sözlə, əgər din həqiqətdirsə və o həqiqəti axtarmağa çağırırsa, onda, sübuta (dəlilə) söykənən-dinin dediyi (tələb etdiyi) ilə ziddiyyət təşkil etməyən fəlsəfi həqiqəti (tədqiqatı) qəbul etmək olar. Maraqlıdır ki, İbn-Rüşd burada dinin tələbi kimi, Quranın alleqorik təfsirini əsas götürür. Bu, **"ikili həqiqət"** təliminin qısa məzmunudur.

Füzuli özünün "Mətləül-Etiqad" fəlsəfi traktatının III rüknün I babında – **"Tanrıya aid biliyi axtaran adamın qabaqcadan bilməli olduğu əsaslardan ibarət məsələlər haqqında"** şərhində qeyd edir ki, Mütləq həqiqətə aid Mütləq əqliyyat bilgisinə inanmaq olmaz. Belə ki, filosoflar fərd (xalis, yeganə) cövhərin mövcudiyyətini əsaslı dəlillə rədd, mütəkəllimlər isə onu isbat etmişlər. Əql onların hansı birinin doğru və ya səhv olduğunu müəyyən etmir. Bu məsələni açmaq üçün bir ölçü lazım olur ki, o da şəritdən ibarətdir.

Göründüyü kimi, Tanrıya aid olan bilgilərin aşkarlanmasında hər iki mütəfəkkir eyni mövqedən çıxış edirlər. Beləliklə, muğamın İlahi səs kimi Tanrı bilgisinə



aid edilməsinə dair verilən ideyanın fəlsəfi izahının dinə (şəriətə) uyğunluğunun araşdırılması məsələsi önə çəkilir.

### ç) İslam (şəriət) və musiqi (muğam)

Mədəniyyətlərin inkişafında din və musiqinin xüsusi yeri və rolu vardır. Mədəni tarixi proseslərdə musiqi və dinin qarşılıqlı münasibət məsələəlrinin "mənəvi həllinə" gəldikdə, onun ideoloji meyldən asılı olduğu aşkarlanır. Elmi tədqiqatlar göztərir ki, musiqi bütün tarixi dövrlərdə dinin ən vacib, zəruri ləvazimatı olmuşdur.

Qədim arilər, hindlilər, farslar, midiyalılar və s. hamısı dini mərasim və ayinlərdə musiqidən istifadə etmişlər. Eyni proseslərin, eyni məzmundakı təzahürünü monoteist dinlərində də müşahidə etmək olar.

Bəzən elmdə Quran məntiqinə və İslam fəlsəfəsinə, onların incəliklərinə varmadan belə bir yanlış iddia irəli sürülür ki, guya İslamda incəsənət, o cümlədən musiqi qadağan edilmişdir. Əslində İslam İnsan təbiətində olan özəllikləri rədd etmir, əksinə onları kamil bir biçimdə nizamlayır. Hansı sahə olur-olsun, bütün sənətlər təməldə, insan ruhundakı düşüncə və duyğuların bir təzahüründən ibarətdir. Araşdırılan mövzuya aydınlıq gətirmək üçün estetik özünü ifadədə musiqiyə daha yaxın olan poeziyaya münasibətdə, İslamın mövqeyinə nəzər edək.

Kafir, müşrik şairin şeirini yalan, özünü sərgərdan, yalançı hesab edən Quran ("Şüəra" surəsi) imanlı şairlər haqqında belə deyir:

**"Ancaq başqa şairlər də vardır ki, bunlardan deyil, onlar. O şairlər ki, iman gətiriblər, saleh işlər görüblər, Allahı tez-tez anıblar, zülm çəkəndən sonra,**

**uğur qazanıblar**"("Şüəra" surəsi)

Deməli, üzünü haqqa tutub, Haqdan yazmaq yalan deyil, məqbuldur.

Hədislərdən şer sənətinin Peyğəmbərimiz tərəfindən hikmət sənəti kimi qiymətləndirdiyi məlumdur.

Deməli, metod, mövzu, məqam, obraz, ideya, təfəkkür, özünüifadədə geniş imkanlar açan vacib şərtlərdəndir.

Məxluqun Xaliqə pərəstişi olan Füzulinin "Leyli və Məcnun"u buna əyani nümunədir.

*Tutsam tələbi həqiqətə rahi – məcaz*
*Əfsanə bəhanəsi ilə ərz etsəm raz.*
*Leyli səbəbi ilə vəsfin etsəm ağaz,*
*Məcnun dili ilə etsəm, izhaqi-niyaz.*

Məlumdur ki, İslamda niyyət, hər bir şeyin canıdır və odur ki, hər bir kəsə öz niyyətinə görə verilər. Möminin saf niyyətli işləri dolayısı ibadət olduğu halda, dini hissləri qüvvətləndirmək niyyəti (məqsədi) daşıyan poeziya və musiqi niyə ibadət olmasın axı?

İbn-Əl-Ərəbi təbirincə desək, **"Kim ki, Allah və onun Rəsuluna can atar, o kəsin yolu məhz ona aparar".**

Bir çox bədii sənət nümunələri kimi musiqi də insan ruhundakı fitri xüsusiyyətlərin təzahür formalarından (şəkillərindən) ibarətdir. Başqa sözlə gözəllik duyğusu yaradan musiqi, hiss və düşüncələrin səs, hərəkət və alətlərlə anlatmaq sənətidir. İslam təbii, qolaylı, geniş **"ən doğru din"** ("Beyinnə" surəsi) kimi, təbii zövq olan musiqiyə biganə münasibət bəsləyə bilməzdi. Musiqi



İslamda (Quranda) birbaşa qadağan edilməmişdir. Musiqi İslamda mütləq olaraq mübahdır (izn veriləndir). Fəqət, günah olan tərəfləri də vardır.

Hədislərə görə musiqini tam rədd etmək olmaz. **"Allah gözəldir, gözəlliyi sevir"** hədisi dolayısı olsa da musiqiyə yol açır.

Belə ki, musiqi də İslamdakı memarlıq, xəttatlıq sənətləri kimi gözəl sənətlərdəndir. Başqa sözlə İslam, yaradıcılığı, o cümlədən poeziya və musiqini heç vaxt qadağan (haram) etməmiş, eyni zamanda musiqinin bütün formalarının da sözsüz qəbul olunmasını (mübah) tələb etməmişdir. Konkret olaraq, hansı musiqinin, nə dərəcədə qadağan olunması barədə daimi mütləq fikir olmamışdır. Burada, tarixi-mədəni şərait və arizi səbəblər (kim, harada, kim üçün, hansı ˉlətlə və s.) münasibəti dəyişir. Ona görə də İslamda musiqiyə münasibətdə günah ilə mübah arasında həddi (ədaləti) müəyyən etmək çətinliyi ortaya çıxır (yaxud mövcuddur).

Sonuncu din olan İslam, o vaxt meydana gəldi ki, artıq dini kitablar kobudcasına təhrif olunurdu, ibadətlər dəyişdirilərək deformasiya edilirdi, zülm, hüquqsuzluq, hüdudsuz həddə gəlmişdi.

"Seçilmiş xalq" yaxud məhdud region xalqlarının ideya tərənnümçüsü olan iuzdizm və xristianlıqdan fərqli olaraq, **"Aləmlərə rəhmət olaraq göndərilən Məhəmməd Peyğəmbər"in** ("Ənbiyya" surəsi) dini – İslam, bəşəri xarakterdədir.

İslamda bağlılıq, etnik-mənşə-regionçuluq yox, ideya-əqidə zəminində olan müsəlmançılıq və möminlərin qardaşlığı öndədir. ("Hücürət" surəsi və "Tövbə" surəsi).

Çox mənalı "İslam" sözü "mütilik", "itaətetmə" kimi də anılır. İslamın başqa dinlərdən fərqli cəhətlərini, onun totalitar və ümumbəşəri xarakterində axtarmaq daha münasibdir.

Sokratın **"Bəşər qeyri-müəyyəndir. Bu qeyri – müəyyənliyin mərkəzində insan durur"** fəlsəfəsinə, Quran qismən aydınlıq gətirdi Islamda ehtiyacsız, zəngin **(qəni)** olan Tanrı ilə, möhtac **(fəqir)** olan insan ("Fatir"surəsi) arasında vasitəçisiz-birbaşa rabitə möhkəmləndi, ciddi forma aldı. Artan iradə azadlığı, artan ciddi məsuliyyətlə müşayiət olundu. İnsan faktoru önə çəkildi. Rahiblik ləğv olundu. Hind mistikası və xaçpərəstlikdəki miskin zəif məxluqat kimi təqdim olunan insan, ruhi planda **"Xəlifətullah"**, yəni Tanrının yer üzərindəki canişini elan edildi. ("Bəqərə"surəsi). Mövlana Rumi təbirincə desək, **"İnsana, böyük bir dünya, dünyaya kiçik bir insan"** baxışı formalaşdı.

Eyni zamanda insanın **ədəbini**, onun **zəhəbindən** (qızılından) yüksək qiymətləndirən Quran bəyan etdi ki, **"tamahkar, kəmhövsələ, nankor, nadan, haqqa boyun əyməyən, zalım insan, sözün yaxşısından çox, pisini eşidib götürəndir və s."**("Ələq", "Əhzab", "Həcc", "Məarac" və s. surələr).

İslam Quranın **"Nəfs həmişə pisliyə meyllidir"** ("Yusif"surəsi) ayəsinə və **"Ən böyük cihad, nəfsə qarşı olan cihaddır"** Peyğəmbər hədisinə istinadən, insanda pis xasiyyətləri formalaşdıran, **"həqiqətlə insan arasında pərdə olan nəfsə"** (Əl-Qəzzali) qarşı mübarizəsini kəskinləşdirdi. Belə ki, qəlb fonunda məcaza bağlı,



dünyəvi həvəs olan nəfsə qarşı hücum, Tanrıya ruhən bağlılığı artırmaqdır.

İslam, insanın harmonik inkşafını fiziki və mənəvi vəhdətdə yox, mənəvi dünyasının, yəni qəlbinin zənginliyində bildi. Çünki, əbədi olan mənəvi zənginlikdir. Tanrı **"Nəzərgahi-İlahi"**yə nəzər edər.

Nəfsi paklıq, ruhi saflıq İslami şüara çevrildi. **"Nəfs canavarına təslim olmamağı"** (Mövlana Rumi) **"Nəfsin, hətta düşməndən də təhlükəli olduğunu"** (S.Şirazi), **"Xəta evinin iki açarından birinin məhz tamah (nəfs) olduğunu"** (Füzuli) xatırladan obrazı deyimlər buna əyani sübutdur.

Əl-Qəzzali təbirincə desək, **"Nəfsi paklıq onu öldürmək yox, onu mötədilləşdirmək və tənzimləməkdir".**

Bu istiqamətdə Əl-Qəzzali insan psixologiyasının əsası kimi tanınan nəfsdə, dörd qüvvə ayırd etdi – **nəzəri, əməli, şəhvət** və **qəzəb.**

**Nəzəri** gücün orta halı, **hikmət** (musiqi elminin nəzəri öyrənilməsinin nübahlığı-caizliyi bu məqama əsaslanır).

**Əməli** gücün orta halı **ədalət** (əməli-praktiki musiqiyə münasibətdə fəqihlərin günah ilə mübah arasındakı ədalət axtarışı bu məqama əsaslanır).

**Şəhvət** gücünün orta halı ilə **iffət,**

**Qəzəb** gücünün orta halı **şücaət** hesab olunur.

İslamda mənəvi zənginliyin təmin edilməsində, nəfsə aid olunan bu qüvvələrin tarazlılığının təmin olunması, çox vacib şərtlərdəndir.

Dünyəvi işlərin nəticəsi olmaq baxımından **"Axirəti dünyadan üstün tutan"**("İsra" surəsi) İslam, **"Bu dünyada yaxşı işlər görənləri, Axirətdə yaxşılıqlar gözləyir" ("Zümər"** surəsi) xəbərdarlığına istinadən, ruhun dünyəvi ehtiraslardan xilas olması üçün **"ibadəti (möminliyi) önə çəkdi"**. ("Zariyyat" surəsi).

Belə ki, **"Dünya arzusu, dinin zay olmasına səbəb olur" (Mövlana Rumi).**

Maraqlıdır ki, İslam, kamil insan modelini **"Əməli saleh möminlikdə"** bildi ("Əraf" surəsi). Əl-Qəzzali bu istiqamətdə belə söylədi: **"Mənə aydın oldu ki, axirət həyatında xoşbəxtliyə yalnız o adam ümid edə bilər ki, o, mömin həyat tərzi keçirir və maddi dünyanın şirnikləndirici cazibəsindən kənara çəkilir".**

Möminlik – yəni İlahi qüvvə qarşısında tabeçilik prinsipi barədə FÜzulinin də fikri maraqlıdır. O, özünün "Mətləül-Etiqad"ında iddia edir ki, **"Nə üçün bəzi şəxslərin ibadətlə çox məşğul olduqlarına görə günaha heç də etina etməməsi mümkün olmasın?".**

**"İnsanın həyatdakı bütün əməlləri Yaradan qarşısında öz qədrini, qiymətini ucaltmağa yönəlməlidir"** – dini fəlsəfəsi, məhz möminlik (ibadət) ideyasından pöhrələnmişdir, desəm, səhv etmərəm! Füzulinin zövqü təbirincə desək; **"Səyin artdıqca bu yolda, artacaqdır qiymətin".**

İslamda musiqiyə yön verə fəlsəfənin (ideyanın) nüvəsi (özəyi) məhz budur.

Unutmaq olmaz ki, ruhun kamilliyini elm və sənətdə görən Pifaqor, musiqini sənət kimi təqdim edirdisə Şərq onu İslam zəminində Elm səviyyəsinə qaldırdı. Əl-



Kindinin təbirincə desək **"Musiqi, ən şərəfli elm"** oldu. Bu, İslamın musiqiyə olan münasibədir.

Bu həqiqətdir ki, İslamda musiqi, fəqihlər tərəfindən mütəsəvviflər qədər anlaşıqlı qarşılanmamışdır. Fəqihlər və mütəsəvviflər arasındakı ixtilafın özəyi, musiqinin Allaha qarşı yaxınlaşdırıcı bir vasitə olub-olmamağındadır.

Musiqinin mübah olduğuna dair Hz.Peyğəmbər və əshabələrdən bir çox səhih hədis və rəvayətlərə istinadən, mütəsəvviflər təsəvvüfi musiqini Allaha ruhən qovuşmaq hissini oyadan bir məşəl, vüsal yolunda bir vasitə bilmişdir. Onlar musiqinin insan üzərindəki inkaredilməz təsirini, İslami ədəb və əxlaq çərçivəsində xeyir işlərə xidmət etmək üçün istifadə etmişlər. Musiqiyə ülvi bir hədəf seçərək nəfsə deyil, ruha qida ola biləcək bir məzmun və xüsusiyyət vermişlər . Bu xüsusiyyətə uyğun olanları təşviq etmiş, uyğun olmayanları isə rədd etmişlər.

Əl – Qəzzalinin mövqeyi belədir ki, **"Musiqi öz özlüyündə qəlbə heç nə gətirmir, yalnız qəlbdə olanı hərəkətə gətirir".** Onun fikrində **"Məsələ musiqinin kimin, harada, hansı niyyətlərlə ifası və dinlənilməsidir".** O xoş havalarda qəbahət heç nə görmürdü. Qəzzali iddia edirdi ki, istər səs, istərsə də alət ilə olan musiqi, tək hökmə bağlı deyildir. Əl-Qəzzalinin musiqiyə mövqeyi qısaca belədir: "Allah sevgisi ilə dolub-daşan musiqi **Halal**, kənar duyğuya qapılmadan gözəl səsdən zövq almaq **mübah**, dünya arzusu və şəhvət hissi ilə dolu olan musiqi **Haram**, musiqiyə ümumi aludəçilik **məkruhdur**".

Dahi Füzuli musiqinin durulduću və dəyişdirici təsiri olduğunu qeyd edərək, **musiqi məclisini zövq məclisi**

adlandırırdı. Onun fikrincə **"Musiqidə gizli mətləblər söyləyib – açıqlamaq imkanı vardır".** Füzuli özünü "Həft-cam"ında musiqinin ruhani feyzini qiymətləndirərək söylədi:

**Mütrib dedi: Ruhani olan feyzdir feyzim,**
**Nadanlıq olar qeyrə könül verme, nə lazım.**

Məlumat üçün qeyd edim ki, haqqın dərkində musiqiyə yön verən təsəvvüf, Orta əsr Şərqində yeganə aparıcı dünya dərki sistemi olmuşdur.

Əlaqəli olduğuna görə, məhzəblərin musiqiyə mÜnasibətinə keçməzdən əvvəl İslamın totalitar xarakterinə qismən aydınlıq gətirmək istərdim.

İslam, müsəlman etiqadının başlıca prinsipi olan **"Hər şeyin Tanrıda olması, hər şeyin Tanrı göstərişi ilə həyata keçməsi" ("Rəhman"surəsi)** haqqında təlimidir.

Əl – Qəzzalinin təbirincə desək, **"İslam, təkcə şəxsiyyətin dini şüurla əlaqəli deyil, eyni zamanda insanı bütövlükdə əhatə edir".**

Quranın bəyan etdiyi ("Nəcm"surəsi)və Fuzulinin şərh etdiyi kimi ***"Tanrı belə qərar qoyub ki, hər kəs öz səyi nəticəsində ona müqəddər olan rütbəyə (Qədərə) çatmaq üçün ciddi cəhd eləsin gərək".***

İslam gerçək monoteist dindir. İslamdakı realizm prinsipi imkan vermir ki, zahiri təcəssümü obrazlar (zəndlər,guyalar) pərəstiş obrazına, pərəştiş məqamına yüksəldilsin. Quran məntiqinə görə **"Pərəstiş etmək tabeçiliyə aparar"** ("Şüarə" surəsi).

İslam, Tanrı – insan-cəmiyyət arasındakı qarşılıqlı münasibətləri incə nizamlayaraq, onu dindən, həyat



obrazına qədər genişləndirdi. Başqa sözlə İslam, şəriəti (dini qanunları) bütün həyat sahələrinə daxil edərək və həyatın özünü isə dinin qoyduğu adət-ənənə və qanunlar ritminə qataraq həyat vəhdətliyi yaradır. Yəni, İslamda din, özü həyat obrazıdır.

İslam teoloqları tərəfindən incəsənətə, o cümlədən musiqinin əksər növünə qoyulan qadağalar, məhz incəsənətin, reallığın təbliği ilə, yəni zəndlərlə məşğul olmasından, insanların obrazlara təzim, pərəstiş etməmək marağından doğur. Belə ki, incəsənətin dəyişdiricilik xüsusiyyətinə malik olan estetik təsir xüsusiyyətləri: bədii obrazlılıq, əhval ruhiyyə, canlılıq və s. bu proseslər heç bir qanuna tabe deyil və ya heç bir qanunla tənzimlənmir. Başqa sözlə incəsənətin, o cümlədən musiqinin ifası, qavranılması və qiymətləndirilməsi məntiqi mühakimələr və dəlillərdən çox, subyektiv cizgilərlə, insanların daxili aləmi ilə bağlıdır. Incəsənətə xas olan ən səciyyəvi keyfiyyətlər-intuitivlik, mücərrədlik, irosionallıq, subyektiv hisslərin ifadəsi və s. bütün bunlar musiqidə daha aydın, daha qabarıq nəzərə çarpır.

Musiqiyə fəqihlərin qoyduğu qadağalar yuxarıda qeyd olunan xüsusiyyətləri nəzərə almaqla, yanılaraq bir olan Allahı inkar etmək şəraitini aradan qaldırır ("Nəcm" və "Zumər" surələri).

Qısa olaraq, məzhəblərin musiqiyə münasibəti belədir:

**Hənəfi** – İcra və dinləmək haramdır. Savaş və toy-düyünlərdə istisnalar var.

**Maliki**- Eyni ilə Hənəfi məzhəbi kimidir. **Hənbəlilər** – Əsasən Hənəfi məzhəbi kimi musiqini caiz (icazə verilmiş) görməzlər və bilməzlər.

**Şafii** – Rəvayətlərə istinadən musiqini ümumən haram, bəzi istisna hallarda mübah olduğu qeyd olunur.

**Cəfəri**-ümumən rəqs və musiqi haramdır, bəzi mÜstəsna hallarda mübahdır. Tədqiqatlar göstərir ki, son zamanlar bu sahədə daha çox yumşalmalar mövcuddur.

Məzhəblər tərəfindən əməli (praktiki) musiqiyə qarşı qoyulan bu qadağaları ümumən **"dünyəvi mədəniyyətə qarşı mübarizə kimi"** (Proffessor Gülnaz Abdullazadə) yox, insanı günaha, küfrə və aludəçiliyə aparan həvəs – nəfsə qarşı olan mübarizənin bir hissəsi kimi anlamaq daha ədalətli olardı. İslam dünyəvi həyatı, dünyəvi eşqi, dünyəvi mədəniyyəti inkar etmir, dünyəvi işləri, ideologiyasına uyğun – axirət prinsipləri ilə tənzimləyir, nizamlayır (**"Bu dünyada yaxşı işlər görənləri, yaxşılıqlar gözləyir Axirətdə".** "Zumər" surəsi). Təsəvvüfün ideya-dayaq kimi istinad etdiyi Qüdsi-hədisə (**"Mən gizli bir xəzinə idim və istədim məni tanısınlar, bilsinlər, buna görə də məxluqatı yaratdım"**) görə Tanrını tanımaq, bilmək məhz bu dünyadan – İnsandan keçir. İslam isə bu yolu təqdir – təbliğ edir. Bunun əksi də ola bilməz axı! Nəhəng Əl-Qəzzali **"bu dünyada qazanılan Mərifət – Axirətin azuqəsidir"** – deyə iddia edirdi.

**"Sufi tayfalarının atası"** Cüneyd Bağdadi belə buyurur ki, **"Dünyanın bir günü, Axirətin min ilindən daha xeyirlidir. Çünki, qazanc yeri bu dünyadadır. Axirətdə nə qazanc var, nə də itki".**



Dünya mədəniyyətinin qızıl səfində duran dahi Füzuli Dünyanı, **"rütbeyi- kəmalə yetməkdə"** – yəni kamillik tapmış həqiqət əhli – arif olmaqda zəmin – bünövrə hesab edir:

***Bunda yetə rütbeyi-kəmalə***
***Ondu yetə dövləti vüsalə***

yaxud Füzuli dünyəvi həyatı insan həqiqəti üçün bir sınaq kimi xatırladır:

***Amma deməzəm yalandır ol həm***
***Sərmənzili-imtahandır ol həm.***

Elmi təsdiqini tapmış bir həqiqəti unutmaq olmaz ki, dünyəvi xarakterli yunan amili (elmi) öz intibah rolunu, xristianlıqdan əvvəl məhz İslamda oynadı.

Məqalədə qoyulan mövzunun (ideyanın) tələbi və mÜdafiəsi istiqamətində Azan və Quranın oxunuşu ilə bağlı, arqument kimi istinad etdiyim bəzi dini-fəlsəfi məqamları önə çəkmək istərdim. Başqa sözlə, muğam və dinin qarşılıqlı əlaqəsini araşdırarkən, burada dini və dÜnyəvi başlanğıcı qarşılıqlı münasibətdə göstərmək istiqamətində əhəmiyyətli tarixi məqamlardan biri, möminlərin Namaza çağırışı olan Azanın oxunuşu və digəri Quranın tilavətidir. Ensiklopedik məlumatlar təsdiq edir ki, Azanın mətni vəhy olaraq aşkarlanmışdır. Azanın oxunuşunun məqbulluğunu Hz.Peyğəmbərimiz bu hədisi ilə təsdiqləmişdir: **"Azan – vəhy ruhundadır".**

Digər hədis, Quranın tilavəti ilə bağlı deyilmişdir. Tədqiqatlar göstərir ki, Quranda tilavətin qaydası (avazı) barədə göstəriş yoxdur. Yalnız **"Quranın aram-aram**

**oxunması" və "Quran oxunarkən sükut edib ona qulaq asmaq"** göstərişi vardır. ("Müzəmmir" və "Əraf" surələri). Belə vəziyyətdə çıxış yolu Quranın tərcümanı olan Peyğəmbər hədisi ola bilər. Məlum hədisə görə, Peyğəmbər **"Quranın nüfuzunu və təsirini artırmaq üçün onun məlahətli səslə və gözəl avazla"** (yəni avaz, melodiya) **ilə oxunmasını istəmişdir.** Əlbəttə Quranın avazsız oxunuşu quru söz deyimi, adi nitq olardı axı!

Məhəmməd Peyğəmbərin **"Quran 7 tərzdə nazil edilib, onlardan hansı sizə mÜəssərdirsə, oxuyun"** kəlamına əsaslanaraq Quranın müxtəlif ifa tərzi formalaşmışdır. Hədislərin birində göstərilir ki, ərəb dilində nazil olunduğuna görə Peyğəmbər Quranın ərəblərin melodiyasında və onların səsi ilə oxumağa çağırmışdır.

Xorasan musiqiçisi Nişapuri (XII-XIII əsr) xəbər verir ki, Məhəmməd Peyğəmbər özü Quranı Nəhavənd pərdəsində oxumuşdur.

Ə.Marağainin verdiyi məlumata görə, Peyğəmbər Rəhavi pərdəsində beytlər oxumuşdur.

Ü.Hacıbəylinin qənaətincə, Azərbaycanda dini ruhda bir musiqi varsa, o da Quranın avaz ilə oxunuşu musiqisidir.

Ərəb dilində nazil olunduğuna görə Təcvid elmi, Quranın tilavətinin ərəb musiqisi (ahəngi) üstündə oxunmasını tövsiyə etməklə yanaşı,fəqihlər yerli musiqi-avazlardanda istifadəni caiz bilmişlər. Lakin fəqihlər Quranın oxunuşunda əxlaqi və estetik səbəbdən zərərli sayılan müəyyən musiqi formalarını qadağan edir.



Məs: Təcvid qanunlarına istinadən, uzatma yerlərini istənilən qədər uzatmaq şərti ilə səsin dalğalanmasına (zənguləyə) yol verilmir.

Dini mətnlərin qiraətində musiqidən istifadənin səbəbi əsasən, onların daha dərindən dərk olunmasında əlverişli bir vasitə olması ilə izah olunur. Lakin gözəl səs, oxunan melodiya, müqəddəs dini mətnlərin gizli dərin mənasını kölgələməməli,məzmuna uyğun olaraq insanda mərhəmət hissi oyatmalı, onu mütəəssir etməlidir.

Forma və məzmundan asılı olaraq dini mətnlərin melodeklamasiyası-adi deklamasiya, reçitativ (adi danışıq tərzinə yaxın olan ifa) və melodeklamasiya halında icra edilir.

Azan və Tilavətdən başqa namazın başlanğıcını bildirən Elan-İqamə, xüsusi dualar, dini mətnlər, əqidələr, cümə günü səhər minarədən zikr etmək və s. bütün bunlar əsasən muğam avazları üstündə səslənir.

Qısa araşdımadan hasil olan qənaət budur ki, İslamda,istisnalar nəzərə alınmaqla, Ümumən musiqi caizdir.

### d) Nəticə

Aparılan müşahidə, müqayisə və araşdırmalardan, İlahi ilkinliyin mahiyyətinə aid aşağıdakı tarixi-dini-elmi qənaətləri qeyd edə bilərik:

Ruhun İlkin olduğu Din fəlsəfəsinə görə, bütün gözəl sifətləri özündə cəm ehtiva edən – hər şeyi bilən Allahdan (**Əl-Əlim**) başqa yaradıcı yoxdur.

Meydana gələn hər bir şey- Allahın bilməsi, diləməsi və yaratması ilə olur.

Uca Allahın əzəldə diləmiş olması – bu bir **Qədərdir**. (İlahi itkinlik ) Onun diləmiş olduğu hər hansı bir şeyi, zamanı gəlincə meydana gətirməsi – bu **Qəzadır.** Deməli, Füzuli təbirincə desək, hər şeyi bilən Aqil (Allah), dilədiyi əməlin **(Qəza)** ibtidada etmiş əncamın **(qədər).**

Allah yaratdıqlarını bu iradə sifəti ilə, hikmətinə görə meydana yetirməyi dilər və dilədiyi hər şey mütləq olar.

Deyilənlərin təsdiqi olaraq İlahi İlkinliyə aid bəzi məqamlara nəzər edək:

- **Məhəmmədin nuru** (o nur ki, Allah-Təala onu özü yaratmış və özününkü adlandırmışdır) ilə başlayan Peyğəmbərlik silsiləsinin, **Məhəmməd Peyğəmbərlə** də tamamlanması həqiqəti.

**"Adəm hələ palçıq halında olarkən mən Ümmül - Kitabda Abdulla (yəni Allahın qulu) və sonuncu Peyğəmbər idim."** hədisi, yaxud Meracda Məhəmməd Peyğəmbərin müsəlman namazı zamanı özünədək göndərilmiş olan Peyğəmbərlərə imamlıq etməsi, onun həqiqətən də Peyğəmbərlər içərisində xüsusi Bir mövqeyə malik olduğunu təsdiqləyir.

Bu məqamın təsdiqini Füzuli də vermişdir:

***Xabi-ədəm içrə şəxsi aləm,***
***Görmüşdü vücuddən müqəddəm.***
***Kim ləmeyi-nurdən bir əfsər***
***Keymiş, vermiş özünə zivər.***

***



***Sər dəftəri-Ənbiyayi mürsəl***
***Onlara həm axuru –həm əvvəl***

- Yaranışığın **əzəlində** (Bəzmi-Ələstdə) **axırıncı-yekun** gününün (Qiyamətin) xatırlanması həqiqəti. **("Baxın qiyamət günü deməyəsiniz ki, biz bundan xəbərsizdik"! – "Əraf" surəsi).**
- **Müsəlmançılıq** ideyası ilə başlayan ilahi mədəniyyətlər silsiləsinin, sonuncu, mükəmməl ilahi mədəniyyət olan İslamla-**müsəlmançılıqla** da yekunlanması (qapanması) həqiqəti

Təsdiq üçün Məhəmməd Peyğəmbərə aid məşhur hədisi burada xatırlamaq yerinə düşərdi:

**"Hər uşaq İslam fitrətilə doğulur, sonradan həyati xarici təsirlərə məruz qalaraq yəhudi, nasrani yaxud atəşpərəst olur".**

- Aləmin (məxluqatın) yaranışığının **"Ən qədim və ən təzə söz"** (Nizami) (Kun-Ol!) ilə başlayan dairəsinin, qapanma xəbərdarlığının, Aləmlərə, axırıncı Peyğəmbər olaraq göndərilən Məhəmməd Peyğəmbərə aid **söz möcüzəsi** (Quran) ilə xatırlanması həqiqəti.
- İnsana müqəddər olan əzəli-dəyişməz-sabit "Qədərə" **(Məqama)** çatmaqda (əzəlinə dönmə ilə qapanma) insanın dəyişkən cəhdləri və səyləri **(Hal)** həqiqəti. Göründüyü kimi təsəvvüf və muğam sənətinə xas olan **Hal** və **Məqam.** İlahi İlkinliyə aid prinsiplərdəndir.

Nəhayətdə şərhlərdən aydın olur ki, Quran məntiqinə əsalanan dairəvilik – yekunun başlanğıcına

müncər edilməsi, başqa sözlə, əzəlinə-əslinə-zatına dönmə ilə qapanma prinsipi, Tanrıya məxsus (aid) kamil üsulrəmzdir!

Tanrıya məxsus dairə (qapanma) prinsipinə, Azan və Tilavətin məhz **muğam avazında** oxunmasının (icrasının) Peyğəmbərimiz tərəfindən məqbul bilinməsi (bu, təsadüf yox, İlahi zəruritdir!) həqiqətinə, musiqinin əzəli **İlahi səs** (deyim) gözəlliyinə qarşı, ruhlarda gizli qalan – var olan istəkdən **(İlahi Eşqdən)** qaynaqlanmasına dair Bəzmi – Ələst və İlahi gözəllik nəzəriyyələrinə, prinsipcə, təsəvvüf və muğam sənəti fəlsəfələrindəki eyniliklərə, eləcə də Vacibə (Tanrıya) aid biliyin aşkarlanmasının İbn –Rüşd və Füzuli yönümlərinə istinadən **hesab edirəm** ki, "Mütləq Gözəl" (Tanrı) ruhlara, dövrün (dairənin) **yekun-**qapanma gününü (Qiyaməti) xatırladan **əzəli** müraciətini, ("Əraf" surəsi) məhz ona məxsus bənzərsiz, mükəmməl, qüsursuz, təkrarolunmaz, kamil İlahi avaz - musiqiyə aid Ali prinsipləri özündə ehtiva edən, İlahi İlkinliyə aid **muğam avazında** etmişdir.

Başqa sözlə, "Əhdi-Peyman" (Yövmül-misaq) günü, **əzəli** İlahi müraciət "Mütləq Gözəl"ə (Tanrıya) məxsus olan, kamil musiqi-**muğam avazında** olmuş, sonralar bu ənənə bütün dinlərdə saxlanılmış (zamana görə müxtəlif formalarda təzahür etmiş) və dini mədəniyyətlərin təkamül (inkişaf) dairəsinin **axırıncı -qapanma** həlqəsində – İslamda öz **əzəli - ilkin** forması olan **muğam avazında** (Azan və Quranın Tilavəti) aşkarlanmış və təsdiqlənmişdir.



Mövzunun açıqlanmasında faydalı olduğunu nəzərə alıb, Füzulinin, "Əhdi-Peyman" gününə verdiyi şərhi burada xatırlatmağı münasib bildim:

**"Mən sizin Tanrınız deyiləmmi? – Tanrının bu sorğusuna ruhların bəzisi "bəli", bəzisi isə "xeyr" demişdir. Sonra Tanrı həmin sözü yenidən təkrar etmişdir. Bu dəfə təsdiq edənlərin bəzisi inkr etmiş, inkar edənlərin bəzisi isə təsdiq etmişdir. Onların içərisində həm ilk, həm də son dəfə "yox" deyənlər kafir olmuş və iman gətirməmişlər. İlk dəfə təsdiq edib, sonra inkar edənlər, əvvəlcə mömin olmuş, sonra isə kafirə çevrilmişlər. Bunların əksinə olanlar isə, əksinə olmuşlar.** ("Mətləül-Etiqad").

Musiqinin, Bəzmi-Ələstdə, İlahi səsin Ecazkar təsirindən yarandığını iddia edən İslami nəzəriyyələrdən çıxış edərək **hesab edirəm ki,** Bəzmi-Ələstdə eşidilən **İlahi səs - İlahi Avaz** (muğam) üstə səslənmişdir ki, **İlahi sözün** (Quranın) İlahi avaz (Muğam) üstə səslənməsi, Peyğəmbərimiz tərəfindən məqbul bilinmişdir.

Hesab edirəm ki, bu müqəddəs ünsiyyətlə Tanrı, ilk ideya- niyyət (müsəlmançılıq) nüvəsinə yalnız ona agah olan, sirrlər, o cümlədən muğam "toxumu"səpmişdir". İlahi İlkinlik prinsiplərinə istinadən söyləmək olar ki, əgər İlahi mədəniyyətlər silsiləsinin axırıncı inkişaf qapanma həlqəsi müsəlmançılıqla (İslamla) və ayinlərinin icrası muğam avazı ilə aşkarlanıb, təsdiqlənibsə, bu silsilənin ilk-ideya həlqəsi olan müsəlmançılığın cövhərində muğam "toxumunun" olması fikri məntiqidir.

Başqa sözlə, ilk niyyət – müsəlmançılıq (İslam) ideyasında muğam "toxumu" (Allahın **əzəldə** diləmiş

olduğu – ideya zərrələri) olmuşdur ki, inkişaf dairəsinin yekun-qapanma həlqəsində - müsəlmançılıqda (İslamda) muğam avazı, vacib amil – şərt kimi aşkarlanıb təsdiq edilmişdir. Yaxud əksinə.

İnsan ruhunda, zəkaya zidd belə gizlinclərin mövcudluğu həqiqətinə, məlum Quran ayələrində (**“De, (Ey, Peyğəmbər) ki, ruh, Rəbbinin əmrindəndir (işlərindəndir). Sizə bu barədə yalnız cüzi bir bilik verilmişdir.** - “İsra”surəsi) eləcə də İslam dahilərinin dini-elmi qənaətlərində rast gəlmək olar. Əl - Qəzzali bildirirdi ki, **“Bil və agah ol ki, insan (məxluq) qəlbində (ruhunda) Yaradanın (Xaliqin) gizli sirrləri mövcuddur”.**

Yaxud İbn-Əl-Ərəbi özünün “Məkkə fəthləri”ndə bildirir ki, ***“İnsan ruhunda kifayət qədər Allahın gizli saxladığı sirrlər var. Yoxsa onlar Allaha itaət etməzdilər.***

Müsəlmançılığın cövhərindəki gizli “məqam” toxumunun ilkin “cücərtiləri” mədəniyyətin ilkin məkanı Şərqdə, müxtəlif xalqlarda, müxtəlif adlarla aşkarlanmışdır. Məsələn Hindistanda “Raqa”, Ərəb-türklərdə “Makam”, Azərbaycanda “Muğam”, Tacik-özbəklərdə “Makom”, Uyğurlarda “Mukam”, Yaponlarda “Qaqaku”, İndoneziyada “Patet”, Qazaxlarda “Küy”, Qırğızlarda “Kü” və s.

Bu adların inkişaf formaları, milli intonasiya çeşidləri müxtəlif olsa da etnik kökü, məna – baxışı eyni olan müsəlman incəsənətidir - Şərqin ortaq mədəniyyətidir.

“Cücərmiş” gizli “Məqam” toxumunun inkişaf etməsi isə təbiidir ki, ictimai-siyasi hadisələrlə, kənar təsirlərlə, bir sözlə əlverişli zəmin ilə bağlı idi. Və bu münbit zəmin,



İslamda (müsəlmançılıqda) yarandı. Muğam janrı, İlahi Eşq zəminində mövcud olan, sənət nümunəsi kimi formalaşdı. İslam mühiti muğamın nəzəri əsasını - Orta Əsr Şərq Musiqi Elmi Nəzəriyyəsini formalaşdırdı. Musiqi, sərbəst elmlər siyahısına salındı və 12 sütunlu 6 bürclü, möhtəşəm, regional Şərq Muğamı “Qəsri”, məhz İslam zəminindəucaldıldı. Əlbəttə, İlahi avaz olan muğamı, bəşər icad edə bilməz! Quran məntiqi (“Cinn” surəsi) ilə bilinməz, qeyb aləminə aid, hesab etdiyimiz **muğam,** Tanrının qüdrəti ilə, Tanrı seçimi olan **Peyğəmbərlərdə aşkarlana bilər!**

Yerinə düşər qeyd edim ki, musiqidə olan harmoniyanın qaynağını Allahda görən, Orta Əsrin böyük musiqiçi alimi Ə. Marağayi özünün “Nəğmələrin vəzifələri” və “Nəğmələrin toplusu” traktatlarında qeyd edir ki, **“Muğamın mahiyyəti – İlahi –Təalanın birbaşa inikasıdır”!**

Muğam nə qədər araşdırılsa da onun həqiqəti, insanlıq üçün daima gizli – aşkarlanmamış qalacaqdır. Necə ki, vəhy olaraq göndərilmiş mətnlər aşkarlanmış, lakin vəhyin elmi-psixoloji izahı aşkarlanmamış qalır.
Füzuli demiş:

*Hər riştə ki, həqq əyan edibdir,*
*Sərriştəsini nihan edibdir.*

Təsəvvüf fəlsəfi və İslam dahilərinin düşüncələrindən hasil olan dini-elmi qənaətə görə, İlahi ilkinlik təbiətdə, əşyada, hadisədə, insanda müxtəlif cilvələrdə - **“qəbul edilmiş obrazlarda və onların rənglərində”** (Əl-Qəzzali) öz əksini tapır. Füzuli sayaq,

"Muğam" (Məcaz) bəhanəsi ilə apardığım bu kiçik araşdırma, məcazdan həqiqətə İlahi ilkinliyin mahiyyətinə varmaqda zaman-zaman edilmiş çoxlu sayda təhqiqat və tədqiqatlardan biri kimi yozularsa (qəbul olunarsa), bu ədalətdən olar.

2010-cu il

* * *

## *Qeyd*

Musiqi mədəniyyəti tarixindən məlumdur ki, məqam (muğam) anlamının musiqi yönümündə (yəni muğam sənəti əsasında) müxtəlif yozumlarda elmi-musiqi təhlili aparılmışdır və bu əhəmiyyətli iş bu günlərdə də davam etdirilir.

Belə birtərəfli təhlillər (yozumlar) məqam (muğam) həqiqəti (yaranışığı) barədə əsaslı elmi fikir söyləməyə imkan vermir. Bu istiqamətdə məqam (muğam) alnamına İslami zəmində **Dini – Fəlsəfi Baxışı** daha elmi – məntiqi görürəm.

Və təbii olaraq Quran məntiqinə, Peyğəmbər hədisinə, İslam dahilərinin bədii – elmi – fəlsəfi qənaətlərinə söykənən – **"Haqqı Dərk Etmə"** – sufi konsepsiyasının tərkib hissəsi olan **"Məqamlar"** nəzəriyyəsi, təsəvvüf və muğam sənəti fəlsəfələrinin müqayisəli təhlili, musiqiyə İslami baxış, eləcə də "Vacibə" (Tanrıya) aid biliyin aşkarlanmasının İbn Rüşt (Averroest) və Füzuli yönümləri (eyni zamanda – paralel olaaraq əqlə və dinə əsaslanma) önə gəlir. Bu Şərq peripateizminə məxsus icad – yol tövsiyyədir (Bax: **"İslam kamil dindir"** məqaləsinə).



Mütləq İdeanın eyni vaxtda din, fəlsəfə və sənətdə təcəssümü olan, başqa sözlə Kəlam, Təsəvvüf və Muğam sənəti fəlsəfələri müddəalarının qarşılaşdığı bu kiçik araşdırma barədə müxtəlif elm nümayəndələri (Teymur Kərimli, Zümrüd Quluzadə, Səlahəddin Xəlilov, Nəsib Göyüşov, Zemfira Səfərova, Mehmet Ruhtun, İlahiyyatçı alimlər Mübariz Camalov, Aqil Şirinov və başqaları) öz sahələrinə aid fikirlər bildirsələr də ümumən təklif etdiyim ideanın qəbulundan çəkindilər. Və birmənalı olaraq Akademik Vasim Məmmədliyevin müdaxiləsini məsləhət bildilər. Hörmətli V. Məmmədliyevin yazdığı rəyə, onun özünün: **"Çox şirin yazılmışdır"** səmimi etirafını da əlavə edərdim. Bunu mən, fəzl əhli kimi çoxdan maili olduğum Elm Fədaisinin kiçicik yaradıcılığıma verdiyi ən yüksək qiymət kimi dəyərləndirirəm.

Məlumat üçün onu qeyd edim ki, bütün bunlara qədər, ilk öncə elmi təcrübədə muğam həqiqətinin aşkarlanması cəhdlərinin ümumən olmamasını nəzərə alaraq bu, **Orijinal ideanın dini – elmi – fəlsəfi** tələblərə uyğunluğunun müəyyən olunması məqsədi ilə bu araşdırmanı AMEA Fəlsəfə və Hüquq İnstitutuna təqdim etmişdim. İnstitutun rəhbərliyi yalnız muğam fəlsəfəsinə aid elmi seminarların birində çıxış etməyim ilə kifayətləndi.

Muğam sənətinin İslamla (təsəvvüflə) bağlılığının – "qaçılmazlığının" iddiaçısı, pedaqoq, virtouz tar ifaçısı, Valeh Rəhimovun da məqalə ilə bağlı maraqlı və səmimi etirafını qeyd etməyi özümə borc bildim: **"Muğam həqiqəti mövzusu ətrafında arif – Rəhim müəllim ilə olan ünsiyyətlərim bəsirət gözümü açdı".**

* * *

**Müseyib Rəhiminin "İslam-Muğam-Füzuli" kitabının əlyazması haqqında**

**RƏY**

*Rəhim Müseyibovun "İslam-Muğam-Füzuli" kitabının əsas tezisləri ilə tanış oldum. Belə bir maraqlı və çətin məsələnin ümumi qoyuluşu elmi baxımdan olduqca ciddi yanaşma tələb edir. R.Müseyibov prinsip etibarı ilə mövzunun mahiyyətini qəlbən mənimsəmişdir, çünki belə bir çətin anılan məsələnin açıqlanması, məhz qəlb ilə mümkündür.*

*Xüsusi ilə muğam həqiqətinə dini-fəlsəfi baxışın belə bir müstəvidə qoyuluşuna tərəfdaram və müəllifin prinsipləri doğrudur. Ancaq, işin elmi şəkildə təkmilləşməsi və zənginləşməsi xatirinə İslam, Təsəvvüf və Muğam fəlsəfələri barədə bir çox elmi qaynaqlardan faydalanmaq tövsiyyə olunur.*

**Filologiya elmləri namizədi –Füzulişünas: Nəsib Göyüşov**

* * *

**Rəhim Müseyibovun "Muğam həqiqətinə dini-fəlsəfi baxış" məqaləsi haqqında**

**RƏY**

*Müəllif mövzunu hər tərəfli olaraq tədqiq etmiş, o cümlədən musiqinin Quranda, hədislərdə, fiqh və İslam fəlsəfəsi və təsəvvüf elmlərindəki mövqeyini araşdırmışdır.*



*Musiqinin xüsusilə də muğam sənətinin təsəvvüf ilə münasibətini izah etmək üçün böyük cəhd etmiş, çoxlu mənbə və ədəbiyyatdan istifadə ilə onlardan nümunələr göstərərək məsələni işıqlandırmağa çalışmışdır. İbn Ərəbi, Gəzzali, Rumi kimi məşhur böyük sufilərin məsələyə baxışlarını və izahlarını əsas alaraq təsəvvüf ilə muğam sənəti arasındakı əlaqəni aşkarlamağa müvəffəq olmuşdur.*

*Muğamın İlahi ilkinliyə aidliyinin izahında istinad edilən ilahi bilginin aşkarlanmasında eyni zamanda əqlə və dinə əsaslanmaq prinsipi-Füzuli və İbn Rüşd yönümü-orijinal bir təsbitdir. Nəticə isə məntiqli və eyni zamanda düşündürücüdür.*

*Musiqi ilə şerin xüsusi münasibəti vardır. Sufiliyin ən mühüm ifadə vasitəsi şer olmuşdur. Təsəvvüf şerinin Türk – Azərbaycan sahəsindəki ən böyük ustadı şübhəsiz ki, Füzulidir. Muğam sənəti - Füzuli əlaqəsi müəllif tərəfindən "**Məqamlar nəzəriyyəsi**" çərçivəsində məharətlə işıqlandırılmışdır.*

*Təsadüfi deyildir ki, Seyyid Yahya Bakuvi Bakıdakı xanəgahında səma və dəvərandan ibarət zikr ayinində musiqidən istifadə etmişdir. Bir Səfəvi sufisi olan A. Marağayi də Ərdəbildə Səfəvi dərgahında Şeyx Sədrəddinin hüzurunda su dolu fincanlardan istifadə ilə musiqi ifa edirdi.*

*Müəllifin, muğam sənətində və təsəvvüfdə mövcud olan hal-məqam prinsipinin kökünün, İlahi ilkinlikdə olması iddiası, mənim diqqətimi çəkən mühüm bir təsbit oldu. Müəllifin gələcəkdə bu fikrin daha da zənginləşdirilməsiylə, təsəvvüf-musiqi əlaqəsinin izahında mühüm nəticələr ortaya çıxaracağına inamram.*

**Dr. Mehmet Ruhtun**

* * *

**Müseyibov Rəhimin "Muğam həqiqətinə dini-fəlsəfi baxış" adlı elmi araşdırmasının nəticə hissəsinə**

**RƏY**

*Müəllifin mürəkkəb anlam olan Muğam həqiqətinə (yaranışığına) dini-f əlsəfi baxışda elmdə mövcud olan İbn Rüşdün "İkili həqiqət" təliminə və Vacibə (Tanrıya) aid biliyin aşkarlanmasının Füzuli yönümünə istinad etməsini, elmi tədqiqatda yeni – orijinal bir fikir (üsul) olaraq dəyərləndirmək mümkündür. Təsəvvüf fəlsəfəsi baxımından, ilkin İlahiliyə aid müddəalardan çıxış edərək (baxmayaraq ki, Kəlam fəlsəfəsi baxımından bu müddəaların qəbulu mübahisəlidir) muğamla, İlahi ilkinlik arasında əlaqə qurulması, çox düşündürücü və maraqlıdır.*

*Muğam "toxumunun" məhz İslamda **"cücərib–inkişaf"** etməsi fikrinin, Kəlam fəlsəfəsi baxımından bir çox problemlərə səbəb olma ehtimalı daşısa da, təsəvvüfü baxımından inandırıcı görünə bilər.*

*Muğamın İlahiliyi və İslamiliyi fikri əvvəllər mövcud olsa da müəllif bunu bir çox elmi faktlarla daha da qəbul oluna biləcək, inandırıcı bir hala salmışdır. Bu baxımdan **"Muğam həqiqətinə dini-f əlsəfi baxış"** ideası maraqlı bir elmi-tədqiqat obyekti hesab oluna bilər və gələcəkdə bu mövzunun çoxşaxəli bir şəkildə elmi araşdırılmasına stimul verir.*

**İlahiyyat üzrə fəlsəfə doktoru: Aqil Şirinov**



* * *

**Rəhim Müseyibovun "Muğam həqiqətinə dini-fəlsəfi baxış" adlı məqaləsinə**

**RƏY**

*Məqalənin "İslam (şəriət) və musiqi" başlığı, İslam dininin musiqiyə münasibətinə həsr olunub. Məlum olduğu kimi İslam alimlərinin əksəriyyəti musiqinin mütləq olaraq haram olmadığını qəbul etmişlər. İnsanı yoldan çıxaran, günaha və küfrə aparan musiqi haram qəbul edilmişdir. Bunun xaricində millətlərin ənənəsini tərənnüm edən musiqi halaldır.*

*Müəllif məqalədə musiqinin, sənət baxımından hökmünü, İslam hüququ – elmi prinsiplərinə uyğun olaraq tam əhatə etməsə də, ümumi yanaşma doğrudur. İslamın qadağaları, müəllifin qeyd etdiyi kimi, həqiqətən dünyəviliyə qarşı deyil, məhz nəfsə görədir.*

**BDU-nın İlahiyyat fakültəsi,**
**İslam Elmləri kafedrasının müdiri,**
**İlahiyyat elmləri namizədi: Mübariz Camalov**

* * *

**Rəhim Müseyibovun "Muğam həqiqətinə dini-fəlsəfi baxış" adlı araşdırmasına**

**RƏY**

*Musiqinin, xüsusilə muğamın yaranışığı haqqında sənətşünaslıqda indiyə qədər yekdilliklə qəbul oluna biləcək*

*nəzəri bir fikir yoxdur. Bəziləri musiqinin yaranmasını təbiətdə olan səslərin təqlidi ilə izah edir, digərləri isə onu İlahi mənşəyə bağlayırlar. Cüneyd Bağdadi, Rüveym və başqaları musiqinin Bəzmi-Ələsdə eşidilən İlahi səsin ecazkar təsirindən yarandığı fikrində olmuşlar. Bütövlükdə musiqidə olduğu kimi, muğam nəzəriyyəsində də Şərqin bu ümumi mədəni irsini, təbiətə yaxud dinə bağlamaq cəhdləri olmuşdur. Bəzi orta əsr müəllifləri muğamların yaranmasını təbiətdə olan səslərin (bahar küləyinin, göy gurultusunun, su şırıltısının, bülbüllərin cəhcəhinin, şəlalə səsinin və s.) təqlidindən yarandığını iddia etmiş, digərləri isə muğamların kəşfinin dini Peyğəmbərlərlə bağlılığını iddia etmişlər.*

*Müseyıbov Rəhim bütün bu fikirləri nəzərdən keçirərək, muğamın İlahi mənşəyə malik olduğu fikrini qəbul edir və onun İslam təsəvvüfü, xüsusilə sufiliyin bel sütununu təşkil edən Vəhdəti-vücud təlimi ilə sıx əlaqədə olduğu müddəasını irəli sürür. Müəllifin bəzi fikirləri qəribə görünsə də o, dəstgah fəlsəfi konsepsiyasının vəhdəti-vücud görüşü ilə bağlılığı barəsində maraqlı fikirlər söyləyir.*

*Yuxarıda deyilənləri nəzərə alaraq Müseyıbov Rəhimin "Muğam həqiqətinə dini-f əlsəfi baxış" araşdırmasının çap edilməsini məsləhət bilirik.*

**Akademik: Vasim Məmmədəliyev**



***Hörmətim vacib bilir,***
***Hər kim bilir keyfiyyətim.***
(Füzuli)

# 3. MUĞAM VƏ FÜZULİ

Varlığıma hakim kəsilmiş Muğam və Füzulidəki müqəddəslik, həmişə məni düşündürən mövzu olmuşdur.

İnsanda və musiqidə (Muğamda) ilahilik axtarmaq, başqa sözlə, gözəllikdə, məna və məzmun aramaq, bu elə fəlsəfədir.

Bədii təfəkkürün məhsulu olmaq etibarı ilə mürəkkəblik və düşündürmə baxımından muğama fəlsəfi yöndə baxışın ən "işıqlı" anını, onun Füzuli yaradıcılığı ilə obrazlı müqayisəsində "tapdım". Məqsədim, onların məna və hikmət qüdrətinin kiçicik bir hissəsini – bir insanın idrak edə biləcəyi qədərini nümayiş etdirməkdir.

Bu yöndəki səviyyəvi oxşarlıqlar, ali məqamlar bir deyil, beş deyil, yüzlərlə, minlərlədir.
Muğam deyəndə mən, ilk növbədə Füzulini düşünürəm. Hər ikisi, aşkarlanıb-açıqlanmasında dünya sivilizasiyasının aciz qaldığı ilahi qüdrətli həqiqətlərdir! Elə həqiqətlərdir ki, insan idrakına sığmır, tükənmir, bitmir.

Sanki, dünya ilə "həmyaş" olan, yaranışığı dünyəvi ehtiyacatdan ehtimal olunan muğam, dünyanın özü kimi **"sirrli-sehrli"** möcüzə olaraq qalır!

Eləcə də Füzuli! 500 ildir cümlə-cahan, kəsər və dəyərdə Füzuli sözünün arzu-xəyalı ilə, onu öyrənə-öyrənə yaşayıb yaratsalar da, bu zirvə aşılmaz, fəth olunmamış qalır!

Bunlar həm də müqəddəs, pak, ilahi hikmətlərdir. Onların əzəmətlərini təsvir edə biləcək bəşəri ölçü (meyar) hələ ki, tapılmayıb. Tapılmadığındandır ki, özləri meyara çevrildilər!

Bunlar dövri-zamanlarla səsləşən fəlsəfi hikmətlərdir. Muğamat aləmi və Füzuli irsi, mənəviyyatın zənginliyi istiqamətində yüksək bəşəri, fəlsəfi və humanist ideyaları insanlığa çatdırmaqla, onları daima əxlaqa, saflığa, gözəlliyə çağırmışdır.

Belə yüksək bəşəri hiss və duyğuları anlamağın ilki-əzəli təbiidir ki, insanın özü-özünü anlamasından başlayır. Deməli, Muğam və Füzulini lazımınca anlamaq və faydalanmaqdan öncə, insanın özü-özünü dərk etməsi çox vacibdir. Aydınlıq üçün qeyd edim ki, sufi (təsəvvüf) fəlsəfəsinə görə varlığı qavramaq, özünü dərk etməkdən başlanır.

Muğamdakı ideya, bədii, fəlsəfi məna zənginliyini, səslərin məntiqi əlaqəsini və düzümünü, sonsuz xəyallar aləmini, Füzulidəki dil çətinliyini, söz oynaqlığını, dərin mənanı, fikir və məna əlaqəsini, tükənməz düşüncə "qalereyasını" az-çox dərk etmək üçün, **yüksək elmi təfəkkür** və bədii təxəyyül gərəkdir.

Ümumiyyətlə, ibtidası məlum olmayan muğamı izah etmək, Füzulini şərh etmək qədər çətindir! Çətindir, həm də ona görə ki, bu iş heyrətsiz, həyəcansız keçinmir, yüksək psixoloji hazırlıq tələb edir. Məncə ən mahir natiq üçün belə danışıq leksikamızdakı cəmi söz yığnağı buna bəs etməz!

Çünki, bu işdə Ali Elmdən savayı, yüksək bədii-estetik duyğu və zövq sahibi olasan gərək!



Çox maraqlıdır ki, eyni muğam müxtəlif anlarda, müxtəlif cürə səslənir və hər dəfə də insana rəngarəng duyğular bəxş edir!

Füzulinin **"heyrət dəryası"** (yaradıcılığı) da belə. Hər dəfə yeni mənalar, yeni rənglər, yeni çalarlar kəsb edir!

Füzulidə şer, xüsusi nəzmlənmiş elm (ideya, mətləb) kimi, yeni ideyanın bədii formaya girməsi kimi, başqa sözlə məzmunun formaya çevrilməsi kimi təqdim edilir.

Muğamdakı elmiliyi isə, onun daşıdığı ideyaların, səs tonları axarına daxil olub, onunla ahəng (vəhdət) təşkil etməsində - muğam əmələ gətirməsində hesab edirəm.

Füzulidə söz mənadan necə asılıdırsa muğamda da səs, ahəngdən (lad-məqamdan) eləcə asılıdır.

Ən adi kiçicik **"təhrif"** və ya **"xariclik"** təfavüt eylər. Bu asılılıq dialektikanın forma və məzmun vəhdətindən irəli gəlir. Hər iki sənətdə məzmun birincidir (Muğamda lad-məqam). Məzmun formaya təsir edir. Belə ki, Muğamda səs tonları məzmuna (lad-məqama) uyğun düzülür:

***"Söz mənadan asılıdır, məna sözdən hər zaman***
***Bir-birindən asılıdır, necə ki, cisim ilə can"***

Orijinallıq – hər iki sənətə xas olan xüsusiyyətdir. Füzuliyə yad olan təkrarçılıq, muğam sənətinə də yaddır. **"Xislətincə meyli olan"** hər muğamın ifa nümunəsi, o muğamın yeni ifa variantıdır. Muğamdakı lad məqam qanunlarına mütləq tabelik (reqlamentlik), əruzdan mütləq istifadə qaydası və s. Füzuli sənətindəki, müvazinə - simmetriya, ahəng və s. qanunlara **mütləq tabe olmaq,**

onlardakı daxili ciddi nizam-intizamdan, səliqə-səhmandan xəbər verir.

Başqa sözlə Muğam və Füzuli aləmi qanunlarla idarə olunan demokratik və azad üsullu (muğamda improvizasiya, Füzulidə janr sərbəstliyi) səsli-sözlü "cəmiyyətlərdir".

Nəhayətdə, bu mövzular əhatə dairəsi çox geniş olan bitkin sistemlərdir. Belə ki, onların hər biri bütövlükdə bir sıra elmlərin nəticə və qənaətləri ilə əlaqədardır. Budur onların heyrətləndirici həqiqi **möcüzəliliyi!**

Muğamdakı hiss və duyğuların Füzulidəki oxşarlıqlarını (nişanələrini) arayıb-axtarmaq məncə cox təbiidir.

Çünki milli mənəviyyatın mayası muğamla yoğrulmuş müdrik Füzuli əsrlərdən-qərinələrdən **"xəbərdar"** olan **"hikmətli"** muğama biganə qala bilməzdi. Bilmədi də. Musiqiyə həsr olunmuş poema da – **"Saqinamə"** ("Həft-cam") yazdı. Duyğulanaraq bir anlıq muğamat aləminə də nəzər salaq:

**Rast** – sərrastlıq nişanəsi,
**Şur** – sevgi, eşq nişanəsi,
**Bayatı-Şiraz** – həzinlik nişanəsi,
**Dəşdi** – səhra,
**Zəngi-şötör** – dəvə, zəngin,
**Dilkəş** – cazibəli, könül oxşayan,
**Dilruba** – xoşagələn,
**Xocəstə** – xoşbəxtlik,
**Sarənc** – qəm-qüssə, kədər,
**Bidad** – haqsızlıqdan şikayət,



**Üşşaq** – aşiq-məşuq,
**Hüseyni** – gözəl,
**Qərrə** – parlaq, məğrur,
**Şəhd** – ballı, şəkərli;
**Şədd** – ən uca və s.

Bunların hamısı real həyat, həqiqi insani sifətlər və hisslər deyilmi!

Sanki, ülvi insan duyğularına sığal çəkib, seçib sonalayıb, özündə cəm külliyatdır, Muğam!

Müqayisə məqsədi ilə imkanım daxilində Füzulini səhifə-səhifə, sətirbəsətir, sözbəsöz oxudum.Muğamlardakı hiss və həyacanın inikasını, büsbütün Füzulidə tapdım. Sanki, Füzuli öz "söz çələngini" bu rəngarəng duyğuların (Muğamın) təsiri altında hörmüşdür.

Füzulinin hər beyti, hər misrası buna əyani sübutdur.

***"İdraki büləndi, hüsnü dilkəş,***
***Ətvarı xüçəstə, sirəti xoş".***

Yaxud muğam xiridarı Üzeyir bəyin dahi Füzulinin zəngin poetik ruhuna uyğun seçib bəstələdiyi **"Leyli və Məcnun"** muğam-operasının misilsiz müvəffəqiyyəti bu mülahizənin təsdiqi deyilmi.

**Bu məqamlarda necə də səssəsdir, can bir qəlbdir, həmahəngdir, həmnəfəsdir Muğam və Füzuli!**

Müqayisədən qənaətim budur ki, **insanda elə bir ülvi duyğu yoxdur ki, o boyadan rəngarəng "Muğam" palitrasında və ya Füzulinin "sirrli söz xəzinəsi"ndə olmasın.**

Bəşər musiqisinin tacı sayılan Muğam öz füsünkarlığı, ecazkarlığı ilə Füzuli isə **"İlahi feyzindən bir xəzinə"** sandığı **"yoxdan var olan"** sözü ilə dünyanı fəth etdilər. Bununla da səs və söz, Muğam və Füzulinin timsalında özlərinin ən yüksək bədii ifadə məkanını tapdılar və oradaca qərarlaşdılar.

Heç şübhəsiz ki, mənəviyyatımızın möhtəşəm səs və söz abidəsi olan bu qoşa zirvələr daima aşılmaz olaraq qalacaqdır. Çünki Muğam və Füzuli mənəviyyat tarixinə İlahidən bir dəfə bəxş olunan incilərdir. Füzulinin özü demiş:

***Mənə manənd bir divanə surət bağlamaz, guya***
***Qələm sındırdı, təsvirim çəkəndən sonra, Nəqqaş.***

Füzuli yaradıcılığı kimi, Muğamların da dərin qatlarına vardıqca insan biixtiyar, heyrətdən doğan sükuta dalır! Nədəndir bu heyrətləndirici sükut?!

Muğam sənəti ilə Füzuli yaradıcılığı arasında çox əhəmiyyətli bir oxşarlıq (doğmalıq) vardır.

Bu onların bəşəri hiss olan EŞQƏ söykənərək, eşqin ən tutumlu, ən səlis, ən təkmil tərənnümçüsü olmalarıdır. Biri səslə, biri sözlə:

***Sərmənzili-hər murada rəhbərdir, EŞQ***
***Keyfiyyəti-hər kamalə məzhərdir, EŞQ***
***Gəncineyi-kainata gövhərdir, EŞQ***
***Hər sadir olan nəşəyə məsdərdir, EŞQ***

Öz-özünü "əsiri-dərdi" EŞQ edən və "Eşq dərdi ilə xoşam, əl çək əlacımdan təbib" deyən Füzulinin



yaradıcılığının mayası (nüvəsi) şəkksiz-şübhəsiz büsbütün **EŞQDİR.**

Muğamların da yaranışığı EŞQdən (məcazi) irəli gəlir. Muğamların, məhz bir-birinə meylli (mehrli-məhəbbətli – Müseybov R.) səslər, pərdələr məcmusunun sabit bir kök (məqam) ətrafında toplaşmasından əmələ gəlməsi, bunun həqiqətə uyğunluğudur.

Maraqlıdır ki, dəstgahlar da məhz bir-birinə meylli, "yaraşan" və uyğun gələn muğam şöbələrinin, guşələrinin sabit bir bünövrə - "mayə" ətrafında topalaşmasından əmələ gəlir (və ya tərtib edilir) və yaxud dəstgah müxtəlif ucalıqda olan musiqi sədalarının (şöbələrinin) qarşılıqlı münasibət sistemindən ibarətdir.

Muğamdakı (dəstgahdakı) **gözəllik** isə çoxçalarlı, çoxrəngli şöbə, guşə, avaz, təsnif və rənglərin ciddi ahəng (lad-məqam) üzrə harmoniyaya girərək bitkin musiqi əsəri- dəstgah əmələ gətirmələrindədir.

Bir sözlə muğamdakı (dəstgahdakı) **gözəllik** çox mənalı, rəngarəng musiqi parçalarının birliyində, harmoniyasındadır!

Muğamdakı real-həyati EŞQİ isə **"ləhceyi-xanəndə"** – gözəl icranın **hüsnü-camalında** axtarmaq gərək. Məsələn: Cabbarın "Mahur"u, Seyidin "Cahargah"ı, Xanın "Kürdü-Şahnaz"ı, Saranın "Qatar"ı, Yaqubun "Mənsuriyyə"si, Arifin "Şur"u və s.

Bütün bünlar, dahi Füzulinin səcdə etdiyi gözəllik (hüsn) və eşqin vəhdətinə parlaq nümunədir! Məlumat üçün qeyd edim ki, EŞQ və gözəlliyin vəhdəti sufii estetikasında qırmızı xəttlə keçir:

*Hüsn olmasa EŞQdən nə hasil,*
*Məşuq edər, əhli-eşqi kamil*

Musiqidəki real EŞQİ Füzuli, neyin timsalında beləcə təsvir edir:

*Eşqdir ol nəşeyi kamil kim ondadır, mudam*
*Meydə təşviri hərarət, neydə təsiri sədə*

Yəni meydəki coşmaq, neydəki təsir sehri məhz EŞQdəndir!

Deməli muğamat aləmi, başdan-başa EŞQdir.

Qənaətim budur ki, **"hüsnü miqdarınca eşqi olan"** muğamlar sanki aşiqlərdir. Onlar dinən, həm də dindirəndir. **Onlar insana, insandan tez uyuşandır.** "Ünsiyyət" üçün öz məşuqunu istər, tapanda "Aşiq-məşuqluq" (Üşşaqlıq) olur.

Qeyd olunan ifa siyahıları məhz "Leyli-Məcnun", "Fərhad-Şirin" kimi aşiqi-sadiqliyi təsdiq olunmuş, "aşiq-məşuqluq" nümunələrdir.

Füzulidəki **"aşiqi-sadiqlik"**, Muğamdakı **"aşiqi-məşuqluq"** onların cövhərində olan Eşqin, başqasıyla birləşmə-bütünləşmə xüsusiyyətindən irəli gəlir!!!

Dəstgahın fəlsəfi təhlilinə keçməzdən əvvəl onu qeyd edim ki, professor K.Abdullazadə haqlı olaraq qeyd edir ki, musiqiyə aid ortodeksal müsəlman traktorları muğamat sənətinin prinsiplərini üzə çıxarmaq və onun məna qatlarını aşkarlamağa qadir deyildir. Alimin fikrincə bu məqsədə çatmaq üçün sufizmə (təsəvvüfə) müraciət daha səmərəli nəticələr verə bilər.



Muğamın fəlsəfi təhlilində sufizmə müraciətin səmərəliliyi özünü bir də onda göstərir ki, istər muğamda, istərsə də sufizmdə emosiya (hisslər) daha qabarıqdır. Təsdiq üçün qeyd edim ki, Şərqin böyük ilahiyyatçı alimi (XI əsr) Əl-Qəzzali yazır ki, **"Sufizm təriflərdən çox hisslərdən ibarətdir".**

Yerinə düşər qeyd edim ki, sufi (təsəvvüf) fəlsəfəsinin əsas prinsipi dünyanın çoxcəhətliliyini, onun çoxsaylı formalarının bir vahid başlanğıca müncər edilməsidir. Diqqətlə fikir verdikdə aydın olur ki, dəstgahdakı çoxsaylı melodik qurumların vahid ahəngə (lad-məqama) müncər edilməsi, təsəvvüfdəki çox cəhətliyin Vahidə müncər edilməsinə bariz nümunədir.

**"Vəhdəti vücud"** fəlsəfəsi baxımından dəstgahın ideya daşıyıcısı olan "Mayə", "Vücudu-güldən" alınan ilahi başlanğıcıdır, səbəbdir, təməldir ki, dəstgah onun üzərində qurulur və inkişaf edir. Yekunda isə musiqi axarının yenidən "Mayəyə" enməsi və dəstgahın məhz "Mayə"də tamamlanması, bu bir tərəfdən mayənin cazibə qüvvəsinin üstünlüyüdür. Digər tərəfdən isə onu deməyə əsas verir ki, muğamlardan ibarət musiqi kompozisiyası olan dəstgahların tərtibində, prinsipcə "Vəhdəti-vücud"la yaxın oxşarlıq, ümumilik (bəlkə də eynilik) vardır. Belə ki, fəlsəfi təhlil baxımından dəstgahlardakı şöbə, guşə və s. kimi fərdi xırda formaların yalnız küllə qovuşmaq, xəyalından, zehniyyatından ibarət, getdikcə artan, (şiddətlənən) düzülüşü mahiyyətcə ümumi varlıqdakı hisslərin, duyğuların düzülüşü ilə həmahəngdir!

*"Hər zərreyi-zahirin zühuri*
*Bir özgəyə bağlıdır zəruri.*

*Gər qayətdə eyləsən təəmmül*
*Zahir olur onda, məzhəri küll!"*

Maraqlıdır ki, dəstgahlara bu ideya haradan gəlir?!

*"Hər xilqətcə gərçi bir səbəb var,*
*Aya, səbəbi kim etdi izhar?!"*

Aristotel qeyd edir ki, sənət obyektiv varlığın təqlididir, ideyalar şeylərə immanentdir, yəni onların şəkilləridir, formalarıdır, bir sözlə onların təbii mahiyyətidir - inikasıdır.

Buna görə də bədii təqlid, ümuminin təqlididir. Deməli bu ideyaların mənbəyi öz bədii inikasını büsbütün sənətə hopdurmuş insanlıqdır.Və yaxud filosof Füzulinin təbirincə desək həyat həqiqəti, hər cür bədii təsvirlər üçün, istinad nöqtəsi, reallıq zəminidir. Sənət isə bu gerçəkliyi spesefik şəkildə göstərən vasitədir, ədəbi fənndir:

*"Tutsam tələbi-həqiqətə, rahi-məcaz*
*Əfsanə bəhanəsi ilə ərz etsəm raz*
*Leyli səbəbi ilə vəsfin etsəm acaz*
*Məcnun dili ilə etsəm izhari-niyaz"*

Muğamın etik vəzifəsi, məhz real həyat həqiqətləri əsasında formalaşmış bu yüksək, bəşəri, tərbiyəvi ideyaların insanlığa çatdırılmasıdır.

Dəstgahların "Mayə"dən başlanan ilahi musiqi axarının – ideyaların (eşqin) dialektik tərzdə (məlumat üçün qeyd edim ki, sufi fəlsəfəsinə görə həqiqətə, Tanrıya qovuşmaq – "fənafillah"dan – mənən təkmilləşmək və



ruhi paklaşmaqdan sonra nail olmaq olar). Pərdəli yollarla tədricən bəmdən zilə doğru inkişaf edərək (eşqin şiddətlənərək) çatdığı ən zil məqamı – kulminasiya şöbəsini (məs: "Rast"da, "Pəncgah", "Şur"da "Hicaz", "Bayatı Şiraz"da, "Üzzal") Füzulinin Tanrı EŞQinə qovuşması yolunda zərrə-zərrə, yana-yana yetişdiyi aqillik və kamillik zirvəsi ilə məzmunca eyniləşdirirəm. Belə ki, Muğamda zil məqam, dəstgahın musiqi məzmunun bitkinliyinin vacib şərti - təsdiqləyənirdirsə, Füzulidəki ali məqamlar isə mənəviyyatda nümunə ola biləcək **"Füzuli paklığının"** təsdiqidir. Eşqi-təsvvüfdə bu an, aşiqin şəriətdən mərifət mərhələsinə yüksəlməsinin təsdiqidir.

Füzuli təriqi-eşqin daxili təkamül, kamillik yolu olduğuna qəti əmindir:

***"Ey Füzuli, qılmazam tərki-təriqi Eşq kim,***
***Bu fəzilət, daxili əhli-kamal eylər məni"***

Ona görə də o, daima bu yolun arzusunda olub:

***"Ya Rəb, hidayət eylə təriqi-fəna-bana"***

Bu hala – "zil məqama" – Füzuli varlığının, əzəmətinin təsdiqinə yetişdiyinə görə o, özü şükr edərək belə deyir:

***"Rahi eşq içrə mənə ancaq fəna məqsud idi,***
***Şükr kim məqsudə yetdim, intizarim qalmadı".***

Maraqlıdır ki, "zil məqamlara" yetişmək istiqamətində hər iki aşiq Muğam və Füzuli – sanki, **"İxtiyarsızdırlar"**, eşqin tələbi ilə özlərinin xeyrinə olan

hər şeydən imtina edirlər, hər şeyi unudurlar. Füzuli bu ruhi hala belə "təsvir" verir:

***Əqli yar olsaydı, tərki-eşqi yar etməzmidim?***
***İxtiyar olsaydı, rahət ixtiyar etməzmidim?***

Muğamdakı bu **"ixtiyarsızlıq"** kimi ruhi halın təsviri, rəssam T.Nərimanbəyovun yüksək rəssamlıq təfəkkürü və fantaziyası ilə yaratdığı "Muğam" adlı sənət əsərində-rəsmində oijinal verilmişdir!

Dəstgahın daşıdığı ideyanın, muğamın "xislətində" olan İlahi harmoniyaya daxil olub, bəmdən-zilə doğru kulminasiya pərdəsinə - İlahi məqama qalxması, həmin ideyanın ilahi EŞQ yolunda yetkinləşməsidir. Dəstgahın ideyası hər səslə (avazla) deyil, məhz İlahi səslərlə, İlahi harmoniyaya daxil ola bilər. Deməli, Muğam İlahi harmoniyanın bir silsiləsi olmaqla, ilahi musiqinin dili ilə, ruhən kamilliyə yetişmək – Tanrı Eşqinə qovuşmağa aparan bir yoldur, cəhddir!

Dəstgahın ifası zamanı, musiqinin zilə doğru axarı ilə bərabər, muğamdakı məhəbbət də eşqə doğru inkişaf edir, musiqi ilə birlikdə o da ucalır. Musiqi kulminasiya-zirvə pərdəsinə, məhəbbət isə kamillik zirvəsi olan EŞQ məqamına çatır!

Əlbəttə ki, ağır zəhmət, əziyyət, istedad, bacarıq, səy və s. hesabına. Bax bu İlahi məqamda Muğamdakı EŞQİ, Füzulinin təmənnasız Tanrı EŞQİ ilə məzmunca eynilşdirirəm. Doğrudan da Tanrı Eşqinə qovuşmaq yolunda **"Məcnundan füzun aşiqlik istedadı olan"** Füzuli Tanrının ağır sınaqlarından çıxdı, özünü nəfs adlı qorxulu,





**Toğrul Nərimanbəyov. "MUĞAM"**

***Bir qayətə yetdi nəşəyi-hal***
***Kim, oldu həvasü əql pamal.***
*(Füzuli)*

iyrənc bir hissdən azad etdi! Budur, Şərəfli Tanrı Eşqinə layiq olmağın yolu.

Maraqlıdır ki, müəmmalı Eşqin həqiqəti yolunda çox dahilər – **"zövqü, eşqi var olanlar"** (Platon, Dekart, Qüdsi və s.) özlərini yordular, **"ayaqdan saldılar"!** Nə fayda?

***"Nalədəndir ney kimi, avazeyi-eşqim büländ***
***Nalə tərkin qılmazam, ney tək kəsilsəm bənd-bənd"!***

deyən Füzuli tərki-Eşq, etmədi, əfsanəvi Məcnunu kölgədə qoyan, real aşiqi-sadiqlik nümunəsini yaratdı. Lakin, açması müşkül olan EŞQİN məni (mənası) "yolunda" (önündə) o da aciz qaldı.

Platon konsepsiyalarından, Dekart traktatlarından, Qüdsi mülahizələrindən fərqli olaraq, Füzuli, EŞQİ özü duyduğu kimi, binəva Məcnunun adından beləcə sətirlərə düzdü:

***Eşq dərdi ey müalic, qabili dərman deyil,***
***Cövhərindən eyləmək cismi-cüdanı asan deyil***

Bəlkə, **"çal-çağırlı", "çil-çıraqlı"** bu qoşa aləmin, insanlıq üçün bu qədər sirrli qalmasının səbəbi, onların cövhərindəki müəmmalı insani duyğu olan Eşqdən irəli gəlir?

Bəlkə, onlara qüdrəti-ilahi verən də, onlara hikməti - İlahi edən də Eşqdir? Bəlkə də!

Mənəviyyatın təbii ehtiyacına çevrilən, cəm insanlığa "dəstək-dayaq" ola biləcək Muğam- Füzuli cazibəsi, cəmi insanlığı, bax beləcə daima əsir edəcək və düşündürəcəkdir.

Müqayisədən hasil etdiyim qənaət budur ki, **zaman və məkanca bir-birindən uzaq olan hadisələr – Muğam və Füzuli həqiqətləri, eyni yolun – kamilləşərək Tanrı sevgisinə qovuşmağın yolları, bu İlahi EŞQin real ifadəçiləri və daşıyıcılarıdır.**

*1997*

* * *

## *Qeyd*

Bu məqalə A.M.E.A fəlsəfə və Hüquq İnstitutunun «Ekologiya, fəlsəfə, mədəniyyət» jurnalının – 1997-ci il 12-ci buraxılışında dərc olunmuşdur. İlkin olaraq bu yazıya nüfuzlu Alim Yaşar qarayev və filoloq alim-xanəndə Vəli Məmmədov rəsmi rəy verdilər. Hətta həmin illərdə elmi mövzuya hədsiz marağını gizlədə bilməyən Vəli Məmmədov elmi işə rəhbər olmaq xahişi ilə İnstitut rəhbərliyinə rəsmi müraciət də etdi. 1997-ci ildə AZTV-1 eyni adda veriliş nümayiş etdirildi.

Məqaləyə aid rəyləri olduğu kimi təqdim edirəm.

* * *

### Rəhim Müseyibovun «Muğam və Füzuli» məqaləsi haqqında
### RƏY

*Rəhim Museyibovun «Muğam və Füzuli» məqaləsini böyük maraqla və zövqlə oxudum. Həm musiqidə, həm də poeziyada zirvə məqamını təşkil edən iki əlçatmaz iki müqəddəs sözü yazısının sərlövhəsinə qoşa yazmağa*



*cəsarət edən gənc müəllifin elm səriştəsi və təravətli, fərdi yaradıcılıq imkanları barədə məndə nikbin ümidlər oyandı.*

*Müşahidə və ümumiləşdirmələrin əvvəldən axıra qədər davam edən sahmanı və silsiləsi, həm sənətşünaslıq, həm fəlsəfə və estetika, ruhani-irfani bilgilər sahəsində elmi-nəzəri hazırlığın həmin mövzuya toxunmaq üçün zəruri olan səviyyəsi, həm də predmetli, təvsilatlı təhlildə konseptual tamlıq, bütövlük, ilham və enerji inandırır ki, Rəhim müəllim bu istiqamətdə işləməyə çətin olduğu üçün az toxunulan, siqlətli problemləri həll etməyə qadirdir.*

*Rəhim müəllimi məqalə münasibətilə təbrik edirəm, uğurlar arzulayıram, Ədəbiyyat İnstitutu ilə daha fəal, rəsmi sənədləşmiş şəkildə əməkdaşlıq etməyə dəvət edirəm.*

**Filologiya elmləri doktoru, professor: Yaşar Qarayev.**

* * *

### Rəhim müseyibovun "Muğam və Füzuli" məqaləsi haqqında

*Rəhim Müseyibovun «Muğam və Füzuli» məqaləsi Haqqında səs-söz, nəğmə-mətn, muğam-şer əzəli olaraq bir-birilə təmasda, canbir qəlbdədir, biri digərini cəzb etməkdədir. Muğam bütövlüyü şer-qəzəllə ifa zamanı yaranır, duyulur və sehrli səsin ünlü-ecazlı dağ təki nəzərdə canlanır, böyüyür.*

*M.Rəhim məhz bu mövcudluğu dərk edərəkdən «Muğam və Füzuli» mövzusuna girişmiş və tədqiqat istiqamətini düzgün müəyyənləşdirmişdir. O haqlı olaraq deyir: «Muğam deyəndə mən ilk növbədəFüzulini düşünürəm». Füzuli böyüklüyü ondadır ki, yaradıcılığı qədim türk xalqlarının folklor çeşmələrindən, musiqi qaynaqlarından barınmış aşiqanə fəlsəfi şeirləri milli*

*təfəkkür, ideal arzu və sevgilərdən rişələnib pöhrələnmişdir. Elə buna görə də Füzuli şer, qəzəl sənətini uca mərhələyə çatdırmışdır.*

*Füzuli öz şeirlərini elə bir ayrı-ayrı muğam üstündə yoxlayıb-kökləyib, sözü vərəqlərə köçürmüşdür. M.Rəhim şairin yaradıcılığının muğamla sıx əlaqəsini hiss edərək qoşa sənəti fəlsəfi səpgidə araşdırmağı qarşısına məqsəd qoymuşdur. Bu işdə ona uğurlar diləyirik.*

**Filologiya elmləri namizədi, xanəndə: Vəli Məmmədov**



# 4. BEYNƏLXALQ MUĞAM FESTİFALI BARƏDƏ

(**"Mədəniyyət"** qəzetinə müsahibə)

**Rəhim Müseyibov:** *"Xanəndələr Allah və Peyğəmbərimiz xatırlanan qəzəllərə üstünlük verməli idilər".*

Sual: **Muğamın fəlsəfəsi ilə məşğul olan tədqiqatçı-jurnalist kimi, Beynəlxalq Muğam Festifalı sizə nə verdi?**

Cavab: İlk dəfə keçirilən Beynəlxalq Muğam Festifalı, müsəlman-Şərq xalqlarının mənəvi birliyini, vəhdətini, muğamın ortaq sənət olduğunu bir daha təsdiqlədi. Əgər danışıq dilimiz bizi **Türkdilli** Xalqlar adlı məkanla bağlayırsa, Muğam daha geniş – dünya mədəniyyətinin **Şərq** adlı bir məkanı ilə bağlayır.

Beynəlxalq Muğam Festifalını, ümumən **Şərq** mədəniyyətini, eləcə də bu kontekstdə özümüzü görüb, tanıyıb dərk etmək, bir sözlə mənəvi kökümüzə qayıdış istiqamətində çox əhəmiyyətli hadisə kimi qiymətləndirirəm.

Beynəlxalq Muğam müsabiqəsinin Ali mükafatının Azərbaycanda qalması, əsası dahi Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş, sonradan ustad sənətkarlar – S.Şuşinski və Ə.Bakıxanov tərəfindən inkişaf etdirilmiş, mövcud muğam dəstgah ifa sisteminin dinamik məntiqli quruluş və emossional təsir baxımından doğrudan da kamil

sənət forması olduğunu təsdiqlədi. Əlbəttə zəngin səs və mükəmməl ifa hesabına!

YUNESKO rəhbərliyinin qonaq kimi, Qərb musiqi xadimlərinin münsif kimi iştirakı Beynəlxalq Muğam Festifalına xüsusi əhəmiyyət və rövnəq verdi.

Sual: **Beynəlxalq Muğam Festifalının gedişində zövqünüzü oxşayan ifalar hansı idi?**

Cavab: Bu sualın cavabının düzgün anlaşılması üçün əlavə izahata ehtiyac duyuram.

Obyektiv həqiqətin dərkində zəka konsepsiyasının lüzumsuzluğu, idrakın üçüncü növü – intuisiyanı ön plana çəkdi. Intuitiv olaraq vəcdə (Allahın yəqinlik dərəcəsinə çatmaq) gəlib İlahi gözəlliyi qəlb müşahidəsi ilə "görmək" (batini) – seyr etmək və s. bütün bunları praktiki olaraq muğam sənəti yaratdığına görə bu sənətə "vəcd sənəti" də deyərdim.

İfaçılıq tarixində əksər xanəndələr böyük uğurlarını məhz vəcdə gəlməklə əldə etmişlər.

Məsələn, muğamı oxuyan zaman **"top atsaydın vəcdə gələn Cabbar Qaryağdı oğlu dayanmazdı"** məşhur ifadəsi, Seyid Şuşinskinin, ifa zamanı vəcdə gələrək "Bayatı Şiraz"da "Xavəran"dan "Qatar"a keçməsi, Xan Şuşinskinin ifa zamanı vəcdə gələrək qavalı yuxarı tullaması, Yaqub Məmmədovun vəcdə gələrək "Mənsuriyyə"də "Segah" oxuması, Qədir Rüstəmovun demək olar ki, bütün ifaları, xüsusən "Sona Bülbülləri" və s.

Bu mənada konkret uğurlu ifalara gəldikdə İran və Misir musiqiçilərinin eləcə də vəcd sənətində böyük istedad sahibi, dünya şöhrətli Alim Qasımovun əsl Şərq üslubundakı çıxışları yadda qalan oldu.



Sual: **Müsəlman Şərq xalqlarının musiqi mədəniyyətində, o cümlədən muğam sənətində İslam dininin təsiri barədə nə deyə bilərsiniz?**

Əlbəttə, Beynəlxalq Miqyaslı Muğam Festifalında müsəlman – Şərq musiqi ənənələrinin nümayişi öndə olmalı idi. Belə ki, Üzeyir bəyin təbirincə desək, XIV əsrdə dağılmış, 12 sütunlu, 6 bürclü, vahid (bütöv) Şərq musiqi "qəsrinin" dəyərli qırıntılarından istifadə edərək, hər xalq özünəməxsus üslubda özlərinin musiqi məbədlərini yaratmışlar.

**Muğam, makom, məqam, makam, makkam...** bu adların inkişaf formaları milli intonasiya çeşidləri müxtəlif olsa da, etnik kökü, məna-baxışı eyni olan müsəlman incəsənətidir. Belə ki, İslam dünyagörüşü Yaxın və Orta Şərq xalqlarının bütövlükdə mədəniyyətinin inkşafına, onun məzmununa təsir göstərmişdir. Çox maraqlıdır ki, müsəlman metafizikası postulatının tələbləri (əbədilik və dəyişiklik) harmoniya və akkord bilməyən müsəlman musiqisində, o cümlədən muğam janrında vacib şərt (sabit ahəng və dəyişən improvizasiya) kimi çıxış edir.

Akademik V.Məmmədəliyevin təbirincə desək doğrudan da **"Muğam musiqimizin Quranıdır"**.

Elmi tədqiqatlar göstərir ki, muğamın janr kimi formalaşması, bilavasitə "Müsəlman intibahına" səbəb və təkan olan sufizmlə (təsəvvüf) bağlıdır.

Maraqlıdır ki, müsəlman Şərqində Əl-Kindi, Əl-Fərabi, İbn Sina, Əl-Qəzzali, Nizami, Rumi, Füzuli, S.Ürməvi, Ə.Maraği və s. bu kimi dahilər tərəfindən ümumiləşdirilmiş musiqi haqqında elmi-fəlsəfi-nəzəri biliklər, bütövlükdə muğam sənətinə aid professional

musiqinin nəzəri və təcrübi problemləri əsasında araşdırılmışdır.

Orta əsr Şərq musiqi elmi nəzəriyyəsi, məhz İslam dininin təsiri altında formalaşmış, sərbəst elmlər sisteminə düşmüş və İntibah dövrünü yaşamışdır.

Sual: **Beynəlxalq Muğam Festifalında tələbkar dinləyici kimi, sizi qane etməyən məqamlar?**

Əlbəttə ki, **İslam incəsənəti,** o cümlədən muğam sənəti, məhz İslamın **"qəlbini"** (mahiyyətini), həyat vəhdətini açmağa kömək etməlidir.

Amma, Üzeyir Hacıbəyovun qənaətinə istinadən deməliyik ki, bu gün ifasına və dinlənilməsinə vərdiş etdiyimiz muğam dəstgahları, xüsusi ifa üslubu olan dünyəvi xarakterli musiqidir.

Unutmaq olmaz ki, realizm prinsipinə üstünlük verən, totalitar xarakterli İslamda (çoxmənalı "İslam" sözü ərəbcədən "mütilik" kimi də tərcümə edilir) dünyəvi musiqiyə qarşı müsəlman teoloqları tərəfindən müəyyən qadağalar qoyulmuşdur. Bu prinsiplərdən çıxış etməklə ifa zamanı özlərinin söz (qəzəl) seçmək sərbəstliyindən istifadə edərək, bədiilikdə müsəlman prinsiplərinə **"sadiq qalaraq"** bilavasitə Allah və Peyğəmbərimiz xatırlanan klassik qəzəllərə üstünlük verməli idilər ki, dinləyicidə Şərq musiqisinə xas olan mistik-mənəvi ruhi aləmi yarada bilsinlər. Başqa sözlə, xanəndələr bədiiliklə (qəzəllə) Ilahi obraz yaratmaq istiqamətində meylli olmalı idilər, yəni ifadə olunmazın (Tanrının) ifa olunan və eşidilən musiqi ilə ifadəsi! Axı muğam **panteist xarakterli** (hər şeyin Allahdan olması) musiqidir.



Çox təəsüflər olsun ki, musabiqə və festifaldakı əksər ifalarda dünyəvi xarakterli qəzəldən istifadə olundu.

Yaxud ifadakı Şərq üslubunu gücləndirmək üçün, klassik tar-kamança birliyinə Qədim Şərq musiqi alətlərindən birinin qatılması, əlbəttə ki, zənginlik yaradardı. Təəsüflər olsun ki, Alim Qasımovu müşayiət edən ansamblda bunun əksi, Qərb musiqi aləti olan klarnet daxil edilmişdir.

Üzeyir bəyin zövqü təbirincə desək, "Şiştər"ə nisbətən daha dərin kədər hissi oyatmalı olan "Humayun", Səkinə İsmayılovanın psixoloji-emossional durumundakı **"amiranəlik"** və ara sıra **gülümsəməsi** hesabına əksinə, Nuriyyə Hüseynovanın "Şiştər"indən daha şən görünürdü!?

Şən, lirik əhval-ruhiyyə, ümidvarıq hissləri ilə dolu "Şur", xanəndə Zabit Nəbizadənin ifasında, qəzəl seçimindəki uyğunsuzluğa görə, daha çox narahatlıq, yalvarış hissləri oyadırdı. **"Qoymayın siz bu muğamatımızı xar olsun"!**

Muğamatımızın şad günündə, onun xar olması narahatlıq çağırışlarına nə dərəcədə ehtyac var idi görəsən?

7 əsas muğam dəstgahının ifa nümayişini ümumən uğurlu, yaddaqalan etməyən faktorlardan biri də xanəndələrin səs, məziyyət və məlahətlərinin, muğamların xarakteri – "xisləti" ilə uyğunlaşmamasıdır.

Hikmət dolu sərrast "Rast"ı, daha təcrübəli müdrik Ağaxan Abdullayevin, məhəbbət hissləri ilə dolu "Segah"ı, Şərqdə məhəbbət simvolu olan Məcnunun layiqli ifaçısı,

ipək kimi yumşaq səsli Mənsum İbrahimov ifa edəydi gərək!

Professor G.Abdullazadə haqlı olaraq qeyd edir ki, **"Muğam Şərq təfəkküründə kamil sözdür"**. Kamil söz isə kamil deyim bacarığı tələb edir!

## *Qeyd*

Müsahibə ilə əlaqədar Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə və professor Ramiz Zöhrabov məni dəvət etdilər. İradlar nəzərə alınmaqla səmimi, işgüzar şəraitdə keçən 2 saata yaxın görüşdən hər üçümüz razı qaldıq.



# 5. SƏNƏTİN SEHRİ

*(məqalə respublikanın əməkdar artisti, xanəndə Yavər Kələntərliyə həsr olunmuşdur)*

### a) "Sənətin sehri"nə GİRİŞ

Tanrıya bənzər faili-muxtar insanın, nədənsə-nəyi yaradanda, orada öz nişanəsini qoymağı, bu Tanrıdan gəlmə keyfiyyətdir. Təsəvvür fəlsəfəsinə görə gözəgörünməz Tanrı da, yaratdıqlarındakı nişanələri (təcəlla) ilə aşkarlanır. Nədəsə nəyi aramaq prinsipinin elmiliyi, məhz buradan qaynaqlanır.

— Qəlbi hərəkətə gətirən həyəcanlarda, əxlaqın keyfiyyətini aramaq mümkünlüyü, bu **Əl-Fərabidəndir.**

— İnsan qəlbindəki meyldə, onun xislətini aramaq mümkünlüyü – **bu Füzulidəndir.**

— Emossional musiqi intonasiyalarında insani hiss, duyğu və düşüncələrin daha qabarıq əks etdirilməsi mümkünlüyü – **bu da Muğamdandır.**

Ciddi musiqi janrı olan muğamda bunu əks etdirmək və aşkarlamaq, bu xanəndə və dinləyicidən (yazardan) xüsusi hazırlıq tələb edir. Belə ki, müəllifin öz dəst-xəttini ("avtoqrafını") nəsrdə, nəzmdə, təsvirdə vermək imkanı nisbətən asan, üzdə olan məsələdir. Lakin bunu muğamda vermək və sonradan dinləyici (yazar) tərəfindən bunun aşkarlanması və s. inanın bu çətindən-çətindir.

Elmi-məntiqi qənaitlərin "işığında", oxuması ilə insanda qeyri-adi "ab-hava" yaradan Yavər Kələntərlinin həyat və yaradıcılığı ilə tanış oldum. İfalarında onun həyat

detallarının nişanələrini, başqa sözlə sənətkarın əsəri ilə (burada ifası ilə) şəxsi həyatı, taleyi arasındakı mümkün doğmalıq izlərini arayıb-axtardım və 1996-cı il sentyabr ayında **"Ədəbiyyat"** qəzetində **"Sənətin sehri"** yazısı ilə çıxış etdim.

Dahi Mövlanə Rumi söyləyirdi ki, **"Kim anlar dərdimi, mən yar (yoldaş) ona".** Filioloq-alim-xanəndə Vəli Məmmədov Yavər kədərini anladığını və "Sənətin sehrin"də mənimlə yar (yoldaş) olmağını, Azərbaycan Dövlət Televiziya və Radiosunda efirə gedən verilişlərin təşəbbüskarı olması ilə təsdiqlədi.

Lakin hörmətli professor Rəfael Hüseynov (Mən onun jurnalistikadakı fəaliyyətini, xanəndə Cabbarın dəsgah oxuması ilə eyniləşdirirəm. **Yazdığı mövzu barədə, əlavə yazmağa, heç kimə, heç nə qoyub qalmır!**) qəribə səslənsə də mənə xoş olan etirazını bildirdi.?! Mən bilirdim ki, Yavəri sən görmüsən, onun haqqında belə sərbəst mövzuda gərək sən yazaydın!

O, söz verdi ki, yazacağam! Görərsən necə yazarlar! Mən hələ də o yazını gözləyirəm və əminəm ki, o yazılmayacaq! Çünki, o yaşantı tərzini, o yaşamayıb! Füzuli demiş:

***Gözü yaşlıların halın nə bilsin mərdümi-qafil,***
***Kəvakib seyrini, şəb ta səhər bidar olandan sor.***

**"Sənətin sehri"**ndəki Yavər xanım, Rəfael müəllimin gördüyü, ünsiyyətdə olduğu Yavər deyildir: O, mənim təxəyyülümün məhsulu olan Yavərdir!

Məlumdur ki, sənət-real həyatın inikasıdır, təcəssümüdür. Həyata aid olan ideyaların tərənnümü,



vəsfi, onların insanlara çatdırılması – bu sənətin missiyasıdır.

Həyatda tək, kimsəsiz qalmış Yavər xanımın vətənə məhəbbəti, ana hissiyatı, qadın sevgisi... nəhayət, tale yazısı, qismət-bəxt ilə hesablaşmaq, bütün bunlar sənət anlamını aşkarlayan-təsdiqləyən yüksək məziyyətlər deyilmi?

Bu yazının qeyri-adiliyi nədədir? Musiqi mədəniyyəti tarixində muğamın daşıdığı 5 əsas funksiya var; birinci ən əsası kommunikasiya-yəni ikili təsir: həm ifaçının özünü ifadə vasitəsi, həm də dinləyicinin daxili dünyasına birbaşa təsirdir. **"Sənətin sehri"** yazısı, bu nəzəri funksiyanın praktiki təcəssümüdür.

Məlumat və təsdiq üçün qeyd edirəm ki, Yavər xanımın ifasındakı muğamların emossional psixoloji təsirini şərtləndirən amillər, o cümlədən oxunmuş qəzəlin poetik məzmunu və ifa məziyyıtlərinin yaratdığı ruhi-mistik vəziyyət, yazı boyu mənim ən çox bəhrələndiyim mənbələr olmuşdur.

Şübhəsiz ki, **"əhvala münasibət olar, deyilən söz"** (Füzuli) Yavər xanım iztirablarını, böyük ustalıqla öz ifalarına köçürə bilmişdir. Yavər xanım öz iç dünyasına uyğun seçib-söylədiyi qəzəllərdə, bayatılarda özünü görə bilməsəydi, inanın, ifalar bu dərəcədə yanıqlı alınmaz idi!

Təsdiq üçün qeyd edim ki, Şərqin böyük filosofu Əl-Qəzzalı özünün musiqiyə yazdığı şərhlərində qeyd edir ki, **"musiqi özü-özlüyündə qəlbə heç nə gətirmir. Yalnız qəlbdə olanı hərəkətə gətirir"!**

Başqa bir maraqlı təsdiqedici məqam – Yavər oxumalarında ustad Seyid Şuşinski avazının hiss olunması

iddiasını, vaxtilə tarzən Kamil Əhmədov belə təsdiqlədi: Yavər xanım 1923-cü ildə musiqi texnikumunda Seyidin tələbəsi olmuşdur. Seyid söyləyərdi ki, **"Yavər qədər məni təkrarlayan, yamsılayan ikinci xanəndə görmədim".**

Maraqlıdır ki, bu yazını, eyni zamanda dinləyicinin (yazarın) özünü ifadə vasitəsi kimi də təqdim etmək olar.

Füzuli sayaq, Yavər bəhanəsi ilə həyatımın olanını və fəhm (!!!) hesabına **"gördüyüm"** olacağını vermişəm bu yazıda. İndilərdən, arxaya baxarkən bir daha əmin oluram ki, özümü ifadədə səhv etməmişəm! Yazıdakı səmimiyyətim o dərəcədə yüksəkdir ki, 15 ilə yaxın vaxt keçməsinə baxmayaraq, müəllif kimi məqalənin bircə cümləsini belə dəyişməkdə acizəm!!!

Tale - zəbunlar Yavər xanım və Mirzə Məhəmməd Həsənin tale oxşarlıqları barədə isə düşünməyə dəyər!!!

Nəhayətdə... əgər bu qoşa muğam oxumasından ("Şur" və "Bayatı Kürd") bu qədər yazmaq olarsa, görün nə qədər yazılası mövzular var, milli muğam ifaçılığımızda!

* * *

*Tarı bihudə hesab etmə, əgər arifsən,*
*Gör ki, məhrulər əlindən nə şikayətlər var.*

(Ə.Vahid)

### b) Sənətin sehri

*Ö n s ö z:* Yavər xanımın ağrılı ifaları, məni muğamın qüdrətinə, seçdiyi qəzəl və təsniflərin əzəmətinə tabe etdirdi. Qoşa muğam oxumaları, nəzərimdə bir anlığa,



çox rəngli, çox şaxəli "ornamental" avazlarla bəzədilmiş tamaşa səhnəsinə çevrildi.

O, tamaşa səhnəsi ki, əsas surəti, əsərin qəhrəmanı, muğamların ifaçısı Yavər xanım özüdür.

Səhnədə bu tamaşanın başqa surətlərini də – Mirzə Məhəmməd Həsən, Abbas Səhhət, Üzeyir bəy, Seyid Şuşinski, Cavad və s. "gördüm".

Mən, həm də aydınca "görürdüm" ki, Yavər xanım ifa zamanı, xanəndəlik sənətinin ümdə şərtlərinə əməl edərək seçdiyi sözlərin "abı-havasına" uyğun hərəkət edir, qəhərlənir, ağlayır, yalvarır. Bu ağrılı ifalara diqqət verərkən, vaxtı ilə görüb-eşitdiyi ecazkar Mirzə və Seyid avazlarının, Yavər oxumalarına hopduğunu da açıqca hiss etdim.

Beləliklə, əmin oldum ki, musiqinin improvizasiya üslublu, sərbəst ritminə aid olan muğam janrı, həqiqətən bədii təfəkkürün məhsuludur.

* * *

Radio dalğalarında Yavər Kələntərlinin ifasında "Şur" və Bayatı – Kürd" muğamlarını dinləyərkən, belə yanıqlı oxumalara biganə qalmaq olmur. Hər dinləyəndə düşünürsən ki, nədir belə qəmli, ah-nalə ilə oxumanın səbəbi?

Bunun aydınlığı xatirinə Yavər xanımın yaşanıb tarixə dönmüş həyatının izi ilə "səyahət" etdim. Və yəqin etdim ki, ulu tarixə malik möhtəşəm muğamın qoşa budağında özünün acı həyatını da, uğursuz məhəbbətini də həkk edib, çatdırıb bizlərə, Yavər xanım!Arxaya baxıb,

ötüb-keçmişləri acı təəssüflə yad edib, bu oxumalarda Yavər xanım!

Onun uğursuz taleyini bilib ağlayanları ovundurmaq üçün, onlara təskinlik üçün oxuyub, bu ikicə oxumanı Yavər xanım! Oxuduğu muğamların avazında, qəzəl və musiqinin ahəngində hiss etdim, Yavər xanımın yaşadığı ömrün acılığını. Hələ heç kimin bilmədiyi çoxlu qaranlıq guşələr, söz altı eyhamlar, həyatının naməlum təsvirləri qalır, bu oxumalarda Yavər xanımın.

Muğamın heyrətamiz gücünü və mənasını gözəl duyan Yavər xanımın, öz kövrək hiss və duyğularını, musiqinin ecazkar dili ilə izhar etmək üçün, Şərqdə "Ümməl məqam" (yəni muğamların anası) adlandırılan "Şur"a, sızıltılı və iniltili avazlardan "toxunmuş" "Bayatı-Kürdə" müraciəti, məncə təsadüfi deyildir. Musiqinin həzin, sitəm dolu axını ahəngində, sanki dil açır, hekayət danışır Yavər xanım!

Yavər xanımın giley dolu sədası başqa "Şur" və "Bayatı – Kürd" oxumalarından tamam, köklü fərqlənir-seçilir. Su kimi şəffaf, aydın, pak "Şuru" və uğursuz məhəbbətinin acı naləsi olan "Bayatı-Kürdü" ilə ovsunlayır bizi.

Söhbət bu muğamların, musiqinin tələbi baxmından dolğun oxunub-oxunmamasından getmir. Söhbət odur ki, böyük könül yanğısı ilə oxunmuş bu muğamlardakı haray, kədər, nisgil adamın lap iliyinə işləyir, onu sarsıdır.

Dediklərimi az-çox təsdiqləyə biləcək Yavər xanımın ağrılı-acılı həyatının bəzi vacib məqamları ilə tanış olmaq üçün bir qədər geriyə qayıtmalı olacağıq.

***



Yavər Abbas qızı Kələntərli (Zamanova) 1902-ci ildə musiqi ənənələri ilə zəngin qədim Şamaxının Sarı torpaq məhəlləsində anadan olmuşdur. Yavər xanım muğamata olan həvəsini atasının, qardaşının, əmisi oğlunun, bibisi oğlu şair Abbas Səhhətin musiqiyə bağlılıqları ilə və bir də qonşuluqda yaşayan dövrünün məşhur xanəndələrindən Mirzə Məhəmməd Həsənin heyrətamiz tamlı oxumalarından aldığı ləzzətlə izsah edərdi. Yavər xanımın xatirələrindəki **"Mən oxuyan, Mirzənin "Şur"udur"** ifadəsi, bu izahı bir daha təsdiqləyir.

Şamaxıda məlum zəlzələdən sonra Yavərgil Bakıya köçür. Cavad adlı bir oğlan, məsum qız Yavərin şən oxumalarını pianoda gözəl çalğısı ilə, həm də sevgi dolu iti baxışları ilə bir müddət müşayət edir.

Lakin, Yavəri könülsüz olaraq başqa birisinə ərə verirlər:

*Bizim bağın meşəsi,*
*Gözəldir bənövşəsi.*
*Könülsüz gedən qızın,*
*Ağla aaqdır peşəsi.*

Bəli, Yavər öz toyunda ağlaya-ağlaya "Qatar" üstündə beləcə oxuyur:

*Yetdi rəqibi-şumun əli yarə, ağlaram*
*Dəydi dili həzinimə min yarə, ağlaram*
*Qan oldu, qönçə tək, dili pirxunum, ey fələk*
*Tapşırdım öz əlimlə gülü xarə, ağlaram.*

Belə nisgilli sözlərin, mayası nikbinlik və qətiyyətlik ruhu ilə dolu "Qatarın" melodik xüsusiyyəti ilə qovuşmaması, sanki, gələcək ailə həyatının uğursuz, ziddiyətli keçəcəyindən Yavərin duyuq düşdüyünü bildirir.

Həmin toy günü, təsadüfən qurulan və cəmi 18 il ömür sürəcək və sonradan yarımçıq pozulacaq, acı ailə həyatının başlanğıcı qoyuldu.

Nələr görmədi Yavər xanım bu 18 illik əsarətli həyatında?! Səbəbi, ailədə biri-birini başa düşməmək, eləcə də o dövrün məlum psixoloji abı-havası.

Nəhayət, Yavər xanım cəsarətli addım ataraq, özünün yeganə təsəllisi, oğlu Şahbazla tək yaşamağı üstün tutur. Opera və Balet Teatrında işə düzəlir. Özünəməxsus bacarığı ilə geniş tamaşaçı kütləsinin diqqət və rəğbətini qazanır.

Lakin tale yazısından qaçmaq olmazmış! Yavər xanımın bu dünyada ən əzizi, ciyərparası Şahbaz əldən gedir. O, bütün ömrünü yas-matəm içində keçirməyi qərara alır. Bir müddət işə çıxmır. Onun bacarıq və istedadından xəbərdar olan Ü.Hacıbəyov və S.Vurğun bu işdən kədərlənirlər və həmin böyük şəxsiyyətlərin təkidi ilə Yavər xanım yenidən Opera və Balet Teatrına işə çıxır.

Ailə həstrəti, oğul dərdi kövrək qəlbli anaya, bir an belə rahatlıq vermir. Qırx ildən artıq fərəhsiz keçən həyatı dövründə ailə-övlad həsrətli dərdini tək gəzdirdi, Yavər xanım! Bu çətin anlarda muğam ona qəmxar olmuş, öz nisgilli hisslərini muğama köçürtməklə yüngülləşdirirdi, bu qəmi-qüssəni.

Qardaşı Hacıbalanın Qori seminariyasında Üzeyir bəylə birgə oxuması, onu dahi bəstəkarla yaxın etmişdir.



Üzeyir bəy **"Vətən nəğməsi"** adlandırdığı **"Sarənci"** Yavərin ifasında dinlərkən xüsusi zövq alarmış. **"Sarənc həmişə yadıma Üzeyir bəyi salır"** deyə xatırlardı Yavər xanım.

Nəhayət, Bakıda bir neçə ailənin birgə yaşadığı həyətdə, bir otaqlı evdə, tənha, kövrək qocalıq dövrü keçirtdi Yavər xanım. Bu evə çox müğənnilər, musiqiçilər gələr; çox xatirələr söylənərdi. Nə Yaxşı ki, ustad tarzən B.Mənsurovun təşəbbüsü ilə bu qoşa muğam oxumaları lentə alınır.

***

Bu oxumalardan çox fikir-məna açıqlanır. Tək birindən başqa. Yavər xanım, oğlu Şahbaza olan anna məhəbbətini, öz içində saxladı, nə musiqiyə köçürtdü, nə də daxili qəm yanğısı ilə əritdi, özü ilə birgə əbədiyyata qovuşdurdu.

Tənhalıq acısından, sıxıntılı həyatdan təngə gələn ailə-övlad həsrətli ananın fəryadını yalnız muğamların "anası" - həcmcə ən böyüyü "Şur" öz yanıqlı, həzin avazına sığışdıra bilərdi.

**"Mən oxuyan Mirzənin Şurudur"** deməklə, Yavər xanım o dövrdə möhkəm adət halını almış sənət və sənətkara olan ehtiramını təsdiqləyir. Doğrudan da "Şur"da oxunan təsniflərin hamısı Mirzə Məhəmməd Həsənin yadigarıdır bizlərə. Yavər xanımın "Şur"u əzizdir, müqəddəsdir, həm də ona görə ki, fələkdən qismətinə **"karlıq"** və **"korluq"** payı qismət olmuş Mirzə Məhəmməd Həsənin bənzərsiz avazını xəyalımızda canlandıra bilən, yeganə yadigar oxumadır!

- Bu həmin Mirzədir ki, deyilənə görə nəhəng Cabbarın özünə ustad sandığı Bülbülcanı, Şamaxı musiqi məclislərinin birində böyük ustalıqla məğlub etmişdir.
- Bu həmin Mirzədir ki, fenomen səsi ilə bütün Şərqdə məşhuri-cahan olan Hacı Hüsü ilə sənət yarışına girmiş və onu təəccübləndirmişdir.
- Bu həmən Mirzədir ki, Şirvan məclislərinin birində öz "Şur"u ilə məclis əhlinə zövq verəndə, böyük İslam Abdullayev növbəti çıxış üçün çarələr arayır, nəhayət, şakəri olduğu **"Yetim Segaha"** əl atır, **"Segah İslam".**
- Bu həmin Mirzədir ki, tələbkar Seyid Şuşinski onun oxumasına heyran olmuş və demişdir: **"Onu, gördüyüm xanəndələrdən heç birinə bənzədə bilmərəm".** Məlumat üçün qeyd edim ki, hörmət əlaməti olaraq Mirzənin "Nalə" kitabçasını Seyid həmişə cibində gəzdirərmiş.
- Nəhayət, bu həmin Mirzədir ki, Yavər ilə Şamaxının Sarıtorpaq məhəlləsində qonşu olmuş və obasının şəninə **"Sarıtorpaq Şikəstəsini"** yaraşdırmışdır.

Yavər xanımın vətən haqqında, onun müqəddəsliyi haqqında təsəvvürü o qədər yüksək və işıqlı olmuşdur ki, ailəsindən barınmayan ana, bircə övladını itirdikdən sonra, tək qaldığı anda, vətənin təəssübünü hər şeydən üstün tutaraq, düşdüyü dərdlərinin loğmanını vətən bilərək, ümidlə ona üz tutmuş, öz musiqi müraciətini – "Şür"un mayəsini, doğması A.Səhhətin "Vətəni" ilə başlamışdır:



***Könlümün sevgili məhbubu mənim,***
***Vətənimdir, vətənimdir, vətənim...***

Vətən hissini itirməyin məsuliyyətindən hər birimizi duyuq salan şair A.Səhhət, hər sətri ibrətamiz mənalar aşılayan "Vətən" şerini, **ata qüruru** ilə nəsihətanə çatdırdısa bizlərə, Yavər xanımın kövrək ifasında bu, vətən həsrəti **ananın, hicran nəğməsi** kimi səslənir.

Bu oxuma çətin, dar məqamda and və güvənc yeri saydığımız Ana və Vətən məfhumlarının, əzəldən qoşa yarandığını və bir-birinə dayaq olduğunu, xatırladır bizlərə. Vətən sevgisi Yavər xanımın qanında, canındadır. O, həyat axarının dərdlər burulğanında, tək qaldığı anda, vətən hissindən təsəlli aldı və təsəlli ilə də yaşadı.

Kədərli insani hiss və möhnətdən "yoğrulmuş", "Sarəncə" diqqət yetirərkən sanki, həyatda tək, kimsəsiz qalmış Yavər xanım, özünə arxa-dayaq sandığı, qayğıkeş, duyğulu Üzeyir bəylə üz-üzə durub, ona gileylənir:

***Yoxdur günüm, nə üzlə gedim seyri-gülşənə,***
***Bəxtim bu il xəzan edib növbaharımı.***

Diqqətlə qulaq verdikdə Yavərin "Simayi Şəmsində" onun sənətkar kimi yetişməsində haqqı-sayı olmuş, Seyid Şuşinskinin ecazkar avazı aşkar hiss olunur.

***Başım bəlalıdır, sevirəm kimsə bilməyir,***
***Bir qara gözlü əldən alıb ixtiyarımı...***

deməklə, sanki qəlbində gizli saxladığı, qisməti olmayan, lakin kövrək qəlbini yandıran eşq odunun sönmədiyini bildirir. Bəli, Cavada olan məhəbbətini, Yavər öz

qəbindən silə bilmədi. "Bayatı-Kürd" həmin məhəbbətin acı naləsidir, səsidir.

Musiqi ədəbiyyatında adətən "Bayatı-Kürd" muğamı, aşiqin yetişmədiyi eşqə vida nəğməsi kimi izah edilir, təqdim olunur. Lakin qadın müqəddəsliyi, qadın paklığı, qadın kövrəkliyinə sadiq qalaraq: ***Atadan, anadan yar şirin olar, şirin...*** deməklə sanki "Muğamın" tarixən daşıdığı mənaya, yeni ovqat verərək, yetişmədiyi EŞQİNƏ "Bayatı-Kürdünü" yadigar etdi Yavər xanım. "Bayatı-Kürd" oxumaqla o, arzusunda olduğu, lakin qovuşmadığı EŞQİN iztirablarından təsəlli tapdı və bu təsəlli ilə də yaşadı.

Yavər xanımı həyatda yaşadan digər təsəlli:

***Kimin zülfünə bənd olsunsa Seyida, bivəfa çıxdı,***
***Şikayət eyləmə heç kəsdən, özün bəxti qarəsənmiş.***

deməklə tale yazısıdır ki, onun da qismətinə **"bəxtiqarəlik"** düşmüşdür deyə, onunla hesablaşmasıdır. Həmin **"bəxtiqarəlik"**dəndir ki, Yavər xanım övlad qayğısı ilə yox övlad qövrü ilə yaşadı. Eşqin ləzzətini görmədi, Eşqin qövrünü çəkdi!

Bəli, bəxti dönük, qəlbi sınıq, dərdli Yavər xanım, kədərdən oxuduğu, bu nisgilli oxumaları ilə Azərbaycan muğam ifaçılığının kədər zirvəsini yaratdı.

Bu bir cüt oxuma, Yavər xanımın sarsıntılı-iztirablı keçən həyat mənzərələrinin, musiqi təsvirində verilmiş ifadəli tablosudur.

Bu oxumalarla, doğrudan da intəhasız duyğular, obrazlar, aydın fikirlər yaratdı. Yavər xanım! **Sənətdə öz sözünü tam demədi Yavər xanım, az oxudu, çox düşündürdü, Mirzə Məhəmməd Həsən kimi.**

*1996-cı il.*



* * *

**c) "Sənətin sehri"ndən sehrlənərək...**

İki bəxti küskün sənətkarın, acınacaqlı keçən həyat səhifələrindəki oxşarlıqları da "gördüm" bu kiçik aramada

- Mirzə gileyini bayatı ilə bildirərdi:

***Uçdum, havadan uçdum,***
***Qanadım sındı düşdüm.***
***Hamıdan irəliydim***
***Ay gözlərim, niyə geri düşdüm?***

- Yavər xanım da gileyini bayatı ilə bildirərdi:

***Bayquş mənəm, bay quş mən***
***Quşlardan ən say quş mən***
***Nə bəlalı başım var***
***Sızıldaram yay-qış mən***

- Mirzə qazamatda (həbsxanada) təklikdən, kimsəsizlikdən VƏTƏN deyibən ağladı, dərdli-dərdli:

***Tuti qəfəsində deyibən bir vətən ağlar***
***Zülmətə düşüb, Mirzə Məhəmməd Həsən ağlar***

- Yavər xanım da qismətindəki təklikdən, öz musiqi müraciətini, hicran hissi ilə dolu "Şuru" Vətənlə başladı:

*Könlümün sevgili məhbubu məni*
*Vətənimdir, vətənimdir, vətənim....*

- Mirzə həyatının sarsıntı və iztirablarından yorulub, əldən düşərək, faciəli həyatının bioqrafik təcəssümü olan "Nalə"sini yazdı və dərdlərini-gileyini sətirlərə köçürtdü.
- Yavər xanım da rəvan keçməyən həyatından, qismətindən qəhərlənərək, "Şur" və "Bayatı-Kürdü"nü oxudu və dərdlərini-gileyini muğam avazlarına köçürtdü.
- Mirzə, "Nalə"sində fələkdən gileylənərək:

***"Dil yaralənib, gözüm tökür yaş***
***Saldı başıma fələk iki daş"*** (karlıq və korluq)

- Həmin "biinsaf" fələk, Yavərin də sinəsinə iki çalın-çarpaz "dağ" çəkdi: **"Ailə və övlad dağı"**
- Mirzənin "Nalə"sinin hər sətri, hər misrası qan ağlayır.
- Yavər xanımın da oxumaları başdan-başa qəm, qüssə-kədər, ahu-nalədir.

*N ə t i c ə:* Bu qoşa muğam oxumalarını kəsb etdiyi ideya və məzmun baxımından Mirzənin "Nalə"si ilə eyniləşdirir və təsdiqləmək istərdim ki, bu təkrarolunmaz qoşa muğam ifaları, Yavər xanımın müsibətli həyatının bioqrafik təcəssümü olan bitkin, vahid musiqi əseridir.

* * *



## *Qeyd*

M.M.Həsən və Yavər Kələntərlinin həyat detalları barədə aldığım məlumata dörə F.Şuşinski, V.Məmmədov və R.Hüseynova minnətdarlığımı bildirirəm.

# 6. “APARMAZ SELLƏR SARANI”

*(məqalə respublikanın xalq artisti, xanəndə Sara Qədimovaya həsr olunmuşdur)*

Mənəvi yaddaşımızın möhtəşəm səs abidəsi olan muğamatımız, yarandığı gündən musiqimizin təməl daşına çevrilib. Xalqımız, bu tükənməz varlıqdan mənən qidalanaraq əsrlərdən bəri, nəsillərdən-nəsillərə keçilərək, bu günümüzə gəlib çatmış, qədim el havalarımızı yaratmışlar.

Xalqımızın arzu, istəyi, sevinci, kədərini hifz edib saxlayan, dərin fəlsəfi məzmuna və emosional təsir gücünə malik, ecazkar muğamatlarımızı, fədakar musiqiçilərimiz cilalaya-cilalaya təkmilləşdirmiş, xalq arasında təbliğ etmiş və yaşatmışlar.

Bu sahədə müstəsna xidmətləri olan xanəndələrimizdən biri də, Respublikanın Xalq artisti Sara xanım Qədimovadır.

O, özünün nadir təbii səsi, incə zövqü və yüksək ifaçılıq məharəti ilə sayılıb-seçilən sənətkarlardandır. Sara xanım yarım əsrdən artıqdır ki, sehrli, sirrli muğam dünyasının cazibəsinə düşüb, var gücü ilə xalq musiqisini təbliğ edir.

Bu həvəs onda nə vaxtdan yaranıb? Özünün dediyinə görə bu həvəs, hələ uşaqlıqdan yaranmağa başlayıb. Əvvəlcə anası, bakılı qızı Zeynəb xanımdan, sonra atası əslən Qarabağlı Bəbiş kişinin xırda zümzümələrindən bəzi şeyləri eşidib götürüb. Tez-tez ailələrində qonaq olan İslam, Xan, Zülfü və Qurban Pirimovun ruha qida verən



çalıb-çağırmaları onun musiqiyə olan həvəsini daha da artırıb. Bir də ayılıb görüb ki, məşhur tarzən Əhməd Bakıxanovun Əbilov adına klubda fəaliyyət göstərən bədii özfəaliyyət dərnəyinin üzvüdür və onun şövqlə oxuduğu “Qatar” muğamını ən məşhur sənətkarlar dinləyib alqışlayır, haqqında xoş sözlər deyirlər. Hətta onunla dahi bəstəkar Üzeyir bəy maraqlanır. Oxumalarını təqdir edib, məsləhət görür ki, Hüseynqulu Sarabskinin təşkil etdiyi məşğələlərə gedib ondan muğamın sirlərini öyrənsin.

Alovlu şairimiz Məmməd Arazın təbirincə desək:

***“Üzeyirin sərraf gözü,***
***onu duydu, onu tapdı...”***

Çoxları zənn edir ki, sənətdə başlıca meyar istedaddır. Sözsüz ki, bu sübuta olmayan həqiqətdir. Amma, bir şeyi unutmamalıyıq ki, təkcə istedadla iş bitmir. Istedadı inkişaf etdirib cilalamaq, lazımi məcraya yönəltmək üçün böyük zəhmət gərəkdir. Həm də, istedadlı adama mənəvi dayaq olan, onda özünə inam yaradan xeyirxah adamlar olmalıdır. Xoşbəxtlikdən Saranın yaradıcılıq taleyində belə xeyirxahlar çox olmuşdur. Onlardan biri Üzeyir bəy, o birisi isə Hüseynqulu Sarabskidir. Üzeyir bəy Saranın ilk oxumalarına qulaq asandan sonra, böyük qəlb genişliyi ilə etiraf etmişdir: **“Sənin doğrudan da gözəl səsin var. Kim bilir bəlkə də operamıza, gələcəyin Leylisi gəlib. Mən sənə böyük ümid bəsləyirəm. Sən bizim mahnı və muğamlarımızın əla təbliğatçısı olacaqsan”.**

“Opera səhnəmizin ilk qaranquşu, ilk Məcnunu” Hüseynqulu Sarabski də Saranın ifaçılığını yüksək

qiymətləndirmişdir. O, demişdir: "**Saranın dağ şəlaləsini xatırladan səsindən aydınca duyulur ki, o, gələcəyin ən yaxşı müğənnisi olacaq. Musiqi xiridarları, onun pərəstişkarlarına çevriləcəklər**".

Hər iki sənətkar zəndlərində yanılmamışdır. İndi inam və iftixarla demək olar ki, Sara xanım həm Üzeyir bəy, həm də Sarabskinin ümid və etimadını tam doğrultmuşdur. Indi o, artıq milli ifaçılıq sənətimizdə özünə layiqli yer tutmuş ustad sənətkarlardandır.

Sara xanım ifaçılıq sənətində öz dəsti xətti olan böyük sənətkar və şəxsiyyətlərdəndir. Həm də ona görə ki, onun pünhancasına, təvazökarcasına şəyirdlik dərsini aldığı ustadlar – dahi Üzeyir bəy, virtouz ifaçı Əhməd bəy Bakıxanov, opera fədaisi Hüseynqulu Sarabski, muğamın zərgər bilici ifaçısı Zülfü, əvəz olunmaz Xan – özləri böyük sənətkar və şəxsiyyətlər olmuşlar.

50 ildən artıq parlaq yaradıcılığı dövründə Sara xanım uca, sərrast ifası ilə saysız dinləyici rəğbəti qazanmaqla bərabər, həm də özünün haqq işi saydığı muğamatımızı yaşatdı. Xanəndəlik sənətini zinətləndirdi, zənginləşdirdi, yüksəklərə qaldırdı. H.Cavidin həmahəng səslənən misraları yada düşür:

***Çalış parla, yüksəl, unutma ancaq***
***Yaşamaq bir halsa, yaşatmaq da haqq.***

Mügənni Sara Qədimova çətin və şərəfli bir sənət yolu keçmişdir. Hələ uşaq vaxtı ailə mühitində musiqi ilə təmas tapan Sara, bir qədər sonra, yəni 1940-cı ildə A.Zeynallı adına musiqi məktəbinin muğam şöbəsinə daxil



olub, Hüseynqulu Sarabskinin sinfində muğamının sirrlərinə bələd olmağa başlayır. Musiqi məktəbində oxuyarkən oxuma istedadını bütünlüklə üzə çıxarır. Səsi gah flarmoniyadan, gah da radiodan gəlir. Belə bir vaxtda yenə görkəmli bəstəkar Ü.Hacıbəyovun təmənnasız köməyini hiss edir. O, məhz Üzeyir bəyin məsləhəti və köməkliyi ilə Azərbaycan Dövlət Estrada kollektivinə üzv qəbul edilir. Burada tanınmış sənətkarlarımız Cahangir Cahangirov, Səid Rüsyəmov, Şəfiqə Axundova ilə tarzən Bəhram Mənsurovla, müğənni Şövkət Ələkbərova və Gülağa Məmmədovla təmas tapıb, sıx yaradıcılıq əlaqəsində olur.

Bildiyimiz kimi, onun yaradıcılığının bu dövrü məlum, çətin müharibə illəri ilə üst-üstə düşür. Bu müddət ərzində Saranın zil, gur səsi nəinki pambıq tarlalarından, hətta döyüş meydanlarından, hərbi hissə və xəstəxanalardan eşidilmiş, keçmiş sovetlər birliyinin, xarici ölkə musiqi sevərlərinin qəlbini ovsunlaşmışdı.

Onun bilavasitə döyüş səngərlərindəki çıxışları, azğın düşmən gülləsinə tuş gəlmiş neçə-neçə igidlərimizin yaralarına məlhəm olmuş, onları həyata qaytarmışdır. Onun ilhamla oxuduğu nəğmələr, neçə-neçə həmyerlilərimizin Vətən həsrətli yanğısına su çiləmiş, ağır döyüşlərdən sonra nəfəsi təngimiş döyüşçülərimizə sərinlik gətirmişdir.

Deyirlər, niyyətin hara, mənzilin də ora. Saranın ən böyük arzusu Opera və Balet Teatrının solisti olmaq, onun səhnəsində milli operamızın ən populyar obrazları – Leylini, Əslini oynamaq idi.

Axır ki, onun gözlədiyi gün gəlib çatdı. 1956-cı ildə onu böyük sənət ənənələri ilə zəngin olan Mirzə Fətəli Axundov adına Opera və Balet Teatrına dəvət etdilər. Sara xanım burada özünü, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında sınamağı qərara aldı. İlk baxışda asan görünən bu obraz əslində çox mürəkkəbdir. O, ifaçıdan yüksək ifaçılıq məharəti, həm də aktyorluq istedadı tələb edir. Bundan əlavə, bu obrazın əvəzsiz ifaçıları olmuş, ona öz sənət möhürlərini vurmuşlar. Belə olduğu təqdirdə Sara nə edə bilərdi? Bu obraz əvvəlki ifaçılardan hansı əlamətdar xüsusiyyətləri ilə seçilib ayrıla bilərdi? Sevindirici haldır ki, Sara Qədimova bu çətinliyi ilk andan duyub dərk etdi və əvvəlki ifaçılardan fərqli olaraq, özünəməxsus Leyli obrazını yaratdı. Saranın ifasında Leylinin faciəsinin görünməyən tərəfləri üzə çıxdı. Musiqi sevərlərə emosional təsir edib, ovqatını dəyişdirir, düşünməyə məcbur edir. Onun yüksək məharətlə yaratdığı Leyli obrazının təbiiliyindən ovsunlanmış tamaşaçı, bir anlıq Leyli dünyasına düşür və poemadakı bədii ifadələrin alt qatında gizli saxlanılan, ulu Füzulinin Zəncirbənd hikmətlərinin açmasına nail olur: **"... Belə "gözəl" Leylinin məhəbbəti önündəki acizliyindən, sağalmaz eşq dərdinə düçar olmuş, binəva Qeysin Məcnun olması çox təbii və həyatidir"!!!**

Onun şəxsində, ifaçılıqda vacib şərtlərdən sayılan şəxsiyyət gözəlliyi ilə yaradıcılıq gözəlliyi bir-birini tamamlayır və vəhdət təşkil edir. Hər aktyora nəsib olmayan, məhz bu keyfiyyət üstünlüyü və bir də Üzeyir musiqisinin füsunkarlığı, dahi Füzulinin şer əzəməti, Sarabski məktəbində qazandığı opera xanəndəliyi və



aktyorluq bacarığı hesabına yaratdığı Leyli obrazının təbiiliyi ilə o, eşq və gözəlliyin səhnə təcəssümünün uğurlu, orijinal Sara üslubunu yaratdı.

Onun məharətlə yaratdığı, eşqin odunda yanıb külə dönən Əslinin yadda qalan parlaq obrazı da tamaşaçıya həmin təsiri bağışlayır. Elə buna görə də uzun müddət operada Sara Qədimova ilə birgə işləmiş görkəmli tarzən Bəhram Mənsurov vəcdə gələrək demişdir: **"Onun səsi tarın bütün pərdələrinə çatır və keçir. Belə bir səs diapazonu ilə muğam oxunması, heç bir azərbaycanlı qadında görünməyib".** Böyük tarzənin bu deyimində bir həqiqət var. Doğrudan da, Sara Qədimova böyük yaradıcılıq potensialı, imkanı olan bir sənətkardır.

O, bütün dövrlərdə həm bəm, həm orta, həm yüksək həm zil registrlərdə eyni həvəslə oxumuş və səsində heç bir dəyişiklik olmamışdır. Bunu Sara xanımın muisqi fonetikamızda saxlanılan "Şur", "Şahnaz", "Bayatı Şiraz", "Qatar", "Segah", "Mahur-Hindi" muğamlarında aydınca görmək olar.

Bu muğam nümunələrinə, musiqinin tələbi nöqteyi nəzərindən yanaşdıqca məlum olur ki, muğamlarda vacib olan bütün şöbə, guşə, hallar yerli-yerində ardıcıllıqla ifa olunurdu. İfa etdiyi muğam dəstgahlarının dolğun və bitkin alınmasının bir səbəbi odur ki, Sara xanım şöbələrin melodik xüsusiyyətini və kəsb etdiyi mənanı dəqiq duyur və onun ahənginə uyğun qəzəl seçib, aydın tələffüz edə bilir.

Onun dəstgah ifalarında, şöbədən-şöbəyə təsnifsiz, rəngsiz birbaşa keçməsi də çox ustadanədir.

Onun oxumalarında muğam sərrafı Mirzə Muxtarın əvəzsiz tövsiyyələrindən olan, ifa zamanı müxtəliflik xatirinə hərdənbir burunda oxumaq priyomundan da geniş istifadə olunmuşdur.

Yüksək diapozonlu səsinin mayasında Xan ifaçılığına xas olan əks-sədalar açıqca duyulur.

Zəngulələrində həm həzin, həm coşqun, həm sürəkli, həm şaqraq ovqat özünü biruzə verir. Və bu çoxçalarlılıq, bu çoxrənglilik onun muğam ifaçılığını zənginləşdirib əlçatmaz edir. Məhz bu ifaçılıq keyfiyyətlərinin təcəssümündə, onun misilsiz muğam ifaları, bütünlüklə milli musiqimizin qızıl fonduna daxil edilmişdir.

O, cümlədən yaratdığı Leyli obrazının bədii boyaları, vokal təsviri və səhnə təcəssümünün yuxarıda verilmiş ifa keyfiyyətlərinə görə "Leyli və Məcnun" tamaşası, bütövlükdə radionun qızıl fondundadır. Deyilənlərə istinad olaraq, böyük bəstəkarımız Fikrət Əmirovun bir söyləməsini buradaca yada salmaq yerinə düşərdi: **"Onun muğam oxumasına söz ola bilməz – muğam oxuyan qadınlar arasında, tək onu ustad sayıram".**

Musiqi bilicilərimiz Sara xanımın çoxşaxəli "Şur" və "Qatar" muğamlarını yüksək qiymətləndirir, muğam ifaçılığında böyük sənət "qələbəsi" və təkrarolunmaz parlaq ifa nümunəsi kimi təqdim edirlər. Hətta xanəndə Hacıbaba Hüseynov mötəbər musiqi məclislərində dəfələrlə etiraf edib ki, Sara xanım, **"Şur"u kişilər oxuyan pərdədə oxuyur və musiqi aləmində qadın müğənnilərimiz, bu görünməmiş, bir işdir.**

Bəli, bu fantaziya yox əsl reallıqdır. Doğrudan da "Şur" və "Qatar" muğamlarının ifası zamanı Sara



Qədimova misli görünməmiş ustalıq nümayiş etdirib və bununla da həmin muğamlara öz şəxsi ustadlıq möhürünü vurub.

"Qatar" muğamı Saranın ifasında, başlanğıcını uca dağ zirvəsindən götürüb, öz məcrasına sığmayan, aşıb-aşan coşğun dağ çayının, gurultulu axımına bənzəyir. İfa zamanı onun gur, həyacanla dolu əzəmətli səsi, güclü nəfəsi sanki ən yüksək zil registrdə oxunan "Qatar"ın tələb olunan səs tutumu çərçivəsinə sığmır! Onun oxumasını "qarabaqara" izləyən tarzanə, sanki tarında əlavə səs pərdəsinə ehtiyac olduğunu diqtə edir! Muğamın mayasında qərarlaşmış qəhrəmanlıq, mübarizlik, əzəmətlilik ovqatı adamı öz ağuşuna alıb silkələyir, onda mübarizlik əhval-ruhiyyəsi yaradır!

Bu "Qatar"da vaxtilə Saranın ustad zəmanəti və xeyir duasını aldığı, hamımız üçün əziz olan, dahi Üzeyir bəyin müqəddəs ruhu-zövqü duyulur. Axı, vaxtilə indiki qədər dəyişilməz qalan, eyni nəfəs və şirin avazla oxunan "Qatar", tələbkar Üzeyir bəyin zövqünü oxşamış, onu razı salmışdı.

Saranın ifasında səslənən "Qatar" muğamının ən yaxşı cəhəti odur ki, vaxtilə müğənni görüb-eşitdiyi ustad xanəndələrdən mənimsədiyi ifaçılıq cizgilərini, böyük şövq və məharətlə "Qatar"a köçürə bilmişdir.

Şərqdə fenomen səsi ilə məşhuri-cahan olmuş Azərbaycan Vokal sənətinin ən parlaq ulduzlarından sayılan Hacı Hüsnü, vaxtilə "Qatar"ı ayrıca muğam oxumaq üçün formalaşdırıb, bizlərə ərmağan etmişdisə, Sara xanım da "Qatar"a olan heyranlığını gizlədə bilməyərək, onun hər kiçik guşə və xallarını öz səs

imkanına uyğunlaşdırmış və təkrarolunmaz, təntənəli ifası ilə "Qatar"ı yüksək zirvəyə qaldırmışdı!

Bütün bunlara görə üstündü, seçiləndi, iddiasızdır, bənzərsizdir "Sara "Qatar"ı !

Ecazlı avazı ilə yaratdığı "Qatar"la o, sənətdə əlçatmaz, Sara zirvəsi fəth etdi!

Musiqi tariximizə və milyonlarla muğamsevərlərin yaddaşına, əbədilik həkk etdi Sara, "Qatar"ı.

Heç bir tərəddüd etmədən ayrı- ayrı muğamların nümunəvi şah ifaçılarının, dillərdə əzbər olan:

Cabbarın "Mahur"u
İslamın "Segah"ı
Şəkili Ələsgərin "Rəhab"ı
Məşədi Məmmədin "Şüştər"i
Seyidin "Cahargah"ı
Xanın"Kürdü-Şahnaz"ı
Qasımın "Zabul"u
Zülfünün "Rast"ı siyahısına Sara xanımın "Qatar"ını da əlavə etmək olar.

Məhz Sara xanımın belə parlaq yaradıcılığı timsalında, sənətdəki, mənasına görə təzadlı və obrazlı səslənən **"kim-kimə borcludur?"** sualı belə açıqlanır:

"Sənət sənətkara borcludur. Çünki sənəti yaşadan da, onu yüksək zirvəyə qaldıran da sənətkardır"!

Sara xanımın məlahətli gur səsi, ecazkar muğam sənətinin incəliklərini onun kəsb etdiyi ideya, bədii, estetik və fəlsəfi məna çalarları dinləyiciyə "xəyalən" bəxş etməyə qadir olan nadir səslərdəndir.



Onun ifasında səslənən hər birinin öz sözü, öz söhbəti olan muğamları dinləyərkən, inanın, muğam, insan aləmində ilahiləşir və səhnələşdirilmiş tamaşaya çevrilir!

Bu baxımdan, onun fərdi ustalığı və zəngin ifaçılıq fantaziyası hesabına "Mahur-Hindi" muğamının "Şikəsteyi-Fars" şöbəsinə, xüsusi döndərmə priyomla, şikəstə təbli həzin el bayatısı ilə, şikəstə ovqatlı "bəzək-naxış" vurması, xüsusi maraq doğurur.

***Qəm çəkmə könül, məclisə canan yenə gəldi,***
***Bu qalibi biruhə verən can, yenə gəldi.***

***

***Bir neçə gün olmuşdu günüm, tirə qəmindən,***
***Şad etdi məni, ol mahi-təban yenə gəldi.***

***

***Sal boynuma canana dedim, həlqeyi-zülfün***
***Güldü dedi, divaneyi-dövran yenə gəldi.***

***

***Əzizinəm bir də mən,***
***Çal oxuyum bir də mən***
***Ömür keçdi, gün keçdi,***
***Cavan olmam bir də mən.***

Bu nədir? Bəlkə, Vahidlə Sara xanım arasında dialoq-deyişmədir? Bəlkə, Sara xanım burada Vahidə düzəliş verir, etiraz edir və yaxud onun fikrini tamamlayır? Dəqiq fikir söyləmək çətindir. Çünki aysberqin su altında

qalan hissəsi görünmədiyi kimi, Sara xanımın yaradıcılığının gözlə görünməyən, naməhrəm qatı da vardır.

Bu baxımdan, 1990-cı ildə ifa edib, radioda lentəə aldırdığı "Kəsmə Şikəstə" xüsusi maraq doğurur:

*Əziziyəm, müşkə bax,*
*Ənbərə bax, müşkə bax.*
*Oxuram dərd əlindən,*
*Görən deyir, eşqə bax.*

"Segah"ın yanıqlı melodiyası ilə, kövrək bayatı misralarının, Sara ifasındakı qovuşmasından yaranan bu oxuma, əvvəllərdə ifa olunan "Kəsmə Şikəstə"lərdən çox fərqlənir.

Söz gəlişi, söhbət xatirinə, təsadüfdən deyil, əsrin Qarabağ dərdindən yarandı, Sara xanımın bu nisgilli "Kəsmə Şikəstə"si.

İlahi! Bu yanıqlı harayda, Vətən həsrətli o kövrək qəlbin sızıltıları, necə də aydın hiss olunur:

*Bakı cənnətə dönsə,*
*Aləm cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ,*
*Başı bəlalı Qarabağ.*

Bəs, bu nədir? Diqqətlə fikir verdikdə aydın hiss olunur ki, "Şikəstə"də səslənən bütün el bayatılarının daşıdığı məna, Saranın vətəni Qarabağla, onun keçmişi və bu günü ilə bağlıdır. Qoy, musiqiçilər təəccüb etməsinlər. Bu oxu "Kəsmə Şikəstə" yox, "Xaric Segah" kökündə ifa



olunan "Qarabağ Şikəstə"sidir. (məlumat üçün deyim ki, "Qarabağ Şikəstə"si yalnız Mirzə Hüseyn segahı kökündə ifa olunduğu halda "Kəsmə Şikəstə" səs imkanına uyğun olaraq "Xaric", "Zəbul" və "Segah" kökləri üzərində ifa oluna bilir!). Çox qəribədir ki, zaman-zaman səslənən bu kövrək "Şikəstə"yə o, əsrin ovqatından doğan yeni məna, yeni çalar vermişdir. "Şikəstə"yə diqqətlə qulaq asanda, qeyri-ixtiyari isti yuvalarından didərgin düşmüş, soydaşlarımızın, həsrət dolu ah-uflarını, giley-güzarlarını eşidirik.

Kövrək musiqinin təsiri altına düşənlərin hərəsi bir cürə yozur, can yanğısı ilə dolu, bu kədərli oxumanı. Biri deyir: bu oxumada ev-eşiyindən didərgin düşən, gecə və gündüzlərini çadırlarda, alaçıqlarda keçirən, açılan sabahlara ümidlə baxan qaçqınların dərdi, məlalı qərarlaşıb. Başqa birisi isə tamam başqa fikir söyləyərək deyir: onun bu yanğılı oxuması, zamanın, ruzigarın insanlara dərdi-bəla gətirən amansızlığına, özbaşınalığına etiraz səsidir. Heç şübhəsiz, bu ağrılı oxumanı musiqimizin müqəddəs beşiyi, Şuşamızın bu günü, qaş-qabaqlı, solğun çöhrəli, pərişan halına acımaq və ona təskinlik vermək kimi qəbul edənlər də vardır.

Əlbəttə, bunların hamısı həqiqətdir. Amma, bu həqiqətlərdən də böyük həqiqət var. O da ondan ibarətdir ki, oxumada həm də Sara xanımın musiqi dili ilə ifadə olunan tərcümeyi halı qərarlaşıb.

Bakı adını Qarabağla yanaşı çəkməklə, dar məqamda hamımızın and və güvənc yeri sandığımız Ana və Vətən məhfumlarının əzəldən tarixdən biri olduğunu, musiqi dili ilə xatırlatdı bizlərə, Sara xanım!

Təbinazik, köynəkli "Şikəstə"dəki bu çoxmənalılıq, çoxsaylı dinləyici nəzərindəki, Sara sənətinin ucalığını, birə beş artırır və bu zirvəni aşılmaz edir!

Əlbəttə, Sara xanımın musiqi sənətində fəth etdiyi zirvəyə görə, **"sənət ulduzu"** səviyyəsinə, nail olub-olmadığını, professional musiqişünaslar dəqiq deyə bilərlər. Lakin onun ən real və ilkin qiymətini, onu qəlbən sevən, eli-obası artıq vermişdir: **"Xalq, öz gözəl, nəğməkar qızı Saranı sevir!"**

Əfsuslar olsun ki, çox şair və rəssamlarımız inkaredilməz bir həqiqət, Sara yaradıcılığındakı səcdə edilən gözəllik və Sara şəxsiyyətindəki həsəd aparılası cəlbedicilik barədə, hələ öz sözlərini deməmişlər.

O, muğamatımızın XX əsrin canlı sütunlardan biri olmaqla, ifaçılıq yaradıcılığı bütünlüklə milli musiqimizin qızıl fondunda olan canlı musiqi klassikidir.

Cəsarətli oxumuna, şeriyyata yaxından bağlılığına və sırf muğam dəstgah ifaçısı kimi tanındığına görə tam qətiyyətlə demək olar ki, o, ilk klassik qadın xanəndə Mirzə Güllərin ilk layiqli davamçı rəfiqələrindəndir!

Onun hərtərəfli, rəngarəng yaradıcılığı, gənc və gələcək nəsil xanəndələrimiz üçün qiymətli bir örnəkdir. Muğamatımızın saf, təmiz səs düzümünü, yad xallardan qoruyaraq, təhrif etmədən, sabaha çatdırılması bu qiymətli incinin araşdırılıb, təbliğ edilməsi, musiqişünaslarımızın müqəddəs borcudur.

Dəfələrlə yaxın və uzaq ellərdə qastrol səfərlərində olan müğənni, ləyaqətlə respublikamızı təmsil edib, ona baş ucalığı gətiribdir. 1959-cu ildə Moskvada "Böyük teatr"ın əzəmətli səhnəsində üç cəngavər, nər ifaçılar –



**Xan, Sara, Şövkət** özlərinə məxsus ecazkarlıqla ifa etdikləri "Qarabağ Şikəstə"sini heyrətsiz, həyəcansız dinləmək olmur.

Bu səhnə, insan zövqünü oxşayan, incə bir sənət nümunəsinin geniş kütlə qarşısında, böyük ustalıqla nümayişidir. Sənət meydanında nəhəng Xanla çiyin-çiyinə oxumaq, Sara xanım üçün əsl qəhrəmanlıqdır! Nəhayət, bu ustad sənətkar Xanın öz istedadlı və layiqli davamçılarını, sınağa çəkmək səhnəsidir.

Böyük müğənni, günü bu gün də eyni hərarət və məhəbbətlə sənət axtarışını davam etdirir:

***Sədayi musiqi xoşdur,***
***Mənimlə yar olan yerdə.***
***Xüsusən zövq alar arif,***
***Muğamat var olan yerdə!***

Budur, şair təbli, şux görkəmli, şan-şöhrətli Sara xanım, şən, şaqraq səsini, şəstlə şahə qaldıraraq şövqlə şakəri olduğu "Qatar"ı oxuyur! Və bizimlə birlikdə o, özü xüsusi zövq alır, öz oxumasından! O, tükənməz, incə duyğular mənbəyi olan muğamatla nəfəs alır, muğamatla yaşayır.

Musiqi duyumu olan hər bir kəs, Sara xanımın mənalı baxışında və şux gülüşündə, özünü qabarıq biruzə verən, xalq musiqisinə, xüsusən də muğamata olan məhəbbət qığılcımını aydın sezə bilər.

Bu gün ki, müharibə ağrırılığı ilə əlaqədar qoy efirlərdə Sara xanımın ifasında üsyankar əhval ruhiyəli, əzəmətli, səfərbər edici qüvvəyə malik muğamlar, tez-tez səslənsin. Bəlkə zamanın çətin anlaşılan anında, bəzi

donuq qəlbləri ayıltdı bu səs. Qoy bu səs, kövrək qəlbli, böyük amallı xalqımızın arzusunda olduğu, qəti qələbəyə aparan yolda, döyüşçülərimizə böyük ruh yüksəliyi, qələbəyə inam yaratsın!

Nəhayət, gün o gün olsun ki, Saranın o yubiley gecəsindəki (18.12.92) arzusu çin olsun və qələbəmizin səsinə İsa bulağının başında kişi oxuyanlarımızın hamısı bir ağızdan "Aparmaz Sellər Saranı" xalq mahnısının axırıncı bəndini bir anlıq dəyişib belə oxusunlar:

***Gedin deyin Xan çobana,***
***Buyursun gəlsin Muğana.***
***Dağlar dönüb Gülüstana.***
***Aparmaz sellər Saranı!***
***O, alagözlü balanı!***

***1993-cü il***



## 7. MUĞAMATIMIZIN SULTANI

*(məqalə respublikanın xalq artisti, məşhur xanəndə Yaqub Məmmədova həst olunmuşdur)*

Təsəvvüf fəlsəfəsinə görə mükəmməl –qüsursuz gözəllik "Mütləq Gözəl" – Tanrıya məxsusdur. İnsanlar yalnız fərdi istedadı və bacarığı hesabına məşğul olduqları sahələrdə, onlara məxsus olan gözəllik-sənət zirvəsi fəth edirlər. Zövqümə istinadən söylərdim:

- Aşiqi-sadiqliyin Füzuli zirvəsi;
- Ziyalı səmimiyyətinin Üzeyir bəy zirvəsi;
- Muğam sənətində dəqiqlik və tələbkarlığın Seyid Şuşinski zirvəsi;
- Səs əzəmətinin Xan Şuşinski zirvəsi;
- İfada yanğı-nisgilin Qədir Rüstəmov zirvəsi;
- Zəngulə zənginliyinin Alim Qasımov zirvəsi;

Heç bir tərəddüd etmədən, muğam sənətində **heyrət** doğuran ifa **gözəlliyinin** (şirinliyinin) Yaqub Məmmədov zirvəsini də bu simvolik siyahıya əlavə edərdim.

**"Gözəllik və heyrət!"**

Bəli, təsəvvüf fəlsəfəsində hal ilə bağlı heyrət məqamı var.

**Heyrət** - əsasən, gözəllikdən zövq ala bilən, zəngin təxəyyülə malik, yaradıcı, kamil insanlara məxsus olan ali keyfiyyətdir.

**Heyrət,** yaxud qeyri-adi heyranlıq – bu seyrçinin (dinləyicinin) gözəllikkdən zövqü nisbətində aldığı ləzzətin müşaiyəti ilə, ani bir düşüncə və təxəyyül zamanı

yaranır. Məsələn, dahi Füzuli, Tanrı aşiqi kimi, İlahi Qüdrət və Səltənət qarşısında heyrətlənərək söyləmişdir:

*Heyrət ey büt, Surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*

Muğam ifaçılıq sənətində də ifa gözəlliyinin (səs-söz-muğam harmoniyasının) yaratdığı heyrət məqamları olmuşdur.

Özünün fenomen səsi ilə bütün Şərqdə məşhur olmuş Hacı Hüsünün qeyri-adi ifasından heyrətlənən ustad xanəndə, muğamatımızın **"Peyğəmbəri"** Cabbar Qaryağdı oğlu söylədi ki, **"O, səsdən olmayıb, olmayacaq da".**

Yaxud Şəkili Ələsgərin məlahətlii ifasından sonra həmin Cabbar Qaryağdı oğlu heyrətini gizlədə bilməyərək belə demişdir:

**"Ələsgərin səsi məndə olsa, göydə uçan quşları saxlardım".**

Cabbar Qaryağdı oğlunun təbirincə desək, **"Şərqin incisi"**, sərraf Seyid Şuşinski, Şamaxılı xanəndə, Mirzə Məhəmməd Həsənin heyrətamiz oxumalarından aldığı ləzzəti belə ifadə etmişdir:

**"Onu, gördüyüm xanəndələrdən heç birinə bənzədə bilmərəm".**

Yaxud Seyid Şuşinskinin "Bayatı-Şiraz"da "Xavəran" şöbəsindən "Qatar"a keçidindən heyrətlənən, dövrünün məşhur xanəndələri Keçəçi oğlu Məhəmməd və Malıbəyli Həmid uyğun olaraq belə söyləmişlər:

***"İndi bildim Həzrəti-Davud doğru imiş"***

* * *



***"Həzrəti-Davud özü bu işə heyran qalardı"***

Yaxud, dahi Üzeyir bəy Xan Şuşinski səsinin əzəmətinə belə təsvir vermişdir: **"Xanın səsi simfoniya kimi gurladı".**

Bütün registrlərdə sərbəst gəzişən, güclü səs, şaqraq zəngulə, əla oxu texnikası ilə seçilən peşəkar xanəndə Yaqub Məmmədovun yaradıcılıq bioqrafiyasında da belə **heyrət** məqamları olmuşdur.

Yaqub Məmmədovun Dövlət Filarmoniyasında keçirilən yubileyində böyük sənətkar Şövkət Ələkbərova bildirdi ki, vaxtı ilə gənc Yaqubun səsinə qulaq asan azman sənətkar Xan Şuşinski, heyrətini gizlədə bilməyərək **"Pahooo!"** deməklə kifayətlənmişdir.

Müqayisə üçün qeyd edim ki, səsinin coşğunluğu ilə Moskvada keçirilən incəsənət dekadalarında, Avropa musiqiçilərini heyrətdə saxlayan Xanı, səslə təəccübləndirmək mümkün idimi? Bu izahı gəlməyən məsələdir.

55-60-cı illərdə (dəqiq tarixini dəqiqləşdirə bilmədim) Bakıya yenicə gəlmiş Yaqubun Dövlət Filarimoniyasında "Zabul Segah"ı böyük coşğuya səbəb olur. Tamaşaçılar gur, arasıkəsilməz alqışlarla uzun müddət Yaqubu səhnədən buraxmırlar. Maraqlıdır ki, növbəti və yekun olaraq Xan Şuşinski çıxış etməli idi.

Nəhayətdə böyük Xan səhnəyə, şakəri olduğu "Kürdü-Şahnaz"ı oxuya-oxuya (!) daxil olur. Beləliklə, Yaqub coşğusuna Xan coşğusu ilə tarazlıq gətirilir!

Xan Şuşinski Yaqubun məşhur "Mənsuriyyə"sinə heyranlığını gizlədə bilməyərək, söyləmişdir: **"Yaqubun "Mənsuriyyəsi" əsl sənət nümunəsidir".**

Xanəndə-pedaqoq Nəriman Əliyev dövlət radiosunun qızıl fondunda saxlanılan verilişlərin birində bildirdi ki, Ağa (Seyid Şuşinski) Yaqubu dinlədikdən sonra astaca söyləmişdir: **"Çətin ki, analar səndən bir də doğar, Yaqub!".**

Muğam xiridarı, çox tələbkar Əhməd Bakıxanov, muğam ifaçılığı tarixinə düşmüş mübahisələrin birində, özünü saxlaya bilməyərək söyləmişdir: **"Şüştəri" gərək Yaqub oxuyaydı!..."**

Bu, Yaqub sənətinin ecazkarlığına böyük müəllimin, böyük sevgisi, böyük qiymətidir!

Dövlət Filarmoniyasında Yaqubun yubileyində pedaqoq-xanəndə Əlibaba Məmmədov çox səmimi olaraq etiraf etdi ki, **"Həqiqətən Yaquba qədər muğam ifaçılığı sənətində sanki bir boşluq, süstlük, durğunluq var idi. Yaqubun Bakıya gəlişi, ifaçılıq sənətindəki bu boşluğu, öz coşğuları ilə doldurdu!".**

Pedaqoq-xanəndə Ağaxan Abdullayev toyların birində Yaqubun çıxışından sonra heyranlığını gizlədə bilməyərək söyləmişdir:

**"Yaxşı ki, xanəndəliyimizin cavanlığı, sənin qocalığına təsadüf edib, Yaqub əmi! Yoxsa biz ac qalardıq... "**

Xanəndəlik sənətinin **"məhək daşı"** hesab olunan Bakının tələbkar kənd əhli - Nardaran camaatı aşkar etiraf edirlər ki, **son əlli ildə Abşeronda Yaqub qədər sevilən populyar xanəndə olmamışdır.**



Yazı müəllifi kimi, eləcə də Yaqub sənətinin "Məcnunu" kimi, mənim də bu sənətə heyranlığımla bağlı etiraflarım vardır.

Təsəvvüfdə bağlılığın – sevginin dərəcəsini müəyyən edən, Qurandan gəlmə ("Furqan" surəsi, 65-ci ayə) **"ğəram"** (yəni, qopmaq bilməyən, cəzb edən, izləyən) mərhələsi vardır.

Mənim **Təsəvvüfə, Füzuliyə, Muğama** o cümlədən, Yaqub Məmmədov sənətinə vurğunluğum məhz **"ğəram"** mərhələsindəndir.

Yaqub sənətindən danışarkən, Füzuli təbirincə desəm, çox vaxt **heyran olduğumdandır ki, heyran olduğumu bimədən** hissiyata qapılıram. Bax bu nöqsandan özümü sığortalamaq üçün, bəri başdan bildirirəm ki, incəsənət, o cümlədən ifaçılıq sənəti, haradasa müəyyən qayda-qanunla, reqlamentlə tənzimlənirsə, ifa gözəlliyinin yaratdığı estetik təssüratlar heç bir qanuna tabe deyildir. Bu, yalnız fərdi olaraq hər bir dinləyicinin mənəvi dünyasının zənginliyindən daha çox asılıdır.

Mənim nəzərimdə xanəndə Yaqub Məmmədovun oxumaları, milli muğam ifaçılığının keyfiyyət meyarı-etalonudur!

Açığını deyim ki, musiqi elminin nəzəri söylədiyi "Cahargah"dakı, "Mənsuriyyə"dəki mübarizliyin, "Rast"dakı, "Heyratı"dakı sərrastlığın, gümrahlığın, "Segah"dakı, "Qarabağ Şikəstəsi"ndəki yanğının, "Bayatı-Şiraz"dakı həzinliyin, "Şur"dakı, "Səmayi-Şəms"dəki, "Arazbarı-Osmanidə"ki coşğunluğun praktiki təcəssümünü, məhz Yaqubun ifaları ilə təsdiqlədim.

Təsdiqimə təsdiq üçün, apardığım müşahidə və ümumiləşdirmələrdən yalnız birisi-uca təblə ifa olunmuş, mükəmməl sənət nümunəsi olan "Rast" dəstgahı ilə bağlı təəssüratlarımı sizinlə bölüşmək istərdim.

Xan Şuşinskinin nümunəvi "Rast" dəstgahından sonra, həmin üslubda yeni "Rast" dəstgahı oxuyub, geniş dinləyici zövqünü oxşamaq – böyük cəsarət tələb edən bu işin öhdəsindən Yaqub Məmmədov məharətlə gəlmişdir. Beləki, o, ustad Xan Şuşinskinin açdığı yola-irzə-üsula sadiq qalaraq, səs genişliyi, fərdi improvizasiya zənginliyi hesabına "Rast"ı cilaladı, ona öz fərdi keyfiyyət möhürünü vurdu!

Sözügedən "Rast" dəstgahında ifa olunan qısa "Kürdü" də səs gərginliyinin dinamik inkşafı (artım tempi) onu deməyə imkan verir ki, deyim:

- Bu, səsin yarada biləcəyi ilahi möcüzədir!
- Bu, səsin yetə biləcəyi ilahi məqamdır!
- Bu, əql ilə izah olunmaz Tanrı Eşqinin məni (mənasının açıqlanması) istiqamətində ruhun, Nasut aləmindən, lahut aləminə yüksələn uğurlu cəhdidir!

Füzuli təbirincə desəm, **Söz yox** ki, bu siyahını, **söz çoxluğu** hesabına uzatmaq da olar.

"Kürdü", kamil ifa bacarığına malik seçmə, virtuoz xanəndələrə məxsus olan qeyri-adi oxu nümunəsidir ki, onun estetik çalarlarını quru sözlərlə izah etmək uğursuz cəhddir.

Yaqubun "Kürdü"sü ilə bağlı təssüratımı, Məcnunun kamilliyi barədə Füzulinin qeyri-adi deyimi ilə yekunlardım:



*Övsafi-lətafətində söz çox,*
*Əltafi-məlahətində söz yox.*

Heç bir ustad yanında şəyirdlik etməyən, musiqi savadı almayan Yaqubun, professional ifaçılıq sənətindəki heyrət doğuran uğurları haqqında düşünərkən, Məcnunun, İsa Peyğəmbər kimi körpəlikdən kamil olduğunu bəyan edən Füzulinin bu beyti yada düşür:

***Xurşid kimi kəmalə qabil,***
***İsa kimi tiflilikdə kamil.***

Vaxtilə xanəndə Hacı Hüsü söyləyib-iddia edərdi ki, **səs məndədir, sənət də məndədir!**

Düzdür, Yaqubun ifaçılıq mədəniyyətimizin inkşafındakı xüsusi xidmətləri, o cümlədən onun ifaçılıq sənətinə gətirdiyi **"dəsti-xətt"** buna imkan versə də, o bunu iddia etməmişdir.

Lakin, bütün yuxarıda qeyd olunanlara istinadən mən tam əminliklə iddia edirəm ki, Yaqub Məmmədov, **Ağası** (S.Şuşinski) və **Xanı** (X.Şuşinski) olan muğamatımızın **sultanıdır.**

***2010***

## 8. MUĞAM SƏNƏTİNİN TƏBLİĞİ

Vaxtı ilə dahi Üzeyir Hacıbəyli yazırdı: **"Azərbaycan muğam sənətini maraq içində araşdırsaq, biz muğam sənətini yüksək zirvəyə qaldırarıq".**

Məqsədim budur ki, təbliğat işi **məqsədə uyğun – muğama layiq** təyinatlı aparılsa, bu ifaçılıq sənətinə təkan verən amil olar.

Ümumən cəmiyyətin yaşantı psixologiyası dəyişdikcə, onun muğamı qavramaq, qiymətləndirmək tərzi də dəyişir. Deməli, muğam sənətinin təbliği üsulları da elmi formada dəyişilməlidir.

Məncə muğama dair söhbət və yazılarda bu sahədə müqayisə edilməz imkanları olan televiziya verilişlərində dəstgahların forması ilə yanaşı, onun mahiyyətindən, məzmun, ideya xüsusiyyətlərindən, ümumən muğamın fəlsəfəsindən bəhs etmək lazımdır. Füzuli təbirincə desək **"Zahirlə idrak ayinəsi pak olmaz!"**. Bu yöndə təbliğatın zəruriliyini ilk öncə qloballaşma və onun gətirdiyi fəsadlarla əlaqələndirərdim.

Qloballaşmanın artıq törətdiyi milli-mənəvi ziyanları nəzərə alsaq gələcəkdə baş verəcək mənəvi təhlükələrdən-assimlyasiyalardan, müqəddəs muğam ifaçılıq sənətini hifz edib, qorumaq üçün çox miqyaslı işlər görülməlidir ki, muğam sənəti xalqa daha yaxın olsun.

Bu istiqamətdə lazımi dinləyici zövqünün formalaşmasına xidmət edən təbliğatı önə çəkərdim.

Məlumdur ki, ifadan həzz (ləzzət) almaq üçün ifaçı zövqü ilə bərabər dinləyici zövqünün də lazımi səviyyədə olması vacibdir.



Belə ki, gözəl ifanı duymaq üçün şövq (arzu, istək, daxili tələbat) elə səviyyədə olmalıdır ki, o gözəllikdən zövq ala bilsin. Zövqdə emossional və rassional cəhətlərin vəhdətdə olduğunu nəzərə alsaq, gözəl dinləyici zövqünün formalaşması istiqamətində, muğamın təbliği işində qismən fəlsəfi (rassional) yöndən yanaşmanın faydalılığı aydınlaşar.

Nəzərə alsaq ki, gözəllik-gözəlliyi dərk edənin məhəbbət obyektidir, deməli biz muğam sənətindəki gözəlliyi təbliğ etməklə, ona qarşı məhəbbət hissi yaradarıq. Mənim nəzərimcə muğam sənətinin gözəlliyi onun **quruluş və ifasındadır.**

Çox mənalı səslər, pərdələr məcmusunun sabit bir kök (məqam) ətrafında, yaxud müxtəlif şöbə-guşə təsnif rənglərin sabit ahəng (lad-məqam) ətrafında birləşərək Muğam və dəstgahı əmələ gətirməsi bu ifaçılıq sənətinin quruluşundakı bitkinliyi təsdiqləyir.

Bitkin quruluşa diqqətlə nəzər etdikdə çox cəhətliyin təklə qovuşmasının şahidi olursan. Bu muğam sənətinin kamilliyinə işarədir.

Nəzərə alsaq ki, gözəlliyin əsası kamillikdir, deməli, muğam sənətinin kamilliyində elə onun gözəlliyi aşkarlanır. Yaxud əksinə.

Məlumat üçün qeyd edim ki, anlamın ən yüksək səviyyəsi olan fəlsəfi dərk etmədə aşağıdan yüksəyə, sadədən mürəkkəbə dair prosesləri keçən şüurun inkişaf modeli, təfəkkürün genişlikdən dərinliyə doğru hərəkəti kimi səciyyələnir. Budur gerçıkliyin dərkinə doğru yön alan şüurun inkişaf modeli.

Təfəkkürün həqiqətə doğru can atımının musiqi dili ilə ifadəsi olan dəstgahların tərkibindəki sadədən mürəkkəbə, aşağıdan yüksəyə (bəmdən-zilə) doğru düzülmüş muğam şöbələrinin quruluşu belədir. Deməli, Muğam həm də idrak etmədir! Dünyaya baxışdır! Şərqdə fəlsəfənin poeziya və muğamla öyrədilməsi – onun Qərbdən üstünlüyüdür.

Muğamlardakı ifa gözəlliyini (real Eşqi) isə **"ləhceyi xanəndə"** gözəl icranın **"hüsnü camalında"** axtarmaq gərək.

Cabbarın "Mahur"u
Seyidin "Cahargah"ı
İslamın "Segah"ı
Xanın "Kürd"ü, Şahnaz və s.

Nəzərə alsaq ki, hər bir muğamın, onun ifaçısının sayı qədər ifa variantı varsa, hər ifanın, onun dinləyicisinin sayı qədər də mənalandırma variantı var.

Yeni insan mənəviyyatının zənginliyi hələ o səviyyədə deyil ki, muğamda olan gözəllikləri tam incəliyinə qədər duyub aça bilsin. Psixoloji qavrama xüsusiyyətinə görə çox mürəkkəb janr olan muğamdan, hər bir dinləyici fərdi olaraq, aldığı təəssürata uyğun gözəllik dərəcəsi əldə də bilir.

Muğamdakı emosionallığı yaxından duyan, onun məzmununu qavrayıb, faydalanan və qiymətləndirməyi bacaran **eşidən və duyan qulaq** (K.Marks) sahiblərini dəyirmi stol ətrafına yığıb, elmi mübahisələr, mahiyyəti üzrə çıxışlar təşkil etmək və s. bu təyinatdakı verilişlər, muğamın təbliğində yeni, faydalı istiqamət olardı. Məsələn:



- "Mənsuriyyə", "Səmayi-Şəms" zərb muğamlarının adına aydınlıq gətirmək;
- «Bərdaştı» olmayan "Humayun", "Bayatı Şiraz" dəstgahlarının səs düzümünə uyğun "Bərdaşt" modelini **"cızmaq"** əks halda mümkünsüzlüyə elmi-məntiqi izah vermək. Mən "Bərdaştsız" "Mayə"ni (eləcə də Dəstgahı) – məcazdan həqiqəti **"görə"** bilməyən, **niyyəti** naməlum, arifin (?) məqsədsiz cəhdinə bənzədirəm. Füzuli demiş:

*Hüsn olmasa Eşqdən nə hasil*
*Məşuq edər əhli-Eşqi kamil.*

- Dəramədi-Bərdaştı-Mayəsi olan "Rəhab" dəstgahını iri həcmli dəstgahlar sırasına qaytarmaq;
- "Bayatı-Kürd" kiçik həcmli muğamdakı "Bayatı-Kürd" və "Bayatı Əcəm"in eyni məna-məzmun kəsb etməyinə münasibət;
- "Çoban bayatı" muğamını "Orta Mahur"a qaytarmaqla onun muğam ifaçılığından kənarada qalmasını bərpa etmək və s.

Beləliklə biz muğam ifaçılıq sənətini yaşatmaqla, onu dünya miqyasında tanıtmaqla çox müqəddəs bir missiyanı həyata keçirmiş oluruq.

Dahi Cavid demiş:

***Çalış, parla, yüksəl unutma ancaq,***
***Yaşamaq bir halsa yaşamamaq haqq!***

# III. FÜZULİ



***Əhli – ürfandır, cahan keyfiyyətini təhqiq edən***
***Kim, nişatından bulur yüz qəm, qəmindən yüz nişat.***

*(Füzuli)*

## 1. FÜZULİ TƏƏSSÜBKEŞLİYİ

*Məqalədə dünyagörüşünün əsas xətti **İlahi** EŞQ olan Mövlana Məhəmməd Füzuliyə münasibətdə zaman-zaman edilmiş xətalar məntiq və elmi əsaslarla önə çəkilir, təhlil olunur.*

### Ön söz

İlk öncə fəth olunmaz ədəbi zirvə - Füzuli haqqında yazdıqlarıma görə bu sahənin nüfuzlu elm xadimlərindən üzrxahlıq diləyirəm.

Məşhur **"Şikayətnamə"**dən göründüyü kimi Füzuliyə münasibətdə ədalətsizlik hələ onun öz dövründə də olmuşdur.

**Ədvari – zaman, daireyi-heyrətdir!**

Bəli, bu fərziyyə yox, həyat gerçəkliyidir. Bu əsrlərdən-qərinələrdən süzülüb gələn Aqil-filosof Füzuli qənaətidir.

Füzuli yaradıcılığının əzəmətini layiqincə duymayan M.F.Axundovun onu şair kimi qəbul etməməsi, Sovet rejimində onun irsinin "Yer şairi-dünyəvi şair" kimi (natamam) təqdim, təbliğ və tədqiq edilməsi, nəhayətdə 2007-ci ildə "ANS" telekanalının "Dahilərin Divanı"nda dahi Füzulinin yalnış yöndən "amansız mühakiməsi" **"daireyi-heyrətdəndir".**

Çox şükrlər olsun ki, **"qeyrəti qədərincə qüdrəti olan"** Füzuli barədə zaman öz ədalətli hökmünü (sözünü) onun 500 illik yubileyində dedi.

Təklif edərdim ki, "ANS" in Füzuliyə münasibətində ədalətsiz mövqeyini zamanın (tarixin) öhdəsinə buraxmayaq, ona layiqli elmi cavabı vaxtında verək.

* * *

### a) Təsəvvüf haqqında ümumi məlumat

Füzuli yaradıcılığı, Füzuli fəlsəfəsi, Füzuli EŞQİ ilə tanışlıqda **"bələdçi müşaiyyətçi"** ola biləcək bu müxtəsər şərhin verilməsini zəruri bildim.

Sufi (təsəvvüf) sözününü hansı dildən və kökdən alındlğl barədə müxtəlif elmi mənbələrdə, müxtəlif elmi məlumatlar verilir.

Maraqlıdır ki, **"SUF"** sözü ərəbcə **xirqə** yəni **yun paltar** mənası kimi açıqlansa da, qədim yunanca **"hikmət"** mənasını verir. Aydınlıq üçün qeyd edim ki, **filosofa** sözü, yəni **"hikmət sevən"** məhz bu kökdəndir.

Xirqə ilk öncə Peyğəmbər geyimi olduğundan, sonra isə ucuz, qənaətli, olduğundan nəfsə uymamaq, nəfsdən daha çox Tanrıya bağlılıq əlaməti kimi qəbul edilir.

Başqa bir variantda isə **"SOFOS"** sözünün qısaldılaraq **"SOF"** halına gətirilməsi və ərəbcə **"Təfə-ül"** halına keçirilərək **"Təsəvvüf"** (hikmətləşmək) olmasıdır.

Çox maraqlıdır ki, irfan sahibləri sadə əbcəd hesabı ilə **"SUFİ"** sözünü **"əl-hikmətül-ilahiyyətü"** yəni ilahi düşüncə olması fikrini irəli sürürlər. Bu izahlar sufii (təsəvvüf) anlamının zahiri – rəmzi mənalarıdır.

**Sufizm (təsəvvüf)** mahiyyət etibarı ilə Allahın mistik dərki, mənəvi təkamül yoludur. Sırf insan əxlaqı (mərifət), insan mənəviyyatı ilə bağlıdır. Belə ki, nəfsi paklıq və saflıq tapan insan (aşiq) Allah rizası, Tanrı sevgisi



qazanaraq, Mütləq müqəddəsə qovuşmaq cəhdi ilə, mənən İlahi varlıq olduğunu təsdiq etmiş olur. Doğru inancdan (imandan) və İlahi əxlaqdan qaynaqlanan, İlahi düşüncə ilə İlahi hikmətə qovuşmaq – **"Arifi-Billah"** olmaq, yəni mütləq Həqiqəti qəlbən dərk edib, onu tanımaq və ona təslim olmağın (bütövləşmənin) ən uca, ən ali məqamı olan bəqaya yetmək-budur insanın mənəvi təkamülkonsepsiyası olan **təsəvvüf!**

**Təsəvvüf** – insanı azadlığa, mütləqi-səadətə qovuşduran yoldur.

**Təsəvvüf** – Haqqın, ilahi gözəlliyin batini müşahidəsi-görümüdür. Yəni, təsəvvüfə görə Haqqın görünüşü qəlb müşahidəsi (bəsirət) ilə mümkündür. ("Ənam" surəsi)

Nəhayətdə **təsəvvüf – Quran fəlsəfəsidir.** Quranın tələbindən doğan İslami ideyaların gerçəkləşməsinin bir üsuludur. Mütəsəvviflər Quranın "Şəms" surəsinin 7-10 ayələrinə istinadən (əsaslanaraq) belə hesab edirlər ki, dinin məqsədi qəlbi təmizləmək, mənəvi xəstəliklərdən qurtulmaqdır.

**Təsəvvüf** – İslam dininə əsaslanan Şərq fəlsəfəsinin 4 əsas cərəyanından biridir. (Kəlam – Təsəvvüf – İşraqilik – Məşşailik)

**Təsəvvüf** – Orta Əsr Müsəlman şərqində əsas aparıcı dünya dərki sistemi olmuşdur.

**Təsəvvüf** – vahid, bütöv bir dini cərəyan olmayan, müxtəlif baxışlar, təlimlər sistemini, özünün nəzəri əsası olan "Vəhdəti-vücud" ideyası ətrafında birləşməsinə nail fəlsəfədir.

**Təsəvvüf** – Müsəlman Şərq İntibahına səbəb və təkan oldu.

**Təsəvvüfdə** – Tanrı yeganə varlıq kimi qəbul edilir. Məxluqatın varlığı Tanrı mövcudluğunda qəbul edilir, yəni hər şey İlahi varlıqdan xəlq olur və nəhayətdə ona qayıdır. Başqa sözlə hər şeyi onun varlığında yox bilib, onun varlığı ilə var olduqlarını (**"Var olanı yox, yox olanı var"** - Füzuli) bəyan edirlər. Burada "sən", "mən" qəbul edilir.

***Nə sən sənsən, nə mən mənəm***
***Nə mən sənsən, nə sən mənəm***
(Rumi)

* * *

***Gər mən mən isəm, nəsən sən ey yar?***
***Gər sən sən isən, nəyəm məni zar?***
(Füzuli)

* * *

***Biz - bizdən ayrılmışıq***
***Biz – Bizdən gəlmişik***
***Biz – indi Bizik.***
(İbn-Əl –Ərəbı)

**Təsəvvüf** – dinindən, millətindən, kimliyindən asılı olmayaraq insanları birliyə, bərabərliyə, vəhdətə çağırır. Başqa sözlə bəşəriyyəti əxlaqi və insani dəyərlər ətrafında birləşməyə, dinlər və məzhəblər arasında ixtilafı aradan qaldırmağa, bir sözlə insanları İlahi EŞQƏ çağırır. Burada ayrı seçkilik yoxdur.

***Yaranmışları sevərik***
***Yaradana görə***



(Yunus İmrə)

* * *

***Kim olursan ol, yenə də gəl!***
***Xristian, məcusi***
***Bütpətəst olsan, yenə də gəl!***
***Yüz dəfə tövbəni pozsan, yenə də gəl!***
(Rumi)

* * *

***Gah çıxmışam İsa kimi,çərx üstündə oturmuşam,***
***Gah varmışam, Yusif kimi, ol Misrə Sultan olmuşam.***
(Nəsimi)

* * *

***Gah kilisədə mütəkif, gah məsciddə sakinəm***
***Hər qapıda Allahım, səni bulmaqdır, dinim***
(Füzuli)

**Təsəvvüf** – hədəfi uca Allahın təzahürlərini qəlbən tanıya bilmək, dərk etmək,yəni mərifətullahdır.

**Təsəvvüf** – müdriklik, əməlisalhlikdir.

**Təsəvvüf** - **"Məşuq - Allah"** olmaqdır bu fəlsəfənin məzmunu. Təsəvvüfdə EŞQ yolunda canı canana fəda etmək AŞİQƏ səvabdır:

***Gər xəta isə Nizamini həlak etdirmək***
***Aşiqəm – yar məni öldürsə səvab etmədədir.***

Yaxud: **"Ey, əcəl şərabını gətirən! Mənim canımı al məşuqama qovuşdur".** (Mövlana Rumi)

**Təsəvvüf** – Kufəli Əbu –Haşimdəm başlayıb "sufii tayfalarının atası" – Cüneyd Bağdadidən, "Sultani-Arif" – Həllac Mənsurdan **"Şeyxlər Şeyxi"** – Əbu Həvs Ömər

Sührəverdidən, **"Hüccət-ül-İslam"** – Əbu-Həmid-Əl Qəzzalidən, **"Könüllər sultanı"** – Mövlana Rumidən **"Böyük Şeyx"** – İbn-Əl-Ərəbidən, **"Vəhdət gülüzarının bülbülü"** – Xətaidən keçərək, nəhayətdə türk sufizminin son dahisi, İlahi Aşiqlərdən – "Məşuq Allah" – "Allahın sevgilisi" mərtəbəsinə layiq olanların axırıncısı **"Aşiqi-Sadiq"** Mövlana Füzulidə zirvə məqamına çatdı.

**Təsəvvüf** - əsasında əql (idrak) dayanan fəlsəfi-mistik ruhlu yeni Platonçuluqdan fərqli olaraq, imana (inanca) söykənən dini-mistik ruhlu fəlsəfədir. Fəlsəfi yönümünün açıqlanıb-aşkarlanmasında zaman-zaman təfritə yaxud təhrifə yol verilmiş Füzuli fəlsəfəsi məhz budur.

Sufizmin tarixi əhəmiyyəti ondan ibarətdir ki, təsəvvüfün ortodoksal İslam təlimi sisteminə daxil edilməsi ilə, İslamın üfüqləri sözün həqiqi mənasında genişləndi.

Belə ki, rəsmi ehkamçı ilahiyyat, müsəlmançılığı cəhənnəm qorxusu hissinə əsaslanaraq zahiri fərz ayinlərinin icrası ilə Allaha münasibəti önə çəkirdi. Quranın poetikasına, ruhuna əsaslanan təsəvvüf tərəfdarları, müsəlmançılığın ən yüksək məqsəd və vəzifəsini ona **"boynunun şah damarından yaxın olan Allahla"** ("Vaqiə" surəsi) birbaşa vasitəsiz ünsiyyətə irməkdə, mistik idrak vasitəsi ilə onu dərk etməkdə görürdü.

İslam tarixində **"Hüccət-ül-İslam"** (İslamın dəlili) ləqəbini almış nəhəng Əl-Qəzzali təsəvvüfü, ehkamçı ilahiyyat ilə birləşdirərək, şəxsi emosional etiqada üstünlük verməklə, idrakın 3 –cü növünü – intuisiyanı Mütləq Həqiqətin dərkində yeganə vasitə sanmışdır.



Qurana görə Tanrı ilə ünsiyyətdə olmaq üçün, müsəlmanın vasitəçiyə ehtiyacı yoxdur. O bu ünsiyyətə özünün Allaha bənzər xislətini dərk edən, ruhi baxımdan onun yerdəki canişini **"Xəlifətullahı"** ("Bəqərə" surəsi) kimi daxil olur.

Məlumat üçün qeyd edim ki, Ortodoksal İslamla, təsəvvüfü birləşdirməyə ilk cəhd edən, lakin müsbət nəticə əldə etməyən Əbülqasim Əbu Kərim Quşeyri (XI əsr) olmuşdur.

Əl-Qəzzali ilk dəfə olaraq ağılla-qəlbin, soyuq məntiqi mühakimə ilə məhəbbətin ümumi zəminini gördü və bunu dayaq nöqtəsi tutaraq, təsəvvüfü daha müdrik, möminliyi isə daha canlı etdi. Əl-Qəzzalinin fəaliyyəti nəticəsində ayrı-ayrılıqda inkişaf edən və İslam inancının zəifləməsinə gətirib çıxaran fəlsəfə, batinlik, təsəvvüf, kəlam bir yerə cəm oldu və İslamın sarsılmazlığına xidmət etdi. Islam dahilərinin söylədiyi kimi fiqh və təsəvvüf ardıcıl çıxış edən və bir-birini tamamlayan mərhələ oldu.

Görünür ki, **"Etiqad islahatçısı"** ("Mücəddin-Əd-Din") və **"Etiqadın bəzəyi"** (Zeyn Əddin) ləqəblərini almış Əl Qəzzali barədə əbəs deyilməmişdir ki, **"Əgər Məhəmməd Peyğəmbərdən sonra hansı Peyğəmbər meydana çıxsaydı, bu şübhəsiz Əl-Qəzzali olardı".**

Yaxud **"Əgər Quran və bütün yazılar yox olsalar, Əl-Qəzzalinin təkcə "Ehya"sı qalsa, elə təkcə onun vasitəsi ilə İslam gözəl surətdə bərpa oluna bilər".**

Bununla da Şərqdə Aristotezm nüfuzdan düşdü. Belə ki, Şərq peripateiklərindən Əl-Fərabi və İbn-Sinanın zəka konsepsiyasına çıxan Əl-Qəzzali obyektiv həqiqətin dərkində onların lüzumsuz olduğunu qeyd etdi.

Füzuli təbirincə desək:

***Eşq imiş hər nə var aləmdə***
***Elm bir qiylü-qal imiş ancaq***

Təsəvvüfün ən böyük tarixi əhəmiyyəti ondan ibarətdir ki, məhz bu andan (XII əsr) "Müsəlman Renessansı" – Şərqin İntibah dövrü başlandı. Ərəb (İslam) fəlsəfəsi ən yüksək zirvəyə çatdı. Müqayisə üçün qeyd edim ki, XIV-XVII əsrləri əhatə edən Qərb-Avropa İntibahı xristianlıqla Antik ənənənin sintezi kimi meydana gəlmişdir.

Şərq mədəniyyətində təsəvvüfün danılmaz tarixi əhəmiyyətə malik məqamlarından biri də muğam və aşıq ifaçılıq sənətinin təşəkkül tapmasındakı roludur.

Məhz XII əsrdən başlayaraq "Vəhdəti Vücud" təlimi Şərqdə sufi-bədii ədəbiyyatın əsas ideyasına çevrildi. Bu ədəbiyyatın erkən intibahı Şeyx Nizami Gəncəvi ilə başladısa, Mövlana Məhəmməd Füzulidə zirvə məqamına çatdı.

* * *

## b) Füzuli Eşqi

Böyük alim, "Mürşüdi-kamil" – Y.Qarayevin təbirincə desək, **"sözdən cism kəsb edən "can evinə" fələklər və insanlar, millətlər, dinlər və təriqətlər hamısı eyni vaxtda sığışan"**, İlahi sevginin real ifadəçisi olan Füzulinin yaradıcılığının cövhəri (nüvəsi) şəkksiz-şübhəsiz büsbütün Eşqdir:

***Sər mənzili-hər murada rəhbərdir Eşq***



***Keyfiyyəti – hər kəmalə məzhərdir Eşq***
***Gəncineyi-kainata gövhərdir Eşq***
***Hər Sadir olan nəşəyə məsdərdir Eşq***

Bəli, Füzulidə Eşq, bütünlüyə (varlığa) hakim olan əzəli qanundur. Füzulidə hər şey EŞQƏ nisbətdədir. Hardan baxsan EŞQ görünür. Füzuli fəlsəfəsi, Füzuli dünyagörüşü məhz Füzuli EŞQində qərar tutub.

Dilçi alim T.Hacıyevin təriqat qənaətinə görə böyük hərflə yazılan EŞQ, Füzuli dilində 99 faizdən çox məqamlarda İlahi EŞQİN kəsb etdiyi fəlsəfi terminoloji mənada işlənir.

Mövlana Rumi təbirincə desək, Füzuli yaradıcılığı **"Vəhdət dükanıdır"**.

Füzuli yaradıcılığında Yaradana olan həqiqi Eşq ilə yaradılana olan məcazi EŞQ vəhdətdə götürülür. Füzulidə Bəşəriyyəti vəhdətə səsləyən EŞQ, səmanı yerdən (dünyadan) ayırmır. Əksinə, əlaqələndirir – birləşdirir:

***Burda yetə-rütbeyi kəmalə***
***Orda yetə - dövləti vüsalə.***

Füzuli, dərketmənin vəhdət prinsipinə həm Aşiq, həm də Aqil (filosof) kimi sadiqdir.

**Eşq dərdindən könlümə qəm sal!** deyərək könül zövqünü Eşqin qəmindən alan Aşiq Füzulidə Eşq və kədər vəhdətdə olduğu kimi, aqil Fğzulidə də dünya sevinci və kədəri, fəlsəfi yöndə əlaqəli-vəhdətdə təqdim olunur:

***Olsaydı məndəki qəm Fərhadi mübtəladə***
***Bir ah ilə verərdi min Bisütunu badə***

* * *

***Əhli – ürfandır, cahan keyfiyyətini təhqiq edən***
***Kim, nişatından bulur yüz qəm, qəmindən yüz nişat.***

Ona görə də Füzuli, eyni vaxtda həm Eşq, həm də qəm – kədər şairidir! O, həm Aşiqdir həm də Aqildir (Filosofdur).

**Hüsn nə miqdar olursa, EŞQ ol miqdar olur** – deyən Aşiq Füzulidə kədər, EŞQİ nisbətindədir.

**"Əql-dərdin kanıdır"** – deyib-düşünən Aqil Füzulidə kədər, idrakı nisbətindədir.

Münasibətimi, akademik Məmməd Cəfərin sərrast məntiqlə ifadə etdiyi məşhur qənaəti ilə təsdiqlərdim:

**"Füzuli sevir, Füzuli düşünür deməkdir. Aşiq Füzuli ilə mütəfəkkir Füzuli, ancaq Vəhdət halında anıldığı zaman, onu duymaq olar. Füzuli başqa cür dərk oluna bilməz".**

Füzuli Eşqinin düzgün açıqlanmaması, onun təbliği və tədqiqində həqiqi mahiyyətdən kənarlaşmalara səbəb olmuşdur. Belə ki, bəzən əsassız olaraq Füzulinin İlahi Eşqini, Platonik (Əflatuni) Eşq kimi şərh edirlər.

Məlumdur ki idealist Platon bədii İlhamı, idraka qarşı qoyurdu. O, sənətkarın İlhamının, əqlə zidd olduğunu, irrasional mahiyyət daçıdığını irəli sürürdü. Platona görə, gözəlliyi bu dünyada yox, ideyalar aləmində - o biri dünyada axtarmaq gərəkdir. O, əsl gözəlliyin (Eşqin) hisslərlə deyil, əql ilə dərk olduğunu iddia edirdi. Başqa sözlə Platon fəlsəfəni (idrakı, əqli) Mütləq Aləmin (ideyanın) həqiqi mahiyyətinin dərk edilməsində yeganə vasitə bilirdi.



Müqayisə üçün qeyd edim ki, elm və sənəti vəhdətdə götürən Füzulidə əksinə **"Elmsiz şer, əsası olmayan divardır, əsasız divar ğayətdə bietibar olur".** Füzuli yalnız vəzn-qafiyə tələbinə cavab verən məzmunsuz nəzmi, **"qalibi biruh"** (quru müqəvva) adlandırırdı. Füzuli nəzərində gözəllik, "Mütləq Gözəlin (Tanrının) nurunun (Eşqin) məzhəridir, İlahi feyzin mənşəyidir. Füzuli, Eşqin (gözəlliyin) mənin (mənasının) açıqlanmasında əqli gücsüz sayır:

***Ey Füzuli! Eşq, mənin, nasehdən qılma qəbul***
***Əql tədbiridir ol, sanma ki, bir dünyadı var.***

Göründüyü kimi, münasibətlər tam əksinədir.

Müqayisə üçün qeyd edim ki, fəlsəfi baxımdan xaraktercə dinamik olan Füzuli Eşqi, Platonun sabit xarakterli **"İdeya qəliblərinə"** qədər olsa da, onda Füzuli arif olmaz idi. Məhz bu səbəbdən də Nizaminin bol tərifinə tuş gələn Əflatunun (Platonun) **("Bu xəbər bürüdü bütün cahanı ki, yaqut paylayır o, yaqutun kanı")** düşündüklərini hikmət sanmayan Füzuli, **"Güman etmə ki, hikmətdən xəbərdar idi Əflatun"** ("Ənüsil – qəlb") deyərək onu nöqsanlı bildi. Əlbəttə, arif kimi Füzulinin fəlsəfi yönümü (Eşqi), zahirdən batinə, cüzzidən küllə, kəsrətdən vəhdətə, məcazdan həqiqətdir:

***Təhsil qılıb səfayi – siyrət***
***Görmüşdü məcazdan həqiqət***

Füzulidə Eşqin məcazi, həqiqi və İlahi qatı mövcuddur. Belə ki, ürfan əhlinə görə məcazi Eşq,

Peyğəmbərə qarşı duyulanda bu, zahirən məcazi Eşq sayılsa da gerçəkdə həqiqi Eşqdir. Amma ümumən Allaha olan Eşq, Həqiqi – İlahi Eşqdir. Bu mərhələyə insanlar, məcazi Eşq mərhləsində, kamilləşərək gəlirlər. Mövlana Rumi təbirincə desək, **"Bir şeyin cüzl (hissəsi)", onun küllündən(bütövlükdən) ayrı olmaz".** Yəni məcazi Eşqdə, İlahi Eşqin bir zərrəsi vardır.

İbn –Əl-Ərəbi təbirincə desək, **"təsəvvüfdə İlahi Eşqin zərrələrinin təkamülü (inkişafı) ilə məhəbbətin müxtəlif növləri, son nəticədə Yaradan (Xaliq) ilə yaradılan (məxluq) arasında qarşılıqlı məhəbbətə (İlahi Eşqə) müncər edilir".** Budur İlahi Eşqin məzmunu – mahiyyəti!

Eşq məcazdan İlahiyə gedər, yəni pillə-pillə qalxar, təkamül tapar, təkmilləşər. Necə ki, kiçik axan bir su çaya, çay dənizə qovuşduğu kimi! Bəli, Füzuli də sevib, evlənib, ailə, övlad sahibi olub.

Füzulidə məcazi Eşqi (təmiz insani məhəbbəti) tərənnüm edən kifayət qədər beytlər mövcuddur.

***Bir səf qız oturdu, bir səf oğlan***
***Cəm oldu behiştdə, huri qılman***
* * *
***Gördü ki, bir afəti zəmanə***
***Misli, daxi gəlməmiş cahanə***
* * *
***Leylidə vüsali – dust meyli***
***Məcnunda həm arizuyi – Leyli***

Yaxud, Füzulinin öz müəlliminin qızına aşiq olması:



***Pərişan halım oldum, sormadın halı pərişanım***
***Qəmindən dərdə düşdüm, qılmadın tədbiri dərmanım.***

Eləcədə, valideyn kimi oğlu **"Fəzliyə nəsihəti"** məcazi Eşqə əyani nümunələrdir:

***Dinlə məni ağıllı balam, diqqət ilə sən***
***Bu incə nöqtə sirrini ta eləyim bəyan.***
* * *
***Salsan həqiqət aləminə yaxşı bir nəzər,***
***Sən meyvəsən, mən isə ağac, dəhr busitan.***

Füzuli yaradıcılığında həqiqi Eşqə (məcazi Eşqin ən üstün nöqtəsi) nümunə kimi, İnsanlığın başının tacı – ən ali məqamı, Allahın həbibi – Məhəmməd Peyğəmbərə olan sevgi götürülür:

***Sər dəftəri - ənbəyayi mürsəl***
***Onlara həm axirü, həm əvvəl***
* * *
***Ey padşahi – səriri – lövlak***
***Məqsudi – vücudi – xaki əflak***

Bu beytlər **"Aləmin yox səndən özgə padşahı, ya Nəbi"**, yaxud **"Ruzi yeyərik ali – Rəsulun qapısında"** deyən Füzulidə Peyğəmbər məqamının nə qədər yüksək olduğuna bir əyanilikdir. Əfsuslar olsun ki, Füzuli Eşqinin bu mərhələsində də onun yozumunda təhriflərə yol verilmişdir. Belə ki, məcazdan həqiqətə olan təsəvvüfi yönüm, Füzuli yaradıcılığında ədəbi – bədii yön kimi də təzahür edir. Yəni – həqiqətin bəyanında məcazdan çıxış etmək. Məsələn, Tanrı vəsfində Leylidən çıxış edərək:

*Tutsam tələbi həqiqətə rahi – məcaz*
*Əfsanə bəhanəsi ilə ərz etsəm raz*
*Leyli səbəbi ilə vəsfin etsəm ağaz*
*Məcnun dili ilə İzhari – niyaz*

Yaxud, Tanrı zikrində. Tanrı adlarından istifadə edərək:

*Bu şikayətlər ki, yarından, məni zar eylərəm*
*Məqsədim yar adıdır ki, dildə təkrar eylərəm.*

Eləcə də "Əhli-Beyt"dən, Hira mağarasından, Məhəmməd adındakı hərflərdən çıxış edərək, Peyğəmbəri vəsf etmişdir. Vəsfin bu ifadə üsulları zahirən şiəlik, xəlvətilik, hürufilik təzahürləri kimi nəzəri cəlb etdiyindən, **"Təriqətində yek cəhət olan"** Füzulini məhdud təriqətlər – məzhəblər şairi kimi təqdim edirlər. Əl-Qəzzali təbirincə desək, Füzulini **"Kim başa düşmürsə o yanlışlıq içində qalır".**

Füzuli EŞQinin düzgün anlaşılması istiqamətində onu qeyd edim ki, İlahi Eşqin əzəmətini şərh edən nəhəng Əl-Qəzzali: **"Tanrıdan başqasına olan məhəbbət cəhldir, hətta Peyğəmbərimizin də Tanrıya xatir sevildiyini"** söyləmişdir.

**Bir ahı ilə min Bisütunu bada verməyə "qadir"** Füzuli isə, İlahi Eşqin əzəmətini (dərəcəsini) belə şərh edir:

*Min can olsaydı, kaş məni-dili şikəstədə*
*Ta hər biri ilə bir kəz olaydım fəda sənə*

İndi isə İlahi Eşq barədə. Məxluqata olan məcazi Eşqdən fərqli olaraq həqiqi (İlahi) Eşq – mənaya aşiq



olub, "Nəqşdə nəqqaşı", yəni məcazda həqiqəti axtarmaqdır.

*Məcaz əhlinə xublar işveyi-naz eyləsinlər, kim*
*Özün əhli-həqiqət, mübtəlayi xətti-xal etməz!*

Yəni, həqiqət əhli, xətti-xalın rəmzini axtarar, rəmzi qoyana aşiq olar. Füzuliyə görə ədəbiyyat kəsb etmək üçün, əbədi olana doğru can atıb, ona qovuşmaq, onula bağlı olmağın yolu Eşqdir:

*Saliki – rəhi həqiqət*
*Eşqə eylər iqtida*

Məqsədi, həqiqətə can atmaq, kamilliyə qovuşmaq olan bu yol isə, təkamüldən (məqamlar-pillələr-dayanacaqlar, cəm halda mərifət) keçir. Yəni, İnsani Eşq, təkamüllə İlahi Eşqə çevrilər. Arif, onun qəlbində zahir olan (aşkarlanan) gözəlliyi nə qədər çox anılayarsa – dərk edərsə, bir o qədər Tanrıya bağlılıq (Eşqin şiddəti) artar:

*Hüsnun olduqca füzun, Eşq əhli artıq zar olur*
*Hüsn nə miqdar olursa, Eşq ol miqdar olur*

Füzulı Eşqindəki ahlarda (təsəvvüfdə Ah-eşqin kamilliyinin əlamətidir) Eşqin şiddətlənməsinin dinamikasını, onun kamilliyini aşkarlamaq o qədər də çətin deyil.

*Ah eylədiyim, sərvi – xuramanım üçündür*
*Qan ağladığım qönçeyi xəndanım üçündür*

* * *

*Məni qərarım ilə qoymaz oldun, ey gərdun*
*Yeridir ahım ilə versəm inqilab sənə*

* * *

*Xurşid xırmanına vuran şölə-şölə od*
*Ahım ki, ləhzə-ləhzə rəhi asiman tutar*

* * *

*Məni candan usandırdı, cəfadan yar usanmazmı,*
*Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?*

Füzuli, Eşqinin kamilliyi, onun Aşiq kimi söylədiyi qəzəllərin kamilliyində də aşkarlanır. Ədəbiyyatşünasların bir mənalı rəyincə, Füzuli qəzəllərində hər beytin zirvə beyt – **Şah beyt** məqamında olması, aşiq kimi onun Eşqinin kamilliyidir. Əfsanəvi Əli Fəhminin təbirincə desək, **"Füzuli misra yazmır, Füzuli yanır"**mış!

Kamil Aşiq kimi Füzuli yaxşı bilirdi ki:

*Canı canana verməkdir kəmali Aşiqin*
*Verməyən can, etiraf etsin gərək nöqsanın*

Çünki,

*Canı canan diləmiş, verməmək olmaz ey dil*
*Nə nizal eyləyənin, ol nə sənindir, nə mənim*

Füzuli canı canana fəda etməyi məqsəd bilən "Məşuq-Allahdır":

*Can fəda eyləməyi yarə, həmin mən bilirəm*
*Bu təriqi deme, hər qafili gümrah bilir*

Füzuliyə görə həmin aşiqin cənnət-cəhənnəmə sığmayan bir məkanı var:



*Düzəxə girməz sitəmindən yanan*
*Qabili – cənnət deyil əhli-əzab*

Füzuli, bu məkanın, Gözəlin (Tanrının) yanında olduğunu bəyan edir və aşiq üçün cənnəti məhz oranı bilir:

*Kəsmədi məndən səri-kuyindən azarın rəqib*
*Ey Füzuli, nişə cənnət içrə yox, derlər əzab*

Maraqlıdır ki, Füzuli bu ali məqamda ("Vəhdəti-vücudda") narahatdır. "Vüsal", yəni sevgiyə qovuşaraq, ona malik olmağı arzulamır. Çünki, bu məhəbbətin bitməsi-qurtarması olardı! Cananın (Tanrının) hüzurunda, Füzulinin, arzuladığı budur:

*Məlhəm qoyub, qoparma sinəmdə qanlı dağı*
*Söndürmə öz əlinlə, yandırdığın çırağı*

Füzulidə maddidən mənəviyə qədər ucalan-yüksələn və ən son İlahi Eşqdə qərar tapan Sonsuz və Əbədi Eşq görünür.

Füzuli Eşqini seçilən və üstün edən bunlardır!

* * *

*Şer zövqündən olmayan agah,*
*Əhli-nəzmi məzəmmət eyləməsin*
*(Füzuli )*

**c) Füzuli və Axundov**

Mövlana Füzuliyə münasibtdə anlaşılmazlğa (ədalətsizliyə) səbəb olan tarixi məqamlardan biri, Füzuli xəyalatında əsla təsir olmadığından, onun şairliyini qəbul

etməyən şer zövqündən bixəbər, komediya janrında **"Şərqin Molyeri"** ləqəbini almış – ateist M.F.Axundovla bağlıdır.

*Məni tənqid etdi yerindən duran*
*Çox vaxt bülbül deyil, qarğa uçuran*

Böyük Şeyx Nizamiyə məxsus bu beytdən görünür ki, o da zamanında tənqidə məruz qalmışdır. Və sözsüz ki, bu ədalətsiz tənqiddir ki, böyük şair gileylənir!

Ədalətsiz o mənada ki, peşəkarlıq-elmi baxımdan tənqid edən, tənqid ediləndən aşağıda olmasın gərək!

Vaxtilə Füzuli yalnız vəzn-qadiyə tələbinə cavab verən məzmunsuz nəzmi **"qalibi-biruh"** (quru müqəvva) adlandırırdı. Poeziyada Füzuli əqidəsi bu idi ki, şer elmli olmalıdır, çünki **"elmsiz şer, əsası yox divar kimi axırda puç olur".**

Əgər Füzuli öz qoyduğu sərt qaydalara özü əməl etməsəydi, onun, poeziyası **"qalibi-biruh"** kimi çoxdan **puç** olmuş idi.

Əgər Mirzə Fətəlinin iddia etdiyi təsir yoxsa, 500 ildən çoxdur ki, Şərq Poeziyası niyə Füzuli cazibəsindən çıxa bilmir?!

Dünya klassik şerinin üç - ərəb, fars, türk dilli; ən qüdrətli babalarından olan babamız Füzulinin **"tikanlı türk dilinə ərəb-fars gülündən-bülbülündən qarşılıqlı qoşalıq edib, solmaz gülüstana çevirdim"** kimi estetik səciyyəli bəyənatını da bu iradlar siyahısına əlavə etsəm Füzuli cazibəsinin gücü qismən aydınlaşar.

Yerinə düşər qeyd edim ki, Böyük Alim Y.Qarayev qeyd edir ki, **Şərqin Qədim irfani şer ənənəsi və**



**təsəvvüf fəlsəfəsi XVI əsrdə ən yüksək zirvəyə Füzuli lirikası ilə çatmışdır.**

Füzuli poeziyasındakı real cazibə ona gətirmişdir ki, şair – Füzulidən ovsunlanma, alim – Füzuli tədqiqinin geriliyinə səbəb olmuşdur.

Axundovun Füzuliyə münasibətində isə tam əksinədir. Axundov **"Klassiklərimiz təbiət haqqında"** kitabında alim Füzuliyə ayırdığı bölmədə onun mülahizə və bilgilərini araşdırmış və qiymətləndirmişdir.

Əksliyin səbəbi, məncə Füzulidə yox, İlahi EŞQ zövqü olmayan, **ilahi məhəbbət ləzzətindən bixəbər,** ateist Mirzə Fətəlidir. M.F.Axundovun ateist olmağına səbəb isə, müəllimi M.Ş.Vazehin onu ruhani olmaq fikrindən uzaqlaşdırmasıdır.

Belə ki, Füzuli poeziyasının dini təsəvvüfi boyası və mahiyyəti, sözsüz ki, **külli ədyanı puç hesab edən,** heç bir İlahi hökm və dini qayda tanımayan və qəbul etməyən şövqü qədərincə zövqü olan, materialist filosof Axundovun xəyalatına əlbəttə ki, təsir edə bilməzdi!

Mən ədəbiyyatçı deyiləm. Bu sahədə iddiam da yoxdur. Amma görüb-anladığımı deyirəm:

***Canı kim cananı üçün sevər, cananın sevər***
***Canı üçün kim ki, cananın sevər, canın sevər***

14 sözdən ibarət bir beytin 6 sözündə **can** 4 sözündə **şev** sözlərinin təkrarı, çoxmənalığı, söz oynaqlığı və s. şerin forma və məzmun baxımından heyrətləndiricilik nümunəsi deyilmi?

Yaxud **"Məni candan usandırdı"** sözləri ilə başlanan şer, hansı vəzndədir? Mütəxəssislərin tədqiqat

nəticəsi budur ki, bu şer həm tipik gəraylı, həm tipik qəzəldir. Həm əla heca vəznində, həm də əla əruz vəzninə aid edilə bilər!

Füzulidən nə qədər çox yazsan bəs eyləməz! Bəsi Füzulinin özü-sözü-yaradıcılığı – **"heyrət dəryası"** deyir!

* * *

### ç) Füzuli Sovetlər dövründə

Təsəvvüf poeziyasının ən parlaq öncüllərindən biri **"Vəhdət şərabından məst olan"** Füzuli, çox əfsuslar olsun ki, sovet rejimində sanki, müasirləşdirilərək, yer şairi - Dünyəvi şair kimi təqdim olunurdu. Hətta, İslam ensiklopedik lüğətində Əttar, Sədi, Rumi, Hafiz, İmrə, Cami kimi təsəvvüfçü dahilərin sırasına Füzuli daxil edilməmişdi?! Hansı ki, Füzuli də bu dahilər kimi təsəvvüf inancının pirlərindəndir!

Son onilliklərin tədqiqatı göstərir ki, həqiqətən Füzuliyə münasibətdə Böyük Alimlər böyük yanlışlıqlara yol vermişlər.

Azərbaycanın sovetlər dövrünə aid ilk professorlarından olan böyük Şərqşünas Alim B.Çobanzadə **"Füzuli və onun yeri"** məqaləsinə Mesiter Kipin **"Füzuli Şərqin yetişdirdiy ən səmimi, ən həssas şairidir"** deyimini epiqraf-başlıq seçsə də **"Lakin onun bəhs (vəsf) etdiyi şərab üzümdən (əngur) yapılmış qırmızı şərabdır ("meyi-ləl"dir)** deməklə Füzuliyə qarşı səmimi ola bilməmişdir!

Füzulinin alleqorik olaraq müqayisə aparmaqda məqsədi ürfani şərabın-İlahiliyin üstünlüyünü cəmiyyətə aşılamadır. Səmimiyyət - həqiqət budur ki, Quranda



şərabın (**"meyi-ləl"**in-B.Çobanzadə) insana həm xeyir, həm də zərər verdiyi, lakin zərərinin xeyrindən çox olduğundan, birbaşa haram buyurularaq, onu içmək qadağan edilmişdir. Füzuli Qurana xas olan alleqorik üsulla ("İşıq", "Yarasalar", "İnək", "Arılar" və s. Alleqorik məzmunlu Quran surələri) şəraba aid Quran ayələrinin sanki şərhi istiqamətində "Bəngü-badə"ni yazmışdır. Füzuliyə qədər, eyni üsulla eyni məzmunda belə bir müqayisəni Mövlana Rumi də aparmışdır və belə söyləmişdir: **Ruha, qəlbə təmizlik verən o şərab hara, üzüm şərabı hara?**

Məncə birbaşa Füzuliyə ünvanlanmış bu qeyri-səmimilik, dolayısı Qurana və Rumiyə də aiddir! Bu isə birmənalı olaraq qəbuledilməzdir!

Yaxud, Böyük Alim R.Azadə **"Bir daha Füzuli yaradıcılında sufizm probleminə dair"** məqaləsində mədəni irsimizə yeni təfəkkür işığında, daha obyektiv nüfuzu qabardan Alim, nədənsə imana (doğru inanca) söykənən dini-mistik ruhlu təsəvvüf fəlsəfəsinə istinad edən Füzuli irsinin izahında, İslam təfəkkürünə əsaslanan 4 əsas cərəyandan biri – **İşraçilik (emanasiyası)** fəlsəfəsinə istinad edir.

Təvazökarlıq hissi ilə bildirmək istərdim ki, neoplatonizm (emanasiya) təliminə əsaslanan işraçilik fəlsəfənin əsas prinsipi belədir:

**"Şəhadət (Varlıq aləmi)-Yaradanın şüalanması (emanasiya) vasitəsi ilə təzahür tapan əksidir".**

Füzuli fəlsəfəsi isə **"Sufi Haqqı dərketmə konsepsiyası"**na, eləcə də onun tərkib hissəsi olan **"Məqamlar"** təliminə əsaslanan, imana söykənən dini

mistik ruhlu təsəvvüfdür. Füzuli fəlsəfəsində Varlığın həmin məna və mahiyyəti dərgisində fövqaladə intiusuya yaxud kamilliyə çatmış həqiqət əhli-Ariflərdə gerçəkləşən "dadbilmə"-təcəlla – yəni Haqqın qeybdən doğan feyzinin arifin qəlbində zahir olması öndədir – aparıcıdır. İşraçilikdə azad ruh, yüksək İlahi işığa (İlahi başlanğıca) doğru hərəkət edib, yaxınlaşa bilir. Onun ali gözəlliyini yalnız seyr edə bilməklə sədaqətə, xoşbəxtliyə çatır.

Ümuməm **Emanasiya** nəzəriyyəsini əsassız hesab edən Füzulidə isə aşiqin cənnət cəhənnəmə sığmayan bir məkanı var. Bu gözəllik Tanrının yanıdır. (Vəhdəti-Vücud)

Məhz elmiliyə ziyan gətirən belə yanlış fəlsəfi fikir yanaşmalarındandır ki, məqalədə Alimin Füzuli irsinə dair qaldırdığı suallar cavabsız qalır. Sualların cavabı açıqlanması istiqamətində qısaca olaraq onu deyə bilərəm ki, onlar İbn-Əl-Ərəbinin **"Vəhdəti-Vücud"** təliminə əlavə etdiyi **"Vəhdəti-əl-Vücud"**'la (yəni varlığın vəhdəti) birbaşa əlaqələdir.

Sovetlər dövrünün əksər elmi araşdırmalarında Füzulidə təsəvvüf xırda, təsadüfi meyllilik əlaməti kimi təqdim olunurdu. Düzdür Füzuli dünyəvi həyatı-dünyəvi eşqi inkar etmirdi. Əksinə, onları "rütbəyi-kəmala yetməkdə" – yəni kamillik tapmış həqiqət əhli-arif olmaqda zəmin-bünövrə hesab edirdi. Başqa sözlə, arif kimi Füzulinin yönümü zahirdən batinə, cüzzdən-küllə, məcazdan həqiqətə, kəsrətdən vəhdətədir.

***Hər zərreyi-zahurun zühuru***
***Bir özgəyə bağlıdır zəruri***
***Gər ğayətdə eyləsən təəmmül***



***Zahir olur onda məzhəri-küll***

Yaxud,

***Təhsil qılıb səfayi-siyrət***
***Görmüşdü məcazdan həqiqət.***

Quran fəlsəfəsi olan təsəvvüfün Füzuli yaradıcılığındakı miqyasını təsəvvür etmək üçün ustad Şəhriyarın məşhur deyimini xatırlamaq kifayətdir!

**"Füzuli sözü, Quran məktəbinin üç dildə (ərəb-fars-türk) açılan qapısıdır".**

Füzulinin haqq-Aşiqi olmağını,Əli Fəhmi bircə cümlə ilə ifadə etmişdir: **"Füzuli misra yazmır, Füzuli yanır".**

Eşq şairi olan Füzulinin divan ədəbiyyatında EŞQ şeri-Qəzəl janrına meylli olması, onu sevməsi, onun Eşq Aşiqi olduğunu bir daha təsdiqləyir. Məşhur ədəbiyyatçünas S.Mümtaz qeyd edirdi ki, **"Sədinin, Hafizin qəzəllərinin qabağına ancaq qəzəllə çıxmaq olardı ki, Füzuli bunu duymuş, çıxmış və onların nüfuzunu qırmışdır".**

Ə.Cəfərin tədqiqinə görə əruzun Azərbaycan şerində işlənmiş 11 bəhrindən 10 Füzulidə işlənmişdir. Füzuli Azərbaycan tələffüzünü, bu bəhrlərin 24 növündə sınamışdır.

Təkrarçılıq da olsa, dilçi-alim T.Hacıyevin tədqiqat qənaəti budur ki, böyük hərflə yazılan Eşq, Füzuli dilində 99 faizdən çox məqamlarda İlahi Eşqin kəsb etdiyi fəlsəfi-terminoloji mənada işlədilir.

İlahi sevgi ilə ülviləşən, Quran bilgisi və Peyğəmbər hədisi ilə aydınlaşan Füzuli yaradıcılığının əsas dünyagörüşün xəttinin birbaşa təsəvvüf (Vəhdəti-Vücud)

olmasını "Leyli bə Məcnun"dan bir nümunə ilə yekunlaşdırdım:

*Ol dəm ki bu nüsxə oldu mərqum,*
*Leyli-Məcnun adıyla mövsüm*
*İzharə gəldi rumuzu-vəhdət*
*Vəhdətdə tamam oldu, hekayət.*

Füzuli Quran tələbindən çıxış etməklə batini ruhunu, İlahi Eşqin cövhəri hesab edərək ruhun paklığını, nəfsin saflığını bir sözlə qəlbin kamilliyini, İslami inancda, qəlb yolu ilə Allaha bağlılıqda bildi. Əfsuslar olsun ki, Sovetlər dövründə məhz bu İlahi bağlılıqdan qidalanan Füzuli poeziyasının İlahi qatı, İlahi mənası yox, məcazi mənası (qatı) təbliğ edildi. Və bununla da bir çox insanlar təsəvvüf anlamından qidalanan şövqdən-zövqdən məhrum oldular.

* * *

## d) Füzuli "Dahilərin Divanı"nda

Füzuli yaradıcılığı-müqəddəs pak ilahi qüdrətli bir həqiqətdir, elə həqiqət ki, insan idrakına sığmır, tükənmir, bitmir. 500 ildən çoxdur ki, cümlə-cahan, kəsər - dəyərdə, Füzuli sözünün arzu-xəyalı ilə yaşayıb-yaratsalar da bu zirvə aşılmaz-fəthedilməz qalır.

Bu əzəməti təsvir edə biləcək bəşəri bir meyar olmadığından, Füzuli özü meyara çevrildi.

Orta əsrin bütün əsas elm sahələrini əhatə edən Füzuli yaradıcılığının incəliklərini – dil çətinliyini, söz oynaqlığını, dərin mənanı, fikir və məna əlaqəsini,



tükənməz düşüncə "qalereyasını" az-çox dərk etmək mümkünlüyü – bu tələb qarşısında dünya Füzulişünaslığı hələlik acizdir!

Bəşəri sual qarşısında qoyan, bədii və elmi yaradıcılığı bütünlüklə bəşəriyyət yaddaşına həkk olunmuş dühа, ensiklopedik məlumatlı böyük zəka sahibi, Şərq adlı dünya mədəniyyətinin o cümlədən ərəb, fars, türk ədəbi-elmi mühitnin nəhəng yetirməsi, ədəbi dilimizin, milli-bədii nəsrimizin, klassik alleqorik satiramızın banisi, nəhayətdə türk sufizminin son dahisi. İlahi aşiqlərdən **"Allahın sevgilisi"-"Məşuq-Allah"** mərtəbəsinə layiq olanların axırıncısı olan Mövlana Füzuli "Dahilərin Divanı"nda (ANS telekanalı) divana çəkildi. İştirakçısı olduğum verilişdə İlahi Eşqin fövqündə zaman-zaman **qatılaşan, dərinləşən və bütövləşən** Füzuli ideyası parçalandı-xıdalandı! Uzun-uzadı poetik (elmi-məntiqi yox!) gəzişmələrdən sonra o, cəfəri dini-məzhəbinə mənsub olan və şiə təriqətini təbliğ edən şair kimi xalqa təqdim edildi.

Mən cəsarətlə deyə bilərəm ki, Mövlana Cəlaləddin Rumi yaxud Mövlana Məhəmməd Füzulini lazımınca anlamaq üçün ya gərək aşiq kimi onların **Halını** duymağı bacarasan, ya da bu yaşantının yanğısını vizual qaydada əfsanəvi Əli Fəhmi kimi (**Füzuli misra yazmır, Füzuli yanır!**) duymağı bacarasan gərək!

Füzuli əlbəttə ki, batini, hal əhli, arifdir. O çox gözəl bilirdi ki, **"zahirlə idrak ayinəsi pak olmaz!"**.

Füzuli, nə dünya nemətlərindən üz çevirən **zahid** deyil, nə də cəhənnəmə düşmək qorxusundan, yaxud cənnətə düşmək həvəsi ilə ibarət edən **abid** deyil.

*Ol büt əbrusun qoyub, mehraba döndərməm üzüm*
*Qoy məni zahid, mənə çox vermə, tanrı üçün əzab.*

Füzuli Eşq adlı təriqətin Şairidir:

*Ey Füzuli qılmazam tərki-təriqi-eşq kim*
*Bu fəzilət daxili əhli kamal eylər məni.*

Füzuli, yönümü İlahi Eşq olan, Tanrı Aşiqidir. Füzuli canı-canana fəda etməyi məqsəd bilən **"Məşuq-Allahdır":**

*Can fəda eyləməyi yarə, həmin mən bilirəm,*
*Bu təriqi demə hər qafilü – gümrah bilir.*

Füzuli bu aşiqliyi özünün icadı yox, alın yazısı, Allah tərəfindən təlqin olunmuş, İlahi sevgi – **"Qəzavü-Qədər"** bilmişdir.

*Füzuli, aşiqə onlar ki, derlər "tərki-eşq" eylə*
*Deməzlərmi xəta, təğyir qıl, "hökmü-qəza" derlər.*

Bəli,Füzuli İlahi Eşqin real ifadəçısı "Aşiqi-sadiqdir".
İlahi **EŞQ** barədə Mövlana Rumi qeyd edirdi ki; **Eşq dini, bütün dinlərdən ayrıdır. Aşiqlərin dini və məzhəbi Allahdır.**
Məncə Tanrıya doğru yön alan bu yolda Füzuliyə yol yoldaşı olsa-olsa ya həmdərdi Məcnun, ya da heç kim, nə həyat yoldaşı, nə də oğlu Fəzli:

*Məcnunla mənim dərdimin əfsanəsi birdir*
*Söz ayrısa da aşiqi-divanəsi birdir.*



Bu yol isə Allaha Eşqlə, məhəbbətlə vasil olmaqdır. Fəlsəfi məznunu, Allaha Aşiq olmaq **("Məşuq Allah")** olan təsəvvüf, ilkin mənəvi başlanğıca qovuşma və bu qovuşma üçün təkamül – daxili (mənəvi) kamilləşmə yolunu tutmağı tələb edir. (Bax: **"Muğam həqiqətinə dini-fəlsəfi baxış"** məqaləsinə)

Füzulinin sənət və mərifət dünyası bütünlükdə buna həsr olunmuşdur (Bax N.Göyüşöv **"Füzulinin sənət və mərifət dünyası"** kitabına).

İlahi eşq daşıyıcısı olan Füzulinin şiə təriqətinə münasibətinə aydınlıq gətirmək üçün vaxtı ilə Füzuli təsəvvüfünün elmi-fəlsəfi araşdırıcısı kimi aşkarladığım bəzi ziddiyyətli məqamları önə çəkmək istərdim.

İslam ensiklopedik lüğətində işlərin imamı, İlahi nemətin (lütfün) gizli şüalanma (emanasiya) yolu ilə bir imamdan digərinə keçməsi sayəsində mövcud olması fikri qeyd olunur.

Amma Füzuli fəlsəfəsi tədqiqində, hətta fəlsəfi dərsliklərdə belə aşkar qeyd edilir ki, **Füzuli Emanasiya (şüalanma) nəzəriyyəsini əsassız hesab etmişdir!** (Bax: "Fəlsəfə" dərslik, A.Şükürov, 1997.səh.173)

Belə ki, Quran məntiqindən çıxış edən təsəvvüfün təqdim etdiyi modelə görə ruhun inkişafı, dairəvi trayektoriya boyunca Vahiddən (Tanrıdan) parçalanaraq aşağı aləmə enməsi və yenidən **parçalanmadan** Vahidə (Tanrıya) doğru yüksəlmə istiqaməti üzrə gedib qapanır.

Füzuli özünün **"Mətləül-etiqad"**ında dəfələrlə bu fikri müdafiə edir ki, **"Vahiddən ancaq Vahid" nəşət edə bilər. Yəni həqiqi Vahid hər cəhətcən Vahiddir, ondan nəşət edən bir nəticə onunla eyni vəziyyətdə (Vahid)**

**olmalı və ondan qeyri vəziyyətdə başqa bir nəticənin nəşət etməsi mümkün deyildir!**

Məlumat üçün qeyd edim ki, dialektik idealizm cərəyanına mənsub olan Hegel, Mütləqin mənşəyi, ümumi istiqaməti, inkişaf səbəbini demək olar ki, Füzulidə olduğu kimi şərh etmişdir: **"Mütləq, sanki öz xeyirxahlığından, vahidlikləri kənara atır ki, onlar öz mövcudluqlarından ləzzət alsınlar. Bu ləzzət özü sonradan onları Mütləq Vahidə doğru qovur".**

İslam ensiklopedik lüğətində aşkar qeyd olunur ki, Cəfəri şiə hüquqi –dini məzhəbi **birinci üç rəşidi xəlifənin qanuniliyini (ədalətini) tanımır (qəbul etmir).**

Lakin, Füzuli "Leyli və Məcnun"da dörd kamil yoldaşın din mülkünün əyanların ardıcıl olaraq Əbu-Bəkri-sədaqət, Öməri ədalət, Osmanı əzəmət, Həzrət Əlini həya mücəssiməsi kimi təqdim edir.

***Ey car yari kamilin, əyani mülkü din***
***Ərbabi-sidqü, mədalətü, rüfəti, həya***

Tədqiqatlar göstərir ki, Füzuli Eşq, hal, və dil əhlidir, onun yeganə təriqəti eşqdir:

***Kəmali Eşqəm dəxi***
***Özgə kəmalı neylərəm!***

Şəxsi iradə və azadlıq saxlanılmaqla Mütləq azadlığa yön alan İlahi Eşqdə təriqət məhdudluğuna yer yoxdur.

Lakin Füzuli İslam övladı kimi Peyğəmbərə, imamlara, övliyalara bir sözlə mömünlərə biganə qala bilməzdi:



***Bəs ki, hicranındadır, xasiyyəti-qəti-həyat***
***Ol həyat əhlinə heyranam ki, hicranındadır.***

Bu heyranlığın da kökündə (nüvəsində) İlahi EŞQİn durduğunu iddia etsəm, səhv etmərəm.

Yekunda bildirmək istərdim ki, Füzulini təriqətlərə xırdalamaq "Vəhdəti-Vücud"dan doğan Füzuli bütövlüyünə xələl gətirməkdir! Məncə bu Tanrıya da xoş gəlməz!

Füzuliyə aid bu kiçik yazımı Həqiqət Xəzinəsi – Qurani Kərimin **"Mucladala"** surəsinin 11-ci ayəsinin tərcüməsi ilə bitirmək istəyirəm:

**"Allah içinizdən iman edənləri ucaldar. Bunlardan özlərinə elm verilmiş olanları daha uca dərəcələrə ucaldar!"**

Bəli, Mövlana Məhəmməd Füzuli hər iki İlahi məqam tələbindən Haqq dərgahında mərtəbəsi ucadan uca olanlardandır.

* * *

## *Qeyd*

Bu araşdırmaya aid nəzəri düşüncələrim çoxdan formalaşsa da, praktiki olaraq "ANS" telekanalında "Dahilərin Divanı" elmə - məntiqə əsaslanmadan Mövlana Məhəmməd Füzulini Cəfəri məzhəbinə mənsub olan və şiə təriqətinə aid şair kimi **"Elan"** etdikdən sonra yazdım.

Çox mötəbər elm xadimlərinin diqqətini çəkən bu araşdırma barədə yalnız onlardan ikisinin rəyini təqdim edirəm.

* * *

**Müseyibov Rəhimin «İslam-Muğam-Füzuli» kitabının əlyazması haqqında**

**RƏY**

*Dünya şöhrətli şairimiz Füzulinin poetik irsi, Azərbaycan ədəbiyyatının ölməz dəyərləri sırasında öz əbədi yerini tutmuşdur. Buna görə də irs harədə ən müxtəlif elm sahələrinə mənsub araşdırıcıların zaman-zaman öz ürək sözlərini deməsi Füzuli yaradıcılığını çağdaş oxucuya yaxınlaşdırmaq üsullarından biri kimi qiymətləndirilməlidir. Çağdaş dövrdə Füzuli obrazının yeni cizgiləri, yeni nüansları elmi-ədəbi ictimaiyyətə təqdim edilməkdədir. Bu da təbiidir, çünki hər dövrün, hər nəslin öz Füzulisi, öz görümü vardır. Füzuliyə daha çox fəlsəfi-dini aspektdən yanaşan R.Müseyibov böyük şairin yeni mədəni mənəvi dəyərlər sistemində təbliğinə yardım göstərməyə çalışır və konkret oxucu auditoriyasına ideya estetik təsir baxımından bu məqsədinə naildir. «Qəlb şairinin» ölməz muğamlarımızla bağlılığı probleminin işlənməsi maraq doğurur və gələcəkdə bu sahədə aparılacaq çox saylı tədqiqatlar üçün elmi zəmin kimi çıxış edir. Müstəqil dövrümüzün alimləri Azərbaycançılıq ideologiyasından çıxış edərək bundan sonra da Füzuli haqqında sanballı tədqiqatlar ərsəyə gətirəcəklər. Müstəqillik dövrümün Füzulişünaslığı təzə-təzə formalaşmağa başlayır və R.Müseyibovun «İslam-Muğam-Füzuli» kitabını, bu prosesin təməl daşlarından biri kimi qutlayıram.*

**AMEA-nın müxbir üzvü: Teymur Kərimli**



* * *

**Müzakirə həqiqəti ortaya qoyur!**

**Rəhim Müseyibovun «Füzuli təəssübkeşliyi» məqaləsinə**

**RƏY**

*Son vaxtlar böyük klassik şairlərimiz müxtəlif baxışlarda araşdırılıb təhlil olunur. Sevindiricidir ki, bu analizlər yeni-yeni fikirlər, faktlar ortaya çıxarmaq, klassiklərə layiqli baxışı formalaşdırmaq məqsədi güdürdü. Azərbaycan Jurnalistlər birliyinin üzvü, tədqiqatçı Rəhim Müseyibovun «ANS» televiziya kanalında «Dahilərin Divanı» silsiləsindən böyük klassik şairimiz Məhəmməd Füzuliyə həsr olunan verilişdən sonra «Təzadlar» qəzetinin 19-26 fevral 2008-ci il tarixində qələmə aldığı «Füzuli təəssübkeşliyi» məqaləsi bu qəbildəndir. Dahi eşq və sənət şairimizin haqda olan bu məqalə yeni axtarışlarla zəngin olduğu üçün ancaq təqdirə layiqdir və çap olunması sevindircidir.*

**Fəlsəfə elmlər doktoru: A.Şükürov**

*Elmsiz şer, əsası yox divar olur,*
*Əsassız divar, ğayətdə bietibar olur.*
(Füzuli)

## 2. FÜZULİ YARADICILIĞI VƏ HİND MƏDƏNİYYƏTİ

Dahi Füzulinin şerlərinə məzmun gözəlliyi gətirən **"ELMİLİK"**, öz zənginliyi, cazibədarlığı ilə şeri oxunaqlı etməklə bərabər, həm də oxucunu, şairin elmi dünya görünüşünün təhlil və təhqiq axtarışlarına sövq edir.

Füzuli yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poemasından bir məqamı önə gətirmək istərdim.

Möhnət və dərd mülkünün şahı Məcnun səhrada, ətrafındakı heyvanları ram etməklə, orada qərar tutur. Belə ki, ədalətli bir "başçı" kimi özünün bəzi yetkin sifətləri ilə heyvanlara nüfuz edir. Bir sözlə Füzuli, Məcnunun dünya qayğılarından uzaq olan səhra həyatına dərin fəlsəfi məna verərək onu ideallaşdırır, bir növ ona müqəddəslik əlamətləri verir:

*"Avazı idi bəsi mülayim*
*Üslubu dürüst üsulu qayim*
*Təhrir ilə hər çəkəndə avaz*
*Quşlara tutardı rahi-pərvaz".*

Bu misraların bədii fikir məzmununu şərh edən Füzulişünas alim S.Əliyev qeyd edir ki, qeyri-adi səs və avaz sahibi olan Məcnun, özünün şirin və sirayət edici



nəğmələri ilə quşlara belə təsir edir, həzin və sərrast oxumaları ilə onlara "komanda" verir, "marşrut" (uçuş yolları-R.Müseyibov) cızır.

Alim özünün bədii şərhi ilə Məcnunun ümdə, müəyyən edici sifətlərindən birini – onun musiqiyə olan təşnə münasibətini təsdiqləyir.

Lakin, bu izahda Məcnunun musiqiyə münasibəti açıqlansa da, Füzulinin Bizlərə çatdırmaq istədiyi **"ELMİLİK"** dərin məzmun incəliyi, ictimai-fəlsəfi ideya-təbii olaraq bütünlüklə açılmamış qalır.

Bu qoşa beytin açıqlanmasından aşkarlanan elmi məna-məzmun incəliklərindən bir neçəsinə öz münasibətimi bildirmək istərdim.

Məlumdur ki, Füzili, Məcnunu bizlərə nüvəsində İlahi Eşq duran, mənəvi təkamül yollarını keçmiş, nəfsi paklıq və ruhu saflıq tapmış həqiqət əhli – arif kimi təqdim edir:

*"Təhsil qılıb səfayl-siyrət*
*Görmüşdü məcazdan həqiqət"*

O da məlumdur ki, kamilliyin özəyi ruh və onun real təcəssümü olan mənəviyyatdır.

Pak vücudu nurla dolmuş Məcnun səhrada zahirən vəhşilərlə, quşlarla yoldaşlıq etsə də, batində ruhən məlaikələri, Tanrı gözəlliyinin və mərhəmətinin üzə çıxdığı ecazkar ekstatik xoşbəxtlik mənzərələrini seyr edirdi.

Bu səhnə xoş avaz ilə, ruhən Tanrıya yaxınlaşmaqdan doğan İlahi "sevginin təsirinin, nümayişidir".

Məlumat üçün qeyd edim ki, İslamda xoş avazın vacibliyi və əhəmiyyəti barədə bax: **"Muğam həqiqətinə dini-fəlsəfi baxış"** məqaləsinə. Məncə ustad Füzuli burada musiqiyə olan nəzəri münasibətini də açıqlayır. Burada musiqiyə, ruhən Allaha qovuşmağa aparan bir vasitə olduğuna da işarə vardır. Musiqidə İlahilik axtarmaq, Allaha doğru yol açan musiqini yaratmaq və ondan istifadə etmək – sufi musiqi praktikası və estetikasının üç göstəriciləridir. Bu hal isə sufi musiqi estetikasının üç göstəricilərindən biridir. Təsdiq üçün qeyd edim ki, Eşq təriqətinə mənsub olan Füzuli, sufizmin gözəllik və musiqiyə xidmət tərəfinə meylli olmuşdur.

Məcnun haqqında yüksək fikirdə olan Füzuli bu beytdə «üslubu dürüst» üsulu qaim Məcnun avazının təsirini müqəddəsləşdirməklə, Məcnun şəxsiyyətinin vücudi-kamil olduğunu artıq təsdiqləyir.

Belə ki, sufi anlamında zatı kamilliyin şərtlərini təsvir edən Füzuli:

***"Avaziyü, zehniyü, cəmali***
***Qılmışdı müqəyyəd əhli-hali***
***Kim olsa bu üç kəmalə qabil***
***Deməkolur ona zati-kamil".***

Füzuli, bu üç kamal keyfiyyətlərindən ikisinə – əqli və camal gözəlliyinə Məcnunun qabil olduğunu əvvəldə artıq bəyan etmişdir:

***"Mövzun idi təbi nükdadani***
***Hər nüktədə vaqifi-məani***
və



***Övsafi-lətafətində söz çox***
***Əltafi-məlahətində söz yox"***

Nəhayət axırıncısı. Vaxtı ilə mən namizədlik dissertasiyası üzərində işləyərkən musiqi haqqındakı fəlsəfi fikirlərin dərinliyi ilə seçilən Hindistanın musiqi mədəniyyəti tarixində Məcnunun səhra səhnəsinə bənzər bir məqam diqqətimi çəkdi. Elmi məlumatlara görə Hindistanın tarixi boyu yaradılan bütün mifoloji, ədəbi-bədii və nəzəri əsərlərdə musiqinin insana və təbiətə ekstatik və magik təsirinin motivləri əks olunmuşdur. Induizm abidələrindən olan Bhaqavata-Puranedə də allah Krişnanın mifik bioqrafiyasının təsvirində belə bir epizoda rast gəlirik: **"İlahi naxırçının fleytasının sehri altında bütün canlılar əsir olur, hətta, Yamuna çayının suları dayanaraq geriyə axır".**

Musiqinin canlı təbiətlə əlaqədar olması və ona təsiri – bu Hind musiqi estetikasının əlaqədar olduğu 9 sahədən biridir.

İlahi naxırçının fleytasının sehr səhnəsinin, Məcnunun səhrada təhrir ilə avaz çəkdiyi səhnə ilə ruhən uzlaşmağı, məni Füzulinin Hind mədəniyyəti ilə bağlılığı axtarışlarına sövq etdi. Ani olaraq Füzulinin musiqiyə münasibətdə Hind mədəniyyəti ilə bağlılıq mümkünlüyü önə gəldi.

Füzulinin musiqiyə münasibətdə Hind mədəniyyətinə oxşarlığı barədə rastlaşdığım başqa bir məqam: Qədim Hind musiqi mədəniyyətindən məlum olur ki, **Ruhun özünü ifadəsi sayəsində odun (enerjinin) və havanın mühütün qarşılıqlı təsiri nticəsində səs yaranır və o**

**yüksəldikcə pilləli forma alır. Nərdivana oxşamağa başlayır. Deməli, beləliklə belə bir inam yaranır ki, səs bizə müxtəlif Şrutiyə (səsin modulyasiyası) bölünmüş kimi təqdim olunur.”**

Füzuli özünün **“Rind və Zahid”** əsərində musiqiyə belə təsvir verir: **“Ürək açan nağmə, səma eyvanının kəməndidir, xoş avazalar Uca aləmin nərdivanıdır. Ruha halın məbədindən xəbər verir. Onun məqamlarının hər bir şöbəsi bir sirr pərdəsidir və hər nəğməsi Allah dərgahına bir niyazdır”.**

İstinad etdiyim oxşarlıqlardan çıxış edərək, ilk öncə Füzulinin Hind fəlsəfəsindən bəhrələnmək qənaətimi onunla əsaslandırmaq istərdim ki, şair EŞQ dastanını – **“Leyli və Məcnunu”** cövhərində İlahi Eşq duran **“Vəhdəti-Vücud”** fəlsəfəsi yəni, Yaradanın və yaranmışların birliyi ideyası əsasında qələmə aldığını özü, əsərin axırında belə etiraf edir:

***“Ol dəm ki, bu nüsxə oldu mərqum***
***“Leyli-Məcnun” adıyla mövsum***
***İzharə gəldi rumuzu-vəhdət***
***Vəhdətdə tamam oldu hekayət”***

Təsəvvüf nəzəriyyəsinin əsası olan “Vəhdəti-Vücud” isə vahid, bütöv bir dini cərəyan olmayan sufizm təmayüllərinin birləşdiyi yeganə bir nöqtədir. Burada məqsədim heç də “Vəhdəti-vücud”un fəlsəfi əsaslarını açıqlamaq deyil, yalnız bu təlimin, Hind dii fəlsəfi ideyaları ilə uzlaşan mühüm məqamlarını diqqətə çatdırmaqdır.



Ensiklopedik mənbələrdə İslam dini zəminində yaranmış mistik-astetik xarakterli təsəvvüfə xristianlıq və neonlatizmin təsiri qeyd olunur. Zahiri oxşarlığında Hindistan və Çinin təsiri duyulur.

Elmi-tədqiqatlar göstərir ki, Hindistan dini-fəlsəfi fikrin, təsəvvüflə oxşar istiqamətləri brahmanizm, yoqa təlimi və buddizmdir.

Bütün varlıqların fövqündə Brahma adlı əbədi varlığın mövcudluğunu iddia edən brahmatizmdə yaranmışların sonradan – Brahmaya təkrar dönmələri iddia olunur. Necə ki, Quranda hər şeyin öz əslinə-zatına dönmək iddiası kimi!

Mistik xarakterli Yoqa təlimi isə ekstaza çatmaqla insan ruhunu öz əzəli mahiyyəti ilə birləşməyə çağıran hind təlimidir. **“Allaha Eşq bütün biliklərdən üstündür”** kimi formalaşan yoqa devizi təsəvvüflə analoji baxışın ən uyğun nöqtəsidir.

Fərqi ondadır ki, ekstaza çatmaq üçün yoqa təlimi arxaik texnika üzərində xüsusi dayanırsa, təsəvvüf hind yoqaları kimi müəmma yaratmır, burada qəlbin yanğı – təşnəsi öndədir:

***Suyu az axtar, təşnə ol ki,***
***Bütün vücudunun suyu qaynasın.***

(Rumi)

***Neyin bu fəryadı atəşdir, yel deyildir***
***Kimin ki, belə atəşi yoxdur, məhv olsun.***

(Rumi)

Budizmin daxili kamilləşmə yolu ilə həyat əzabından xilas olma nəzəriyyəsi də müsəlman mistikası ilə çox oxşardır. Prinsip etibarı ilə buddizm və təsəvvüf eyni

amala xidmət edir: Ruhi-mənəvi saflaşma və EŞQlə əzabdan xilas olub əzəli mahiyyətə qovuşmaq! Belə ki, əsas prinsipi: **istəklərdən istina etmək yolu ilə "iztirabdam" azad olmağa və "nicata" çatmaq** olan buddizmin təsəvvüfdəki zahidlik (zühd-**dünya istəklərini boğmaq, ləzzətə aldanmamaq və s.**) zahiri oxşarlıq təsiri aşkar duyulmaqdadır.

Maraqlıdır ki, təssəvvüfdə olduğu kimi Hind müdrikləri də Allaha qovuşmağa kömək edə bilən iki, bir-biri ilə qarşılıqlı əlaqədə olan vasitə: məhəbbət və musiqini vacib-əhəmiyyətli bilmişlər. Musiqisiz Allahı sevmək ona yaxınlaşmaq və qovuşmaq qeyri-mümkündür. **Allah – İnsan – məhəbbət – musiqi**dən ibarət anlayışların **sehrli kvadratı** qədim hind musiqi estetikasının əsaslarından biridir. Bu məqam isə prinsipcə birbaşa təsəvvüflə üst-üstə düşür.

Bu kiçik müqayisədən sonra odlu Məcnun avazının təsiri ilə, İlahi naxırçının fleytasının sehri arasındakı, eləcə də səsin (musiqi avazının) yaranmasına olan münasibətlərdəki oxşarlıqları, Füzulinin Hind mədəniyyətindən bəhrələnməsi **elmi-fərziyyəsini** qəbul etmək olar.

Qənaətim budur ki, Hind musiqi estetikasının qeyd olunan müddəalarını, Füzulı öz bədii yaradıcılıq süzgəcindən keçirərək, ona Şərq üslubunda yeni məna çalarları vermişdir. Füzulinin sənət-mərifət dünyasında müşahidə olunan bu hallar, məncə Quranın öz ruhundan, İslami Hind fəlsəfəsinin həmin ruha uyğun məqamlarıdır ki, Füzuli böyük məharətlə onlardan istifadə etmişdir.



Böyük həqiqətləri EŞQ ilə açıqlamaqda mahir ustad Füzulinin hüdudsuz "**heyrət dəryası**" – yaradıcılığı haqqında qələmə aldığım bu kiçik yazını Füzulişünas-Alim S.Əliyevin bir qənaəti ilə bitirmək istərdim:

**"Alim Füzuli ətraflı şərh olunmayınca, şair Füzuli də tam mənası ilə anlaşılmayacaqdır".**

*2003-cü il*

* * *

## *Qeyd*

Məqalədə qaldırılan əsas problem – Füzuli yaradıcılığında musiqiyə münasibətinin, Hind musiqi mədəniyyətinə bağlılığının elmi-fərziyyə şəklində qoyuluşunu, nüfuzlu filosof Zümrüd Quluzadə 2003-cü ildə rəsmən dəstəkləmişdir.

*Bir məkanın şərəfi, orada yaşayanların şərəfidir.*

*(Məhəmməd Peyğəmbər s.ə.s.)*

# 3. QARABAĞ DƏRDİNDƏ FÜZULİ POEZİYASI

Bu günlər, iqtisadiyyatda, mənəviyyatda suveren demokrotik dövlət quruluşunda, Qarabağ probleminin "ləngidici-dağıdıcı" təsviri aşkar duyulmaqdadır. Sözsüz ki, həssas ziyalı təbəqəsi, bu neqativ təzyiqə biganə qala bilməz və o, öz sözünü deməlidir.

XX əsrin Qarabağ faciəsindən doğan nisgilli hisslərimi qələmə alarkən, dahi Füzulinin **"heyrət dəryasına"** - yaradıcılığına üz tutmağım, filosof-alim Füzuli qənaətlərinə istinadım təsadüfi deyildir. Füzulinin insana, sözə, ədalətə, ümumən mənəviyyata verdiyi şərhlər artıq "elitonlaşmışdır".

Dünyanın **"simu-zərinə", "ziynətü-zivərinə"** baş əyməyən, sözün məqamını daima uca tutan müdrik Füzulinin nəzərində söz, insan həqiqətinin özüdür:

***Can sözdür, əgər bilirsə insan,***
***Sözdür ki, derlər özgədir can.***

Bu mənada Qarabağla bağlı səmimi etiraflarımı, ilk öncə poeziya və musiqimizin müqəddəs beşiyi,Şuşanın bu günkü **"qaşqabağı", "solğun çöhrəli", "pərişan halına"** acımaq, eləcə də təskinlik sanıram.

Klassik mədəniyyətimizin qızıl səfində duran incilər – Xan qızı Natəvan, Nəvvab, Üzeyir bəy, Xan, Sadıqcan,



Qurban, Bülbül, Cabbar, Seyid və s. bunlar Qarabağın yetirmələridir. Qarabağ bu ali şəxsiyyətlərin parlaq yaradıcılığı hesabına çoxdandır ki, mənən özəlləşibdir. Qarabağın Azərbaycana, bu şəxsiyyətlərn təmsil etdiyi ölkəyə (millətə) məxsusluğu tarixən təsdiqlənmişdir.

Lakin BMT, ATƏT kimi nüfuzlu beynəlxalq təşkilatların Qarabağa dair məlum qərarlarının icrası, nədənsə tilsimə düşüb, müşkülə çevrilib:

**"Mənəm ki, qafilə-salari, karvani-qəməm".**

Qəribədir, dünyanın dərdini, dünyadan alıb azaldan, qəm karvanının sarvanı Füzulinin doğma Azərbaycanı, bu günlərdə, arzuları kül olmuş, qaçqın və köçkünlərin vətən, yurd-yuva dərdlərindən **"aşıb-daşır"!?**

500 ildən çoxdur ki, Füzulinin sənət şamı uca mənəviyyat səmasından (aləmindən) insanlığı **"abı-həyat"** nuruna qərq edir. Lakin **"Bir ahı ilə min Bisutunu bada verməyə qadir",** Füzuli muradının şəmi, dağı-daşı qan ağlayan, gülşənində Xarı bülbülü solan, Qarabağda yanmır ki, yanmır!?

Deməli, dünya evinin haqq-mizan tərəzisində sahman pozulub ki, Azərbaycan Qarabağsız qalıb?

Təbriz, Göyçə, İrəvan, Borçalı, Dərbənd nəhayətdə Qarabağ kimi yurdlarının zaman-zaman itirilməsi hesabına, başı bəlalı Azərbaycanın coğrafi ərazisinin son iki-üç yüzillikdə kəskin dərəcədə "daralması" insanı heyrətləndirir.

**"Ədvari-zaman, daireyi heyrətdir"!**

Dövranın qəhrini dönə-dönə çəkən cəfakeş Füzuliyə görə, zamanın dövrləri **"heyrət dairəsidir"**. Əlbəttə bu fərziyyə yox həyat gerçəkliyidir!

Adı çəkilən ərazi-torpaq itkiləri, oyunbaz çərxi-fələtin cızdığı heyrət-dairəsində, millətimizin tarixinə qara hərflərlə yazılmış sinə dağlarıdır.

Nə qədər ki, Qarabağ problemi öz ədalətli həllini tapmayıb, gündəlik problemlər kələfində çaş-baş qalmış,eləcə də vətəndə vətənsiz qalmış yurd həsrətli qaçqın və köçkünlər, çadır şəhərciklərində, qaçqın düşərgələrində, Bakının küçə və bazarlarında bax beləcə "qərib" kimi dolaşacaqlar.

**"Xaki vətən sevindirər ancaq, qəribini".**

Bu, qəbahətlərlə dolu keşməkeşli həyat haqqında, əsrlərdən-qərinələrdən süzülüb gələn filosof Füzuli qənaətdir!

Doğrudan da məskənləri qartallar qıy vuran, uca zirvələr olmuş insanların qaçqın şəhərciklərinə, düşərgələrinə, çadırlarına uyğunlaşa bilməməsi,acı da olsa gerçəkdir! Biz bu geçəklikdən doğan həqiqətləri qəbul etməyə məcburuq və çətin həyat şəraitində yaşayan hər bir qayğılı, qəribsəmiş insanların dərdlərinə şərik çıxmağı, onu özününküləşdirməyi bacarmalıyıq. Füzuli demiş:

***Ey xoş ol məst ki, bilməz qəmi-aləm nə imiş,***
***Nə çəkər aləm üçün qəm, nə bilər qəmı nə imiş.***

Yəni aləm üçün qəm çəkməyən, qəm nə olduğunu bilməz!



Məlumdur ki, düyünə düşmüş Qarabağ savaşında bu günlər, hüquqi təminatı olmayan, müddəti naməlum, kövrək sövdələşmə-atəşkəs hökm sürür.

***Ey Füzuli şəmi-qəm əncamına yoxdur ümid***
***Bir təsəllidir, sənə ol söz ki, derlər var sübh.***

Şairin fikrincə qəm gecəsinin sonu görünmürsə, "sübh" demək təsəllidir. Səhərin açılması ilə heç nə dəyişməz! Qəmli keçən gecə ilə gündüzün nə fərqi?

Belə vəziyyətdə səbrə üz tutan aqil Füzuli söylərdi: **"Səbr ilə bu dövrandan məqsəd hasil etmək olar. Lakin səbr etdikcə də fələk zülm eylər".**

Zülmə, zillətə, acizliyə, haqsızlığa qarşı barışmaz olan Füzuli qətiyyəti belədir:

***"Zillət ilə ləzzət olmaz həyatın dustlar***
***Nəqdi-can sərf eyləyib, dünyadan kam almaq gərək***
***Əcz ilə dönmək əduddan səhldir, ümmət tutub,***
***Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək".***

Bəli, bu insan ləyaqətinin tapdanmasına dözməyən **"qeyrəti-qədərincə qüdrəti olan"** Füzuli qətiyyətidir!

Göründüyü kimi tarixımiz, milli mənəvi yaddaşımız, ənənələrimiz, əxlaqımız məhz bu yolu tələb edir. Bu yol isə günümüz üçün vacib və əhəmiyyətli olan milli birlikdən (Vəhdətdən) keçir!

***2004-cü il***

# IV. PUBLİSİSTİKA



***"Bəsirət gözü, ariflərlə ünsiyyətdə açılır".***

*(Əbu Turxan)*

# 1. MİLLİ MƏFKURƏ VƏ MİLLİ TELE-RADİO YAYIM ŞURASI

Hər bir millətin öz varlığını, müqəddəs bir nur (işıq) dairəsi içində duyub, anlaması üçün parlaq idrak və anlayış lazımdır ki, buna **milli məfkurə** deyilir. İnsanları millətə bağlayan, başqa sözlə kütləni millət edən məhz milli məfkurədir.

Milli məfkurə anlamına dəyər verən amillərdən ən önəmlisi, onun milli əxlaqi tərbiyə məsələsində bilavasitə zəmin (cövhər) kimi çıxış etməsidir.

O mənada ki, **"tərbiyə"** sözü ərəbcə yüksək bir məqama qalxmaq, ucalmaq, hətta bir şeyin əslini tapmaq, ona qovuşmaq mənasını verir. Bu cəmi insanlığa aid olan düstur-tədrici təkamül yoludur.

Milli əxlaq-tərbiyə yaşamaq tərzidir, nəzər düşüncə sistemi modelidir, kodlaşdırılmış milli atributdur.

Belə ki, insanın məzmun mahiyyəti, onun mənəvi zənginliyində, əxlaq tərbiyəsindədir.

Nəhayətdə, milli əxlaq sabitləşmiş, mükəmməl xarakterin-zövqün milli ruhda formalaşmasıdır.

**"Zövqüncə kam alar arif bu dünyadan"**

(Füzuli)

**"İnsanların görümü də, onların zövqüncədir"**

(Ş.Suhraverdi)

Bir sözlə zövqüncə həyatını qurar-yaşayar insan!

Göründüyü kimi milli məfkurə, əxlaq, zövq bunlar bir-birindən asılı və bir-birini tamamlayan anlamlardır. Çox şükürlər olsun ki, çox dəyərlərimizi itirsək də milli məfkurəmizin davamlığını, İslami əqidə və türk təfəkkür tərzi ilə silahlanmış Nizamilər, Nəsimilər, Füzulilər ... Üzeyirlər... nəhayətdə muğamlarımız ilə təmin edə bilmişik!

Lakin cəmiyyətin güzgüsü hesab olunan Televiziya Şirkətlərinin son 5-10 ildəki fəaliyyətinə istinadən qəti bildirirəm ki, efir qanunlarındakı boşluq (natamamlıq) ilə əlaqədar milli-mənəvi dəyərlərimizə xüsusən İslama, Muğama, klassiklərimizə münasibətdə kobud (bağışlanılmaz) xətalara yol verilir.

Hansı ki, onların fəaliyyət Nizamnaməsində özünü tənzimləmə məsələləri ilə yanaşı, milli-mənəvi dəyərlərin qorunması, əxlaq normalarına riayət edilməsi vacib şərt kimi qoyulmuşdur! Mədəniyyətlərin inteqrasiya və sivilizasiyaların qarşı-qarşıya dayandığı bir vaxtda milli-məfkurəmizə diqqət daha önəmlidir!

2001-ci ildə "ABA" Teleşirkətində, iştirakçısı olduğum "Kontra" Tok-Şouda (?) İlahi təyinatlı iki məsələ: **Quranın tərcüməsi və namazın milli (Azərbaycan) dilində qılınması müzakirə edildi.**

Belə ciddi ilahi təyinatlı məsələləri, gülünc görünən tok-şouya yox, İslamı elm ilə vəhdətdə müqəddəs sayan yüksək İdrak və Parlaq Etiqad sahiblərinin işturak etdiyi Ürfan-Dini-Elm məclisinə həvalə etmək, daha doğru-düzgün olardı!



Nəhayət, **"Namazı Azərbaycan dilində qılmaq"** sadəcə Tanrıya, onun müqəddəs Quranına, İslama və Peyğəmbərimizə hörmətsizlikdən başqa bir şey deyildir!

Hər iki məsələyə Elmi-Fəlsəfi münasibətimi zamanında mətbuatda və efirdə eləcə də **"İslam, Muğam, Füzuli"** kitabımın **"İslam"** bölməsində vermişəm.

Milli musiqimizin banisi, tək "Arşın mal alan" əsəri dünyanın 68 dilinə tərcümə edilmiş dahi Üzeyir Hacıbəylinin 120 illik yubileyinə həsr olunmuş Muğam-SMS-Şou müsabiqəsi layhəsinin təşkilatçısı olmuş - "Space" Tele Yayım Şirkətinin məqsəd və məramını indiyə qədər dərk edə bilmirəm?!

"Mədəniyyətin dostları" və "H.Əliyev Fondu"nun maddi dəstəyi ola-ola, bazar iqtisadiyyatı adı altında mənəvi dəyərlərimizi hərraca (SMS yarışı) çıxartmaq – bu mənəvi faciədir!

Dünya musiqi mədəniyyətində Üzeyir bəydən böyük şəxsiyyətimiz varmı? Məni daha çox heyrətləndirən məqamlardan biri münsiflər heyətində oturan **PROFESSORLARIN** (?) belə incə məsələyə ünasibətdəki biganəliyidir.

Üzeyir bəyin öz zövqü təbirincə desək, doğrudan da biz **"kəmfürsətik"**miş

Bu məsələyə münasibətimi də zamanında mətbuatda və "İslam, Muğam, Füzuli" kitabının "Muğam" bölməsində vermişəm!

Yayım Şurasının tərkibində, Qafqaz Müsəlmanları Ruhani İdarəsi qazisinin üzv olduğu "İctimai" Tele Yayım Şirkətində 2006-cı ildə **"Zaman"** adlı dini teatrın fəaliyyəti geniş təbliğ edildi?! İslam kimi bəşəri kamil-

realist-monoteist dində misterial-dini teatr mövzusu çox gülünc, məntiqsiz, ayıblı görünür! Məlumat üçün qeyd edim ki, regional xristian dinində mövcud olmuş dini misterial teatrlar hələ XVII əsrdən ləğv edilmişdir.

Yaxud "ANS" Tele Şirkətinin layihəsi olan "Dahilərin Divanı"nda şəxsiyyətinə hörmət etdiyim (İslam, Muğam, Füzuli ideyalarının daşıyıcı olduğundan) həvəskar şairin 50 milyonluq xalqa müraciətini ki, **"dahi Mövlana Məhəmməd Füzuli şiə təriqətinə və Cəfəri mənsəbinə mənsub şairdir"**, hökmünü verməsini elmə, məntiqə söykənməyən, nöqsanlı, həvəskar deyim hesab edirəm. Belə ki, **həvəskar-təbliğat bilgisi ilə elmi-tədqiqat iddiası eyləmək olmaz!**

Füzulinin mənsub olduğu İlahi Aşiqlik təriqətinin-Təsəvvüf Fəlsəfəsinin çətin dərk olunduğunu, vaxtı ilə Mövlana Ruminin müəllimi olmuş **"Mürşüdi-Kamil"** Şəms Təbrizi bir cümlə ilə belə vermişdir: **Ağıl-Eşq (İlahi Aşiqlik) məsələsində Böyük Loğman İbn-Sina yarım filosofdur".**

Nəhayət, Azərbaycan məkanında İlahiyyat Elminin **"Hüccət-ül-İslam"**ı (İslamın dəlili) kimi qəbul etdiyim akademik Vasim Məmmədəliyevin Füzuli haqqında yazdığı və bizlərin qidalandığı çox sanballı yazısına **"Füzuli haqqında düşüncələrim"** başlığını seçməsi (hökm verməməsi) məncə çox mətləblərdən bizi agah edir. Bu mövzuya münasibət, zamanında mətbuatda və **"İslam-Muğam-Füzuli"** kitabımda verilmişdir.

Məğzi-məramı bəlli olmayan "Dahilərin Divanı"nda ən adi Nəsimi həqiqətinin – Nəsimi təxəyyülünün, mənbəyinin səhv açıqlanmasındakı acizlik və çaşqınlıq



nümayiş etdirən alimlərimizin nöqsanını, Nəsimişünaslıqdakı boşluq (kəm) kimi anlayıb dəyərləndirirəm.

***Adımı həqqdən Nəsimi yazərəm***
***Bil bu mənidən, nə siməm, ya zərəm.***

Yaxud,

***İstərdi həqdən Nəsimi vəslini, buldu murad***
***Maliki didar olubdur, gəncü dinar istəməz***

Bu misralar bir daha təsdiqləyir ki, Ali məqsədi "Maliki-Didar" olmaq, Tanrı vüsalına yetmək olan Seyid Əlinin, adını həqdən Nəsimi (farsca-İlahi ruh, İlahi yel) yazması təsadüfi deyildir.

"Space" Tele Şirkətinin tez-tez nümayiş etdirdiyi Rafael-Coşqun dialoqunda (tamaşalarda) Şeyx Nizami Gəncəvinin mobil telefonla Puşkinlə danışması, yaxud avtomobil qəzasından gedib Füzulinin (heykəlinin) qucağına düşməsi və s. bu kimi ədəbsiz ifadələrlə müqəddəs Quranın Aliliyini tam mənası ilə düşünüb dərk edən, onun möcüzəli sehrindən bəhrələnən **dühaların gülüş obyektinə** çevrilməsinə, mədəniyyət sahəsinə cavabdeh olan **Mədəniyyət və Turizm Nazirliyi** necə reaksiya verir, görəsən?

Yazı mövzusuna dolayısı aidiyyatı olduğuna görə müşahidə etdiyim iki məqama münasibət bildirərdim.

Dövlət Flarmoniyasında peşəkar xanəndələrdən birinin Yaradıcılıq gecəsinin aparıcısı, nüfuzlu sənətşünaslardan biri, muğam sənətinin incəlik-gözəlliklərinin açımında bütünlükdə Qərb filosoflarının qənaətlərinə istinadı, məndə haqlı təəccüb hissi oyatdı.

Axı, Muğam ifaçılıq sənəti bütünlüklə İslama söykənən və pərvərişi tapan bir janrdır. Bu sənətin məzmun-mahiyyəti yalnız İslam fəlsəfəsi ilə aydınlaşır-aşkarlanır! Görüşümüzdə bu həqiqəti o qəbul etmədi?!

Digəri isə Azad Azərbaycan Tele kanalında "El içində" (səhv etmirəmsə) verilişində müqəddəs Qurban bayramı ərəfəsindəki yaranan süni bahalığa münasibət bildirən, Milli Məfkurəmizin Milli Məclisdəki seçilmiş müdafiəçisi, təmsilçisi, millət vəkillərindən biri çox qəribə görünsə də bazar iqtisadiyyatındakı tələb-təklif şərtini qabartdı!? Əlbəttə bunları işbaz sahibkar desəydi bəlkə də qeyri-adi, qəribə görünməzdi!

Lakin təvazökarcasına, həmin millət vəkilinin nəzərinə, Şeyx Sədi Şirazinin məhz milli məfkurəmizin qidalandığı İslami hikmətlərdən birini çatdırmaq istərdim:

**"Əgər insan ruziyə bağlı olduğu qədər, ruzi verənə də bağlı olsaydı, mövqeyi mələklərdən üstün olardı".**

Milli məfkurəmizi zənginləşdirən, İnsanlığı Tanrıya yaxınlaşdıran bu incəliyi təbliğ edəydi, gərək Millət Vəkili.

Belə çaşqınlıq yaradan, faydasız verilişlərin, layihələrin müəllifləri, yalnız özlərini deyil, mənsub olduğumuz cəmiyyəti çaşqınlığa sürükləyirlər.

Rəsmi dini İslam olan dünyəvi dövlətlərdə, o cümlədən Azərbaycanda İslamın vacib əməl və əxlaq hökmünə dini-hüququ nəzarətin əsasən olmamasını nəzərə alıb, bilavasitə İslamdan qidalanan Milli Məfkurə marağı ilə Milli Tele Radio yayım Şurası:



- Tele Şirkətlərdə ictimai-nəzarət mexanizmini bərpa etməli
- Belə "zay" məhsula (verilişə) görə uyğun-qabaqlayıcı tədbirlər və maliyyə sanksiyaları müəyyən etməli
- Milli məfkurə və maddi maraq arasındakı Ədalət Sərhəddini müəyyən etməli və s.

Ölkədə mədəniyyət siyasətinə cavabdeh Mədəniyyət və Turizm Nazirliyi isə qoyulan mövzunun aktuallığını nəzərə alıb Milli Tele-Radio Yayım məkanında sayıqlığını artırmalıdır.

* * *

## 2. DÜŞÜNCƏ VƏ QƏNAƏTLƏRİM

- Haqqa bənd olmayan bəndəliyini anlamaz.
- Haqqı sevəni, Haqq da sevər.
- Haqqa-ədalətə meyllənmək imandandır.
- Haqqın zənginliyini anlayan, özünün fəqrliyini anlayar.
- Haqqı tapdalayanlar, onu anlamayanlardır.
- Müdriklər təəccüblənməzlər, olsa, olsa təəssüflənərlər.
- Sözü eşidənə deyərlər.
- Hər bir insan qəlbi, incə rübabdır, kökləyib çalanı gərək.
- Təmənnasız dostluğun ən bariz nümunəsi, uşaq dostluğudur.
- Olduğu kimi göründüyündən, dünyanın bütün uşaqları, eyni dərəcədə səmimi və gözəldir.
- Ağır çəkili olmaqdansa, ağır xasiyyətli ol.
- Zəngin qarderobdansa, zəngin yaradıcılığın olsun.
- Pul səpən yox, gül səpən ol.
- Qızıla o qədər mis qatdılar ki, qızıl, **«Qızıl ortaqlığından»** qaldı.
- Qürbətdə vətənsizliyi eşidib, oxuyub görmüşdüm! Vətəndə vətənsizliyi eşitdim, oxudum, gördüm?!
- Deyirlər: «Gözəl dodağında gözəl olar gülüş» Deyirəm: «Qəlbdən gələndə gözəl olar gülüş.»



# V. NƏTİCƏ



***İzhara gəldi rumuzi-vəhdət***
***Vəhdətdə tamam oldu hekayət.***
*(Füzuli)*

*Ol dəm ki, bu nüsxə oldu mərqum,*
*Leyli-Məcnun adıyla mövsüm*
*İzharə gəldi rumuzi-vəhdət*
*Vəhdətdə tamam oldu, hekayət*
(Füzuli)

## 7 – lərin harmoniyası

**Dində**

7 ayə-Qurani-Kərim Fatihə surəsi
7 ləhcə - Qurani-Kərimin Nazili
7 Minarə -Kəbədə
7 şaft- 1 tavaf
7 daş atma-şeytana
7 dəfə qaçış-Səfa və Mərvə təpələri arasında
7 əza yerə dəyir – namazda
7 pay – ortaq Qurbanlıq alınar-bölünər
7 qat Yer – "Talaq" surəsi
7 qat Göy – "Talaq" surəsi

**Dünyada**

7 gün-həftədə
7 lad-muğamda
7 not-musiqidə
7 üfüq –göy qurşağı
7 rəng – rəngli spektorun pillələri, Nyuton optikası
7 dairə-nüvə ətrafında elektronların dairəsi

7 iqlim qurşağı – 1 ekvator, 2 tropik, 2 mülayim, 2 qütb
7 ay-ana bətnində uşaq rüşeymi tam inkişaf edir
7 qaş tük-insan bədənində, 1 baş, 4 qaş, 2 kiprik

*Kipriyin, qaşında, zülfündür yeri*
*Yer yedivü, göy yedivü, səndə yedi*
*Nə səbəbdən həftənin adı yedi*
*Bunda hikmət vardır, müshəf yedi.*

**Məcazi (rəmzi)**

*7 möcüzə:*

1. Misir ehramları və Sfiniks
2. Semeramidanın asma bağları (Babildə)
3. Artemidanın Efes şəhərində məbədi Qədim Yunan ilahəsi, 120 ilə tikilib
4. Olimpiadadakı məbəddə Zevsin heykəli, 14 metr qızıl və fil sümüyündən
5. Halikarpasda Mavsonun məqbərəsi
6. Rodos nəhəngi
7. İsgəndəriyyə mayakı 190 metr

Bunlarda bu günümüzə gəlib çatan yalnız birinci möcüzədir:

**7 yunan müdriki**

1. Lindlu Kleobulun
2. Afinalı Solon
3. Makedoniyalı Xilon
4. Milletli Fales (fəlsəfi məktəbin əsasını qoyub)
5. Lesboslu Pıttak
6. Priyenli Biant
7. Koriifli Periandr



***Şərq ədəbiyyatında***

7 gözəl,
7 cam və s.

***Nəticə: Yaranışığın qanunları bir qayda üzrədir, əlaqəlidir, vəhdətlidir.***

**"İslam-Muğam-Füzuli" kitabı**

*(ariflərə-aqillərə xitabən)*

Ön söz əvəzi ..........3

**I İslam**

1. İslam – Kamil dindir ..........13

**II Muğam**

1. Muğamda inqilabmı, yoxsa islahatmı? ..........45
2. Muğam həqiqətinə dini-fəlsəfi baxış ..........61
3. Muğam və Füzuli ..........119
4. Beynəlxalq Muğam Festifalı barədə ..........137
5. Sənətin sehri ..........143
6. Aparmaz sellər Saranı ..........158
7. Muğamatımızın sultanı ..........173
8. Muğam sənətinin təbliği ..........180

**III Füzuli**

1. Füzuli təəssübkeşliyi ..........187
2. Füzuli yaradıcılığı və Hind mədəniyyəti ..........218
3. Qarabağ dərdində Füzuli poeziyası ..........226

**IV Publisistika**

1. Milli məfkurə və Milli teleradio yayım şurası ..........233
2. Düşüncə qənaətlər ..........240

**Nəticə** ..........241



**MUSEYİBOV RƏHİM**

# "İSLAM MUĞAM FÜZULİ"

*(ariflərə-aqillərə xitabən)*

**Bakı - 2011**

Çapa imzalanmışdır: 09.02.2011
Ofset kağızı. Format 60X84 1/16
Şərti çap vərəqi 15,5. Tiraj 500

Kitab "E.L" Nəşriyyat və Poliqrafiya Şirkəti MMC-nin mətbəəsində hazır depozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi 3105-ci məhəllə.
Tel: 562-83-03; 563-54-42.
Direktor: Cəfər Əziz oğlu Bağırov